Turizmin planlaşmasının təkmilləşdirilməsi istiqamətlərində istifadə edilən strategiyalar.

Turizm menecmentinin strategiyası bilavasitə müəssisənin inkişaf strategiyasının formalaşdırılması və onun effektiv həyata keçirilməsinin təmin edilməsi ilə sıx bağlıdır.

Hazırlanmış strategiyanın qiymətləndirilməsi aşağıdakı əsas parametrlər nəzərə alınmaqla yerinə yetirilir:

- Strategiyanın ətraf mühitlə əlaqələndirilməsi
- Strategiyanın daxili tarazlığı (balanslaşdırılması)
- Müəssisənin mövcud olan resurs potensialının nəzərə alınması ilə strategiyanın reallaşdırılma dərəcəsi
- Strategiyanın həyata keçirilməsi ilə bağlı risklər səviyyəsinin münasibliyi
- Strategiya performansının qiymətləndirilməsi.

Strategiyanın ətraf mühitlə əlaqələndirilməsi: bu qiymətləndirmə prosesində menecmentin işlənib hazırlanmış strategiyanın ölkə iqtisadiyyatında baş verə biləcək və proqnozlaşdırılan dəyişikliklərə, turizm müəssisələrinin fəaliyyətinin hüquqi şərtlərinə, eləcə də istehlak bazarının konyunkturasına nə dərəcədə uyğun olması müəyyənləşdirilir.

Strategiyanın daxili tarazlığı (balanslaşdırılması): bu qiymətləndirmə prosesində menecmentin ayrı-ayrı hədəflərinin və siyasətinin, eləcə də strategiyasının həyata keçirilməsinin təmin edilməsi istiqamətində reallaşdırılan tədbirlərin bir-birilə necə uzlaşdırılması müəyyən olunur, bu zaman onların ziddiyyətsizliyinə, zaman müstəvisində məntiqi ardıcıllığına və müvafiqliyinə xüsusi diqqət yetirilir.

Müəssisənin mövcud olan resurs potensialının nəzərə alınması ilə strategiyanın reallaşdırılma dərəcəsi: belə qiymətləndirmə prosesində müəssisənin inkişafının nəzərdə tutulan bütün istiqamətlərinin təmin edilməsi məqsədilə öz daxili mənbələr hesabına maliyyə resurslarının formalaşdırılması yönümdə müəssisənin potensial imkanları ilk növbədə nəzərdən keçirilir, bundan əlavə, seçilmiş strategiyanın həyata keçirilməsinin mümkünlüyü nöqteyi-nəzərdən işçi heyətinin ixtisaslaşma və texniki təchiz olunma səviyyəsi qiymətləndirilir.

Strategiyanın həyata keçirilməsi ilə bağlı risklər səviyyəsinin münasibliyi: ticarət fəaliyyətinin yeni keyfiyyətinə və həcmlərinin artımına doğru keçidin reallaşdırılması, bir qayda olaraq, təsərrüfat risklərinin bütün əsas növləri, xüsusilə də maliyyə və investisiya növləri səviyyəsinin artması ilə müşayiət olunur, odur ki, qiymətləndirmə prosesində mümkün olan mənfi maliyyə fəsadları nöqteyi-nəzərdən müəssisənin fəaliyyəti üçün həmin risklər səviyyəsinin nə dərəcədə qəbul edilməsinin mümkünlüyünü təyin etmək zərurəti meydana gəlir.

Strategiya performansının qiymətləndirilməsi.: menecmentdə strategiyanın performans qiymətləndirilməsi prosesi onun həyata keçirilməsinin iqtisadi effektivliyinin müəyyənləşdirilməsinə söykənir, bununla yanaşı sözügedən strategiyanın reallaşdırılması prosesində əldə olunan iqtisadiyyatdan kənar nəticələr də dəyərləndirilir (turizm firmasının işgüzar reputasiyasının artması; struktur vahidləri və bölmələrinin idarəedicilik səviyyəsinin yüksəldilməsi; turizm məhsullarının istehlakçıları qarşısında bu sahədə fəaliyyət göstərən müəssisənin sərgilədiyi xidmət səviyyəsinin və nüfuzunun yüksəlməsi; müəssisədə psixoloji mühitin və işçi heyətinin əmək şəraitinin yaxşılaşdırılması və s.).

Turizm sektorunda ətraf mühitin təhlili.

Turizm menecmentinin işlənib hazırlanması müəssisə tərəfindən həyata keçirilən fəaliyyətin və onun perspektivli dövrdə inkişafı ilə bağlı olan bütün sferalarında effektiv idarəçilik qərarlarının qəbul edilməsini mümkün edir. İşlənib hazırlanmış strategiyanın əsas müddəaları müəssisənin inkişafı ilə bağlı biznes-planda öz əksini tapır. Bu sənədin hazırlanmasının zəruriliyi bununla əlaqədardır ki, çağdaş iqtisadi şəraitdə daxili maliyyə resursları hesabına özünün strateji inkişafını təmin etmək heç də hər bir turizm müəssisəsi iqtidarında deyil, bunu gerçəkləşdirmək, xüsusilə də investisiya hədəflərini reallaşdırmaq üçün onlar kənardan böyük miqdarda maliyyə vəsaitləri cəlb etmək məcburiyyətində qalır. Eyni zamanda, istənilən iri miqyaslı investor biznesin strategiyası, onun ölçü və formaları, marketinq, iqtisadi və maliyyə fəaliyyətinin ən mühüm göstəriciləri, strategiyanın həyata keçirilməsi ilə bağlı olan maliyyə resursların həcmi və investisiyaların qaytarılma müddəti, strategiyanın reallaşdırılması ilə bağlı meydana gələ biləcək risklər və investisiyalar yatırılacaq müəssisənin bütün digər əsas xarakteristikalar haqqında dəqiq və dürüst təsəvvürə malik olmalıdır. Bununla əlaqədar daxil olan turizm axınlarının inkişafı ilə bağlı strategiyanın hazırlanmasına ciddi zərurət meydana gəlir. Artıq formalaşmış və dünya bazarında rəqabət qabiliyyətinə malik turizm mərkəzlərin inkişafını planlaşdırma strategiyası vasitəsilə reallaşdırmaq olar. Haqqında danışdığımız bu strategiyanın məzmunu bundan ibarətdir ki, qəbul edən regionun turizm sənayesi bir neçə mərhələdən keçməlidir. İlkin mərhələdə, ayrıca bazanın, əsas daşıyıcının, ekskursiya xidmətlərin və s. genişləndirilməsi hesabına turizm məhsulunun təkliflər çeşidinin maksimum dərəcədə mümkün olan dərinləşməsi prosesi həyata keçirilməlidir. İlkin mərhələdə şəhərin bazasına müəyyən müxtəliflik gətirmək lazımdır, bunun nəticəsində beynəlxalq və daxili giriş turlarının qiymət differensiasiyası avtomatik surətdə əhəmiyyətli dərəcədə artacaq, qiymətlərin səviyyəsi enəcək ki, bu da təkcə gəlirlərin orta və kiçik səviyyəsinə malik turistləri deyil, həmçinin VIP-səyahətçiləri də cəlb edəcək. İnkişaf strategiyasının həyata keçirilməsinin ikinci mərhələsi yaxın ərazilərdə yerləşən turizm resurslarının yaxud nümayiş obyektlərinin turizm məhsuluna tədricən daxil edilməsini və onların sonrakı populyarizasiyasını nəzərdə tutur ki, bu da məşhur mərkəzin turizm cəlbediciliyindən istifadə etməklə turistləri digər nümayiş obyektlərinə də cəlb etməyə, həmçinin əvvəllər bir o qədər də geniş yayılmamış və səyahətçilər arasında yaxşı tanınmayan yerləri, əraziləri gələn turistlər arasında populyarlaşdırmağa imkan yaradacaq. Üçüncü mərhələ qəbul edən turoperatorlar tərəfindən kombinə edilmiş turların təklifini ehtiva edir ki, həmin turlar şəhərkənarı nümayiş obyektlərinin sadəcə olaraq ekskursiya ziyarətini deyil, həmçinin burada gecələməyi də nəzərdə tutur. Həmin nümayişin əsas mahiyyəti turizm axınının səpələnməsindən, topluluq halından çıxarılmasından ibarətdir. Haqqında danışdığımız bu mərhələnin başlıca məqsədi – turizm mərkəzini turistləri qəbul edən və daha sonra onları daha az əhəmiyyətli yaşayış məntəqələrinə istiqamətləndirən iri tranzit məntəqəsinə çevirməkdir. Beləliklə, turizmin inkişaf etdirilməsinin strategiyası yeni turizm mərkəzlərini formalaşdırmağa və populyarlaşdırmağa imkan verməklə yanaşı tədricən ölkənin daha da böyük ərazisini əhatə etməyə şərait yaradacaq. Bu strategiya praktiki cəhətdən risksizdir, çünki ilkin olaraq potensial istehlakçılar arasında artıq yaxşı tanınan turizm brendinə əsaslanır, əhəmiyyətli kapital qoyuluşunu tələb etmir, çünki artıq mövcud olan turizm infrastrukturundan fəal surətdə istifadə olunur. Amma qeyd etmək lazımdır ki, inkişaf strategiyası ölkə ərazisinin tam şəkildə turizm əhatəsinə salınmasına gətirib çıxarmır, çünki əvvəllər məşhur olmayan və bir o qədər də tanınmayan nümayiş obyektləri və turizm resursları müasir turizm mərkəzlərindən uzaqda yerləşir.

Turizm iki əsas istiqamət üzrə tədqiq edilir: 1) makroiqtisadi meyarlara uyğun olaraq; 2) regionun sosial inkişafına müvafiq olaraq. Turizm təbii resurslarla bağlı olduğu üçün onun resirkulyasiyası yerli əhaliyə ayrılan vəsaitlər hesabına təmin edilir. Məhz bu səbəbdən mərkəzləşriilmiş büdcə hesabına yaxud subsidiyalar vasitəsilə sahibkarlara maliyyə yardımların edilməsi müxtəlif regionlarda turizmin inkişafını stimullaşdırır.

Turizm sahibkarlıq fəaliyyəti kompleksinin bir hissəsi ola bilər. Odur ki, turizmin digər sferalarının inkişaf etdirilməsinə dair kompleks yanaşmanın ortaya qoyulması məsrəflərin aşağı salınmasını və bütün ərazinin sosial problemlərinin həllini təmin etmiş olur.

Turizm sahəsində yüksək iqtisadi göstəriciləri olan ölkələrin uğuru dövlətin iqtisadi yüksəlişinə, regional inkişafa olan ehtiyacların ödənilməsinə yönəlir. Turizmin davamlı olaraq inkişafında və güclənməsində əsas rolu regionun rəqabət gücünün olmasıdır. Turizmin təşkil olunduğu regionlarda ətraf mühitin təhlili aparılaraq planlaşmanın edilməsi, sərmayə qoyuluşunda mühitə təsirin qiymətləndirilməsinin nəzərə alınmaası, dövlət və özəl sektor nümayəndələri və vətəndaş cəmiyyətləri tərəfindən bu proseslərin izlənilməsi və dəstəyi əhəmiyyətli rola malikdir. Dövlət turizmi ölkə iqtisadiyyatının prioritet sahələrindən biri kimi qəbul edərək turizmin dövlət tənzimlənməsinin əsas prinsiplərini, məqsəd və istiqamətlərini "Turizm haqqında" qanun layihəsində, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunda müəyyənləşdirmişdir. Turizm sənayesinin inkişafı üçün həm dövlət, həm də regional səviyyədə maliyyə dəstəyi tələb olunur. Turizmin inkişaf strategiyasında vergi güzəştləri, güzəştli kreditlərin verilməsi, turizm obyektlərinə investisiya qoyuluşu baxımından yerli vergilərin azaldılması da olmalıdır. Turizm sahəsindəki strateji idarəetmə, rəqabət üstünlüklərini qorumaq və xarici mühitdəki dəyişikliklərə çevik reaksiya vermək əsasında turizm şirkətinin səmərəli məqsədlərinə çatmasını təmin edən fəaliyyət hesab oluna bilər. Yəni strateji idarəetmənin mahiyyəti konkret məqsədlər və səmərəlilik, xarici mühitin prioritetini nəzərə alınması ilə xarakterizə olunur.

Ədəbiyyat

1. Azərbaycanda turizm sənayesinin inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsi, 6 dekabr -2016 –cı il.
2. B.Ə.Bilalov "Turizmin menecmenti" Bakı: "Mütərcim", 2005.372 s.
3. Ə.Q.Əlirzayev "Turizmin itisadiyyatı və idarə edilməsi", Bakı 2011
4. Гуляев В.Г., Селиванов И.А. "Туризм: экономика, управление, устойчивое развитие". Москва: Советкий спорт, 2008. - 280 с.
5. Забаева М.Н. "Эффективное использование регионального туристского потенциала: теория, методология и практика": Дис. … док. экономических наук. Нижний Новгород , 2011, 395 с
6. Murat Yeşiltaş və İlker Öztürk, "Bölgesel kalkınma çerçevesinde alternatif turizm faliyetlerine yönelik bir değerlendirme: Sivas Örneği" C.Ü. İktisadi ve İdari Bilimler Dergisi, 2008.
7. Hacıoğlu, N. və Avcıkurt, C. Turistik Ürün Çeşidləndirməsi, Ankara, Nobel Yayın Dağıtım 2008.
8. Küçükaltan. D. ve Yılmaz. İ.A. Sürdürülebilir Turizm Bağlamında Ekoturizmin İğneada Ölçeğinde Uygulana bilirliği. Ulusal Turizm Kongresi Bildiriler Kitabı. Akçakoca,157-167, 201.
9. Tourism: Principles, Practices, Philosophies (Hardcover) by Charles R. Goeldner 2012.
10. Tourism Management (ebook) by Stephen J. Page 2014.
11. Crouch GI, Ritchie JRB (1999) Tourism, competitiveness, and societal prosperity. Journal of Business Research 44:137–152.
12. Tourism, Charles R. Goeldner, J.R. Brent Ritchie, 2002.

KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ TƏMİNATI

Samirə Abasova
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti
E-mail: sabasova@mail.ru

Резюме: *Опыт развитых стран помогает нам понять, что существует потребность в четком и хорошо продуманном механизме предоставления финансовой помощи для удовлетворения потребностей сельхозпроиз-водителя. В качестве ключевого кольца в этой системе принимаются меры для обеспечения финансовой независимости фермера. Наиболее эффективной формой государственного участия здесь является субсидирование страховых взносов для сельхозпроизводителей.*

Ключевые слова: *аграрный сектор, субсидии, государственная поддержка, продовольственные товары, продовольственная безопасность.*

Praktiki olaraq hər bir ölkə müasir şəraitdə kənd təsərrüfatının dəstəklənməsi zərurəti ilə rastlaşır, çünki bu sahə əhalini ərzaq məhsulları ilə təmin edir və ölkənin iqtisadi təhlükəsizliyinin son dərəcə mühüm tərkib hissəsini – ərzaq müstəqilliyini təmin etmiş olur. Dəstəklənmə zərurəti kənd təsərrüfatının iki aşkar spesifik cəhəti səbəbindən əmələ gəlir:

1) istehsalın mövsümiliyi. Xərclərin daha böyük hissəsi əkin kampaniyasının payına düşür, gəlirlərin böyük hissəsi isə – məhsulun yığılması və satışı dövrünə. Məhsul yığımı və yeni əkin kampaniyaları arasındakı dövr ərzində kənd təsərrüfatı müəssisəsi əhəmiyyətli sabit xərclərlə üzləşir (əmək haqqı, əsas vəsaitlərin saxlanılması və təmiri), eləcə də dəyişən xərclər də qeyd edilməlidir ki, onlar məhsulun saxlanılması və təkrar istehsalının təmin edilməsi ilə bağlıdır (məhsulun və toxumların saxlanılması, gübrələrin tədarükü, mal-qaranın yemi);

2) kənd təsərrüfatı müəssisəsinin məhsulunun və gəlirlərinin iqlim şəraitindən yüksək asılılığı, bu da həmin sahəyə xas olan riskin yüksək dərəcəsini şərtləndirir.

Nəticədə kənd əsərrüfatı müəssisələri aşağıdakı zərurətlərlə rastlaşırlar:

– əkin və məhsul yığımı kampaniyaları arasındakı dövrdə yaranan gəlirlər və xərclər arasında kassa uyğunsuzluqların ödənilməsi (ssuda, dotasiya və s. yolu ilə) zərurəti;

– kənd təsərrüfatı istehsalı prosesinin son dərəcə riskli olması səbəbindən bu sahədə fəaliyyət göstərən müəssisələrin əksəriyyəti bankda kredit riski təhlilindən keçə bilmir yaxud kredit bazarının digər iştirakçıları ilə müqayisədə daha əlverişsiz şərtlərlə kredit əldə etmək imkanına malikdir;

– əkinçiliyin və maldarlığın riskli olması kənd təsərrüfatı istehsalçısı ilə məhsulun həcmi ilə bağlı dəqiq proqnozun hazırlanmasının mümkünsüzlüyü səbəbindən məhsulun tədarükü ilə bağlı uzunmüddətli müqavilələrin bağlanılmasına imkan vermir. Bu həmçinin uzunmüddətli dövrə kənd təsərrüfatı gəlirlərinin proqnozları ilə qeyri-müəyyənliklərin yaranmasına səbəb olur ki, bu da avadanlıqların və kənd təsərrüfatı texnikasının yenilənməsi, tikililərin və emal edici xətlərinin yenidən qurulması, anbar sahələrinin tikilməsi və digər kapital yatırımları üçün uzunmüddətli investisiya kreditlərinin onlar tərəfindən əldə edilməsini, praktiki cəhətdən, istisna edir. Beləliklə, bu kimi layihələr üçün investisiyaların cəlb edilməsi məqsədilə xüsusi mexanizmlərin tətbiq edilməsinə zərurət yaranır;

– məhsuldarlıqda və heyvandarlıq göstəricilərində baş verən tərəddüdlər illər üzrə əhəmiyyətli dərəcədə fərqlənə bilər, bu da kənd təsərrüfatı müəssisəsinin özünün mövcudluğu üçün kritik vəziyyətin yaradılması ehtimalı de-

məkdir, yəni kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən müəssisələr üçün maliyyə sabitliyinə təminat verən mexanizmlərin olması lazımdır;

– digər ölkələrdə kənd təsərrüfatı istehsalçılarının dəstəklənməsi idxal edilən kənd təsərrüfatı məhsuluna qarşı proteksionist xarakterli tədbirlərin həyata keçirilməsini, eləcə də ixrac olunan məhsula dair stimullaşdırıcı tədbirlərin görülməsini zəruri edir.

Qeyd etdiyimiz problemlərin həlli nöqteyi-nəzərdən iki prinsipial həll mövcuddur ki, onlar, bununla belə, paralel şəkildə reallaşdırıla bilər:

1. Əsasən, belə müəssisələrin əldə olunması yolu ilə kənd təsərrüfatına daha sabit maliyyə vəziyyətinə malik digər sahələrdən investorların cəlb edilməsi. Belə qərar təkcə büdcədən ödənişlərin olmadığını nəzərdə tutduğu üçün daha cəlbedici görünmür, onun cəlbediciliyini artıran amillərdən biri həm də fəaliyyətin effektivliyinin yeni sahibkarların – biznesdə kifayət qədər təcrübəli olan top-menecerlərin fəaliyyəti sayəsində təmin edilməyi ilə bağlıdır. Lakin təcrübə göstərir ki, özəl biznes effektivliyi yaxşı iqlim şəraiti ilə öncədən müəyyənləşdirilən kənd təsərrüfatı müəssisələrinə daha çox diqqət yetirir, müvəqqəti qeyri-sabitlik isə qeyri-peşəkar idarətmənin, eləcə də satışla və strateji inkişaf siyasətlə bağlı yanlışlıqların buraxılmasının nəticəsi idi. Buna oxşar əlverişli regionlarda kənd təsərrüfatına investisiyalar axınının təmin edilməsi – yerli və regional orqanların işidir, bura, həmçinin, bu müəssisələrin dövlət sifarişi ilə təmin edilməsi və investisiya proqramının həyata keçirildiyi dövr üçün kənd təsərrüfatı müəssisələrinə mümkün vergi preferensiyaların təqdim edilməsi də daxildir.

2. Əlverişsiz iqlim şəraitinə malik regionlarda kənd təsərrüfatı istehsalçısına maliyyə köməyinin mənbəyi bu və ya digər şəkildə büdcə olur. Həmin məqsədlə hakimiyyət orqanları bu sferada büdcə xərclərinin əsaslandırılmasının və effektivliyinin yüksəldilməsinə yönəlmiş bütöv bir tədbirlər kompleksini həyata keçirməlidir. Mövsümi güzəştli büdcə kreditlərin və zaminliyin verilməsinin qüvvədə olan sistemi göstərmişdir ki, bu zaman təkcə kreditlərin istifadəsi müqabilində ödənişlərin daxil olması təmin edilmir, həmçinin kreditlərin özləri də qaytarılır. Bundan əlavə, güzəştli faiz dərəcəsi ilə verilən büdcə kreditləri kənd təsərrüfatı sferasında işləyən müəssisəsin fəaliyyətinin effektivliyinin azaldılmasının stimulu qismində çıxış edir ki, həmin müəssisə belə kreditin alınmasına və onun kreditorla razılaşdırılmış əmtəələr çeşidinin istehsalına və satılmasına deyil, müəssisənin özünün ehtiyaclarına istifadəsinə hədəflənir.

Kənd təsərrüfatı müəssisələri üçün böyük bir problem sovet dönəmindən bəzi regionlardan hələ də qalmaqda davam edən regional müəssisələrə yaxud assosiasiyalara birləşdirilmiş təsərrüfat subyektləri sistemidir. Həmin birliklər öz ixtiyarına görə büdcə vəsaitlər üzərində sərəncam vermək səlahiyyətlərinə malikdir və ayrı-ayrı müəssisələr üçün, faktiki olaraq, avadanlıqların, kənd təsərrüfatı texnikasının inhisarçı tədarükçüləridir.

İnkişaf etmiş ölkələrin təcrübəsi dərk etməyə kömək edir ki, kənd təsərrüfatı istehsalçının tələbatlarının hər birinin ödənilməsi üçün maliyyə yardımın göstərilməsinin dəqiq və dürüst işlənmiş mexanizmin olması lazımdır. Bu sistemdə açar halqa qismində kənd təsərrüfatı istehsalçının özünün maliyyə sabitliyinin təmin edilməsi üzrə tədbirlər çıxış edir. Burada dövlətin iştirakının daha effektiv forması kənd təsərrüfatı istehsalçılarının sığorta haqlarının subsudiyalaşdırılmasıdır. Xarici ölkələrin timsalında dövlətin bu cür iştirakının forma və üsullarının icmalı.

Sürtkü-yanacaq materialların, toxumların və əkin kampaniyası çərçivəsində əldə olunan digər əmtəələrin alınması üçün borc vəsaitlərin qısamüddətli tələbatlarının təmin edilməsi məqsədilə kənd təsərrüfatı müəssisələrinin kreditləri üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması şəklində dövlət yardımı təqdim etmək, yaxud onlar tərəfindən öz öhdəliklərin yerinə yetirilməsinə təminat vermək məqsədəuyğun olardı. Bu, kreditlərə xidmət göstərilməsi dəyərini aşağı salmağa imkan verəcək, lakin kreditlərin qaytarılması ilə bağlı motivasiyadan onları məhrum etməyəcək (əgər kredit büdcə vəsaitləri hesabına və onun qaytarılmasının ikili mexanizminin olmadığı şəraitdə verilirsə, onda kredit qayıtmaz maliyyələşmə kimi başa düşülür). Bu halda qayıtmaz maliyyələşmə təkcə qeyri-effektiv deyil (vəsaitlərin ayrılması dövlət üçün strateji olan vəzifələrin icra edilməsi ilə şərtləndirilmir), həm də bazar iqtisadiyyatının tələblərinə də cavab verir, çünki rəqiblərlə müqayisədə resipiyenti daha sərfəli vəziyyətə qoyur. Dəstəyin verilməsi müsabiqə əsasında həyata keçirilməli və kənd təsərrüfatı istehsalçısı tərəfindən öz üzərinə müəyyən öhdəliklərin (əmtəələrin tədarükü, qiymət siyasəti, məşğulluğun təmin olunması, istifadə edilən torpaqların sahələri və s. üzrə öhdəliklərin) götürülməsi ilə müşayiət olunmalıdır. Kredit müqavilələrin bağlanılması (yaxud dövlət və bələdiyyə zəmanətlərin verilməsi) zamanı öhdəliklərin yerinə yetirilməsinin təminatı ilə bağlı imzalanan müqavilələrə (girov, borc götürənin hesablarından aksept silinməsi olmadan zaminlik müqavilələri, zəmanətlər, dəbbə pulu) daha diqqətlə yanaşılmalıdır. Dövlət büdcə alıcıya öz təsirinin təmin edilməsi məqsədilə müvafiq rıçaqları əlindən buraxmamalıdır. İştirakın belə formaları büdcə xərclərinin əhəmiyyətli dərəcədə aşağı salmağa və eyni zamanda vəsaitlərin, praktiki olaraq, müqayisə edilə biləcək həcminin cəlb edilməsinin təmin olunmasına imkan yaradacaq. Bundan əlavə, vəsaitlərin ayrılması maliyyə institutunda aparılmış kredit-risk təhlilinin nəticələrinə görə həyata keçiriləcək ki, bu da kənd təsərrüfatı istehsalçının maliyyə vəziyyətinin müstəqil ekspertizasının aparılmasını təmin edəcək. Kənd təsərrüfat müəssisələrini əsas vəsaitlərlə təmin edilməsi məqsədilə dövlət tərəfindən təsdiq olunmuş ixtisaslaşdırılmış lizinq kampaniyasından istifadə etmək məqsədəuyğundur.

Dövlət müəssisələrə maliyyə yardımın göstərilməsi üçün onların seçim meyarlarını təsdiq etməli və bu meyarlara riayət etməlidir.

Təsərrüfatlar obyektiv səbəblər üzündən böhran içində ola bilərlər: bir neçə ilin yekunlarına görə torpağın məhsuldarlığı obyekiv surətdə aşağıdır, torpaqların və digər resursların rekultivasiyası üzrə tədbirlər bahalı və nisbətən az effektivlidir, texnika köhnəlib, yeni texnologiyaların tətbiqi əhəmiyyətli investisiyaların yatırılmasını tələb edir ki, buradan əldə olunacaq effekt kredit üzrə bank dərəcəsini ödəmir. Belə bir şəraitdə vəsaitlərin həm istehsalın cari səviyyəsinin qorunub saxlanılması üçün dotasiyalar şəklində, həm də inkişafa yönəldilən investisiyalar formasında yatırılması dövlət vəsaitərin yerləşdirilməsinin obyektiv baxımdan heç də ən yaxşı variantı deyil.

Fəaliyyətin sabit göstəricilərinin olması şəraitində istehsalı əhəmiyyətli dərəcədə intensivləşdirməyə və bunun sayəsində əvvəllər qeyri-effektiv müəssisə tərəfindən təmin edilən məhsula olan tələbatları bağlamağa qadir müəssisələrin investisiyalaşdırılması və subsidiyalaşdırılması daha effektivdir.

Dövlət fərdi qaydada hər bir kolxoz yaxud kənd üçün qərar qəbul edə bilməz, dövlət sırf strateji hədəflərə nail olunması baxımından hərəkət etməlidir, yəni sahənin effektivliyinin təmin edilməsi, qiymət pariteti, eləcə də ərzaq məhsulları ilə əhalinin təminatı və ölkənin iqtisadi təhlükəsizliyinin qorunub saxlanılması nöqteyi-nəzərdən strateji hədəflərə istiqamətləndirilməlidir. Bununla yanaşı olan istənilən sosial, demoqrafik və digər effektlər, adətən, ikinci dərəcəlidir və qeyd etdiyimiz vəzifələrin həlli ilə bir kompleksdə nəzərdən keçirilməlidir, lakin onlar qərarların qəbul edilməsi prosesində həlledici ola bilməz. Beləliklə, kənd təsərrüfatına dair obyektiv münasibət onların kommersiya effektivliyinin qiymətləndirilməsini nəzərdə tutur. Yəni əgər dövət tərəfindən dəstək aldığı təqdirdə müəssisə özəl investora maraqlı ola bilirsə, onda həmin müəssisə belə köməyə bel bağlaya bilər. Əgər müəssisə yalnız dövlət subsidiyalar hesabına "yaşayırsa", onda yaranmış vəziyyətin təhlili aparılmalı, fəaliyyətin sabitliyinin pozulmasına və göstəricilərin pisləşməsinə gətirib çıaran amillər üzə çıxarılmalıdır və əgər mənfi dinamikanın səbəbi menecmentin çatışmazlıqları ilə bağlıdırsa, təsərrüfatçılığın obyektiv şəraiti isə effektiv təsərrüfatın aparılmasına imkan yaradırsa, onda belə müəssisənin yeni sahibinə verilməsi təşəbbüsü irəli sürülməlidir. Əks təqdirdə müəssisə yenidən təşkil edilməli, bağlanmalı yaud onun profili dəyişdirilməlidir. Təbiidir ki, bu zaman "sosial siyasət" və "kadrların yenidən hazırlanması və yenidən öyrədilməsi" maddələri üzrə ərazi büdcənin xərclərinin artmasını öncədən nəzərə almaq lazımdır. Kənd təsərrüfatının maliyyələşməsinin optimallaşdırılmasına dair yanaşmalar dövlətdən dəstək alan digər sahələrdə də tətbiq oluna bilər.

Kənd təsərrüfatı istehsalçının dəstəklənməsinin nəzərdən keçirilmiş üsulları regional büdcə və kənd rayonlarının yerli büdcələri üçün xarakterikdir.

Bu istiqamət üzrə büdcə vəsaitlərinin qeyri-effektiv istifadəsi problemi bununla əlaqədardır ki, müvafiq məhsulun saxlanılması anbar müəssisələrində həyata keçirilir, məhsulun alınması isə kənd təsərrüfatı istehsalçılarında baş verir ki,onlar da, bir qayda olaraq, digər regionda yaxud digər bələdiyyə vahidində qeydiyyata alınıb. Belə bir şəraitdə anbarlar dövlət ehtiyatların saxlanılmasına inhisar mövqeyi tutmuş olur, çünki sərt tələblər və maliyyələşmənin çatışmazlığı üzündən özəl anbarlar dövlət anbarı funksiyasını yerin yetirmək marağında deyil. Eyni zamanda, şəhərin tələbatları üçün əmtəələrin tədarükü müsabiqəsində iştirak etmək üçün dəvət olunan kənd təsərrüfatı istehsalçıların çevrəsi olduqca məhduddur. Bu, həm lokal inhisarla bağlıdır, çünki nəqliyyat məsrəfləri əmtəələrin tədarükü zamanı olduqca əhəmiyyətli elementə çevrilir, həm də qonşu regionlar yaxud rayonlar arasında bağlanılmış ikitərəfli sazişlərlə əlaqədardır ki, həmin sazişlərə müvafiq olaraq onların istehsalçıları tədarükçünün seçilməsi zamanı digər iqtisadi nemətlər müqabilində müəyyən üstünlüklə əldə edirlər.

Beləliklə, anbarlarda büdcənin öhdəsində olan bir tərəf psixologiyası formalaşır, başqa gəlirləri onlar özünün müvvəqqəti boş olan ərazisində özəl strukturların yerləşdirilməsinə görə icarə haqlarından əldə edirlər, lakin bu proses maliyyə və vergi intizamının çoxsaylı pozuntuları ilə bağlıdır. Bu, onunla nəticələnir ki, dövlət anbarları daha çox zərərlə işləyən müəssisələrdən ibarət olur, bundan əlavə, onlar əksər hallarda aldıqları büdcə kreditlərini qaytarmır və bunun həm ağır maliyyə vəziyyəti, həm də tədarük qiymətlərindən aşağı qiymətlərlə dövlət ehtiyatlarının satılması ilə motivasiya edirlər. Alıcılıq qiymətlərindən aşağı qiymətlərlə bədnam satış həmin icarədarlara həyata keçirilir, özü də bazar qiymətinə qədər olan marjanı icarədar dövlət anbarına deyil, anbarın rəhbəri ilə bağlı olan satellit firmaya ödəyir.

Bu cür sxemin fəaliyyəti nəticəsində ərzaq bazarında son dərəcə mənfi vəziyyət əmələ gəlməyə başlayır ki, ona aşağıdakı tendensiyalar xasdır:

– ikili vasitəçilik sistemi sayəsində (anbar – iri topdan satış – kiçik topdan satış – pərakəndə satış) müsabiqənin qiymətləri pərakəndə qiymətlərindən bir neçə dəfə fərqlənir. Buna müvafiq olaraq, əhali ərzaqları daha yüksək qiymətə əldə edir, kənd təsərrüfatı istehsalçısı isə minimal mədaxillə kifayətlənməli olur ki, bu da onu müsabiqələrdə iştirakda yaxud icra hakimiyyəti orqanı qarşısında öhdəliklərin yerinə yetirilməsində maraqlı olmasından məhrum edir;

– hakimiyyət orqanları tərəfindən nəzarət edilən tədarük həcmləri əsas bazar göstəricilərin (həcm, qiymət) dinamikasını bu orqanlara nəzarət etməyə imkan verən normativ kəmiyyətlərdən əhəmiyyətli dərəcədə aşağıdır. Kənd təsərrüfatı istehsalçıları qiymətlərdə mövcud olan obyektiv fərqi dərk etməklə, faktiki olaraq ultimatum irəli sürür: ya

əmtəəni daha yüksək qiymətə almağı tələb edir, yaxud da tədarükdən imtina edirlər. Ərazi uzaqlığı və digər regiona mənsubiyyəti səbəbindən əmtəələrin tədarükünün həyata keçirilməməsinə görə tətbiq edilən məsuliyyət tədbirlərin aşağı effektivliyini nəzərə alaraq, tədarüklərin pozulması faktları kifayət qədər tez-tez baş verən hala çevrilmişdir;

– keçirilən müsabiqələr öz obyektivliyini itirir, həmin müsabiqələrdə artıq vasitəçilər iştirak etməyə başlayır, zərərlə işləyən müəssisələrə inkişaf etmiş bazar şəraitində büdcə kreditlərinin verilməsi sistemi hüquq pozunularının və korrupsiyanın inkişafı üçün stimula çevrilir.

Beləliklə, büdcə xərclərin həmin istiqaməti sadəcə olaraq optimallaşdırılmalı və təkmilləşdirilməli deyil, həm də sistemli və köklü dəyişikliklərə uğradılmalıdır ki, bu zaman tədarükçülərin, anbarların və hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətin prinsipial cəhətdən yeni mexanizmləri tətbiq edilməlidir.

Taktiki xarakter daşıyan tədbirlər qismində aşağıdakıları göstərmək lazımdır:

– müsabiqəyə tədarükçülərin daha geniş çevrəsinin buraxılması, bir regionun (rayonun) tədarükçülərinin qeyri-bazar üstünlüklərindən imtina edilməsi;

– faiz dərəcələrinin subsidiyalaşdırılması, eləcə də ödənişli və qaytarılma əsasında tədarüklərdə pay iştirakı formasında vəsaitlərin verilməsi təcrübəsinin genişləndirilməsi.

Ərzaq təminatına və ərzaq bazarının dövlət tərəfindən tənzimlənməsi effektivliyinin yüksəldilməsinə yönələn büdcə xərclərinin optimallaşdırılması məqsədilə tətbiq edilə biləcək strateji tədbirlər kompleksi, bizim mülahizələrimizə əsasən, aşağıdakıları özündə ehtiva etməlidir:

1. Dövlət anbarları bazasında və yeni torpaq sahələrində topdan satış ərzaq bazarları sisteminin yaradılmasını.

2. Uzunmüddətli kontraktların bağlanılmasını və kənd təsərrüfatı təyinatlı holdinqlərin inkişafına investisiya dəstəyini.

3. Faktorinqin tətbiqini.

Yeni iş yerləri yaratmağa, köhnə istehsal güclərin yennidən qurulmasını həyata keçirməyə, eləcə də əmtəə dövriyyəsini artırmağa imkan verən topdansatış ərzaq bazarları (TƏB) şəbəkəsinin formalaşdırılması kommersiya müəssisələrinin yaradılmasını nəzərdə tutur ki, onların başlıca fəaliyyət növü əmtəələrin anbarlara yığılması və məhsulun satılması məqsədilə onun istehsalçılarına bilavasitə yerlərin təqdim edilməsindən ibarətdir. Əmtəə dövriyyəsinin həcmi və sahələr TƏB-a müvəffəqiyyətlə rəqabət aparmağa və özəl anbarları sıxışdırmağa imkan verəcəkdir. TƏB üzərinə aşağıdakı funksiyalar qoyula bilər:

– qiymət siyasətinə müdailə etmədən TƏB ticarət prosesinin informasiya təminatını həyata keçirir, ərzaq bazarlarında mövcud vəziyyəti, habelə dünya qiymətlərini əks etdirən tablonu qurur;

– məhsulun keyfiyyəti və sertifikatlaşdırılmasının vahid sisteminin təmin edilməsi;

– hərrac iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi;

– bazarın fəaliyyət göstərməsinin və ticarət əməliyyatlarının uçotunun vahid metodologiyasının və texnologiyasının təmin edilməsi;

– ticarətin kassa, sanitar və servis xidmətinin təşkil edilməsi.

Bu zaman büdcə yalnız layihə işlərini və texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanmasını maliyyələşdirir, icarə haqqının və topraq vergisinin ödənilməsi üzrə güzəştlər tətbiq edir. Torpaq vergisi üzrə güzəştlərin kapitallaşdırılmış məbləği yeni müəssisənin nizamnaməsinə şəhər tərəfindən verilən töhfə hesab olunur. TƏB layihələrin ödənilməsi müddəti (5-7 il) xeyli zaman ərzində bu layihələri özəl investorlar üçün maraqsız edirdi, lakin iqtisadi vəziyyətin sabitləşməsi və bank kreditləri üzrə dərəcələrin əhəmiyyətli azalmasından sonra TƏB layihələri aktuallaşdı.

Ədəbiyyat

1. Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında, Bakı şəhəri, 16 yanvar 2014-cü il, № 221

2. «Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı»nın təsdiq edilməsi haqqında. AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI. 2 fevral 2007-ci il tarixli 521 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 2, maddə 87).

3. Шутьков А.А.; Шутьков С.А. Аграрная политика России: социально-экономические проблемы Москва. — М.: Национальный институт бизнеса. - 2008. - 339 с.

4. Экономические институты аграрного рынка (состояние и оценка). - М.: ВНИИЭСХ. - 2003. - 72 с.

DÜNYA BAZARINDA AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Fəridə Əmirova
İqtisad elmləri namizədi, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
E-mail: f.amirova51@mail.ru

Summary: *The scientific article on "Azerbaijan's foreign policy in the world market" analyzes the integration of the Republic of Azerbaijan into the world economic system. The concrete object of the analysis is the problems of realization of foreign trade policy. The article discusses natural, technological, labor, etc. resources available within the market economy system of Azerbaijan. compares the level of export of goods and services produced in different areas of production to the world market. In terms of geographical location, the level of development of economic and trade issues with the countries of Europe, East and East Asia, as well as with countries in different regions is considered. The reforms implemented in this direction are analyzed, the adopted state documents, programs and orders are taken as a basis. Azerbaijan's foreign trade success, which marks the 25th anniversary of its entry into the international economic system in 2017, is analyzed. Its diplomatic relations with 182 countries of the world and the place and position of these relations in the import-export of our country are substantiated. The share of the oil and gas industry, as well as non-oil sector products in imports and exports is being studied. Suggestions and considerations are made in this regard. Finally, the effect of the COVID-19 virus on the balance of payments is being partially investigated.*

Key words: *political intervention, conceptual strategy, diplomatic relations, economic potential, trade relations.*

Azərbaycan Respublikası iqtisadi azadlıq əldə edərək bazar iqtisadiyyatı şəraitində beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tutdu. Bu dövrdə Azərbaycan regional və biznes sektorlarında müstəqil iqtisadi siyasət aparan kiçik dövlətlərdən biri idi. Balanslı və çoxvektorlu əməkdaşlıq, yüksək rifah və səmərəli əməkdaşlıq üçün etibarnamə prinsiplərinə əsaslanan iqtisadi marağı müdafiə edir. Belə bir xarici ticarət strategiyası beynəlxalq sahədə mövqeyimizi möhkəmləndirəcəkdir. Bu strategiyanın konseptual əsası cəmiyyətin dünyadakı təcrid vəziyyətindən çıxış yoludur. Onun həyata keçirilməsi xarici siyasəti tarazlaşdıracaq, beynəlxalq siyasətdəki mövqeyinin möhkəmləndirilməsində iqtisadi potensialın istiqamətini müəyyənləşdirəcək, Azərbaycan diasporasının daha güclü təşkilatlanmasına, inkişafına və onların digər mərkəzlərlə güclü iqtisadi münasibətlər mərkəzinə çevrilməsinə şərait yaradacaq. Qeyd etmək lazımdır ki, belə bir müstəqil xarici siyasət Azərbaycanın qlobal sistemdə yerini möhkəmləndirəcək. Azərbaycanın geosiyasi çəkisi və apardığı belə bir iqtisadi strategiyanın həyata keçirilməsi müsbət haldır, lakin ölkənin bu sahədə olan mürəkkəb problemlərdən və çətinliklərdən azad etmir.

2017-ci il beynəlxalq iqtisadi sistemə inteqrasiyamızın 25 illik yekunudur. Türkiyə ilə diplomatik münasibətlərini ilk dəfə təşkil edən Azərbaycan dünya arenasında bir çox dövlətlərlə diplomatik münasibətlərini qurdu. Qeyd etdiyimiz kimi, Azərbaycanın xarici siyasəti Azərbaycanın digər dövlətlər və beynəlxalq qurumlarla iqtisadi əlaqələrinin məcmusudur. 2019-cu ildən etibarən Azərbaycan BMT-yə üzv olan 182 dövlət, MDB ölkələri, Mərkəzi Afrika Respublikası, Konqo Respublikası, Ekvatini, Yeni Qvineya, Müqəddəs Kit və Nevis, Qonq və s. vasitəsi ilə diplomatik münasibətlər dairəsini genişləndirir.

Beynəlxalq iqtisadi münasibətlərin əsas forması mal və xidmətlərin beynəlxalq ticarəti, kapital miqrasiyası, elmi-texniki əməkdaşlıq, əmək miqrasiyası, valyuta münasibətləridir. Buna görə beynəlxalq iqtisadi əlaqələrin ən inkişaf etmiş forması xarici ticarətdir.

Xarici ticarət ölkələrin ixtisaslaşma sahəsində iqtisadi əlaqələri inkişaf etdirməsi, iqtisadi qaynaqların məhsuldarlığını artırması və ümumi istehsal həcmini artırması üçün bir vasitəyə çevrilmişdir. Beynəlxalq ticarət beynəlxalq aləmdə resursların səmərəli mobilliyini təmin edir.

Xarici ticarət fəaliyyəti məhsulun ixtisaslaşmasına görə hazır məhsul, maşın və avadanlıq, xammal və xidmətlər ticarətinə bölünür. Beynəlxalq ticarət dünyanın bütün ölkələri arasında ödənişli məcmu ticarətə aiddir. Bununla yanaşı, "beynəlxalq ticarət" anlayışı daha dar mənada da istifadə olunur. Bu, məsələn, inkişaf etməkdə olan ölkələrin ümumi əmtəə dövriyyəsi, istənilən qitənin, bölgənin, məsələn, Şərqi Avropa ölkələrinin ümumi əmtəə dövriyyəsi deməkdir.

Müasir şəraitdə ölkənin dünya ticarətində fəal iştirakı mövcud mənbələrdən daha səmərəli istifadə etməyə imkan verir, dünya elm və texnikasının nailiyyətlərinə qoşulur, iqtisadiyyatın struktur tənzimlənməsini daha qısa müddət ərzində həyata keçirir. Buna görə inkişaf etmiş bazar iqtisadiyyatı yoluna qədəm qoyan Azərbaycan üçün dünya ticarətində iştirak xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın xarici ticarət fəaliyyətinin zəngin təbii sərvətləri və coğrafi mövqeyi (Avropa və Asiyanın nəqliyyat dəhlizində yerləşməsi) ilə səciyyələnən özünəməxsus xüsusiyyətləri vardır.

Xarici ticarət əlaqələri, xarici ticarət strategiyası və xarici iqtisadi fəaliyyət sahəsindəki beynəlxalq əmək bölgüsü, beynəlxalq ixtisaslaşma və istehsalat əməkdaşlığı problemi A.Şəkərəliyev, Ş.Q.Qocayev, E.T.İbadov, S.T.Əskərov və s. kimi yerli alimlərin əsərlərində öyrənilmişdir. .

Bu problem xarici iqtisadçılar R.Vernon, J.Daning, A.Marshall, B.Olin, P.Samuelson tərəfindən də müxtəlif mövqelərdən inkişaf etdirilmişdir.

Qeyd etmək lazımdır ki, qloballaşma şəraitində xarici ticarət əlaqələri nəzəriyyəsi dünya iqtisadiyyatının vacib problemlərindən biridir.

Dövlətlərarası müqavilələrə əsaslanan xarici iqtisadi münasibətlərin inkişafı iqtisadi prosesinin bir hissəsi olur, elm və texnologiya, istehsal, ticarət, bütün sahələrdə, eləcə də mədəni turizm sahələrində əməkdaşlığın inkişafına töhfə verir.

Milli iqtisadiyyatın dünya iqtisadi sisteminə iqtisadi inteqrasiyası, Azərbaycanın dünya iqtisadi sistemində, ticari-iqtisadi münasibətlərdə, hüquqi, iqtisadi, inzibati sahələrdə, habelə bazar infrastrukturunun formalaşmasında və səmərəli fəaliyyətində müsbət təsir göstərən qəbul edilmiş hüquqi aktlardakı kəmiyyət və keyfiyyət dəyişiklikləridir. Bu istiqamətdə, bizim fikrimizcə, respublikanın dünyanın bir çox iqtisadi inkişaf etmiş ölkələri ilə ticari-iqtisadi əlaqələrinin genişlənməsi və dərinləşməsi, bir çox beynəlxalq, iqtisadi və eyni zamanda regional ticarət təşkilatlarında iştirakı mühüm rol oynayır. Bunda respublikanın bağladığı beynəlxalq ticarət müqavilələri və müxtəlif ölkələrlə aparılan əməliyyatlar xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etdiyimiz kimi, müxtəlif iqtisadi əlaqələrin ənənəvi və ən inkişaf etmiş forması xarici ticarətdir. Bəzi hesablamalara görə ticarət beynəlxalq iqtisadi münasibətlərin ümumi həcminin təxminən 80 faizini təşkil edir. Müasir beynəlxalq iqtisadi münasibətlər, milli ticarətin inkişafına çoxlu yeni və səciyyəvi xüsusiyyətlər gətirən dünya ticarətinin aktiv inkişafı ilə xarakterizə olunur.

Beynəlxalq əmək bölgüsü əsasında yaranan və qarşılıqlı iqtisadi asılılığını ifadə edən müxtəlif ölkələrin istehsalçıları arasında bir forma olaraq, elmi, texnoloji inqilabın, sənaye istehsalının ixtisaslaşması və kooperasiyasının təsiri altında iqtisadiyyatda baş verən struktur dəyişiklikləri əks etdirir. Milli iqtisadiyyatların qarşılıqlı əlaqəsini gücləndirir. Bu, beynəlxalq ticarətin artmasına kömək edir. Bütün ölkələrarası mal axınlarının hərəkətinə vasitəçilik edən beynəlxalq ticarət istehsaldan daha sürətli böyüyür.

Qeyd etmək lazımdır ki, beynəlxalq ticarət siyasi müdaxilə və nəzarət altındadır, o, daxili ticarətə aid olan xüsusiyyətlərdən hər baxımda fərqlənir. Xarici ticarət iki səbəblə bağlıdır. Bu, birincisi, dövlətlər arasında bölüşdürülən təbii-insan və investisiya resursları kimi son dərəcə qeyri-bərabərdir, ikincisi, texnoloji səviyyədəki fərq, müxtəlif malların səmərəli istehsalı prosesində ehtiyatların birləşməsi baxımından fərqlidir.

Beynəlxalq ticarətdə fəal iştirak bu istiqamətdə strateji həllərin, beynəlxalq əmək bölgüsündə iştirak potensialının səmərəli yollarının müəyyənləşdirilməsi zəruridir. Bu baxımdan mühüm bir yer beynəlxalq ticarət strategiyasına aiddir. Beynəlxalq ticarət iqtisadiyyatla sıx qarşılıqlı əlaqədə olur ki, bu da beynəlxalq ticarətdə baş verən dəyişikliklərə öz təsirini göstərir. Burada proqnozlaşdırıla bilən ölkələrin mədəni və sosial fərqlərini, mədəniyyətin və dilin yaxınlığını, ticarət siyasətinin aparılması üçün əlverişli şərtləri də nəzərə almaq lazımdır.

Beynəlxalq strategiya ticarət əlaqələrini və ölkələrin coğrafi məkanlarını gücləndirir. Ticarət əlaqələrini həll etmək üçün mədəni, dil yaxınlığı cəlbedicidir. Bir çox ölkələrdə bu əlaqə həmkarlar ittifaqlarının yaranmasına öz töhfəsini verdi. Azərbaycan xarici siyasətini beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi əsasında həyata keçirir. Dövlətlərarası münasibətlərdə də Azərbaycan qanunun aliliyi və dövlətlərin öz öhdəliklərinə əməl etməsi prinsipinə sadiqdir. Nəticədə, Azərbaycan dünyada getdikcə daha çox dövlətlə əməkdaşlıq etmək istədiyi etibarlı tərəfdaş kimi qəbul olunur.

Azərbaycanın Avropa İttifaqının, ABŞ, Norveç, Kanada, Türkiyə və İsveçrənin ümumiləşdirilmiş üstünlüklər sisteminə qoşulması, Azərbaycan istehsalı olan malların aşağı gömrük rüsumları ilə bu bazarlara çıxmasına imkan yaradır. Bununla yanaşı, Azərbaycan müstəqil dövlətlər ilə sərbəst ticarət müqaviləsi imzaladı. Buna görə 2020-ci ilə qədər olan dövr üçün strateji yol xəritəsində "Xarici sarsıntıların təsiri altında yaranmış vəziyyəti aradan qaldırmaq üçün iqtisadiyyatın qısa müddətdə sabitləşməsinə nail olmaq, orta müddətdə şaxələndirmə və yeni stimullar hesabına iqtisadiyyatın istiqamətini bərpa etmək vacibdir. qlobal iqtisadiyyata daha da inteqrasiya yolu ilə rəqabət qabiliyyətini artıracaqdır."[1] İqtisadi artım sayəsində real ÜDM artımı artacaq, yeni iş yerləri açılacaq, qeyri-neft sektoru ÜDM-də birbaşa xarici investisiyaların payı indiki 2.6 faizdən 4 faizə qədər artacaqdır. Dövlət büdcəsinin neft sektoru gəlirlərindən və dövlət neft fondundan pul köçürmələrindən asılılığının azaldılması. Bu istiqamətdə iqtisadiyyat üçün eyni dərəcədə vacib məqam maliyyə qaydaları, xərclərin orta müddətli planlaşdırılması, nəticəyə yönəldilmiş büdcə tərtib edilməsi və borc probleminin həlli üçün orta və uzunmüddətli strategiya aparılaraq maliyyə və büdcə sektoru əməliyyatlarının səmərəliliyinin və effektivliyinin artırılmasıdır. Qeyd etmək lazımdır ki, son illərdə maddi, qeyri-maddi və infrastruktur sahələrində bütün sahələrdə aparılan islahatlar və iqtisadiyyatın yaxşılaşdırılması sayəsində Azərbaycanın reytinqi artmışdır. Dünya Bankının "Doing Business 2018" hesabatında həyata keçirilən islahatların sayına və ümumilikdə dünyanın ən yaxşı islahatçı ölkəsinə görə Azərbaycan Avropa və Orta Asiyada ən çox islahatçı ölkə olaraq tanınıb. [2]

İqtisadiyyatda ixracın genişləndirilməsinə xüsusi diqqət, qeyd etdiyimiz kimi, hazırda xarici valyutanın iqtisadiyyata axını üçün vacib olan amil ixrac strukturunu artırmağa imkan verir. Bu istiqamətdə ən başlıcası hökumətin iqtisadiyyatın bütün sahələrinə, xüsusən də qeyri-neft sektoruna investisiyaların stimullaşdırılması tədbirləri. Bu 7 il xa-

rici, əlverişli coğrafi mövqeyini, ərazisini 50 ölkəyə təqdim edə biləcəyi, qlobal istehlakçıların 50%-dən çoxunu 4 saat ərzində uçuşla dünyanın istədiyi nöqtəsinə çatdırmaq imkanına malik olan Azərbaycanın xarici ticarət əlaqələri üçün bir çox ölkələr, o cümlədən MDB ölkələrinə 270 milyon istehlakçıya sərbəst ticarət imkanı verir. Ayrıca, qeyri-neft sektorundakı ixracata dəstək - ixracı stimullaşdırmaq, xarici bazara çıxışı təmin etmək üçün tənzimləmə bazasının təkmilləşdirilməsi məqsədilə dövlət büdcəsindən komissiyanın 3% -nin ödənilməsi - bu hədəflərə çatmaq üçün 9 ölkə ilə sərbəst ticarət müqavilələrini, 48 ölkə ilə ikitərəfli investisiya müqavilələrini və s. stimullaşdırmaqla, kənd təsərrüfatını inkişaf etdirmək üçün ölkədə görülən tədbirlərin vacib və əhəmiyyətli olduğunu göstərir.

Ən böyük hava limanları, dəniz limanı, dəmir yolu şəbəkəsi və azad ticarət əraziləri olan Xəzər bölgəsindəki logistika mərkəzi xarici ticarəti inkişaf etdirmk üçün xüsusi əhəmiyyətə malikdir. Çünki bu, gələcəkdə regional logistika mərkəzinə çevriləcəkdir. Hər bir milli iqtisadiyyatın ixrac-idxal münasibətlərində mühüm rol oynayan, planlaşdırılan böyük layihələri başa çatdırmaq, logistika əməliyyatlarını yaxşılaşdırmaq üçün qeyd olunanlar strateji əhəmiyyətlidir. Bakıda bu mərkəzi yaratmaqla Azərbaycanı daha yüksək dəyəri və tranzit ticarətinin həcmini regional logistik mərkəzə çevirməyə imkan verən infrastrukturun inkişafı, ticarət yönümlü və logistika mərkəzləri "Azərbaycanın Rəqəmsal Ticarət Mərkəzi" yerli, regional və beynəlxalq ticarətin dəstəklənməsi üçün hazırlanmış bir elektron platformasıdır. Sonra rəqəmsal iqtisadiyyatın daha da inkişafına, elektron xidmətlərin geniş istifadəsinə xidmət edən informasiya və kommunikasiya texnologiyalarının inkişafında Azərbaycan lider ölkə ola bilər.

Beynəlxalq Valyuta Fondunun analitiklərinin proqnozuna görə, 2019-cu ildə Azərbaycan iqtisadiyyatında iqtisadi artım 2,7 faiz, 2020-ci ildə isə nisbətən aşağı, yəni 2,1 faiz təşkil edəcək.

2017-ci ildə Azərbaycan 14,3 milyard dollar dəyərində məhsul ixrac edib. Respublikadan gətirilən bütün ixracın təxminən 82% -ni neft təşkil edir, bundan əlavə, təbii qaz, neft məhsulları, maşınqayırma sənayesi məhsulları, meyvə və digər ərzaq məhsulları ixrac olunur. Əsas alıcılar İtaliya 33%, Türkiyə 8.5%, Kanada 5.5%, Çexiya 5.4%, Almaniya 4.9%, Rusiyanın payı 1.4%.

Rusiya Federal Ticarət Xidmətinin (FCS) məlumatına görə, 2014-cü ilin nəticələrinə görə, Azərbaycan ilə Rusiya arasındakı ticarətin səviyyəsi 2013-cü ildən bəri 39,3% artaraq 6702,5 milyon dollar təşkil edib və bu artan tempi Azərbaycanın Rusiya ilə əsas tərəfdaşlarından biri olaraq inkişaf etdirilən istiqamətdə davam edir.

Azərbaycan ilə Qazaxıstan arasında ticarət və iqtisadi əlaqələr hər il inkişaf edir. İki dövlətin yeni bir əməkdaşlıq sahəsinin formalaşmasında böyük perspektivlər var: neft boru kəmərləri, yollar və dəniz limanlarından istifadə edərək ölkələrimizdən enerji, taxıl, müxtəlif mallar ixrac olunur. Azərbaycan üçün bu, Orta Asiya respublikalarına, Çinə və Rusiyanın şərq bölgələrinə qısa bir yoldur, Qazaxıstan üçün isə Avropa və dünya bazarlarına çıxmaqdır.

Bu istiqamətdə əməkdaşlıq geniş vüsət almışdır. Bakıda Qazaxıstan taxılının maya dəyərinin azalması və tranzit Azərbaycan vasitəsilə dünya bazarlarına tədarükünün artması ilə müşayiət olunan bir taxıl terminalı tikilib.

Yaxın vaxtlarda xüsusi dəyirman kompleksi də istifadəyə veriləcəkdir. Öz növbəsində, Azərbaycan Qazaxıstanın qərb hissəsində tərəvəz terminalı tikib və istifadəyə verib. Azərbaycan və Qazaxıstanın iqtisadi strukturlarındakı sənaye fərqləri xarici ticarətin, ixtisaslaşmanın və əmək bölgüsünün inkişafını artırmağı obyektiv zərurətə çevirir.

Qazaxıstandan Azərbaycan sənayesi üçün mineral ehtiyatların, eləcə də yun və taxıl tədarükü, beynəlxalq əlaqələrin inkişafında müsbət rol oynayır. Bu,

Azərbaycanın neft mühəndisliyi, kənd təsərrüfatı məhsullarının qarşılıqlı təchizatı ilə əlaqələndirilə bilər. Bu gün Qazaxıstan kapitalının iştirakı ilə 18 şirkət yanacaq-enerji komplekslərində, nəqliyyatda və inşaatda fəaliyyət göstərir. Altı müştərək müəssisə, filial və nümayəndəliklər isə 100% Qazaxıstan kapitalı ilə fəaliyyət göstərir.

Azərbaycan və Qazaxıstan arasında uzunmüddətli iqtisadi əməkdaşlıq üçün böyük imkanlar BMT-nin SPECA Proqramı - Orta Asiya iqtisadiyyatı üçün xüsusi proqramı tərəfindən nəzərdə tutulur. Orta Asiya və Xəzər regionu ölkələri arasındakı əlaqələrin gücləndirilməsi, Asiya və Avropada iqtisadiyyatların inteqrasiyasının inkişafını genişləndirir və bunu bütün dünya üçün əhəmiyyətli və səmərəli olduğunu təmin edir. Bu, enerji sektorundakı hələ həll edilməmiş bir sıra məsələlərin həllinin vacibliyini zəruri edir. Bu gün Xəzərin sahibi olan Rusiya Avropanın neft və qaz ehtiyatlarının, eləcə də Xəzəryanı ölkələrin əsas enerji tədarükçüsüdür. Beləliklə, bu gün Rusiya Avro-Asiya enerji bazarının aparıcı ölkəsidir. Bu bölgədəki Azərbaycana da, Qazaxıstan və Türkmənistana investisiya yatırmağa və bu bazarlara sərbəst çıxışa şərait yaradır.

Beləliklə, iqtisadi birliyimiz əsasən enerji təhlükəsizliyinə əsaslanır, Azərbaycan bölgənin və Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilir. Respublikada qaz sənayesi də ön plana çəkilməklə, bu gün bu sənayeyə böyük tələbat effektiv qaz siyasətini tələb edir. Qaz ixracatçısı olaraq, respublika ən effektiv qiymətə yanacaq satmaq və Avropaya qaz ixracı kimi prioritetləri həyata keçirmək imkanına malikdir. Qaz kəməri üçün real ehtiyat bazalarından biri də Nabucodur.

Azərbaycanın xarici ticarət dövriyyəsinin təhlili bu sektorda aparıcı rola malikdir. 2008-ci ildə 44,5 milyon tona çatan Azəri-Çıraq-Günəşli, Şahdəniz və qaz hasilatı 163 milyard kubmetrdir.

Ən böyük ixrac boru kəmərləri "Bakı-Tbilisi-Ceyhan" və "Bakı-Tbilisi-Ərzurum", "Bakı-Novorossiysk", "Bakı-Supsa" xarici iqtisadi əlaqələrdə mühüm boru kəmərləridir və ticarət əlaqələrinin daha da genişlənməsinə böyük təsir göstərir. Uğurlu xarici iqtisadi siyasət ölkələr arasında beynəlxalq ticarət infrastrukturunun inkişafını

əvvəlcədən müəyyənləşdirməyə imkan verir. Ümumilikdə, dəmiryol nəqliyyatı müxtəlif ölkələrin mallarının birbaşa ticarətində malların daşınması, habelə turizmin inkişafı sahəsində sərnişin daşınmasında əsas vasitədir. Dəmir yolu nəqliyyatının inkişafı Azərbaycanın ticarət payının artması, həmçinin ticarət əməliyyatlarında iştirak edən ölkələr arasında müsbət ticarət balansını formalaşdırmağa şərait yaradır.

Azərbaycan Şimal-Cənub istiqamətində beynəlxalq nəqliyyatın mərkəzindədir. Azərbaycanın dünya birliyinə inteqrasiyası iqtisadi inkişafa və ixracın genişlənməsinə böyük fayda gətirir. Bu baxımdan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi xarici ticarət üçün xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq nəqliyyat dəhlizində yerləşən respublika ərazisi ilə xarici ticarət əlaqələrinin artması ilə əlaqədar olaraq, 2015-ci illə müqayisədə 2018-ci ildə dəniz, avtomobil və dəmiryolu vasitəsilə yük daşımalarının həcmi 80% artmışdır.

Beynəlxalq ticarətin inkişafı, qeyd etdiyimiz kimi, iqtisadi artımı təmin etməyə, istehsalın maddi-texniki bazasının yeniləşdirilməsi prosesini sürətləndirməyə və işçi qüvvəsinin məşğulluğunu artırmağa yönəldilmişdir. Xarici ticarətin coğrafiyasını araşdıraraq ölkələrlə iqtisadi, siyasi, texniki və mədəni əlaqələrin möhkəmləndirilməsi dövlət tərəfindən dəstəklənir. Fikrimizcə, xarici ticarətdə təbii seçim prinsipinə əməl edilməlidir. Müasir şəraitdə qlobal bazar artıq bölünmüşdür. Qərb bazarına girmək çətindir, hər şey onu göstərir ki, bu gün Şərq ölkələri ilə ticarət əlaqələri respublika üçün daha məqbuldur. İstehsal vəziyyəti, ixrac və idxalın quruluşu Şərq, Türkiyə, Pakistan, İran, Orta Asiya, Qazaxıstan, Çin və s. kimi ölkələrlə iqtisadi cəhətdən faydalıdır.

İqtisadi inkişafda beynəlxalq ticarətin artım tempi, ölkənin siyasi imicinin artması, ölkədə investisiya fəaliyyətini yaxşılaşdırmaq üçün yeni imkanlar, sərəncamlar və dövlət proqramlarının hazırlamasını tələb edir.

Summary: *The article examines issues related to the sosial and economic development of the East Azerbaijan Province of the Islamic Republic of Iran. It considers the main factors and methods affecting the development of the region and international trade, makes comparisons on the basis of statistical data, analyzes the results.*

Keywords: *integration, world economy, transport corridor, manufacturing, economic development.*

İran İslam Respublikası dünya iqtisadiyyatına inteqrasiya olunmuş, dövlətlərarsı münasibətlərdə mühüm yer tutmuşdur. İranda keçən əsrin 80-cı illərindən başlayaraq reallaşdırılan davamlı iqtisadi islahatlar uğurlu nəticələr verməklə yanaşı, iqtisadi stabillik üçün əsaslar yaratmış, sivil bazar münasibətlərinin formalaşmasına səbəb olmuşdur. Lakin İran dövlətinə qarşı tətbiq edilən sanksiyalar hər sahədə öz mənfi təsirini göstərir. Şərqi Azərbaycan ostanı İranın tərkibində olduğu üçün öz təsirini burada da göstərir. İndi də beynəlxalq iqtisadi sanksiyalara, ABŞ və AB-nın təsirlərinə, davam edən dünya maliyyə böhranına baxmayaraq, ölkə iqtisadiyyatı inkişaf etməkdə davam edir. Lakin neftdən, qazdan və ümumiyyətlə xammaldan asılılıq ölkə iqtisadiyyatını böyük risklərlə üzləşdirir. Cənubi Azərbaycan İranın şimal-qərbində ölkənin İraq, Türkiyə, Naxçıvan Muxtar Respublikası, Ermənistan və Azərbaycan Respublikası ilə olan sərhədində yerləşən tarixi vilayətidir.

Şərqi Azərbaycan vilayəti İranın əhəmiyyətli, çox cəmiyyətli və gözəl vilayətlərindən biri olmaqla, ölkənin Şimal-Qərbində yerləşir. İran İslam Respublikasının Məhkəmə Hakimiyyətinə bağlı "İran Statistika" saytının verdiyi məlumata əsasən, Şərqi Azərbaycan ostanının əhalisi 3909652 nəfər, qərbi Azərbaycan ostanının əhalisi 3265219 nəfər, Ərdəbil ostanının əhalisi 1270420 nəfər və Zəncan ostanının əhali sayı 1057461 nəfərdir. Bu ostanların əhalisinin ümumi sayı isə 9502752 nəfərdir.

İqlimi kontinental, bölgənin şimal-şərqində subtropik, isti və quru yayı soyuq, qarlı qışlarla əvəzlənir. Qeyri-rütubət çəkən İran ərazilərinin əksəriyyətindən fərqli olaraq, İran Azərbaycanının dağlıq bölgələri istisna olmaqla, illik orta yağıntı orta hesabla 300 ilə 900 mm arasında dəyişir. Buna görə də Azərbaycan İranda kifayət qədər miqdarda yağıntının olduğu, süni suvarma istifadə edilmədən əkinçilik üçün imkan yaradan bölgələrdən biridir.

Təbriz şəhəri Səfəvilər (1502-1736) dövründə paytaxt olsa da, sonralar Qacarlar (1795-1925) dövründə burada yay iqamətgahını yenidən qurmuşdurlar. Çünki buranın iqlimi kontinental, bölgənin şimal-şərqində subtropik, isti və quru yayı soyuq, qarlı qışlarla əvəzlənir. Qeyri-rütubət çəkən İran ərazilərinin əksəriyyətindən fərqli olaraq, İran Azərbaycanının dağlıq bölgələri istisna olmaqla, illik orta yağıntı orta hesabla 300 ilə 900 mm arasında dəyişir. Buna görə də Azərbaycan, İranda kifayət qədər yağışın olduğu, süni suvarma istifadə etmədən əkinçiliklə məşğul olmağa imkan verən bölgələrdən biridir.

Əhalisinin əksəriyyəti Azərbaycan türklərindən ibarət olan Təbriz şəhəri ostanın paytaxtıdır. Təbriz - İranın şimal-qərbində müasir sənaye şəhəridir. Qədim şəhər olan Təbriz vaxtilə böyük İpək Yolu bazarı idi. Öz mədəniyyəti ilə zəngin olan bu şəhər bir çox tarixi abidələri və mədəniyyəti ilə də zəngindir. Burada hal-hazırda bir çox qədim məscidlər, tarixi abidələr qorunub saxlanır. Məsələn, 1465-ci ildə Qara Qoyunlu xanədanlığı tərəfindən inşa edilmiş gözəl xəttatlıq, ərəb naxışları və mavi plitələrlə bəzədilmiş Göy Məscidi bu günə qədər gəlib çatmışdı. Burada Urmiya qapalı duz gölü yerləşir, Təbriz dağlarının məşhur mənzərəsi "İlanlar", Osku rayonunda Kandovan sirli kəndinin qayaları 800 ildir yüksəlir və dünyanın ən böyük qapalı bazarı bir neçə kilometr irəlidə uzanır. Bu kənd bir sıra digərlərindən inkişafının özünəməxsusluğu ilə fərqlənir. Kandovan dağlarda inşa edilmiş daş evləri ilə məşhur heyrətamiz bir qədim kənddir, qədim vulkan massivinin Sekendd qayalarında qurulmuşdu. Fakt budur ki, XIII əsrin yerli sakinləri ölkəni işğal edən monqollardan belə oranı qayalı bir sığınacaq hesab edirdilər. İlk məskunlaşanların nəsilləri "etibarlı" yaşayış yerini dəyişməmiş və o vaxtdan bəri bu kənddə hələ də təxminən 600 nəfər yaşayır.

Şərqi Azərbaycan ostanının Təbriz şəhəri özünün tarixi abidələri, muzeyləri ilə məşhurdur. Bunlardan Azərbaycan, Qacar Muzeyi (Əmir Nezam Evi) xüsusi yer tutur. Azərbaycan Muzeyi İranın ən vacib arxeloloji muzeylərindən biri sayılır. Müxtəlif eksponatlar nümayiş etdirən muzeydə eramızdan əvvəl 500-cü ilə aid silah, sikkələr, şüşə qablar və s. kimi Qacar dövrünə aid əşyaları qədim əşyalar mövcuddur.

Dünyanın ən böyük Zərdüşt məbədi kompleksi, Süleyman Taxtı (Taxt-i Süleyman) olaraq daha yaxşı bilinən Azar Gishtasb, təkcə İran Azərbaycanının deyil, bütövlükdə İranın ziyarət kartı olmaq riski daşıyır. Kompleksin bir dibsiz bir vulkan gölündəki bir dairədə, sönmüş bir vulkanın kraterində yayılması xüsusilə təsir edicidir. Burada, vulkanın yamacında, bir zamanlar qədim Zərdüşt dövlətinin paytaxtı - Şase şəhəri mövcud idi.

Köhnə günlərdə kiçik əyalət şəhəri olan Ərdəbildə ilk Səfəvi şahı I İsmayıl (1501-1524) İranın birləşməsi uğrunda təşəbbüsə başladı, burada Sufi nizamının banisi Səfəvi Şeyx Səfi əd-Din özünə əbədi bir sığınacaq tapdı. Ərazisində zəngin kitabxana, məscid, məktəb, su anbarı, xəstəxana və s. vardır.

İran ərazisindəki başqa bir qədim şəhər Marağa şəhəridir. Marağa şəhəri Sasani və habelə ərəb işğalları dövründə Azərbaycanın iqtisadi, ictimai cəhətdən inkişaf etmiş şəhərlərindən biri olmuşdur. Tarixin ruhu sözün həqiqi mənasında onu keçir, çünki burada qübbələr adlanan qədim türbələr demək olar ki, toxunulmamış qalmışdır. Bunlardan ən diqqət çəkənləri bunlardır: Gonbad-e Kabud (Mavi günbəz) - Hülaku xanın məzarı, Gonbad-e Sorkh (Qırmızı günbəz), Gonbad-e Modavar (Dəyirmi Qübbə) və s. 1259-cu ildə qurulmuş qədim Marağa rəsədxanası da bizə gəlib çatıb (1259-1271). Tusinin rəsədxanası öz həcminə görə Şərqin bütün məşhur rəsədxanalarını geridə qoyurdu. Rəsədxananın nəzdində 400 min kitabı olan kitabxana və astronomiya üzrə kadr hazırlamaq məqsədi ilə məktəb də fəaliyyət göstərirdi.

Azərbaycan hökuməti İİR ilə əlaqələrin genişləndirilməsində olduqca maraqlıdır. İki ölkə arasında mehriban qonşuluq əlaqələrinin tarixi köklərə əsaslanır. İran İslam Respublikası Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıdıqdan sonra iki ölkə arasında diplomatik əlaqələr (12 mart 1992-ci ildə) qurulmuşdur.

Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğu Azərbaycan Respublikası Milli Məclisinin 26 avqust 1992-ci il tarixli qərarı ilə təsis edilmiş və 20 oktyabr 2004-cü ildən fəaliyyət göstərir. Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunun fəaliyyət dairəsi İran İslam Respublikasının 4 vilayətinin ərazisini əhatə edir. Bunlar Şərqi və Qərbi Azərbaycan, Ərdəbil və Gilan vilayətləridir.

Ərdəbil bölgəsi cənubda Zəncan bölgəsi ilə həmsərhəddir. Bu bölgə şərqdə Gilan bölgəsi ilə Ərdəbil, Xal-xal rayonları və Talış dağları ilə həmsərhəddir. Ərdəbil bölgəsinin ölkənin paytaxtı ilə əlaqələri Ərdəbil-Astara və Rəşt-Qəzvin yolları vasitəsi ilə həyata keçirilir. Ərdəbil bölgəsi 1993-cü ildə hökümətin təklifi və İslam məclisi şurasının (parlamentin) qərarı ilə Şərqi Azərbaycan bölgəsinin inzibati-siyasi idarəçiliyindən ayrılaraq müstəqil bölgəyə çevrilmişdir. Ölkənin axırıncı inzibati-siyasi bölgüsünə görə 2015-ci ildə Ərdəbil bölgəsinin 25 rayonu, 21 şəhəri və 66 kəndistanı (kəndlər birliyi) olmuşdur.

Azərbaycan və İranın arasında imzalanan vacib sənədlərdən biri də "Şimal-Cənub" nəqlıyyat dəhlizidir. Bu dəhliz çərçivəsində Azərbaycan və İran arasında malların, yükdaşımaların, sərnişin daşımalarının asanlaşdırılması üçün müvafiq qərarlar qəbul edilib. Bu da bizim iqtisadi əlaqələrimizə böyük təkan verə bilər.

2014-cü ildən başlayaraq iki ölkə arasında ikitərəfli münasibətlər həyata keçirilmişdir. Bunlardan: İran İslam Respublikasının Şərqi və Qərbi Azərbaycan, Ərdəbil vilayətlərində fəaliyyət göstərən 20-yə yaxın turizm şirkətlərinin rəhbərlərinin, təmsilçilərinin Azərbaycanın Naxçıvan Muxtar Respublikasına tanışlıq səfərləri həyata keçirilmiş; Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair" memorandum imzalanmış (2015-ci il, 9 iyun); "Azərbaycan Respublikasının Gəncə şəhəri ilə İran İslam Respublikasının Təbriz şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılmasına dair" Protokol imzalanmış(2015-ci il, 7-10 fevral), İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin Elm və Texnologiyalar Parkı ilə Azərbaycan Respublikasının Yüksək Texnologiyalar Parkı arasında memorandum (2015-ci il, 4 avqust); Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi

Azərbaycan Vilayəti arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair" (2015-ci il, 9 iyun) memorandum və s. imzalanmışdı.

İranın Azərbaycana yatırdığı investisiya 1,2 milyard ABŞ dolları ətrafındadır. Bunun 150 milyon dolları qeyri-neft sektoruna yatırılıb. Ümumi potensialı nəzərə aldıqda daha geniş nəticələr əldə edə bilərik. Hazırda Azərbaycanda İranın 430-dan artıq şirkəti fəaliyyət göstərir. Müqayisə üçün demək olar ki, digər qonşu ölkələrlə bu rəqəm 1000-2000-dən artıqdır. Azərbaycanın çox böyük potensialı var və ölkələr arasındakı əlaqələr bütün aspektlərdə ən yaxın strateji əməkdaşlıq səviyyəsində ola bilər. İki ölkə arasında Şərqi Azərbaycan vilayəti ilə əməkdaşlığın inkişafı, ticarət əlaqələrinin genişlənməsi iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin genişləndirilməsi üçün geniş imkanlar vardır. Mədən, qida, kimya, yüngül sənaye, kənd təsərrüfatı, tikinti və mebel istehsalı sahələrində Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti, sahibkarlara göstərilən dövlət dəstəyi mexanizmləri, xarici investorlar üçün yaradılmış əlverişli şərait vardır. Bu da gələcəkdə Azərbaycan-İran əlaqələrinin inkişafına təkan daha da təkan verəcəkdir.

Şərqi Azərbaycan Ostandarlığı ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin genişləndirilməsi istiqamətində işlər görülmüşdür. Azərbaycan Culfası ilə İran Culfası arasında yeni və müasir körpünün inşa edilməsi, Naxçıvanın Ordubad rayonu ərazisində Araz çayının məcrasının təmizlənməsi, Bakı-Təbriz təyyarə reysinin bərpa edilməsi və dövlətlərarası münasibətlərə müsbət təsir edə biləcək məsələlər diqqət mərkəzindədir.

Ədəbiyyət

1.Şahtaxtı, S. Təbrizdə ümummilli lider Heydər Əliyevin yubileyi qeyd olunmuşdur: [Heydər Əliyev - 85] //Azərbaycan.- 2008.- 11 may.- S. 5.

2.Azərbaycan-İran əlaqələri inkişaf edir: [Milli Məclisin Sədri Oqtay Əsədovun İran -Azərbaycan dostluq qrupunun sədri Əhəd Qəzainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü] //Azərbaycan.-2007.- 13 sentyabr.- S.3.

3.Talıblı, S. İsmayılxan Ziyadxanlı və Azərbaycanİran əlaqələri: [1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin fəal üzvlərindən olmuş İ.Ziyadxanlı haqqında] //Dirçəlıiş-XXI əsr.- 2006.- № 102.- S. 231-236.

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ RUSİYA VƏ BİRLƏŞMİŞ ŞTATLAR TİMSALINDA ÜÇÜNCÜ TƏRƏF FAKTORU

Elşən Məcidov
ATMU, beynəlxalq münasibətlər kafedrası, doktorant
E-mail: madjidov_elshan@mail.ru

Summary**:** *The article is devoted to the analysis of the strategic priorities of the United States and Russia in the Nagorno-Karabakh conflict. As a methodological base, are used inductive conclusions on the basis of target substantiation from logical science. In addition to the strategic priorities of the two powers, is also investigated the mutual competition of the conflict parties for influence in Russia and the United States. The theoretical basis for the article is the works of A. Wolfers on influence. As a methodological basis for the struggle for influence, are involved various opinion polls.*

Key words: *Nagorno-Karabakh conflict, USA, Russia, influence, target substantiation.*

GİRİŞ

Görkəmli amerikalı geosiyasətçisi N.Spikmenə əsasən, xarici siyasətdə coğrafi və ya geosiyasi amil öz daimiliyinə görə ən fundamental faktordur. Belə ki, alimə görə "*nazirlər gəlirlər və gedirlər, hətta diktatorlar belə ölür, lakin dağ silsələləri yenilməz olaraq qalır*" [7, s. 90].

Geosiyasi neytrallıq geosiyasət elmində ölkənin obyektiv olaraq heç bir nomosa aid olmamasını nəzərdə tutub, geosiyasi orientasiyasını müstəqil sürətdə müəyyən etməyə imkan yaradır. Azərbaycan Respublikası prezidenti İlham Əliyevə əsasən: "*Azərbaycan rəqabət üçün oyun meydançası olmamalıdır. Buna əks olaraq, o dünya səviyyəli əməkdaşlıq mərkəzi olmalıdır*" [23, s. 19-20]. Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycan bir sıra vacib dövlətlərlə qarşılıqlı geostrateji münasibətlər qurur. Buna baxmayaraq hal-hazırda münaqişənin dinamikasına həlledici formada təsir etməyə qadir yalnız Birləşmiş Ştatlar və Rusiya timsalında iki qüvvə vardır.

Rusiyanın strateji prirotetləri

Dağlıq Qarabağın baş inzibatçısı A. Volski 1992-ci ildə yazırdı ki, Rusiyanın geosiyasi maraqları Qafqazda XIX əsrdə olduğu kimi qalır. Ona görə də hətta biz istəsək belə indi Qafqazdan çıxıb gedə bilmərik [3, s. 45]. Bununla belə Hartlənd daxilində dondurulmuş münaqişələrin mövcudluğu, inteqrasiya prosesinə mane olub, regional kənar faktorların müdaxilə etməsinə şərait yaradır.

Rusiya Federasiyasının Dağlıq Qarabağ münaqişəsinə dair dövlət siyasətini akademik formada sistemləşdirmək üçün məntiq elmində mövcud "məqsədi əsaslandırma" mexanizminə müraciət etmək zəruridir. Məqsədi əsaslandırma mexanizminə əsasən, hər hansı bir obyekt və prosesin dəyəri, ondan əldə oluna biləcək nəticənin dəyəri ilə ölçülür. Məqsədi əsaslandırmanın alqoritmik formulu belə ifadə olunur:

- "A" ilə "B" arasında kauzal səbəb-nəticə əlaqəsi mövcuddur;
- "B" dəyər nöqteyi-nəzərindən pozitiv (və ya neqativ) qiymətlidir;
- Deməli, "A" da dəyər nöqteyi-nəzərindən pozitiv (və ya neqativ) dəyərlidir [5, s. 106].

Rusiya Federasiyasının Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi, Cənubi Qafqazda mövcud bütün siyasi qarşıdurmaların "3+1" (üç Cənubi Qafqaz respublikası üstəgəl Rusiya) formulu əsasında tənizmlənməsini nəzərdə tutur. Rusiya Qərb ölkələrinin simasında kənar qüvvələrin münaqişənin tənzimlənməsinə müdaxilə etməsini əlavə ziddiyyətlərin meydana gəlməsi və vəziyyətin daha da gərginləşməsi səbəblərindən məqsədəuyğun saymır (I Vəzifə). Bununla yanaşı Rusiya münaqişələrin məhz onun iştirakı ilə tənzimlənməsini öz geosiyasi imperativlərinə və dövlət strategiyasına uyğun hesab edir (II Vəzifə). Məntiqi əsaslandırma mexanizmindən Rusiyanın Dağlıq Qarabağ münaqişəsinə dair dövlət mövqeyini müəyyən etmək üçün istifadə etsək, məntiqi alqoritm aşağıdakı forma alacaqdır:

1. I Vəzifə:

1.1. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə kənar faktorların müdaxiləsi münaqişədə destruktiv elementlərin artmasına və ziddiyyətlərin çoxalmasına səbəb olacaqdır;

1.2. Münaqişədə destruktiv elementlərin artması və ziddiyyətlərin çoxalması neqativ dəyərlidir;

1.3. Deməli, Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə kənar faktorların müdaxiləsi də neqativ qiymətlidir.

2. II Vəzifə:

2.1. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə Rusiyanın nəzarəti münaqişənin subsidiarlıq prinsipindən çıxış edərək lokallaşmasına şərait yaradır;

2.2. Münaqişənin lokallaşması Rusiyanın dövlət strategiyası nöqteyi-nəzərindən pozitiv dəyərlidir;

2.3. Beləliklə, Rusiyanın münaqişənin tənzimlənməsinə nəzarət etməyə can atması da pozitiv dəyərlidir.

Rusiyanın öz xarici siyasi davranışında beynəlxalq hüquqa birmənalı münasibət bəsləməməsi, beynəlxalq norma və qaydalara daha çox praqmatik prizmadan selektiv yanaşması, habelə Ermənistan ilə hərbi-siyasi müttəfiqliyi onun mediator qismində nə dərəcədə effektiv olacağını mübahisəli edir. Professor Ə. Həsənova əsasən, 1997-ci ilin əvvəllərində Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard dollardan çox olan müasir silahların verilməsi aşkar olunmuşdur [2, s. 609]. Bu haqda faktlar üzə çıxanda məlum oldu ki, Rusiya bu silahları 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında qızğın hərbi əməliyyatlar getdiyi bir zamanda göndərməyə başlamış və nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə şərait yaratmışdır.

Azərbaycan və Rusiya dövlət başçıları arasında mövcud səmimi münasibətlərə rəğmən, Rusiyanın Cənubi Qafqaz siyasəti Azərbaycanda birmənalı olaraq qarşılanmır. Cənubi Osetiya müharibəsi zamanı İlham Əliyev Azərbaycandan konkret mövqe istəyən Rusiyanın tələblərinə rəğmən heç bir ölkəni rəsmi sürətdə dəstəkləməyib, neytral diplomatik siyasətə üstünlük vermişdir. Bununla bərabər Azərbaycanın Gürcüstanda maraqlarına – kəmərlərə, etnik Azərbaycan icmasına və Kulevidə yerləşən Azərbaycana məxsus neft terminalına qarşı hücumları qabaqlamaq üçün Moskvaya zəng edib, Kremli xəbərdar etmişdir [19]. Cənab prezidentin Amerika diplomatları ilə siyasi müzakirələrini təsvir edən məxfi teleqrama əsasən, Osetiya müharibəsinin Azərbaycana təsirini analiz edən prezident bir neçə siyasi hadisəni məntiqi əlaqələrlə bir-biri ilə belə bağladı: DTK tərəfindən əvvəllər maliyyələşən PKK Bakı-Tbilisi-Ceyhana hücum həyata keçirir; 3 gün sonra Rusiya Gürcüstanı işğal edir; Rusiya "təsadüfən" neft daşıyan aparıcı dəmiryol xəttini partladır; Bakı-Supsa neft boru kəmərinin 10 metr yaxınlığına bir bomba düşür; Rusiyanın "Transneft" şirkəti neft daşımalarının həyata keçdiyi axırıncı Novorossiysk xəttində də texniki problemlərin mövcud olması haqqında hesabat ilə çıxış edir [19]. Müşahidə etdiyimiz kimi Rusiya Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə verdiyi diplomatik töhfə ilə yanaşı bir çox destruktiv elementlər də gətirir.

Nəzərə çatdıraq ki, Rusiyanın münaqişədə oynadığı rol rəqib ölkə tərəfindən də birmənalı surətdə qarşılanmır. N. Paşinyanın siyasi dünyagörüşünü baş nazir seçilənə qədər və seçiləndən sonra olaraq iki mərhələyə bölmək zəruridir. Həbsxanada olarkən N. Paşinyan Ermənistanın daxili və xarici siyasəti haqqında məqalə yazıb, onu redaktor olduğu "Haykakan Zhamanak" qəzetdə çap etdirmişdi. N. Paşinyana görə "*Rusiya prezidenti yenə Ermənistana, Türkiyə prezidenti isə Bakıya gedəcək. Azərbaycan Prezidenti yenə döyüşkən cümlələr işlədəcək və biz yenə ümidlərimizi Rusiya prezidentinə bağlayacayıq. Biz bir daha Rusiyadan silah və psixoloji dəstək istəyəcəyik və bir daha bunu ödəməyə pulumuz olmayacaq – biz bunun əvəzini ana vətənimizlə ödəyəcəyik. Hakimiyyət dəyişməsini ləngitdiyi üçün hakimiyyət bunun yenə qələbə olduğuna inanacaq*" [18].

N. Paşinyanın 3 Rusiya telekanalına [11, 12, 17], Böyük Britaniyanın "Qardian" ("*Guardian")* [24] və BBC [8], Birləşmiş Ştatların "Nyu-York Tayms" ("*The New-York Times")* [20, 21, 22], Rusiyanın "Exo Moskvı" ("*Эхо Москвы")* [6] qəzetlərinə verdiyi müsahibələrin, habelə çıxış və sosial şəbəkələrdə bəzi statuslarının kontent analizi, N. Paşinyanın istifadə etdiyi əsas söz və söz birləşmələrini müəyyən etməyə imkan yaradır. Müşahidələrə əsasən, N. Paşinyanın nitqində istifadə olunan coğrafi terminlər içərisində birinci yerdə "*Ermənistan*" sözü, daha sonra isə "*Rusiya"* sözü qərarlaşır. Müşahidələr nəticəsində həmçinin "*problem"*, "*sual"* və "*məsələlər"* sözlərinin də tez-tez istifadə etməsi müəyyən olunur. Digər faktorlarla münasibətlərə gəldikdə isə "*dəyişiklik"* ifadəsi özünü fərqli formalarda təzahür edir. Aparılan tədqiqatlar N. Paşinyanın nitqində dövlətlərin sıralamasında müəyyən ardıcıllıq və iyerarxiyanın olmasını müəyyən edir. N. Paşinyanın nitqlərinə əsasən: "*Bu həm Ermənistan-Rusiya münasibətlərinə, həm də Ermənistanın Aİ, ABŞ, İran, Gürcüstan ilə münasibətlərinə aiddir"; "Mən ümid edirəm ki, siz məsələn Aİ, ABŞ, İran və Gürcüstana münasibətdə heç bir arqessivlik hiss etmədiz"; "Biz Birləşmiş Ştatlar, İran, Gürcüstan və ümumiyyətlə münasibətlərin yaxşılaşdırılmasında maraqlı olan bütün ölkələrlə əlaqələri inkişaf etdirmək niyyətindəyik"; "Biz Ermənistan-Rusiya münasibətlərinə aid bütün məsələlər haqqında danışırdıq, amma biz Ermənistanın Aİ, ABŞ və üçüncü ölkələr ilə münasibətlərinə aid məsələlər haqqında danışmırdıq"* [12]; *"...mən həmişə demişəm ki, mən Qərbyönümlü siyasətçi deyiləm, amma mən həm də demişəm ki, mən Rusiyayönümlü də, Amerikayönümlü, İranyönümlü və Gürcüstanyönümlü siyasətçi deyiləm..."* [11]. Müşahidə etdiyimiz kimi N. Paşinyanın nitqində, adətən, birinci yerdə Rusiya, daha sonra Aİ, ardınca ABŞ, sonda isə İran və Gürcüstan ölkələri gəlir. Bunu cənab Paşinyanın təhtəlşüur səviyyəsindəki diplomatik düşüncələrinin şüur səviyyəsindəki təzahürü kimi başa düşmək olar.

N. Paşinyana KTMT ilə bağlı onun mübahisəli saydığı məsələləri nə vaxt ortaya qoyacağı sualı verildikdə, N. Paşinyan sualı belə cavablandırmışdı: *"Bilirsiz, mən düşünürəm ki, biz məsələləri qoymaq yox, onları bizim tərəfdaşlarla müzakirə etmək istəyirik..."* [11]. Habelə qeyd edək ki, cənab Paşinyan "*müttəfiq"* sözü qarşısında "*tə-*

rəfdaş" sözünə üstünlük verir və hətta Rusiya kimi ölkəni belə adətən, Ermənistanın siyasi müttəfiqi kimi yox, siyasi tərəfdaşı kimi qiymətləndirir.

Azərbaycan və Ermənistan Rusiya və Birləşmiş Ştatlarda öz mövqelərini möhkəmləndirmək üçün sonunculara öz nüfuzunu fərqli yollarla yaymağa çalışırlar. Siyasi realizmin görkəmli nümayəndələrindən biri A. Uolfersə görə güc bir subyektin digər subyekti öz iradəsinə məcburiyyət yolu ilə, nüfuz isə inandırma yolu ilə tabe etdirməsidir [15, s. 200]. Tərəflərin Rusiyada nüfuzlarının müqayisəli təhlili, nəticə etibarı ilə Ermənistanın nüfuzunun əhəmiyyətli dərəcədə Azərbaycandan üstün olmasını aşkarlayır. Erməni diaspor və lobbi təşkilatlarının səyləri nəticəsində Rusiya Parlamenti 1915-ci il hadisələrinin soyqırım və bəşəriyyət əleyhinə cinayət kimi qəbul olunması haqqında 1995-ci ildə bəyanatını qəbul etmişdir. 2015-ci ilin 21-24 avqust tarixində "Levada" mərkəzinin 800 rusiyalı arasında keçirtdiyi sorğunun yekunu olaraq 9% iştirakçı, Dağlıq Qarabağın Ermənistana verilməsini, 10% Azərbaycana verilməsini, 42% isə müstəqilliyini dəstəklədi [10].

Bütün bunlara baxmayaraq, son zamanlar Azərbaycanın Rusiya ictimaiyyətində və hökümətində nüfuzunun nəzərəçarpacaq dərəcədə artdığını müşahidə eləmək olar. Azərbaycanın nüfuzunun Rusiya ictimaiyyətinə təsirinin bariz nümunəsi qismində 2016-cı il may ayında "İctimai fikrin öyrənilməsi üzrə Ümumrusiya mərkəzi"nin və "İctimai fikir fond"unun apardıqları sorğuların nəticələri çıxış edə bilər. Mərkəz 46 regionun 130 yaşayış məntəqəsində 1,600 nəfər arasında apardığı sorğunun yekunu olaraq, müəyyən etmişdir ki, cəmi 4% iştirakçı Rusiyanın Dağlıq Qarabağ münaqişəsində Ermənistanın, 2% isə Azərbaycanı dəstəkləməsini istəyir. Sorğuda iştirak edənlərin əksəriyyəti Rusiyanın bu münaqişədə neytral mövqedən çıxış etməsini qeyd etmiş, qalanları isə cavab verməkdə çətinlik çəkmişdir [13]. İctimai fikir fondunun 53 federasiya subketinin 104 yaşayış məntəqəsində 1500 nəfərin iştirakı ilə apardığı sorğunun nəticəsində 6% iştirakçılar Rusiyanın Ermənistanı, 1% isə Azərbaycanı, 52% isə heç bir tərəfi dəstəkləməməyi lazım bildiyi müəyyən olunmuşdur [16].

Birləşmiş Ştatların strateji prioritetləri

Birləşmiş Ştatlara əsasən: münaqişənin yenidən alovlanması Qərb transmilli şirkətlərinin regional layihələrini təhlükə altına düşməsi, Rusiyanı Ermənistanı dəstəkləmək məqsədilə Azərbaycana qarşı hərbi intervensiya təşkil etməsi, NATO üzvü olan Türkiyənin öz strateji müttəfiqi olan Azərbaycanı qorumaq məqsədilə münaqişəyə müdaxilə etməsi, qüvvələrin belə konfiqurasiyasında İranın qeyri-müəyyən reaksiya etməsi və dünya birjalarında neftin qiymətində kəskin artımın müşahidə olunması ən çox ehtimal olunan ssenarilərdəndir. Bu qəbildən Birləşmiş Ştatların Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi münaqişənin yenidən isti fazaya qayıtmaması (I Vəzifə) və münaqişənin Qərb aktorlarının iştirakı ilə dinc yollarla tənzimlənmə zərurəti (II Vəzifə) üzərində qurulub. ABŞ-ın münaqişə ilə bağlı mövqeyini sistemləşdirmək üçün analoji olaraq məqsədi əsaslandırma müraciət etmək zəruridir:

1. I Vəzifə:

1.1. Dondurulmuş münaqişə olan Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin isti fazaya qayıtması geosiyasi entropiyanın artmasına və geoiqtisadi itkilərə səbəb olacaq;

1.2. Entropiyanın artması və geoiqtisadi itkilər neqativ dəyərlidir;

1.3. Demək, münaqişənin isti fazaya qayıtması da neqativ dəyərlidir.

2. II Vəzifə:

2.1. Birləşmiş Ştatların başçılığı ilə Qərbin dövlət və qeyri-dövlət faktorlarının mediator qismində iştirakı münaqişənin dinc yollarla tənzimlənməsinə töhfə verəcək;

2.2. Münaqişənin dinc yollarla tənzimlənməsi pozitiv dəyərlidir;

2.3. Beləliklə, Birləşmiş Ştatların başçılığı ilə Qərbin münaqişənin tənzimlənməsində iştirakı pozitiv dəyərlidir.

Nəzərə çatdıraq ki, hər iki münaqişə tərəfi NATO ilə qarşılıqlı sürətdə hərbi əməkdaşlıq həyata keçirir. Lakin əgər Ermənistan iqtisadi imkanlar məhdudluğu və müttəfiqi olan Rusiyanın narazılığı səbəbindən NATO ilə sıx münasibətlər qura bilmirsə, Azərbaycan Sülh Naminə Tərəfdaşlıq və Fərdi Tərəfdaşlıq Proqramları çərçivəsində NATO ilə yaxın münasibətlər inkişaf etdirir. 9 iyul 2016-cı ildə Varşavada NATO sammiti çərçivəsində Əfqanıstanla bağlı sesiyyada iştirak edən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev qeyd etmişdir: "*NATO-nun etibarlı tərəfdaşı və Əfqanıstanın dostu kimi Azərbaycan "Qətiyyətli dəstək" missiyasına əsgərləri vasitəsilə verdiyi nəzərəçarpan töhfəsini davam etdirəcək və müxtəlif növ tranzit daşımalarını təmin edəcəkdir. ...Biz götürdüyümüz öhdəliklərə uyğun olaraq, həmin fondu maliyyə baxımından dəstəkləməkdə davam edəcəyik*" [1, s. 318]. Bu istiqamətdə Azərbaycan NATO çərçivəsində və ondan kənar ən yaxın müttəfiqi olan Türkiyə ilə də hərbi təlimlərdə iştirak edir. Birləşmiş Ştatların regionda müttəfiqi sayılan İsrailin xüsusi xidmət orqan əməkdaşları isə Azərbaycanın xüsusi xidmət orqan əməkdaşları üçün xüsusi treninqlər həyata keçirirlər.

Birləşmiş Ştatların statistika mərkəzi sayılan "Census Bureau"ya istinadən 2011-ci il məlumatlarına əsasən, Amerikada ermənilərin sayı 483,366 nəfərdir [25]. Qeyd edək ki, azərbaycanlıların Birləşmiş Ştatlarda ümumi sayı 700,000 – 1 mln. arası olmasına baxmayaraq, operativ və koordinasiyalı fəaliyyətdə Azərbaycan diaspor təşkilatları erməni diaspor təşkilatlarından geri qalır.

Azərbaycandan fərqli olaraq ABŞ-da erməni diasporu hələ ötən əsrin əvvəlindən uğurla fəaliyyət göstərir. Erməni diaspor və lobbi təşkilatlarının səyləri nəticəsində 1978-ci ildə C. Karter ilk ABŞ Prezidenti olaraq 1915-ci il hadisələrini soyqırım kimi tanımışdır. R. Reyqan isə seçkiqabağı kampaniyasında özünün müşaviri vəzifəsinə Kaliforniya ştatının prokuroru C. Dokbedjanı təyin etmişdi. Erməni diasporunun bir çox nümayəndələri "Nyu-York Herald" ("New-York Herald"), "Nyu-York Tayms" ("New-York Times"), "Los-Anceles Tayms" ("Los-Angeles Times"), "Vaşinqton Post" ("Washington Post") kimi nüfuzlu qəzetlərdə güclü mövqelərə sahib olmuşlar, erməni əsilli K. Oskanyan isə hətta 1842-ci ildə "Nyu-York Pres Klab" ("New-York Press Club") qəzetinin prezidenti və baş redaktoru vəzifəsində işləmişdir [4, s. 132].

Dağlıq Qarabağın separatçı rejimini müstəqil dövlət kimi tanıtmaq üçün erməni diaspor və lobbi təşkilatları ABŞ-da dinamik fəaliyyət göstərirlər. 2002-ci ildə separatçı rejimdə keçirilən qondarma prezident seçkilərində müşahidəçi qismində Rusiya, Fransa, ABŞ, Böyük Britaniya və İtaliyadan deleqasiyalar iştirak edirdi ki, bu ölkələr içərisində ABŞ xüsusilə seçilirdi. Deleqasiyaya Dövlət Departamentindən məmur, "Vaşinqton Polisi Qrup"un ("Washington Policy Group") koordinatoru C. Huper, konqresmen və senatorlar daxil idi [9]. 2002-ci ildə Kaliforniya ştatının konqresmeni A. Şif-in separatçı rejimə 30 mln. dollara qədər maliyyə yardımı ayrılması haqqında təklifi Konqres tərəfindən qəbul olunmuşdur [4, səh 166].

ABŞ-ın qanunverici orqanlarında zəif mövqelərə malik Azərbaycan bütün bunları icraedici hakimiyyətdə nüfuzu ilə balanslaşdırır. Azərbaycanın siyasi və iqtisadi maraqlarını Amerikada təmin edən əsas mərkəzlərdən biri Amerika Biznes Şurasıdır. Həmin şuranın məsləhətçilərinə tanınmış siyasi və akademik sferanın tanınmış nümayəndələri olan C. Beker, H. Kissencer və R. Çeyni daxildir (mərhum Z. Bzejinski də bu şuraya daxil idi). Şura 12 nəfər tərəfindən idarə olunur ki, bunlar içərisində sabiq Müdafiə Nazirinin Müavini Riçard Armiteyc, Energetika nazirinin müavini Uilyam Veyt və nəhəng neft şirkətlərinin birinci katibləri daxildir [26, səh 48]. Şura 55 müxtəlif neft şirkətləri ilə əməkdaşlıq edir ki, bu da Azərbaycanın Amerikada nüfuz sahibi olan neft maraq qrupları ilə yaxın münasibətlərinə şərait yaradır. Ermənilərin lobbi təşkilatlarına və lobbiçilikdə onilliklərlə qazandıqları təcrübənin qarşılığında Azərbaycan tərəfi Birləşmiş Ştatlarda güclü nüfuza malik peşəkar lobbi təşkilatları ilə münasibətlər qurur. Belə nüfuzlu təşkilatlar içərisində "Livinqston Qrup" ("The Livingston Group") və "Vorldvayd Stratecik Partners" ("Worldwide Strategic Partners, Inc.") adlarını xüsusilə qeyd edə bilərik ki, axırıncı təşkilat Prezident İlham Əliyevin kiçik C. Buş ilə görüşünə, Konqresdə Böyük İpək Yolu layihəsinə dair ikinci qanun aktının qəbul edilməsinə və Azərbaycanda keçirilən 2005-ci il seçkilərinə Amerika KİV-nin neqativ münasibətini azaltmağa nail olmuşdur [14, səh 21].

Azərbaycanın maraq qrupları, peşəkar lobbi təşkilatları, müttəfiq ölkələrin diaspor təşkilatları ilə birgə səyləri praktikada öz bəhrəsini verməyə başlayıb. Azərbaycana hər hansı bir dövlət yardımını qadağan edən 907-ci düzəliş hələ Bil Klintonun hakimiyyəti vaxtı öz atuallığını itirməyə başlayıb, kiçik C. Buş vaxtından isə hər il prezident tərəfindən dondurulur. Dövlət Departamentinin 2007-ci il məruzəsində Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal edilmiş ərazi kimi göstərilmişdir. Erməni diaspor və lobbi təşkilatlarının səyi nəticəsində həmin cümlə iki dəfə neytral forma alsa, son nəticədə Departament onu əvvəlki vəziyyətinə qaytarmışdır [14, səh 21].

Nəticə

Aparılan tədqiqat nəticəsində Birləşmiş Ştatlar və Rusiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı başlıca strateji prioritetləri qarşılıqlı sürətdə müqayisə olunmuşdur. Təhlil çərçivəsində Azərbaycanın hər iki ölkədə milli maraqlarının təmin olunmasının gücləndirilməsi istiqamətində apardığı ardıcıl siyasət fərqli bucaqlardan nəzərdən keçirilmişdir. Azərbaycanın nüfuz kateqoriyası aspektində Ermənistandan geri qalma faktı etiraf olunsa da, bu boşluğun tez bir zamanda azaldığı müəyyən olunmuşdur.

Ədəbiyyat

1. Əliyev İ.H., İnkişaf məqsədimizdir: [95 cilddə] / İlham Əliyev. Bakı: Azərnəşr, – c. 74. – 2018. 400 s.
2. Həsənov, Ə. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti. Dərslik. / Ə. Həsənov. – Bakı: Azərbaycan nəşriyyatı, – 2005. – 751 s.
3. Şükürov, M. Dağlıq Qarabağ münaqişəsinin tarixi-siyasi və ideoloji aspektləri (90-cı illərin I yarısı). / M. Şükürov. – Bakı: Qartal, – 1999. – 120 s.
4. Ивин, А.А. Логика. Учебное пособие Издание 2-е / А.А. Ивин. – Москва: Знание, – 2002. – 183 с.
5. Интервью, в гостях: Премьер министр Армении Никол Пашинян, ведующий Алексей Венедиктов [Электронный ресурс] / 25 июль, 2018. URL: https://echo.msk.ru/programs/beseda/2246298-echo/
6. Колосов, В.А. Геополитика и Политическая География / В.А. Колосов, Н.С.Мироненко – Москва: Аспент Пресс, – 2001. – 509 с.
7. Кто такой Никол Пашинян: пять фактов о лидере революции в Армении [Электронный ресурс] / 24 апрель, 2018. URL: https://www.bbc.com/russian/features-43886648
8. Мнения делегаций зарубежных стран, осуществляющих наблюдение за ходом президентских выборов: [Электронный ресурс] / URL: http://www.karabagh.am/GlavTem/mnenija.htm.
9. Опрос в России: Карабах чей? [Электронный ресурс] / 21 сентябрь, 2015. URL: http://ru.oxu.az/war/93819

10. Отношения Москвы и Еревана изменятся, но только к лучшему - Никол Пашинян в интервью Россия [Электронный ресурс] / 12 май, 2018. URL: https://www.tert.am/ru/news/2018/05/12/Pashinyan-rossia-24/2683286

11. Почему Путин не вмешался в бархатную революцию в Армении - Никол Пашинян в "Немцова. Интервью" [Электронный ресурс] / 30 май, 2018. URL: https://www.dw.com/ru/никол-пашинян-в-немцоваинтервью-о-том-почему-путин-не-вмешался-в-бархатную-революцию-в-армении/av-43981341

12. Россияне не поддерживают ни Армению, ни Азербайджан – ОПРОС [Электронный ресурс] / 12 май, 2016. URL: http://ru.oxu.az/politics/131170

13. Сучков, М.А. Влияние лобби-групп на формирование внешней политики США на Южном Кавказе // – Москва: Вестник МГИМО Университета, – 2013. № 4, – с. 18-24.

14. Цыганков, П.А. Теория демократического мира: [Электронный ресурс] / 1996. URL: https://textbooks.studio/-uchebnik-mejdunarodnie-otnosheniya/teoriya-demokraticheskogo-mira.html

15. Что думают россияне о карабахском конфликте? – ОПРОС [Электронный ресурс] / 15 апрель, 2016. URL: http://ru.oxu.az/politics/127553

16. Эксклюзивное интервью премьер-министра Армении Никола Пашиняна - МИР 24 [Электронный ресурс] / 21 июнь, 2018. URL: https://mir24.tv/news/16310668/pashinyan-u-nas-s-putinym-slozhilis-chestnye-pryamye-otnosheniya-eksklyuziv

17. [Fwd: BBC Monitoring Alert - Armenia]. The Global Intelligence Files [Electronic resource] / September 18, 2012. URL: https://wikileaks.org/gifiles/docs/11/1198610_-fwd-bbc-monitoring-alert-armenia-.html

18. Lu, D. Azerbaijani President: I Didn't Stand Behind Saakashvili Because It Would Have Made No Difference, Original Classification: Confidential, Enclosure: TE –Telegram (cable): [Electronic resource] / August 22, 2008. URL: https://wikileaks.org/plusd/cables/08BAKU790_a.html

19. MacFarquhar, N. He Was a Protester a Month Ago. Now, Nikol Pashinyan Leads Armenia: [Electronic resource] / May 8, 2018. URL: https://www.nytimes.com/2018/05/08/world/europe/armenia-nikol-pashinyan-prime-minister.html

20. MacFarquhar, N. Behind Armenia's Revolt, Young Shock Troops From the Tech Sector: [Electronic resource] / May 19, 2018. URL: https://www.nytimes.com/2018/05/19/world/europe/armenia-revolt-tech-sector.html?rref=collection%2-Ftimestopic%2FArmenia&action=click&contentCollection=world&region=stream&module=stream_unit&version=latest&contentPlacement=1&pgtype=collection

21. MacFarquhar, N. Denied Power, Armenian Opposition Leader Urges Nationwide Strikes: [Electronic resource] / May 1, 2018. URL: https://www.nytimes.com/2018/05/01/world/europe/armenia-prime-minister.html

22. Mammadov, N. About the main directions in the foreign policy of Azerbaijan // – Baku: Azerbaijan Focus, Journal of İnternational Affairs, Center for Strategic Studies under the President of the Republic of Azerbaijan, – 2010. № 2 (2), – p. 17-49.

23. Roth, A. 'He's not a populist, he's popular': Nikol Pashinyan becomes Armenian PM: [Electronic resource] / May 8, 2018. URL: https://www.theguardian.com/world/2018/may/08/hes-not-a-populist-hes-popular-nikol-pashinyan-becomes-armenian-pm

24. Total Ancestry Reported, 2011 American Community Survey 1-Year Estimates: [Electronic resource] / December 22, 2012. URL: http://ia601608.us.archive.org/26/items/2011AmericanCommunitySurveyAncestry/2011Acs.pdf

25. Uslu, R., Sinan K. The Activities of The Azerbaijani Diaspora in The United States of America // The WEI International Academic Conference Proceedings, – Orlando: – March 21 – March 23, – 2013, – p. 46-50.

"MARS ACADEMY" MMC-NİN RƏQABƏT STRATEGİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Zakir Əlizadə
Bakı Biznes Universitetinin magistrantı
E-mail: zalizada201913@gmail.com

Xülasə: *Strateji marketinq təşkilatların, qrupların və fərdlərin dəyərlərini müəyyənləşdirmək, təmin etmək, ünsiyyət qurmaq və başqalarına çatdırmaqla ehtiyaclarını və istədiklərini əldə etmə müddətinə rəhbərlik edən bir fəlsəfədir. Marketinqin əsas anlayışları müştərilərin ehtiyacları, istəkləri və dəyərləridir; məhsullar, mübadilə, rabitə və əlaqələr. Marketinq strateji cəhətdən təşkilatın rəqabət üstünlüyü əldə etmək üçün həyata keçirdiyi uzunmüddətli fəaliyyətlərin istiqaməti və əhatə dairəsi ilə əlaqədardır. Təşkilat maraqlı tərəflərin gözləntilərini qarşılayarkən, müştərilərin ehtiyaclarını ödəmək üçün resurslarını dəyişən bir mühitdə tətbiq edir.*

Açar sözləri: *Rəqabət, strategiya, bazar strategiyası, tədris, Mars Academy*

Giriş

Rəqabət strategiyası və onun elmi mahiyyəti

Rəqabət strategiyasının quruluşu, təxminən 30 il əvvəl yarandığı gündən bəri strateji idarəetmədə müzakirə olunur. Günümüzdəki ədəbiyyatlarda bir neçə fərqli tərif meydana gəlmişdir, lakin strategiya quruluşunun bəzi aspektləri ilə bağlı alimlər arasında heç bir razılaşma mövcud deyil. Məsələn, menecerlərin strategiyanın hazırlanmasında nəzərə almalı olduqları əsas məsələlər nələrdir (strategiya məzmunu ilə bağlı mübahisələr) və strategiyanın

(strategiya prosesi ilə bağlı mübahisələrin) formalaşmasında və həyata keçirilməsində hansı bir yol izlənilməlidir və s. Bu gün rəqabət strategiyası haqqında, 4 görkəmli alimin fikirlərindən götürülmüş aşağıdakı strategiya tərifləri-ni təqdim edə bilərik: strategiya bir arada müəssisənin əhatə dairəsini və yaşamaq və müvəffəqiyyətə yanaşma tər-zini müəyyənləşdirən bir sıra hədəflər, siyasətlər və planlardır (Rumelt , 1991). Deyə bilərik ki, bu strategiyanın ümumi tərifidir, lakin korporativ strategiya anlayışına bənzəyir. Bu səbəbdən eyni müəllifin mürəkkəb və dinamik bir rəqabət mühitinin öhdəsindən gəlmək üçün bu hədəflərin, siyasətlərin və planların bir hissəsinin firmanın iş strategiyasında hazırlandığına razı olacağını qeyd etmək olar.

Buna görə də, biznes səviyyəsində strategiya, firmanın fərdi məhsul bazarlarında "necə rəqabət aparacağına" qərar verərkən etdiyi seçimlərlə bağlıdır. Beləliklə, daha konkret olaraq "firmanın konkret məhsul bazarlarında əsas sərişẗələrdən istifadə edərək rəqabət üstünlüyü qazanmaq üçün istifadə etdiyi birləşdirilmiş və koordinasiya edilmiş öhdəliklər və hərəkətlər toplusu" olaraq təyin edilə bilər (Rindova & Fombrun, 1999). Bu son tərifdə istifadə olu-nan iki rəqabət üstünlüyü və əsas sərişẗələri müəyyənləşdirmədən əvvəl "necə rəqabət aparacağına dair seçimlər" üçün nəyi düşündüyümüzü aydınlaşdırmalıyıq.

Otuz illik mübahisələrdən sonra idarəetmə alimləri rəqabətə davamlı strategiya məzmununun üç vacib meya-rı nəzərdən keçirməkdən qaça bilməyəcəyi fərziyyəsi ilə razılaşmağa meyllidirlər: kim, nə və necə. Əsasən, bu öl-çülər hər menecerin verməli olduğu üç əsas sualı təmsil edir.

Firmanın xidmət etmək istədiyi müştəri seqment (lər) ini seçməyə kimin müraciət etməyi ilk sualdır. Bu qərar, məhsulların / xidmətlərin yerləşdirilməsi baxımından edilməli olan nəticələr (marketinq seçimləri) ilə əlaqəlidir.

Firmanın təklif etməyə qərar verdiyi məhsul / xidmətin xüsusiyyətləri ikinci sualdır. Firma həmin məhsul / xidmət vasitəsilə təmin etməyi gözlədiyi ehtiyacları nəzərə almalıdır. Bu baxımdan seçim iki variant arasında ola-caq: a) rəqiblərdən fərqli bir şəkildə ehtiyacın ödənilməsi; b) əvvəllər heç bir firma tərəfindən heç vaxt təmin olun-mayan ehtiyacın müəyyənləşdirilməsi.

Üçüncü sual, firmanın məhsulunu necə təmin etdiyinə (yəni istehsal və paylanmasına) necə yanaşması və rə-qiblərindən fərqlənməsidir. Məsələn, firma texnologiya və istehsal sistemlərində mənimsənilməsi üçün müxtəlif se-çimlər və ya seçmək üçün daha sərfəli / yaşanacaq olan kanal tipologiyasını təklif edə bilər.

Buna görə təsirli bir rəqabət strategiyası yaratmaq, aşağıdakı suallara cavab verə bilmək deməkdir: 1) hədəf müş-tərilərim kimdir və ehtiyacları nədir? 2) onlara hansı növ məhsullar / xidmətlər təklif etməliyəm? və 3) rəqiblərimlə müqayisədə, eyni zamanda, səmərəli və yenilikçi olmağa çalışan məhsullarımı / xidmətlərimi necə təmin etməliyəm?

Bunlar məzmununun əsas tərkib hissələridirsə, iş strategiyasının mahiyyəti hər bir firmanı fəaliyyətlərini fərqli şəkildə yerinə yetirməsi (və ya rəqiblərinə nisbətən fərqli fəaliyyət göstərməsi) ilə rəqiblərindən fərqləndirən xüsusiyyətləri əks etdirməlidir.

Qeyd edildiyi kimi, Rindova və Fombrun'un (1999) iş strategiyasının tərifi, aydınlaşdırma tələb edən iki konstruksiyanı (rəqabət üstünlüyü və əsas səlahiyyətlər) əhatə edir. Rəqabət üstünlüyü firmanın əsas sərişẗələrindən istifadə edərək inkişaf etdirdiyi rəqabət strategiyasının son nəticəsidir. Prahalad və Hamel (1990) əsas sərişẗələr (və ya fərqli sərişẗələr) anlayışından istifadə edən ilk alimlər idi. Bu konsepsiyada menecerlər öz firmalarının rəqabət üstünlüyü verən bütün rəqiblərindən fərqləndirən özünəməxsus bacarıqları inkişaf etdirmə qabiliyyətini özündə bir-ləşdirdilər. Daha dəqiq desək, əsas sərişẗələr təcrübə yolu ilə inkişaf edir. Menecerlər müəyyən bir sahədə rəqabət aparmağı öyrənirlər və sınaq və səhv prosesi (Eisenhardt & Tabrizi, 1995) vasitəsilə bu cür bilikləri ümumi təşkila-ta ötürərək peşəkar bacarıqlarını inkişaf etdirə bilirlər. Təşkilatlar eyni zamanda öz sənaye təcrübələrindən (istehlakçı davranışı, rəqabət mühiti, bəxş edilmiş qaynaqlar və s. baxımından) faydalanmağa, bu cür menecerlərin biliklərini təşkilati biliklərə və gündəlik işlərə çevirmək üçün daxili sistemlər inkişaf etdirməyə çalışırlar. Davamlı inki-şafla bu öyrənmə yanaşması firmanın rəqabət üstünlüyünü inkişaf etdirmək üçün əsasdır.

Rəqabət üstünlüyü konsepsiyası ilk növbədə üstünlüyün üç əsas tipologiyasını (xərc liderliyi, fərqləndirmə və fokuslaşma) müəyyənləşdirən Porter (1980) tərəfindən hazırlanmışdır.

Bazar strategiyasının elmi mahiyyəti

Strateji planlaşdırma və idarəetmə sahəsindəki çoxsaylı araşdırma məqalələri, əlverişli bir strategiyanın şirkət üçün bir çox üstünlük təmin etdiyini göstərir. Eyni zamanda, müasir müəssisələrdə strategiyanın formalaşdı-rılması məsələsinə kifayət qədər diqqət yetirilmir. Çox sayda müəssisə heç bir strateji plan olmadan fəaliyyət göstə-rir ki, bu da təhdidlərin təsiri altında həssaslığa və qeyri-sabitliyə səbəb olur. Buna görə də "strategiya" konsepsiya-sının mahiyyətini müəyyənləşdirmək, mənfəət gətirmək, strategiyanın formalaşdırılmasının əsas texnikasını təsvir etmək və qurumun iqtisadi təhlükəsizliyini təmin etməkdə strategiyanın rolunu vurğulamaq lazımdır.

Dünya bazarında yeni bazarların sürətli nüfuzu, artan rəqabət səviyyəsi firmaları daxili bazarı inkişaf etdir-məklə yanaşı qlobal bazarı fəth etmək üçün daha təsirli yollar tapmağa təşviq edən amillərdəndir. Bazarda uğurlu və uzunmüddətli iştirak etmək istəyən müəssisələr üçün marketinq fəaliyyətlərini təşkil etmək məqsədəuyğundur; bu səbəbdən dəqiq marketinq strategiyası seçmələri lazımdır. Marketinq strategiyasının seçimi şirkətdə bitmir, çünki seçilmiş marketinq strategiyalarını daim qiymətləndirmək və izləmək vacibdir. Qiymətləndirmə və effektiv nəzarətə əlavə olaraq, yaxşı seçilmiş marketinq strategiyası belə bazar inkişafı və qiymətləndirmə və monitorinqi

nəzərə alaraq düzəlişlər edilmədən təsirsiz ola bilər. Marketinq strategiyasının planlaşdırılması, qiymətləndirilməsi və nəzarəti çox vaxt müəssisədəki ən aktual problemlərdəndir. Şirkət qarşısına qoyduğu marketinq hədəflərinə çatmaq üçün yalnız sistemli və məqsədyönlü qiymətləndirmə deyil, həm də ağıllı nəzarət təşkil etmək lazımdır. Marketinq strategiyasının qiymətləndirilməsi və nəzarəti gözlənilən nəticələrə nail olmaq üçün şirkətin strateji marketinq fəaliyyətini qiymətləndirmək üçün nə vaxt və necə tənzimlənəcəyi, hansı göstəricilərin seçiləcəyi problemini həll etməyə imkan verir. Marketinq strategiyasının qiymətləndirilməsi və iş fəaliyyətinə nəzarət lazım olsa da, bütün şirkətlər bunu öz fəaliyyətlərində tətbiq etmirlər. Ədəbiyyatda bu qiymətləndirmə əsasında hansı göstəricilərin aparılmalı olduğu haqqında ümumi bir yanaşma yoxdur. Bu baxımdan ortaq yanaşma tədqiqatın nəzəri problemi olaraq qəbul edilir.

Tədris bazarında rəqabətliliyin əsasları

21-ci əsrdə baş verən alış prosesindəki dəyişikliklərdən biri də perspektiv müştərilərimizin məhsullarımız, xidmətlərimiz və rəqiblərimiz haqqında əvvəlkindən daha çox məlumat əldə etməsidir. Hələ ilk günlərdə (bəziləri onlara "yaxşı günlər" deyirlər), həmin məhsul və ya xidmətə aid olan məlumatların tam həcmini əldə etmək üçün satış mütəxəssisi ilə danışmaq lazım gəlirdi. Bu artıq vəziyyət deyil. Nəticə etibarilə fərqli şəkildə bazar rəqabəti təşkil etməliyik. Köhnə təhsil marketinqi məhsullarımızın "sürət və nə verdiyi" barədə danışırdı. Başqa sözlə desək, texniki imkanlar özləri üçün perspektiv müştəridə adekvat maraq yaratmaq üçün kifayət qədər təsir edici idi. Təəssüf ki, 21-ci əsrə doğru irəlilədikcə marketinqə bu yanaşma nəticə vermir. Satışa hazır potensiala çevrilməli potensial müştəri yaratmaq üçün də yaxşı xidmət göstərmir.

Tədris bazarında rəqabətliliyi təmin etmək üçün Təhsil Marketinqi ən optimal vasitədir. Adından da göründüyü kimi, TM (Təhsil Marketinqi) perspektivləri qurmaqdansa, onları inkişaf etdirmək üçün bir müddətdir. Perspektiv müştərilər şirkətin məhsulları və ya xidmətləri ilə əlaqəli olduqda ortaya çıxan nəticələrin kəmiyyətini, keyfiyyətini və dəyərini anlamaq üçün öyrədilməlidir. Yüksək texnoloji məhsullar və xidmətlər satılırsa, bu Təhsil Marketinqində daha vacibdir. Bunun səbəbi texnologiyalara, məhsullara və xidmətlərə istinad etmək üçün istifadə edilən "buzzwords" in (sözcüklərin) bir çoxunun orta, qeyri-texniki qərar qəbul edənlərə yad olmasıdır. Yenə də öyrətmə tələb olunur. İndi bir perspektiv müştərini öyrətməyin ən yaxşı yolu, mövcud müştərilərin pulsuz veb seminarları, sənədləri və / və ya ifadələrinin birləşməsidir.

Təhsil üçün vasitə olaraq veb seminarlar seçilən zaman özümüzü bu sahənin lideri kimi göstərməliyik. Bu, xüsusən gözəgörünməz xidmətlər və məhsulları tətbiq etmədən sonra nəticələri sübut olunmayan konsepsiya və ya xidmət satılırsa, idealdır. Xidmətlərin dəyəri dərhal görünmürsə, perspektiv müştəri öyrədilməlidir. İndi Təhsil Marketinqi "pitching" dən daha çox vaxt və səbr tələb edir. Təəssüf ki, "pitching" nəticə əldə etmək üçün çox enerji və pul xərclənilməsinə səbəb olur.

Təhsil Marketinqinin yavaş, lakin davamlı yanaşması bir il ərzində daha yaxşı ümumi gəlir gətirəcəkdir. Ancaq səbrli olmaq gərəkdir. Gəlir ani deyil. Əksər Təhsil Marketinqi təşəbbüslərinin uğursuz olmasına səbəb qapalı dövr marketinqi qaydalarına riayət edilməməsi və ona əməl edilməməsidir. Təqib etmədikdə, Təhsil Marketinqi səyləri "təhsil dozu" yaratmış ola bilər, ancaq perspektiv müştərilərdə istəyi stimullaşdırmaq üçün yetərli deyil.

Hər perspektivin əbədi olaraq öyrətdildiyinə əmin olmaq lazımdır. Davranışlarının bir hissəsini və ya hamısını dəyişdirməyə hazır olduqları ana qədər bir perspektiv müştəri ilə 7, 8, 9 və ya 10 qarşılıqlı əlaqə tələb oluna bilər. Bir perspektiv müştərini öyrətmək üçün tələb olunan çox sayda əlaqədən məyus olmağa ehtiyac yoxdur, belə ki bu təhsil bazarında olan rəqabətliliyi birbaşa olaraq tənzimləyir və şirkətlərin nə qədər müştəriyönümlü təsis olunduğunu təcəssüm etdirir. Araşdırmalar bu əlaqələrin telefon danışıqları, e-poçtlar, bülletenlər, kartpostallar, veb seminar dəvətnamələri, ticarət şousu görüşləri, şəbəkə tədbirləri və s. ola biləcəyini sübut edir. Təhsil Marketinqi ilə əlaqəli olaraq qapalı yanaşma göstərilməli, nəyin bahasına olursa olsun, hər hansı bir terminologiyadan və ya qiymətdən bəhs etməmək qaydasına əməl edilməlidir. Marketinq materialında qiymət varsa, məhsulun rəqabəti olmadığı təqdirdə və ya məhsulun çıxardığı nəticələr hər hansı bir maraqlı tərəf üçün açıq olduqda təsirli olacaqdır.

Ümumiyyətlə, qeyd oluna bilər ki, Təhsil Marketinqi təhsil bazarında rəqabətliliyi təmin edən və onu izah edən əsas amillərdən birincisidir. Bu səbəbdən də istənilən təhsil şirkəti bazarda dayanıqlı iştirak üçün bazarın qeyd olunan tələblərinə əməl etməlidir.

Ədəbiyyat

1. Eisenhardt, K. M. & Tabrizi, B. N., 1995. Adaptasiya proseslərinin sürətləndirilməsi: qlobal kompüter sənayesində məhsul yeniliyi, İdarəetmə Elmi Rüblük, 40, s. 84-110.
2. Porter, M. E., 1980. Rəqabət strategiyası, Azad Press: New York.
3. Prahalad, C. K. & Hamel, G., 1990. Korporasiyanın əsas səriştəsi, Harvard Business Review, 68: 3, s. 79-91.
4. Rindova, V. & Fombrun, C., 1999. Rəqabət üstünlüyünün qurulması: firmanın təsis etdiyi qarşılıqlı təsirlərin rolu, Strateji İdarəetmə Jurnalı, 20, 691-710.
5. Rumelt, R. P., 1991. Ticarət strategiyasının qiymətləndirilməsi. Mintzberg, H., Strateji prosesi: anlayışlar, kontekstlər və hallar. Englewood Cliffs, New York: Prentice Hall, s. 52-59.

IMPROVEMENT OF SUPPLY OPERATIONS AT "YOM LOGISTICS AZERBAIJAN"

Sakina Babayeva
Baku Business University, MS Student
E-mail: babayevasakinaa@gmail.com

Summary: *Strategic supply chain operations put companies on a path to sustained improvement critical to business operations including company costs and profits.*

Supply chain operations include the systems, structures and processes to plan and execute the flow of goods and services from supplier to customer. To maximize effectiveness, it is critical to evaluate both internal operations and the extended supply chain that includes suppliers and customers. YOM is growing fast, it is getting harder to evaluate, reasons for such development rate. In different circumstances, the analysis of the reasons can also contribute as a learning point that the mistakes would not be repeated in the extended part of the supply chain in nowadays.

Key words: *International markets, strategy, companies, the finished goods, exports, and finally to the end customer.*

Qeyd etmək vacibdir ki, ölkə regionları mövcud potensialına, məşğulluq səviyyəsinə, həmçinin, aqrar sahənin inkişafı baxımından bir-birindən fərqlənirlər. Hər bir regionda aqrar bazar münasibətləri nəticə etibarilə məqsədli proqram və resurs potensialı əsasında yenilənir, həmçinin orada yaşayan əhalinin məşğulluğu və tələbatlarının səmərəli şəkildə ödənilməsi mənbəyi kimi mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə də aqrar bazarın sosial-iqtisadi və təşkilati problemləri, həmin ərazinin kompleks iqtisadi inkişafına uyğun formalaşdırılan və onun regional xüsusiyyətlərini nəzərə almaqla müəyyən edilən şərtlərə əsaslanır. Bu şərtlər aşağıdakılara aid edilir:

– milli iqtisadiyyat və aqrar bazarın səmərəli inkişafına şərait yaradan istehsal-emal istiqamətlərinə xüsusi investisiya layihələrinin işlənilərək həyata keçirilməsi;

– hər bir regionda aqrar bazarın inkişafı həmin regionda mövcud potensialın iqtisadi dövriyyəyə düzgün cəlb edilərək səmərəli istifadə edilməsi və dövlətin analoji sahənin inkişafı istiqamətində tənzimləmə tədbirlərinin daha da genişləndirilməsi ilə mümkün ola bilər;

– aqrar sahibkarlığın hərtərəfli inkişaf etdirilməsi, eyni zamanda, onun iqtisadi və sosial rolunun artırılması üçün təşkilati və iqtisadi tədbirlərin dövlətin tənzimləyici tədbirləri vasitəsilə əsaslandırılması – bu istiqamətdə tənzimləmə tədbirlərini daha da genişləndirilməsi;

– aqrar bazarın inkişafı və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılması məqsədilə müxtəlif regionlarda yerləşən təsərrüfat subyektləri arasında qarşılıqlı səmərəli əməkdaşlıq və kooperasiya əlaqələrinin hərtərəfli inkişaf etdirilməsi və s.

Bu gün müsbət haldır ki, regionlarda sahibkarlığın inkişafı ölkənin iqtisadi qüdrətinin artırılmasını və iqtisadi artımı təmin etdiyindən dövlət onun maraqlarının müdafiəçisi rolunda çıxış edir. Ölkəmizdə dövlət – sahibkar münasibətlərini tənzimləyən əsas prinsiplər müəyyənləşdirilmişdir. Dövlətin uzunmüddətli iqtisadi siyasətinin başlıca istiqamətləri və prinsipləri əsasında sahibkarlığın inkişafı keyfiyyətcə yeni təsərrüfatçılıq münasibətləri sisteminin formalaşmasına əsaslanır. Göstərilən prinsiplər dövlətin sahibkarlığın inkişafında üzərinə götürdüyü öhdəlikləri və sahibkarın cəmiyyətə münasibətdə məsuliyyətinin əsas müddəalarını formalaşdırmışdır. Bu meyarlar dövlətin xüsusi mülkiyyətin və və şəxsiyyət azadlığının toxunulmazlığının əsas dəyərlərə çevrilməsinə şərait yaradan sosial-iqtisadi mühitin yaradılmasına təminatı, eyni zamanda, sahibkarın dövlətə münasibətdə özünün sosial və hüquqi məsuliyyətini dərk edərək onlardan irəli gələn vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur.[3, s.4]

"Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununa əsasən, dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsilə tənzimləyir. Dövlət maddi-texniki, maliyyə, əmək, informasiya və təbii ehtiyatlardan istifadə sahəsində mülkiyyət və təşkilati hüquqi imtiyazlara və qeyri-bərabərliyə yol vermir. Sahibkarlığın sürətli inkişafını təmin etmək üçün dövlət sahibkarlıq fəaliyyətinin öncül istiqamətlərini və buna müvafiq olaraq güzəştlər sistemini müəyyənləşdirir.

Dövlət sahibkarlığa kömək məqsədilə informasiya, məsləhət, elm və tədris mərkəzləri, maliyyə fondları yaradır, vergi ödənişlərinin və vergi tutulmayan digər ayırmaları müəyyənləşdirir. Mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə həyata keçirən sahibkarın hüquqlarının və qanuni mənafelərinin müdafiəsini dövlət təmin edir.[4, s.12]

Dövlət iqtisadiyyatda və sahibkarlığın inkişafında hansı rolu oynamalıdır? Bu məsələ müxtəlif dövrlərdə və ölkələrdə və vaxtaşırı müzakirə mövzusudur. Bu gün də iqtisadçıların bu məsələ haqqında rəyləri müxtəlifdir.

İqtisadçıların bir hissəsi A.Smit kimi "liberal iqtisadiyyat" prinsiplərinə qayıtmağı daha üstün tutaraq, dövlətin iqtisadiyyata müdaxiləsini azaltmağa çalışırlar. Digərləri dövlətin fəal rolunun tərəfdarları kimi çıxış edirlər. Rəy müxtəlifliyinə baxmayaraq, demək olar ki, bütün iqtisadçılar bir sıra iqtisadi funksiyaların yalnız dövlət tərəfindən yaxşı formada həyata keçirilə bildiyini ifadə edirlər. Bu funksiyalar aşağıdakılardır:

- milli təhlükəsizliyin təmin edilməsi;
- bazar iqtisadiyyatının müdafiə olunması;
- sahibkarlığa kömək;
- müəyyən qrup əhaliyə yardım;
- ehtiyacı olanlara yardım etmək;
- rəqabətin qorunması;
- xarici təsirlərin nəzərə alınması;
- ictimai istifadə üçün əmtəə və xidmətlərinin təmin edilməsi;
- iqtisadiyyatın sabitləşdirilməsi və tənzimlənməsi və s.[5, s.82, 83]

Müasir mərhələdə Azərbaycan iqtisadiyyatında dövlət iqtisadiyyatın bütün sektorlarını birbaşa və dolayı iqtisadi mexanizmləri ilə tənzimləməklə mülkiyyətin bütün formalarının inkişafı üçün şərait yaradır. Bu proses təsərrüfat daxili əlaqələri və proporsiyaları formalaşdırmaqla şəxsi və ictimai maraqları təmin edir. Mülkiyyətin dövlət və xüsusi formalarında əsas dövlətin iqtisadiyyatı tənzimləmə mahiyyəti olmasıdır ki, bu da sosial-iqtisadi zərurəti kimi ortaya çıxır. Dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin tənzimlənməsi metodları iki qrupa bölünür:[6, s.40]

- birbaşa (adminstrativ) metodlar – sahibkarlıq fəaliyyəti göstərən subyektlərə birbaşa dövlətin təsir, tənzimləmə vasitəsidir.

- Dolayı metodlar – sahibkarlığa, təsərrüfat subyektlərinin fəaliyyətinə şəraitin yaradılması yolu ilə formalaşdırılan iqtisadi təsir vasitəsidir.

Birbaşa tənzimləmə metodlarına dövlət nəzarəti hüquqi şəxslərin və fərdi sahibkarların dövlət qeydiyyatı ayrı-ayrı sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılması, hökumət qurumlarının qərarları, antiinhisar orqanlarının sərəncamları və s. daxildir. Dolayı metodlara isə güzəştli kreditləşdirmə, vergi güzəştləri, proqnozlaşdırma, planlaşdırma, dövlət sifarişləri və s. kimi iqtisadi rıçaqlar aiddir. Dolayı nəzarət sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı qanun və qaydalara əməl olunmasına nəzarət və yoxlamalar sistemini özündə əks etdirir. Dövlət nəzarətinə vergi, gömrük nəzarəti, maliyyə, valyuta və dövlət büdcəsi vasitəsilə tənzimləmə, lisenziyalaşdırma, keyfiyyətə nəzarət, bank və sığorta nəzarəti, ekoloji və sanitar-epidemioloji nəzarət və s. daxildir.

Strateji Yol Xəritəsi kiçik və orta sahibkarlıqda iqtisadi islahatların və inkişafın qısa, orta və uzunmüddətli perspektivdə əsas istiqamətlərini müəyyənləşdirir. Bu 2020-ci ilədək strateji baxışdan, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Strateji Yol Xəritəsində 2016-2020-ci illər üçün inkişaf strategiyası və tədbirlər planında yalnız müvafiq dövr üçün strateji məqsəd və hədəflər deyil, eyni zamanda, həmin illər ərzində qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müəyyənləşdirilmiş prioritetlər və həmin prioritetlər çərçivəsində həyata keçiriləcək tədbirlər qeyd edilmiş və hər bir tədbirin adı, əsas və digər icraçıları, nəticə indikatorları və konkret icra müddəti əks olunmuşdur.[7, s.4] Ölkədə kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək istiqamətində aşağıdakılar strateji hədəf kimi müəyyənləşdirilmişdir:

- uzunmüddətli perspektivdə kiçik və orta sahibkarlığın Azərbaycanın ÜDM-ə təsirini artırmaq məqsədilə ölkədə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması;

- kiçik və orta sahibkarlıq subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması məqsədilə maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi;

- ölkənin valyuta ehtiyatlarının artırılması və ölkədə istehsal olunan malların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə kiçik və orta sahibkarlığın fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması;

- ixtisaslı işçi qüvvəsinin hazırlanması və kiçik və orta sahibkarlıq subyektlərinin bacarıqlarının inkişafına xüsusi diqqət ayırmaqla, regional bazarlarda keyfiyyətli məhsul və xidmətlər təklifinin artırılması;

- kiçik və orta sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların təşviqi, bu sahə ilə bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi;

Bazar münasibətləri regionlarda yeni sahibkarlıq strukturunun təşəkkülü və təsərrüfatçılıq formalarının müxtəlifliyi şəraitində aqrar istehsalın məcmuu səmərəsi təşkilati-hüquqi formaların nisbətindən onların ən prioritet sayılanlarının konkret təsərrüfatçılıq şəraitinə tətbiqən inkişaf dərəcəsindən bilavasitə asılıdır. A.V.Cayanovun tədbircə desək, aqrar sahənin təsərrüfat subyektləri əməyin keyfiyyətinə görə üç qrupa bölünür:

- səmərəli təsərrüfatçılıqla məşğul olmaq istəyən və bunu bacaran təsərrüfatçı sahibkarlar;
- təsərrüfatı uğurla idarə etmək istəyən, lakin bunu bacarmayanlar;
- yaxşı çalışmaq və təsərrüfatçılıqla məşğul olmaq istəməyən və bunu bacarmayanlar və s.

Təbii ki, bütün bunlar kənd yerlərində çox funksional həyat fəaliyyətinin zəruri iqtisadi və sosial şəraitin yaradılması üçün aqrar siyasətin ümumi strategiyasının həyata keçirilməsində selektiv yanaşmaların ümumi istiqamətləridir. Nəzərə alaq ki, postsovet ölkələrinin bir çoxunda kəndin sosial inkişafının vəziyyəti böhranlı vəziyyət kimi qiymətləndirilir. Bu vəziyyətin əsaslı şəkildə yaxşılaşdırılması dövlətin həyat əhəmiyyət kəsb edən vəzifələrindən biridir. Sosial effektivlik bütün qeyri-istehsal sahəsinin həyati əhəmiyyət kəsb edən tərkib hissəsi kimi sosial sistemin fəaliyyətinin səmərəliliyinin konkret ifadəsidir (həm mahiyyət etibarilə, həm də kəmiyyət və keyfiyyət təhlilinin metodologiyasına, meyarlarına və göstəricilərinə görə). Qeyd edək ki, sosial sfera əhalinin mədəni, məişət və digər sosial ehtiyaclarını – təhsil, səhiyyə, sərnişin nəqliyyatı, rabitə, pensiya və sığorta təminatı, ticarət və ictimai iaşə obyektlərinin məcmusu və s. təmin edən sahələri və xidmətləri əhatə edir. Sosial sferanın iqtisadiyyatının əsas tədqiqat obyektləri bu sferaya aid sahələrdə mülkiyyət, həmin obyektlərdə əmək münasibətləri, əməyin növü, xarakteri və keyfiyyəti nəzərə alınmaqla onun ödənilməsi, maliyyə, bölgü və təsərrüfat münasibətlərinin başqa formalarıdır. Aparılan tədqiqatların nəticəsindən və qabaqcıl təcrübənin təhlilindən göründüyü kimi regionlarda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi investisiya potensialının formalaşmasının tempi və həmin potensialdan istifadənin səmərəliliyi, sosial-iqtisadi inkişafın tempi və miqyasını müəyyənləşdirən mühüm amillərdəndir.

İnvestisiya siyasətində ölkədaxili regionlar arasındakı fərqləri azaltmaq istiqamətində görülən tədbirlər, iqtisadi məqsədəuyğunluq və sosial rifahın yüksəldilməsi meyarları üzrə, tarazlı inkişafın konseptual tələbləri və strateji hədəfləri nəzərə alınmaqla işlənib hazırlanmalı və həyata keçirilməlidir. Regionlarda investisiya layihələrinin qiymətləndirilməsi prosesində iqtisadi və institusional aspektləri əhəmiyyətli dərəcədə diqqət mərkəzində olmalıdır.

İnvestisiyanın iqtisadiyyatın inkişafına və istehsalın artımına təsirini araşdırarkən, struktur investisiya siyasətinin formalaşması zərurəti ilə qarşılaşırıq. Prioritet investisiyalaşmanın struktur siyasətində kapitalın cəlb edilməsi, səfərbər olunması, informasiyası və prioritet layihələrə yönəldilməsi və s. ilə əlaqədar problemlər meydana çıxır. Qeyd olunan problemlərin həllində, təcrübədən göründüyü kimi, regional inkişaf üzrə dövlət proqramlarının tədbirlər planının bütün əsas mərhələlərdə tarazlıq meyarlarına uyğunlaşdırılması cəhdləri əhəmiyyətli rol oynaya bilir. Ölkəmizdə "regional" siyasətin qarşıya qoyduğu strateji məqsədlərə çatmaq üçün qarşıda duran əsas vəzifə bütün respublikadaxili iqtisadi rayonların əmək ehtiyatlarından, istehsalın maddi ünsürlərindən, müxtəlif təbii ehtiyatlarından, iqlim şəraitindən, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialdan səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına və respublikanın iqtisadi rayonlarında daha səmərəli yerləşməsinə nail olmaqdır.[8, s.119] Regional iqtisadiyyatın istiqamətlər üztə təhlili müxtəlif aspektlərdə (iqtisadi, texnoloji, ekoloji və s.) fəaliyyət inteqrasiyası effektinə münasibət bildirməyə imkan verir. Son illərdə regional inkişaf üzrə məqsədli proqramların birgə maliyyələşdirilməsi, özəl bölmə və yerli özünüidarəetmə orqanları arasında qarşılıqlı fəaliyyətdə öhdəliklərin bölüşdürülməsinin optimal rejiminin təmin edilməsi investisiya potensialından istifadənin iqtisadi və institusional səmərəliliyinin yüksəldilməsi imkanlarını nəzərəçarpacaq dərəcədə genişləndirir. Həmin imkanlar hər şeydən əvvəl:

- resursqoruyucu və bərpa olunan enerji mənbələrindən istifadəni nəzərdə tutan texnologiyaların geniş tətbiqində;
- ölkənin və onun ayrı-ayrı iqtisadi rayonlarının investisiya cəlbediciliyinin yüksəldilməsində;
- investisiya proseslərinin şəffaflığının axtarılmasında;
- dayanıqlı inkişafın innovativliyində və s.-də öz ifadəsini tapır.

Azərbaycanın milli iqtisadiyyatının inkişafı və formalaşması, həmçinin, sahibkarlığın inkişafı və regionlarda təhlükəsizliyin təmini xalq təsərrüfatının digər sahələrinin inkişafından daha çox ölkəmizin regionlarının inkişafından və aqrar bölməsindən asılı olacaqdır. Azərbaycanın kənd təsərrüfatına isə ənənəvi sahələr olan pambıqçılığın, taxılçılığın, meyvəçiliyin, üzümçülüyün, tütünçülüyün, ipəkçiliyin, çayçılığının və s. sahələrin inkişaf etdirilməsi prioritet vəzifə olacaqdır. Regionların sosial-iqtisadi inkişafının hər bir problemini dövlət üzərinə götürə bilməz. Bunun müəyyən bir payını sahibkarların öhdəsinə buraxmaq lazımdır. Regionlarda sahibkarlığın inkişafına dəstək kimi rayonlarda potensial imkanlara dair məlumat bazasının və sahibkarlar üçün məsləhət xidmətinin yaradılması, maliyyə köməyinin artırılması, marketinq xidməti, informasiya təminatı və digər xidmətlər göstərəcək mərkəzlərin yaradılması, rayonlarda ticarət yarmarkalarının yaradılması, turizmin inkişaf etdirilməsi, vergi-gömrük siyasətinin həyata keçirilməsi, yerli ixtisaslaşmanı nəzərə almaqla peşə hazırlığının təkmilləşdirilməsi və digər məsələlərin həlli əsas vəzifələrdən biridir. Həmçinin, ən ümdə məsələlərdən biri də regionlarda sosial-iqtisadi təhlükəsizliyin ən geniş yayılmış formalarından biri olan işsizliyin tam təmin olunmasıdır. Göründüyü kimi, dövlət proqramları və onların icrasının tədbirlər planına daxil olan işlər, regional inkişafa yönəldilmiş iqtisadi institusional aspektlərin təmin edilməsində önəmli rola malikdir. Araşdırmalar göstərir ki, son dövrlərdə regionlarda sahibkarlığın inkişafı, aqrar sahəyə investisiya qoyuluşlarının artması səmərəliliyin inkişaf fəaliyyətinin daha da geniş vüsət almasına təkan verir. Regionlarda sahibkarlığın inkişafı, əhalinin məşğulluq səviyyəsinin və rifah halının daha da yüksəldilməsi, kənd təsərrüfatından tutmuş sənaye sferaları, həmçinin, insan kapitalının inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması – bütün bunlar kompleks tədbirlərin

vacib və ən ümdə məsələlərindən biri kimi ön plana çəkilmişdir. "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə dövlət başçısının müvafiq fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Nəhayət, Prezident İlham Əliyevin "Əsl siyasət konkret real iş görməkdən ibarətdir" prinsipinin uğurlu nəticələri Azərbaycanın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır, yeni iqtisadi şəraitdə sistemli islahatların böyük əzm və qətiyyətlə həyata keçirilməsi Azərbaycanı qarşıya qoyulmuş hədəfə - dünyanın inkişaf etmiş ölkələrindən birinə çevirmək məqsədinə doğru inamla aparır.

Ədəbiyyat

1. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"
2. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
3. www.economy.gov.az
4. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri. 15 dekabr 1992-ci il
5. Alıyev İ., Əhmədov S. İqtisadiyyat hamı üçün. Bakı. "Avropa" nəşriyyatı, 2010
6. Крутик А.Б., Решетова М.В. Предпринята в сфере сервиса. Учебник, изд. «Академия». Москва 2011
7. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi.
8. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı. "Elm", 2007

AZƏRBAYCAN RESPUBLİKASINDA XİDMƏTLƏR BAZARININ MÜASİR TENDENSİYASI

Albina Həşimova
Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi
E-mail: albina.hashimova@atmu.edu.az

Summary: *It is generally accepted that the service sector is an independent, specific sector of the economy. The dynamics of development in this area are determined by the effect of one of the main laws of sosial development - the law on the development of the service sector as compared to material production. This is due to the impact of economic development factors on the service sector.*

The article examines the course and outcomes of changes in the service sector in Azerbaijan, the role of the service sector in the development of the economy and society, the potential for its positive impacts on the country's modernization and the obstacles to its implementation. It is important to compare the key parameters of the industry considered in Azerbaijan and abroad, to identify common and different features of the service sector in Azerbaijan in the context of the country's innovative development prospects.

Key words*: service sector, Azerbaijan economy, innovative economy, tendency, gross domestic product*

Azərbaycanda sistem transformasiyasının gedişatında xidmət sferası üçün inkişafın yeni pilləsinə keçid, bütün parametrlər üzrə çox sürətli irəliləmə və bu sferanın ümumiqtisadi rolunun artması perspektivləri yarandı. Respublika müstəqillik əldə edəndən sonra çoxplanlı dəyişikliklər xidmətlər sahələrinin bütün spektrini - nəqliyyat, rabitə və ticarətdən başlamış maliyyə, işgüzar, məişət və sosial xidmətlərə qədər, müxtəlif dərəcədə də olsa, əhatə etmişdir. Bu dəyişikliklərin mahiyyəti təsərrüfatın təşkilinin planlı sistemindən imtina etməkdən və təsərrüfat fəaliyyətinin yeni institusional prinsiplərinə keçməkdən ibarətdir.

Xidmət bazarının inkişafı keçid dövrünün çətinlikləri ilə əlaqədar bütövlükdə respublika iqtisadiyyatının böhranlı durumu ilə müəyyən olunurdu. Nəticədə, xidmətlərin təşkilati sektorunun infrastrukturu məhdudlaşmış, əhalinin pullu xidmətlər istehlakı azalmış, ölkə sakinlərinin maddi imkanlarından asılı olaraq onların istifadə etdiyi xidmətlərin səviyyəsinə və çeşidinə görə diferensiasiya kəskinləşmiş, sosial sferada pullu xidmətlər həmin xidmətlərin pulsuz formalarını sıxışdırıb aradan çıxarmağa başlamışdır. Bununla bərabər, sovet dövründən miras qalmış ixtisaslı və ucuz işçi qüvvəsi, yüksək intellektual potensial sayəsində bazar münasibətlərinə keçid illəri ərzində respublikanın xidmətlər sahəsində mühüm dəyişikliklər baş vermiş, bu sferada rəqabət mühiti, təsərrüfatçılığın müxtəlif formaları yaranmışdır, tələb və təklif inkişaf edir, xidmətlər göstərilməsinin yeni növləri və formaları meydana çıxır [1].

İqtisadiyyatın sürətlə dövlətsizləşdirilməsi nəticəsində xidmət sahələrində özəl sektorun formalaşması başlandı. Bu prosesin prinsipial əhəmiyyətli daha bir kanalı özəlləşdirmə ilə bağlı olmayan yeni sahibkarlıq idi. Həm Azərbaycan iqtisadiyyatı üçün yeni sferalarda, həm də ənənəvi fəaliyyət növlərində yeni firmalar yaranırdı. Praktiki olaraq bütün sahələrin zəif inkişafı; müəssisələrin imkanlarına, onların müxtəlifliyinə, texnoloji təchizatına, memarlıq-planlaşdırma

qərarlarına və başqa göstəricilərə görə dünya səviyyəsindən ciddi gerilik, həmçinin, sahələrin əksəriyyətində start kapitalının nisbətən kiçik olması kimi bir sıra amillər xidmətlərlə bağlı yeni biznesin genişlənməsinə imkan yaradırdı.

Planlı təsərrüfatda ya ümumiyyətlə mövcud olmayan, ya da son dərəcə zəif iştirak etmiş xidmətlərin bütöv spektri praktik olaraq yeni biznesin hesabına formalaşırdı. 2005-ci ilə qədər audit xidmətləri göstərən firmaların sayı artaraq 46-ya, bu firmalarda çalışan auditorların sayı isə 91 nəfərə çatmışdı. Reklam xidmətləri sahəsində müvafiq göstəricilər 3,2 min və 53,5 min nəfər; rieltor xidmətləri sahəsində yüzlərlə təşkilat fəaliyyət göstərirdi; informasiya və kompüter xidmətlərinin, vergi və hüquq konsaltinqi, aktivlərin, biznesin və yenidən strukturlaşdırma layihələrinin qiymətləndirilməsi (biznes-proseslərin diaqnostikasından başlamış, real antiböhran idarəetməsinə qədər xidmətlər kompleksi) və istehsal profilli başqa xidmət növlərinin fəaliyyət sferası genişlənirdi. Maliyyə xidmətləri sektoru - kommersiya bankları, sığorta və başqa maliyyə müəssisələri əslində yenidən yaradılırdı.

İqtisadiyyatın xidmət sferasının gələcək inkişafının ayrıca ilkin şərti kimi seçdiyimiz institusional dəyişikliklər bu pozitiv halların təzahürünə xeyli dərəcədə imkan yaradırdı[2].

Biznes fəaliyyəti bəzi sosial-mədəni xidmət sferasına kifayət qədər intensiv şəkildə nüfuz edirdi. Təhsil sahəsində qeyri-dövlət sektoru yarandı; 2017-cü ilin əvvəlində Azərbaycanda fəaliyyət göstərən 14 qeyri-dövlət ali məktəbində təhsilalanların sayı respublikada tələbələrin ümumi sayının 17%-ini təşkil edirdi. İlk vaxtlarda, əsasən, stomatologiya, kosmetologiya, narkologiya, xəstəliklərin diaqnostikası və sair sahələrdə cəmlənmiş özəl tibbi xidmətlər bir sıra başqa sahələrə də yayıldı. Sosial sferaya aid dövlət müəssisələrinin kommersiya fəaliyyətinin həcmi də artmaqda idi.

Ənənəvi sahələrdə yeni özəl firmaların sayı xeyli artmışdır. Çox güman ki, məhz bu səbəbdən ticarətdə və ictimai iaşə sferasında fəaliyyətdə olan strukturların sayı xeyli artaraq 2017-cü ilin əvvəlində 25190, nəqliyyatda isə 1585 çatmışdır.

Xidmətlər sektorunda özəlləşdirilmiş kiçik müəssisələr, iri strukturların dövlətsizləşdirilməsi prosesində onlardan ayrılmış bölmələr hesabına formalaşmış kiçik biznes təbəqəsinin əsas nüvəsini də yeni yaradılmış biznes bölmələr təşkil edir.

Xidmət sahələri kiçik sahibkarlığın əsas cazibə sferasıdır: 2017-cü ildə kiçik biznes sektorunda istehsal edilmiş məhsulun 72%-i, bu sektorda çalışanların 56%-i, kiçik biznes sektorunda fəaliyyət göstərən firma və təşkilatların 70%-i xidmət sahələrinin payına düşürdü.

Kiçik firmalar ticarətdə və ictimai iaşədə, daşınmaz əmlakla bağlı əməliyyatlar, işgüzar xidmətlər, elm və elmi xidmət, informasiya xidmətləri, maliyyə vasitəçiliyi, avtomobil nəqliyyatı sahələrində daha geniş təmsil edilmişdir.

Məlum olduğu kimi, xidmət sferası əsasən kiçik və orta sahibkarlıq subyektləri ilə təmsil edilmişdir. Buna görə başqa dövlətlərin iqtisadiyyatında kiçik və orta biznesin payını nəzərə alaraq, demək olar ki, müasir Azərbaycanın bazar iqtisadiyyatı strukturunda 100-120 min kiçik müəssisə mövcud olması ehtimal edilir. Hələlik bu cür kiçik müəssisələrin sayı təxminən 14,3 minə bərabərdir. Respublikada yalnız 115 min nəfər kiçik bizneslə məşğuldur. Azərbaycan iqtisadiyyatında onun payı 12%-ə qədər, ÜDM-də payı isə 7% təşkil edir.

Bu məlumatlar xüsusilə ona görə diqqətəlayiqdir ki, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində kiçik və orta müəssisələrin sayı həmin ölkələrdəki müəssisələrin ümumi sayının 80%-dən çoxdur, iqtisadi fəal əhalinin üçdə iki hissəsi burada cəmlənmişdir və ümumi daxili məhsulun yarıdan çoxu kiçik və orta müəssisələrdə istehsal edilir.

Azərbaycandakı müəssisə və təşkilatların ümumi sayında fərdi sahibkarlığın payının 2000-ci ildə 60%-dən 2017-ci ilin əvvəlində 82%-ə qədər artması xidmətlər sektorunda fərdi sahibkarlığın formalaşmasının intensivliyi haqqında fikir söyləməyə əsas verir[3].

Qiymətin əmələ gəlməsinin bazar prinsiplərinə keçidi xidmətlər sahəsinin transformasiyasının daha bir fundamental amili olmuşdur. Bazar qiymətləri sisteminin özünəməxsusluğu ondan ibarətdir ki, maddi məhsullarla müqayisədə xidmətlərin qiyməti daha yüksək səviyyədə müəyyən edilir və daha sürətlə artır. Bu fərq servis xidməti əməliyyatlarının yüksək əmək tutumu, bir sıra sahələrdə əmək məhsuldarlığının göstəricisinin nisbətən aşağı olması ilə yanaşı işçi qüvvəsinin dəyərinin fasiləsiz artımı və bəzi başqa amillərlə bağlıdır. Planlı iqtisadiyyatda qiymətin əmələ gəlməsi prosesində bu xüsusiyyət nəzərə alınmırdı və bir sıra sahələrin xidmətlərinə tarif və qiymətlər sənaye məhsullarının qiymətləri ilə müqayisədə əhəmiyyətli dərəcədə aşağı idi. Əhaliyə təhsil və səhiyyə xidmətləri əsasən pulsuz təqdim edilirdi. Mənzil-kommunal təsərrüfatı xidmətlərinin qiymətləri aşağı idi.


Açıq iqtisadiyyat və ölkəyə xarici kapital axını xidmətlər sahəsində baş verən dəyişiklikləri müəyyən edən ən mühüm amillərdəndir. Azərbaycanda xidmətlər bazarının çox ümidverici perspektivləri, kapital qoyuluşları ilə bağlı xərclərin tezliklə çıxarılması, xərclərə qənaət və xidmətlərin miqyasları hesabına investisiya risklərinin nisbətən aşağı olması bu ölkəyə xarici kapitalı cəlb edən əsas səbəblərdir.

Xidmətlər sahəsi xarici investisiyaların həcminə görə lider mövqedə olan yanacaq-enerji kompleksində sonrakı yerdə möhkəmlənmişdir. Əvvəllər xarici investisiyaların əsas axınları telekommunikasiyalar sahəsinə, pərakəndə ticarətə, ictimai iaşə sisteminə, biznesin bəzi növlərinə və nəqliyyat xidmətlərinə yönəldilirdi. Sonrakı illərdə xarici investorların ekspansiyası maliyyə, sığorta, mehmanxana, turizm xidmətləri, ictimai iaşə, kinofilmlərin nümayişi və sair bazarlara, şəhərlərdən ölkənin regionlarına yayıldı

Xarici kapital xidmətlər sektorunun inkişafına və yenidən strukturlaşdırılmasına çoxtərəfli təsir göstərir. Yerli biznes xidmətlər sektorunun timsalında böyük maliyyələşdirmə mənbəyi əldə etmişdir. Bu, özlüyündə mühüm faktdır, lakin xidmətlər sektoru yerli biznes üçün həm də xidmət texnologiyaları, xidmətlərin təşkili və idarə edilməsi metodları səviyyəsində geriliyi daha sürətlə aradan qaldırmaq, işgüzar mədəniyyət standartlarını mənimsəmək imkanı yaradır[4].

"BP", "Hilton", "PriceWaterhouse", "Mariotte", "Accor", Morgan Stanley", "McDonalds", auditor-konsaltinq firmalarının "Böyük dördlüyü" və bir sıra başqa transmilli şirkətlərin Azərbaycan bazarında fəaliyyəti yüksək effekt verir. Ənənəyə görə istehsalın texniki və texnoloji elementlərinə yönələn, indiki mərhələdə isə bazar iqtisadiyyatının əsaslarını mənimsəyən Azərbaycan biznesi uğur qazanmaq üçün birinci dərəcəli əhəmiyyətə malik olan təşkilatı-idarəetmə xarakterli qeyri-maddi amillər – işçi qüvvəsinin keyfiyyəti və əmək münasibətləri, bazarda tələbin öyrənilməsi və formalaşması, firmanın mədəni ənənələri və reputasiyası, brendlərin işlənib hazırlanması və onu qorunub saxlanması, müştərilərlə və ictimaiyyətlə effektiv qarşılıqlı təsir modellərinin qurulması və s. məsələlər haqqında əyani təsəvvür əldə edir.

Bir sıra səbəblərə görə xidmətlər bazarında inhisarçılığın kifayət qədər yüksək dərəcəsini və biznes fəaliyyətinə inzibati müdaxilə hallarını nəzərə alsaq, bazar münasibətlərinin inkişafının mövqelərindən rəqabət mühitinin formalaşmasına xarici investorların töhfəsi xüsusilə əhəmiyyətlidir. Azərbaycan istehsalçıları, rəqabətin təzyiqi altında, bazarın prinsip və mexanizmlərini daha sürətlə mənimsəyir, perspektivli bazarlar və qiymətli resurslar üçün mübarizəyə qoşulurdular. Yerli biznes əcnəbilərlə rəqabətdə və onlarla əməkdaşlığın müxtəlif formalarında (bu da az əhəmiyyətli deyil) yaxşı sahibkarlıq məktəbini keçir, onu dünya səviyyəsindən ayırmış uçurumu keçmək üçün təcrübə və resurs toplayırdı. Beləliklə, xidmətlərin təşkilinin əvvəlki modelinin – standart xidmətlərin məhdud toplusu, xidmətlərin keyfiyyətinin və xidmət mədəniyyətinin aşağı olması, istehlakçılarla əks əlaqələrin olmaması və sair əlamətlərlə fərqlənən sovet servis xidmətləri sisteminin demontajı sürətlənirdi. Ölkədə müxtəlif mülkiyyət formaları və müəssisələrin müxtəlif tipləri, xidmətlərin geniş çeşidi ilə təmsil edilmiş, istehlakçı tələbatının spesifikasına, fərdiləşdirilmiş xidmətə yönəldilmiş yeni xidmətlər sistemi bərqərar olundu.



Şəkil.1. Azərbaycanda xidmət sferasının müasir tendensiyaları

Yuxarıda adları çəkilən amillərdən əlavə, xidmət sferasının inkişafını xarakterizə edən bir sıra başqa makroiqtisadi amillər və göstəricilər də var: xidmət sahələrində yaradılmış ümumi daxili məhsul, xidmətlərin ixracı və idxalı, əmək haqqının ölçüsü, "kölgə" əlaqələrinin xarakteri və miqyası və s. Yuxarıda adları çəkilən göstəricilərin təhlili əsasında Azərbaycan xidmət sferasının inkişafına xas olan pozitiv və neqativ tendensiyalar şəkil-1-də göstərilmişdir.

Apardığımız təhlil göstərir ki, bir sıra xidmətlərin maddi bazasında radikal də-yişikliklər baş vermişdir. Telekommunikasiyalar sahəsində, ticarətin modern seqmentində, maliyyə və sığorta sferalarında, işgüzar və peşəkar xidmətlər sahəsində yeni texnologiyalar tətbiq edilir. Nəqliyyat, səhiyyə və təhsil, məişət xidməti sahələrində, həmçinin, ilk baxışda texnikadan uzaq olan kitabxanalar, muzeylər, səhnə sənəti, sərgi fəaliyyəti və s. sahələrdə yeni texnologiyalardan istifadə miqyası artmışdır[5].

Xeyli hissəsi xidmət sahələrində cəmlənmiş yeni obyektlərin tikintisində, bir qayda olaraq, texnologiyalar sahəsində, memarlıq-planlaşdırma qərarları, daxili dizayn, istehlakçıların rahatlığı məsələlərində dünya standartlarına

istiqamətlənirdilər. Nəticədə, ölkədə tipləri və formatları əvvəllər məlum olmayan müəssisələr: supermarketlər, çoxməqsədli ticarət-əyləncə və ofis mərkəzləri, coxzallı kinoteatrlar, sərgi və konsert kompleksləri, çoxsahəli idman-sağlamlıq müəssisələri və sair obyektlər yaranmışdır.

Xidmətlərin maddi bazasının genişləndirilməsi sahəsində xarici ölkələrin təcrübəsi Azərbaycanda tətbiq edilir: fəaliyyəti dayandırılmış sənaye müəssisələri və istifadə edilməyən torpaq sahələri, köhnəlmiş anbarlar, nəqliyyat tikililəri və s. yenidən qurularaq, servis xidmətləri obyektlərinə çevrilir. Azərbaycanda xidmətlər sahəsində yeni təşkilatı-idarəçilik modelləri və mexanizmlər, işgüzar praktika yanaşmaları və prinsipləri kök salır. Pərakəndə ticarətdən başlamış təbabətə qədər geniş spektrli xidmət sahələrində yayılmaqda olan şəbəkə sistemi daha yüksək xidmət standartları və səmərə göstəriciləri ilə fərqlənir.

İri və kiçik biznesin əməkdaşlığının müxtəlif formaları, hər şeydən əvvəl, yüksək səmərəlilik potensialına malik olan françayz sistemi inkişaf edir. Xidmətlərin istehsalı istehlakçıların gəlirlərinin səviyyəsindən, onların zövqlərindən və üstünlük verdiyi dəyərlərdən asılı olaraq fərqlənir.

Eyni zamanda, bunu da görməmək olmaz ki, müstəqillik illərində xidmətlərin təkamülünün ümumi mənzərəsi çoxsaylı təzadlı fraqmentlərdən formalaşır. Bu sferada baş verən dəyişikliklərin fərqləndirici xüsusiyyəti – onların qeyri-müntəzəm olmasıdır. Təsərrüfat mühitinin, təsərrüfat mexanizmlərinin xarakterinə və bu mühitdə fəaliyyətin nəticələrinə görə bir neçə seqmenti fərqləndirmək olar. Bir qayda olaraq, yeni şəraitdə fəaliyyət göstərən, yeni yaradılmış biznes sivil bazara ən yüksək dərəcə yaxınlaşır. Bu biznes əksər hallarda bazar ekspansiyasına, mənfəətin və rəqabətə davamlılığın artırılmasına istiqamətlənir, perspektivə işləyir[6].

Büdcə sahələrində – infrastruktur, sosiomədəni və elm sahələrində prinsipcə fərqli vəziyyət yaranmışdır. Bu sahələrdə islahatlar çox ləng gedir, onların həyata keçirilməsində ciddi çətinliklər üzə çıxır. Bu sferada təşkilatların çoxu sovet dövrünün təşkilat modelinə xas olan bir sıra elementləri hələ də saxlayaraq, cüzi həcmdə büdcə vəsaitlərindən də az-çox səmərəli istifadə etməyi bacarmır və maliyyələşdirmə probleminin həllini, çox vaxt, aktiv kommersiyalaşdırma yolunda görür.

Azərbaycan mikromühitinin bir sıra nöqsanları var. İnhisarçılıq səviyyəsinin nisbətən yüksək olması rəqabəti, xüsusilə, onun qiymətlə bağlı olmayan və innovasiyalı formalarını zəiflədir. Eyni zamanda, dünya təcrübəsində inandırıcı şəkildə sübut edilmişdir ki, milli şirkətlərin mallarının və xidmətlərinin dünya bazarında rəqabətə davamlılığı daxili bazarda rəqabətin intensivliyindən əhəmiyyətli dərəcədə asılıdır.

Təsərrüfat mühitinin başqa nöqsanlarına misal olaraq, servis xidmətlərinin firma səviyyəsində təşkilinin və idarəetmənin keyfiyyətinin və xidmət mədəniyyətinin aşağı olmasını, həmçinin, xidmətlər sahəsində insan resurslarının xarakteristikalarının pisləşməsini göstərə bilərik.

Azərbaycanda xidmət sferasının transformasiyasının bir xüsusiyyəti də ondan ibarətdir ki, xidmət sahələri arasında və hər bir xidmət sahəsi çərçivəsində dəyişikliklər qeyri-müntəzəm xarakter daşıyır, dəyişikliklərin miqyasları və templəri, texnologiyaların səviyyəsi, servis xidmətlərinin təşkilinin və idarə edilməsinin keyfiyyəti kəskin fərqlənir. Bəzi xidmət sahələrində – məsələn, telekommunikasiya, pərakəndə ticarət, daşınmaz əmlakla bağlı əməliyyatlar, maliyyə və sığorta sahəsi, avtoservis, informasiya xidmətləri və bir sıra işgüzar xidmətlərdə irəliləyiş olmuşdur, başqa sahələrdə – poçt, nəqliyyat xidmətlərinin bəzi növləri və məişət xidməti sahələrində isə islahatlar ləng gedir[7].

Regional ziddiyyətlər çox böyükdür. Azərbaycanın paytaxtı sürətlə postsənaye şəhərinə çevrilməkdədir. Respublikanın bir neçə başqa şəhəri də əhaliyə xidmətin səviyyəsinə və xidmətin standartlarına görə əyaləti xeyli üstələyir. Mərkəzdən uzaq regionların əhalisi çox vaxt müasir xidmət növlərindən məhrum edilmişdir.

Təsərrüfat strukturun bütün səviyyələrində işçi qüvvəsinin, xüsusən, yüksək ixtisaslı kadrların çatışmaması ciddi problemə çevrilir. Bu və bir sıra başqa problemlərin həlli xidmətlər istehsalının qabaqlayıcı dinamikasından və ən başlıcası – xidmət sahələrinin daha yüksək keyfiyyət səviyyəsinə keçməsindən bilavasitə asılıdır.

Bir sıra xidmət sahələrində dövlətin, bazar qüvvələrinin və ictimaiyyətin nəzarətindən yayınmaq üçün nisbətən geniş imkanlar tapan qeyri-leqal biznes respublikanın xidmət sferası üçün əsl bəlaya çevrilmişdir və ölkə rəhbərliyini və ictimaiyyəti ciddi narahat edir. Bu neqativ hala baxmayaraq, bütövlükdə, xidmət sferasının inkişafının kəmiyyət göstəricilərinin dinamikasına əsasən, onun pozitiv istiqaməti haqqında nəticə çıxarmaq olar.

Lakin son iki onillikdə xidmət sferasının inkişafi heç də yüksələn xətt boyunca və fasiləsiz olmamışdır. Birinci postsovet onilliyində xidmətlər sektorunun təsərrüfat mövqelərinin genişlənməsinin aydın ifadə edilmiş trendi sonrakı dövrdə ayrı-ayrı illərdə ümumi daxili məhsulda onun payının kiçik azalmalarla sabitləşməsi ilə əvəz olundu (bax: cədvəl 1).

Bizim fikrimizcə, əvvəlki dinamizmin itirilməsinin səbəbləri ölkədə makroiqtisadi vəziyyətin kəskin dəyişməsi ilə bağlıdır. Xammal sahələrinin məhsulunun kəskin bahalanması son məhsulun dəyər nisbətlərinin dəyişməsinə gətirib çıxarmışdı: xammal sektorunun mövqeləri emaledici sənayenin və xidmət sferasına aid bir sıra iri sahələrin hesabına yaxşılaşdı. Korrupsiyanın mövcudluğu, inhisar tendensiyalarının güclənməsi, həmçinin, belə adlandırılan inzibati resursun və rəqabəti məhdudlaşdıran başqa tədbirlərin təzyiqi də az rol oynamırdı.

Cədvəldəki məlumatlar xidmət sferasının inkişafında nisbətsizlikləri təsdiq edir: onun ümumi hərəkəti ayrı-ayrı sahələr üzrə inkişaf templərinin əhəmiyyətli dərəcədə fərqlənməsi fonunda baş verir. Sahə üzrə dinamikanın müntəzəm olmaması istehsalın şaxələndirilməsi, biznesin ehtiyacları ilə bağlı yeni xidmətlər hesabına istehsalın

tərkibinin mürəkkəbləşməsi, həmçinin, istehlak təyinatlı xidmətlərin inkişafı kimi obyektiv prosesi əks etdirir. Lakin bu, həm də bir sıra ənənəvi xidmətlərin aktiv yenilənməsinin nəticəsidir[8].

Xidmət sferasına aid sahələr arasında həm inkişafın dinamikasına, həm də ümumi daxili məhsulun tərkibində payına görə ticarət liderlik edir.

Ticarətin birinciliyinin əsas səbəbləri – yeni təsərrüfatçılıq şəraitində onun həm funksiyalarının mürəkkəbləşməsi, və həm də radikal modernləşdirilməsidir. Əvvəllər primitiv bölüşdürücü mexanizm funksiyalarını yerinə yetirən bu sahə yeni təsərrüfatçılıq şəraitində inkişaf edərək təkrar istehsal prosesinin fəal iştirakçısına çevrilir, tələbin öyrənilməsi və formalaşması, bazar siqnallarının istehsalata çatdırılması, miqyası və müxtəlifliyi artan mal axınlarının zaman və məkan baxımından operativ reallaşdırılması funksiyalarını öz üzərinə götürür.

Cədvəl 1.

Azərbaycanın ÜDM-də xalq təsərrüfatı sahələrinin və xidmətlərin payının dinamikası

Təsərrüfat və xidmət sahələri	Artım tempi 2000-2017 illər (dəfə)	ÜDM-də xüsusi çəkisi (%)			
		2000	2005	2010	2017
Xalq təsərrüfatı	11,07	100	100	100	100
Maddi istehsal sferası	12,58	5,4	67,3	64,2	66,5
Kənd təsərrüfatı, toplam	3,483	5,9	9,2	5,5	5,5
Mədənçıxarma sənayesi	19,15	7,7	42,2	45,9	48,4
Emal sənayesi	8,32	5,3	6,5	4,7	4,4
Tikinti	13,45	6,5	9,4	8,1	8,2
Xidmət sferasi	8,88	35,7	25,0	27,7	29,5
Topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri	11,08	6,3	6,1	6,4	6,5
Mehmanxana və restoranlarda xidmətin göstərilməsi	40,49	0,4	0,5	1,0	1,2
Nəqliyyat, anbar təsərrüfatı və rabitə	6,15	2,0	7,4	7,5	6,6
Maliyyə fəaliyyəti	16,32	0,9	1,4	1,2	1,0
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və isteh-lakçılara xidmət göstərilməsi	13,13	2,7	1,4	1,6	1,6
Dövlət idarəetməsi və müdafiə; sosial təminatın vəzifələri	12,11	2,0	3,0	2,0	1,8
Təhsil	6,88	4,9	2,5	3,4	3,1
Səhiyyə və sosial xidmətlərin göstərilməsi	8,33	1,9	1,4	1,6	1,5
Elm və elmi xidmət	16,6	0,1	0,1	0,1	0,2
Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi	3,69	4,6	1,3	3,2	3,0

Mənbə: *Azərbaycanın Statistik Göstəriciləri 2017. Bakı: 2017*

Dövlət islahatları prosesində bazar dövriyyəsinə qoşulan xidmətlərin həcminin artması universal prosesdir, amma Azərbaycanda bu prosesin miqyası mümkün hüdudları ötür. Bu nisbət qərb ölkələri təcrübəsinə də uyğun deyil: həmin ölkələrdə sosial profilli xidmətlərin xeyli hissəsi ictimai və qeyri-kommersiya sektorlarının təşkilatları tərəfindən təqdim edilir, bazarın ölçüləri isə dövlətin sosial öhdəlikləri sistemi ilə məhdudlaşır və s.

Sosial sferanın sahələri (səhiyyə, rekreasiya, təhsil, mədəniyyət), ənənəvi olaraq, əhaliyə xidmətlərin, əsasən, pulsuz əsaslarla təqdim edilməsinə yönəldilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, iqtisadiyyatda bazar münasibətləri sisteminə keçidlə əlaqədar, bu sahədə xidmətlərin pullu formaları əhəmiyyətli dərəcədə genişlənmişdir.

Buna görə qeyd etməliyik ki, xidmət sferasının ən əhəmiyyətli sosial sahələrinin fəaliyyətinin xidmətlərin kommersiya əsasında fərdi istehlakına yönəldilmiş modeli bizim cəmiyyətdə yaranmış sosial-iqtisadi vəziyyətə adekvat deyil. Həmin model əhalinin gəlirlərinin yüksək, malların və xidmətlərin çeşidinin çox geniş olduğu inkişaf etmiş iqtisadiyyat üçün, yəni başqa istehlak standartları və başqa milli ənənələr üçün daha münasibdir. Bu modelin Azərbaycan şəraitində vaxtından əvvəl tətbiq edilməsi respublikada bu sferada sosial ədalət prinsipinin sürətli reallaşdırmasını çətinləşdirə bilər[9].

Xidmət sferasında dəyişikliklərin təhlilinə yekun vuraraq qeyd etməliyik ki, bu təhlil, ilk növbədə, həmin dəyişikliklərin mürəkkəb, qeyri-müntəzəm və ziddiyyətli xarakterinə dəlalət edir. Azərbaycan, heç şübhəsiz, xidmətlərin təşkilinin və istehsalının əvvəlki, onların inkişafını ləngidən sistemdən imtina etmişdir. Prinsipial əhəmiyyətli məqam ondan ibarətdir ki, xidmət sahələrinin genişlənməsi və modernləşdirilməsi üzvi surətdə, inkişaf etmiş ölkələr tərəfindən müəyyən edilən və bazar inkişafı yoluna qədəm qoymuş ölkələr tərəfindən dəstəklənən qeyri-maddi istehsala istiqamətlənmiş bazarın tələblərinə uyğun olaraq həyata keçirilir.

Son illərdə xidmətlər bazarında təqdim olunan xidmətlərin müxtəlif istiqamətlərdə keyfiyyətcə təkmilləşməsi müşahidə olunur: istehlakçıların alternativ seçim variantları genişlənir, xidmətlərin istehlakçılarının üstünlük verdiyi məqamlar və onların tələbləri daha tam şəkildə nəzərə alınır, kütləvi xidmət modeli fərdi xidmət modeli ilə əvəz edilir, daxili xidmətlər bazarının beynəlxalq səviyyəyə çıxması istiqamətində tədbirlər görülür.

Bununla birlikdə, dünya iqtisadiyyatında müşahidə olunan tendensiyalarla müqayisədə yerli xidmət sferasının, onun ölkə iqtisadiyyatında rolunun təhlili göstərir ki, bu sahədə dəyişikliklərin nəticələri Azərbaycan miqyasında heyrətləndirici təsir bağışladığına baxmayaraq, həmin nəticələr hələlik inkişaf etmiş ölkələrdə vəziyyətlə müqayisə edilə bilməz və innovasiya sıçrayışını hədəf seçmiş Azərbaycan iqtisadiyyatının tələblərinə cavab vermirlər. İnkişaf göstəricilərinin kəmiyyət dəyişiklikləri hələ əhəmiyyətli keyfiyyət irəliləyişləri ilə müşayiət olunmur[10].

Respublikada xidmət sferasının səviyyəsinin və dinamikasının qiymətləndirilməsi onun sahələrinin inkişafına dövlət tərəfindən tənzimləyici təsiri təkmilləşdirməyin zəruri olduğunu göstərir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər /Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: 2003, 371.s.
2. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti), Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2010, 326 s.
3. Azərbaycanın Statistik Göstəriciləri 2017. Bakı: 2017, 814 s.
4. Əliyev A., Quliyev A. Sosial sferanın iqtisadiyyatının və metodologiyasının əsasları. Bakı: «Adiloğlu» nəşriyyatı, 2005, 304 s.
5. "Milli iqtisadiyyatın modernləşməsi: mövcud vəziyyət və gələcək perspektivlər" mövzusunda elmi-praktiki konfransın materialları. AMEA İqtisadiyyat İnstitutu. Bakı, 2011.
6. Rəhmanov F.P. Sosial infrastrukturun tənzimlənməsi problemləri. Bakı: «Gənclik», 2004, 304s.
7. Rəhmanov F.P. Sosial sfera keçid iqtisadiyyatı şəraitində. Bakı: «Gənclik», 2002, 265 s.
8. Beyond continuity: institutional change in advanced political economics/ W.Streech, R.Thelen(eds.).N.Y., 2005-290p.
9. Borner S. Institutional efficiency and its determinants: the role of political factors in economic growth/ S.Borner, F.Bodmer, M.Kobler (eds).-Paris, OECD,2004.-100 p.
10. Салахов Р.М. Проблемы развития социальных отраслей сферы услуг Азербайджана, Международная Научно-Практическая Конференция «Актуальные проблемы экономики посткоммунистических стран», Тбилиси, 2013, с.549-542

ПРИМЕНЕНИЕ КОНВЕРГЕНТНОЙ ТЕХНОЛОГИИ ДЛЯ РЕШЕНИЯ ЗАДАЧ ПО ОЦЕНКЕ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА НА ПРИМЕРЕ МНОГОФАКТОРНОЙ МОДЕЛИ МИНЦЕРА[13]

Людмила Малахова,
Научный сотрудник,
Институт математики и информатики им. "Владимира Андрунакевича",
Республика Молдова
E-mail: lmalahov@gmail.com

Татьяна Колесникова,
Конференциар исследователь, к.э.н.,
Национальный Институт Экономических Исследований, Республика Молдова
E-mail: ctania@gmail.com

Александр Колесников,
Конференциар исследователь, к.ф-м.н
Институт математики и информатики им. "Владимира Андрунакевича",
Республика Молдова
E-mail: acolesnicov@gmx.com

Summary: *The paper describes the application of convergent technology for resolving the problems of assessing the human capital using the extended model of D. Mincer as an example. The software package was developed on the XWiki platform (Java, Velocity, Groovy, generation of dynamic pages, etc.) using libraries of statistics and processing tabular data from the Python language.*

[13] Данная статья разработана по результатам научно-исследовательского проекта *„Innovative approaches to applied computations and software development for gender equality regulation on labour market"* (2018-2020 гг.) в рамках совместной программы STCU-ASM и зарегистрированного в Государственном реестре проектов в области науки и инноваций Республики Молдова под номером 18.80013.0807.06.STCU.

Key words: *convergent technology, assessment of human capital, extended Mincerian equation, XWiki platform, Python language.*

Введение

Под конвергентной технологией мы понимаем процесс интеграции различных программных технологий, обеспечивающих решение экономических задач по типу «все-в-одном», что предполагает только ввод пользователем данных, а их проверка и обработка производится программой автоматически, с выдачей результата в удобном для пользователя виде.

Одной из ключевых проблем концепции человеческого капитала, является оценка влияния, оказываемого на величину текущих доходов (заработной платы) различных форм человеческого капитала: продолжительность обучения, общий профессиональный опыт работы и др. Основоположником данного подхода является Дж. Минцер [1]. Данный подход базируется на количественной оценке параметров, так называемой, «производственной функции заработков».

Многофакторная модель описывает зависимость заработков человека от уровня его образования, трудового стажа, продолжительности отработанного времени, социально-демографических и других факторов.

Уравнение заработной платы Дж. Минцера, признанное традиционной оценкой выгодности инвестиций в человеческий капитал, в процессе развития производственных отношений может видоизменяться, т.е. удаляются привычные параметры, появляются новые элементы. В каждом конкретном случае это будет новая модель.

Расчет регрессии Минцера возможен в ряде программных продуктов: Excel, EViews, SPSS, Stata[14] и др. Однако все они требуют определенных знаний в эконометрике и знаний самого продукта и его функций [2; 3; 4; 5 и др.]. В отличие от них, разработанный нами программный модуль упрощает подготовку данных, автоматически проверяет их корректность, а также автоматически выполняет расчеты, используя современные информационные технологии.

Данные могут предоставляться в нескольких форматах, включая CSV и таблицы Excel.

Программный комплекс разработан на платформе XWiki (Java, Velocity, Groovy, генерация динамических страниц и др.) с использованием библиотек статистики и обработки табличных данных языка Python.

Об используемом программном обеспечении

Программный комплекс состоит из ряда модулей: модуль импорта данных, модуль проверки данных, модуль обработки данных, модуль представления результатов. Для программирования большинства модулей используются стандартные возможности платформы XWiki. Мотивация данного выбора была нами опубликована [6; 7; 8; 9; 10; 11].

Кроме того, для программирования сложных экономических расчётов, в рамках модуля обработки данных, используются более удобные инструменты а именно Python 3[15] с библиотекой Pandas (Python Data Analysis) и другими необходимыми модулями. Возможность использования дополнительных инструментов разработки является одной из мощных функций подхода Web 2.0[16], обеспечиваемого платформой XWiki.

Среда XWiki предлагает ряд расширений, некоторые из них мы используем. Однако, этой функциональности не всегда достаточно для реализации задач. Например, возможно включение программы Python непосредственно в код динамической веб-страницы. Мы опробовали это расширение и выяснили, что его функциональность не полная.

Указанное расширение реализовано с использованием библиотек Jython, которые реализуют Python в среде Java. При таком подходе перевод с языка Jython выполняется не в коды интерпретатора Python, а в коды виртуальной машины Java для среды выполнения Java. Отсюда вытекают два ограничения: на версию языка и технологию библиотек и плагинов. Jython реализует более старую версию Python 2.7. На ней разработка Python 2 была остановлена). Таким образом, все нововведения из Python 3 являются недоступными.

Кроме этого, только те библиотеки Python, которые используют двоичный код интерпретатора Python, легко переводимый в код виртуальной машины Java, могут быть использованы.

Однако, большинство современных библиотек Python широко используют машинный код в целях оптимизации. Такие библиотеки в принципе не могут быть связаны с Jython. К сожалению, это касается самых необходимых и нужных в нашем случае библиотек, реализующих сложные вычисления, как например, метод наименьших квадратов. К ним относятся библиотеки NumPy, SciPy, Pandas и несколько других.

Наконец, с июля 2019 года поддержка библиотеки Pandas для Python 2 была прекращена.

[14] https://www.stata.com/

[15] https://www.python.org/

[16] http://wikireality.ru/wiki/%D0%92%D0%B5%D0%B1_2.0

Гибкость платформы XWiki помогла нам и в этом случае. Для сложных вычислений (регрессионного анализа и т. д.) использовалась самая современная стандартную реализация Python 3, а именно CPython, основанная на C.

Эта реализация имеет доступ к полному набору библиотек, загружаемых при необходимости из репозитория PyPI, и к инструментам обновления. Она специально устанавливается на сервере XWiki под Linux (в нашем случае), или под Windows.

Это дало нам полезную возможность отлаживать программы на Python независимо от среды XWiki.

На сервере XWiki была установлена библиотека JPserve. Это реализация инструментов вызова Python из Java-программы. Эта библиотека состоит из сервера, написанного на Python, и клиента, реализованного на Java. Будучи модулем Python, серверная часть устанавливается обычным способом: с помощью команды pip из репозитория PyPI.

Клиентская библиотека добавляется (копируется) в корневой каталог сервера веб-приложений (в нашем случае Apache Tomcat) вместе с другими архивами Java, которые совместно реализуют платформу XWiki и, таким образом, становятся частью XWiki.

Для запуска программы экономичных вычислений на Python и включения результатов вычислений в динамическую страницу XWiki в код этой страницы используется макрос Groovy. Groovy есть расширение Java. Фактически, таким образом, Java-код включён в страницу.

В этом случае все, что выводится командами print() или println(), считается кодом XWiki (расширенный код HTML) и отображается браузером. Очень важно, что, если на странице несколько таких фрагментов на разных языках программирования, то все они используют общий пул переменных.

В коде Groovy вызывается клиентская программа, одним из параметров которой является имя программы Python, которая должна быть выполнена. Клиент Java (то есть XWiki) отправляет запрос на выполнение программы на порт, выделенный для этой цели, серверу Python, который принимает запрос и запускает указанную python-программу.

rılması və həmçinin yerləşdiyi bölgəni həm iqtisadi, həm də mədəni cəhətdən inkişaf etdirmək Azad İqtisadi Zonaların ən vacib təsir effektlərindəndir. Dünyada azad zonaların dəyəri yalnız 1970-ci illərdən sonra bilinməyə başlandı. 1950-ci illərdən sonra başlayan ixrac yönümlü inkişafa cəhd bu baxımdan mühüm rol oynadı. Azərbaycanda isə bu məsələ müstəqillik illərinin ilk dövrlərində prioritet məsələ olmasa da, son illərdə bu sahədə bir sıra böyük işlərə imza atılmışdır. Təsadüfi deyil ki, 14 aprel 2009-cu ildə Xüsusi İqtsadi Zonalar haqqında Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdir. Qitələrarası bir körpü mövqeyində olan Azərbaycan, yalnız bu xüsusiyyəti ilə belə xüsusi iqtisadi zona tətbiqlərindən dünyanın ən çox gəlir əldə edən ölkələrindən biri olmaq məcburiyyətindədir. Adekvat investisiya ilə gücləndirilmiş, xarici sərmayə üçün cazibədar hala gətirilmiş və yaxşı nəzarət altına alınmış Azad İqtisadi Zonalarla Azərbaycanın layiq olduğu qazancı təmin etməsi heç də çətin olmayacaqdır.

Açar sözlər: *xüsusi iqtisadi zonalar, azad iqtisadi zonalar, elmi-sənaye parkları, sosial-iqtisadi effekt.*

Giriş

Azad İqtisadi Zonaların makroiqtisadi təsiri beynəlxalq iqtisadi və inkişaf ədəbiyyatında əsas mübahisələrdən biridir. Kommersiya qloballaşması prosesində Azad Zonaların iqtisadi təsirləri alimlər üçün yalnız əsas maraq sahəsi olmayıb, həm də ticarət və inkişaf siyasətinin əsas dayağı olmuşdur.

İkinci Dünya Müharibəsindən sonra yaranan dünya ticarətinin liberallaşma meylləri bu gün də davam edir. Ümumdünya səviyyəsində dünya ticarətinin liberallaşdırılması səyləri dünyanı vahid bazar halına gətirmək məqsədi daşıyır. Qloballaşma dünyada 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərindən bəri geniş yayılmış bir anlayışdır. İqtisadi mənada qloballaşmanın ölçülərindən biri olan ticarət qloballaşması, Dünya Ticarət Təşkilatının formalaşması ilə nəticələnən GATT (General Agreement on Tariffs and Trade - Tariflər və Ticarət haqqında ümumi razılaşma) çərçivəsində mal və xidmətlərin beynəlxalq ticarəti üzrə tarif və kvotaların tədricən ləğvi və beynəlxalq ticarətin universal liberallaşdırılması ilə başladı.

Dünya ticarətində qloballaşma səylərinə əlavə olaraq, bəzi xüsusi hallarda bəzi malların ölkə sərhədlərinə daxil edilməsində adi gömrük rejimlərinin tətbiq edilmədiyi hallar da mövcuddur. Xüsusi gömrük rejimləri adlanan bu istisnalar; anbar rejimi, müvəqqəti giriş rejimi, tranzit ticarət rejimi, sərhəd və sahilyanı ticarət rejimi və Azad zona rejimidir. Tədqiqatda bu beş xüsusi gömrük rejimindən biri, Azad zona rejimi nəzərdən keçirilir.

Azad zonalar ölkənin siyasi sərhədləri içərisindədir və xarici ticarət, vergi və gömrük qanunvericiliyinin tətbiqi baxımından gömrük xəttindən kənarda olduğu üçün ölkədə qüvvədə olan ticari, maliyyə və iqtisadi sahələrə aid qanuni tənzimləmələr tətbiq edilmir və sənaye və ticarət fəaliyyəti üçün daha geniş azadlıqlar və stimullar verilir. Ölkənin digər bölgələrindən fiziki olaraq ayrılmış və ticarət, istehsal və xidmət fəaliyyətlərinin həyata keçirildiyi yerlər kimi də müəyyən edilə bilər.

Xüsusilə inkişaf etməkdə olan ölkələr üçün xüsusi zonalar makroiqtisadi təsirlər yaratdığından daha da vacib hal almağa başlamışdır. Bu zonaların yaradılmasında məqsəd ölkə iqtisadiyyatının prioritet sahələrinin inkişafını sürətləndirmək, yerli və xarici investisiyaların cəlb edilməsinə daha əlverişli şərait yaratmaq, ixracatı genişləndirmək, istehsalda yeni müasir texnika və texnologiyanın tətbiqinə nail olmaq, rəqabət qabiliyyətli, səmərəli istehsal və xidmət sahələrinin təşkilini dəstəkləmək, yeni iş yerlərinin açılmasına şərait yaratmaq və nəticədə ölkənin kompleks sosial-iqtisadi inkişafına nail olmaqdır.

Metod

Mövzu ilə bağlı təhlilin aparılmasında, qarşıya qoyulan məsələlərin həllinə nail olmaq üçün müqayisəli təhlil, statistik, funksional, məntiqi, struktur, qruplaşdırma və müşahidə və s. metodlardan istifadə edilmişdir.

Analiz

1. Azad Zona Anlayışı Və Azad Zonaların Qurulmasında Rol Oynayan Amillər

Azad zonalar yarandıqları dövrdən 1960-cı illərə qədər ticarət xarakteri daşıyırdılar. Alterə görə, ölkənin və ya bölgənin makroiqtisadi şərtləri və xarici iqtisadi mühiti xüsusi zonaların uğurunda iki vacib amildir. Xüsusi iqtisadi zonaların uğur qazanmasında ölkənin və ya bölgənin yerləşdiyi sosial-iqtisadi şərait təsir göstərir. Xarici iqtisadi çərçivədəki dəyişikliklər, məsələn, ixrac tələbinin azalması azad zonaların inkişafına birbaşa təsir edə bilər. Bu baxımdan azad zonalar aşağıdakı kimi müəyyən edilə bilər: bir tərifə görə, bir ölkənin siyasi hüdudları içində olmaqla birlikdə, gömrük sərhədləri xaricində sayılan seçilmiş sənaye və ticari fəaliyyətlərin ölkənin digər seqmentlərinə görə daha çox təşviq edildiyi, bürokratiyanın ən aza endirilməyə çalışıldığı yerlərdir. Başqa bir tərifə görə isə "bir ölkənin suverenlik sərhədləri içində qalan, ancaq gömrük sərhədlərinin daxilində olmayan və dövlət müdaxiləsinin minimum səviyyədə olduğu ticari və sənaye funksiyalarının yerinə yetirildiyi xüsusi məqsədli bir tətbiq sahəsidir".

Bu tərifdən sonra xüsusiyyətlərinə görə azad zonalar aşağıdakı kimi ifadə edilə bilər: azad iqtisadi zonalar ümumiyyətlə beynəlxalq limana və ya hava limanına yaxın ərazilərdə qurulur. Gömrük sahəsindən ayrı icra olunan bölgələrdir. Başqa sözlə, onlar xüsusi məqsədlər üçün qorunur. Bölgəyə daxil olan mallar gömrük proseduralarına məruz qalmır və idxal olunan mallar saxlanıla, işlənə və istehsalatda istifadə edilə bilər. Bu mallar gömrük daxilində olmadıqda vergi ödəməyə ehtiyac yoxdur.

Xüsusi zonaların qurulmasında rol oynayan amilləri aşağıdakı kimi sadalamaq olar: 1) xarici ticarət siyasətində tətbiq olunan məhdudlaşdırıcı tədbirlər müəyyən dərəcədə yumşaldıla bilər və xarici dünyaya bir pəncərə açı-

la bilər; 2) ölkənin vanlyuta qazancı artırıla bilər; 3) tranzit xarici ticarət və avtomobil nəqliyyatı yaxşılaşdırıla bilər; 4) idxalat asanlığı təmin edilə bilər və bölgəyə gələn yerli sənayeçinin giriş xərclərini aşağı sala bilər; 5) saxlanma, ixrac və keçid fəaliyyətlərini təşviq edə bilər; 6) xarici sərmayə və turizmi təşviq edə bilər; 7) məşğulluq imkanı təmin edə bilər; 8) sənayeləşmə və yeni texnologiya axışını təmin edə bilər.

Ancaq bu amillər fonunda ölkəyə xarici kapital cəlb etmək asan olmaya bilər. Ölkəyə xarici kapital cəlb etmək üçün asanlıqla demək olar ki, investisiya qoyacaq investorlar ilk növbədə ölkənin iqtisadi və siyasi sabitliyinə böyük əhəmiyyət verirlər. Siyasi qeyri-sabitlik səhmdarın milliləşdirmə və ictimailəşdirmə mövzusunda həssas nöqtəsidir. Burada meydana gələn qeyri-müəyyənlik qərar vermə müddətinə təsir edər.

Azad zonalar siyasi baxımdan tam müstəqil deyil. Bu bölgələr hökumət, yerli idarələr, qurumlar və qanunla müəyyən edilmiş fiziki və hüquqi şəxslər tərəfindən idarə olunur. Lakin bölgədəki mövcud qanunlar, gömrük qaydaları və xarici ticarət rejimi qismən və ya tamamilə etibarsızdır. Xüsusi iqtisadi zonalarda fəaliyyət istiqamətlərini bu cür ifadə edə bilərik. Ümumiyyətlə, bura saxlama, qablaşdırma, çeşidləmə, yükləmə, boşaltma, yığma, sökmə, bank sığortası, memarlıq, mühəndislik, məsləhət, agentlik, broker, icarə, nəqliyyat vasitəsinə texniki xidmət və təmir kimi sənaye xidmətləri daxil ola bilər.

2. Xüsusi İqtisadi Zonalarin Makroiqtisadi Təsirləri

Azad iqtisadi zonaların dünya tarixində olduqca uzun bir keçmişi olmasına baxmayaraq, 1970-ci illərdən etibarən dünya ticarətində əhəmiyyətli bir rol oynamağa və iqtisad ədəbiyyatında iştirak etməyə başlamışdır. İqtisad ədəbiyyatında azad zonaların xüsusilə inkişaf etməkdə olan ölkələrdə xarici sərmayələri və xarici ticarəti artırmaq, yerli istehsalçıların dünya bazarlarındakı qiymətlərə əsasən, davranaraq beynəlxalq rəqabətə davam gətirmələrini təmin etmək, ixracata meyilli sənayelərin inkişafını təşviq edərək ixracatı artırmaq, valyuta girişini artırmaq, yeni iş imkanları yaradaraq məşğulluq probleminin həllinə köməkçi olmaq, inkişaf etmiş istehsal texnikalarının xaricdən ölkəyə gətirilməsiylə iqtisadi standartları yüksəltmək kimi müxtəlif məqsədlərlə yaradıldığı qəbul edilməkdədir.

Azad zonaların makroiqtisadi təsirlərini aşağıdakı kimi yazmaq mümkündür:

– Azad zonalarda istehsal fəaliyyətlərində istifadə edilməsi üçün yerli bazardan ixrac edilən xammal, yarı işlənmiş və hazır məhsullarla ölkə istehsalının artmasında iştirak etmək,

– Təmin etdikləri üstünlüklərlə ölkə ixracatını və valyuta mədaxilini artırmaq,

– İdxal mallarından istifadə edərək istehsalını həyata keçirən yerli istehsalçılara gömrük vergisi və ƏDV olmadan malların daxil olmasına fürsət yaradaraq, xaricdəki rəqibləri ilə eyni şərtlərdə istehsal şəraiti yaratmaq,

– Ölkədə istifadə edilməsi düşünülən yeni ticari və iqtisadi siyasətlərin sınana bilməsini təmin etmək,

– Xarici investisiya firmalarının risk faktorunun aşağı, qazanclılığın yüksək olduğu xüsusi iqtisadi zonalara sərmayə qoymalarını təşviq etmək və beləcə ölkəyə yeni texnologiyaların girməsini sürətləndirmək,

– Azad zonada yaratdığı məşğulluğun yanında, bölgədəki istehsal və ticari fəaliyyətlərlə ölkə içindəki digər fəaliyyətlərə təsir edərək bilavasitə məşğulluq yaratmaq,

– Böyük hissələr halında xüsusi iqtisadi zonalara gətirilən malların lazım olduqda kiçik hissələr halında ölkəyə idxal edilməsini təmin edərək istehsal xərclərini aşağı salmaqdır.

Bu əhatədə azad zonaların iqtisadi təsirləri ilə əlaqədar olaraq iqtisad ədəbiyyatında iştirak edən ancaq məlumat məhdudiyyəti səbəbiylə az sayda olan müəyyən işlərdə azad zonaların xarici sərmayə qoyuluşlarını, xarici ticarəti, rəqabət gücünü, ixracatı və məşğulluğu artırmaq kimi təsirlərə sahib olduğu istiqamətində tapıntılar əldə edilmişdir. Bununla birlikdə, Hamada (1974:225-241) Hamilton və Svensson (1982:45-64) və Young (1987:369-384) tərəfindən tədqiq edilən işlərdə azad zonaların ölkə rifahına və milli gəlirə mənfi təsir etdiyi nəticəsinə gəlinmişdir. Bənzər şəkildə Chaudhuri və Adhikari (1993:157-162) tərəfindən tədqiq edilən işdə isə xüsusi iqtisadi zonaların kənddən şəhərə köçü sürətləndirərək işsizliyin artmasına səbəb olduğu irəli sürülmüşdür.

Yekunlaşdırılacaq olsa, nəzəri və tətbiqli işlərin böyük əksəriyyətində Xüsusi İqtisadi Zonaların rifah və milli gəlir üzərində müsbət makroiqtisadi təsirlərinin olduğu nəticəsinə gəlindiyini və işlərin böyük nisbətdə bir-birini tamamlayıcı xüsusiyyətdə olduğunu söyləmək mümkündür. Bununla birlikdə xatırlanan işlərdə məlumat çətinliyi səbəbiylə fərqli makroiqtisadi təsirlərin araşdırılması fərqli nəticələrin əldə edilməsinə səbəb olmaqdadır. Bu problemi ortadan qaldıra bilmək üçün azad zonalarla bağlı statistik məlumatların kafi səviyyədə yığılmasının və nəşr olunmasının azad zonalar makroiqtisadi təsirlərini açıqlamaqda daha təsirli ola biləcəyi ifadə edilə bilər.

2.1. Azad zonalarin yerləşdiyi ölkəyə təmin etdiyi faydalar

İdxalatda təmin edilən faydalar: Bu məzmundakı faydalar 4 qrupda toplana bilər.

Birincisi, vaxt baxımından; yəni azad zonalar idxalatın birbaşa və zamanında edilməsini təmin edə bilər. Ölkə daxilində yerli istehsal üçün istifadə ediləcək xammal və ara malları və ya birbaşa istehlak malları azad zonalardakı təşəbbüskarlar tərəfindən daha əvvəl bu zonaya gətirilə bilər. Buna görə yerli təşəbbüskarlar çox vaxt itkisi olmadan ehtiyac duyduqları idxal məhsullarını asanlıqla əldə edə bilərlər.

İkinci olaraq anbar və anbarlama xərci baxımından. Yerli təşəbbüskarlar idxal əməliyyatları sırasında malların uzun müddət anbarlanmasından və bundan nəticələnən maddi öhdəlikdən xilas ola bilərlər.

Üçüncü olaraq idxal rüsumları baxımından. Yerli istehsalçılar ehtiyac duyduqları malları azad iqtisadi zonalardakı anbarlarda saxlayarlar və bunlara ehtiyacları olduqca kiçik hissələr şəklində idxal edərlər. Xüsusi zonalardan mal idxal edərkən bir miqdar vergi ödənə bilər. Ediləcək olan idxalat kiçik partiyalar halında olsa vergi məbləği də daha aşağı olacaq. Bu vəziyyətdə idxal edən yerli təşəbbüskarlar istehsal mallarını bir dəfədə ölkəyə daxil edib vergisini bir dəfədə ödəmək yerinə, həm idxal etmək istədiyi malları rahat əldə edə biləcək, həm də bu zonalarda edilən əməliyyatlardan alınan idxal rüsumunun azlığından faydalana biləcək.

Dördüncü olaraq isə keyfiyyət zəmanətidir. İstehsalçılar xüsusi iqtisadi zonalar sayəsində mədaxil edəcəkləri məhsulları yerində görüb araşdıra biləcəklər.

İxracatdan təmin ediləcək faydalar: Bu vəziyyəti ikiyə ayıra bilərik. Birincisi rəqabət üstünlüyü. Bu zonalardan idxal edilən mallar dünya bazarlarına satılarkən qiymət baxımından bir üstünlüyə sahibdirlər. Azad zonalara gələn malların idxal malı sayılmaması, ixrac edilən malların xərclərini aşağı salacaq. Bununla birlikdə, ölkədə bol və ucuz olan qaynaqlar, təşəbbüskarlar tərəfindən üstünlüklü bir şəkildə dünya bazarına təqdim edilə bilər. İstehsalçılar bu malları xüsusi zonalara gələn yeni texnologiyalarla birləşdirib ucuza işləyərək dünya bazarına çıxara bilərlər. Son olaraq ölkədən azad zonaya edilən mal satışları ixracat sayılacağından və azad zonalardakı istehsalın heç olmasa bir qisiminin yerli xammal və mədaxil həcmini artıracağından ölkənin ixracatı təbii olaraq artırıla bilər.

İkinci olaraq zamanlamanı göstərə bilərik. Xüsusi iqtisadi zonalarda fəaliyyət göstərən firmalar ölkədən dünya bazarına satmağı planladıqları məhsulları əvvəl bu zonalara ixrac edərlər. Daha sonra burada yığılan məhsullar uyğun satış imkanları və satış razılaşmaları ilə vaxt itirmədən bazara çıxarıla bilər. Bu yol izlənildiyində ixracatçıların sürətli manevr qabiliyyətinə sahib olmaları mütləqdir.

Xarici kapital axını: bir ölkənin xarici kapital cəlb etmək qabiliyyəti transmilli şirkətləri xüsusi imkanlarla təmin etmək qabiliyyətindən asılıdır. Çünki xarici kapital rahat fürsətlərə gəlir. Bu, azad iqtisadi zonaların cəlbedici cəhətlərindən biridir. Bu xüsusi imkanları aşağıdakı kimi ümumiləşdirmək olar: 1) ölkə daxilində ictimai və siyasi sabitlik, milliləşdirmə zəmanəti verilə bilər; 2) mənfəət köçürmə hüququ verilə bilər; 3) ev sahibi ölkələrin kvotalarından istifadə etmə imkanı; 4) AİZ-in yerləşdiyi ölkəyə və ya şirkətlərin məxsus olduğu ölkəyə ixracat edə bilmə imkanı təmin edilə bilər; 5) qəbul edən ölkədə tətbiq edilən vergi azadolunmalarından faydalanma imkanları; 6) hazır infrastruktur təmin edilə bilər; 7) ödənişlər aşağı və həmkarlar ittifaqı hüquqları məhdudlaşdırıla bilər; 8) investisiya və ixrac təşviqləri təmin edilə bilər; 9) valyuta dəyişkənliyindən yaranan risklərdən qorunma tədbirləri görülə bilər.

İşsizlik probleminin azalması: azad iqtisadi zonalar yerləşdikləri ölkələrin işsizlik problemini tam olaraq həll etməsə belə, iş gücü potensialı ilə müəyyən bir işsizlik nisbətini azaltmaları cəhətdən müvəffəqiyyətli sayıla bilər. Kiçik AİZ bunu təmin etməyə bilər. Lakin çoxfunksiyalı bir xüsusi zonanın bu vəziyyətə təsiri inkar edilə bilməz. Burada kiçik bir detal, ev sahibi ölkələrin belə zonalara xaricdən işçi gətirilməsinə qarşı qabaqlayıcı tədbirlər görülməsinə ehtiyac duyula bilər. Məsələn, Türkiyədə fəaliyyət göstərən cəmi 18 sərbəst zonalarda 52640 işçi, 10957 ofis heyəti, 3387 da digər işlərlə məşğul olan personal var. Bu zonalarda ümumi 66984 nəfər işləyir (https://ticaret.gov.tr/ , 31.12.2017). Azad iqtisadi zonaların məşğulluğa birbaşa olduğu kimi dolayı yolla da təsir etmə imkanı vardır. Belə ki, xüsusi iqtisadi zonalarda işləyənlərin ehtiyacı bu zonalara yaxın bölgələrdən təmin edildiyinə görə, həmin rayonlarda yeni iş imkanları yaranır. Burada ortaya çıxan ən vacib problem məşğulluq strukturunun balanssızlığıdır.

Tranzit ticarət: yaradılmış azad iqtisadi zonaların beynəlxalq nəqliyyat mərkəzlərinə yaxın olması ölkəyə beynəlxalq daşımaları cəlb edəcək və daxili və xarici valyutada nəqliyyat gəlirlərinin artmasında təsirli ola bilər.

Xarici valyuta gəlirlərini artırmaqla tədiyə balansının bağlanması: azad iqtisadi zonaların daha çox inkişaf etməkdə olan ölkələrə bu baxımdan faydası böyükdür. İxracatın artırılması və digər bəzi yollar vasitəsi ilə ölkənin valyuta qazancından artımlar təmin edərək ticarət balansının kəsrini müəyyən dərəcədə bağlamaq məqsədi daşıyır. Azad zonalarda satılan mallar, xidmətlər və əmək haqları şəklində qazanc birbaşa xarici valyuta qazanclarıdır. Bundan başqa əlavə dəyər elementlərini də (torpaq icarəsi, bina icarəsi, kredit faizi, vergi və rüsumlar) qeyd etmək olar.

Texnologiya transferi: istehsala meyilli azad iqtisadi zonalarda xarici kapital transferi ilə yanaşı bu ölkəyə yeni texnologiyalar da təklif edilə bilər. Burada əsas məsələ texnologiyanın milli iqtisadiyyat ilə birlikdə sahibkarların, mühəndislərin və işçilərin bilik səviyyələrinin də artmasına fayda verə bilməsidir. Bir tərəfdən də yeni texnologiyalar insanların işlə təmin edilməsinə mane olur. Amma ümumilikdə, əmək tələb edən mallar daha çox istehsal edildiyi üçün bu elə də böyük problem deyil.

Nəticə

Dünya iqtisadiyyatında artan rəqabət səbəbiylə çox sürətli yer dəyişdirə bilən beynəlxalq investisiya böyük əhəmiyyət qazanmışdır. Bəzi ölkələr bu sərmayəni özlərinə çəkə bilmək məqsədiylə müxtəlif qanuni tənzimləmələr yerinə yetirirlər. Xarici sərmayənin hansı ölkəni seçəcəyi mövzusunda yalnız yerinə yetirilən bu qanuni tənzimləmə və təşviqlər deyil, eyni zamanda, o ölkənin siyasi və iqtisadi sabitliyi başda olmaq üzrə bir çox fərqli meyar da əhəmiyyət qazanmaqdadır. Xarici sərmayəni ölkəyə çəkə bilən faktorlardan biri Xüsusi İqtisadi Zona tətbiqidir. Xüsusi zonalar kafi idarə mexanizmləri təmin edildiyi təqdirdə, xarici sərmayəni ölkəyə çəkmənin yanında, ixracatı asanlaşdırmaq və artırmaq, valyuta daxilolmalarını yüksəltmək, texnologiya transferini təmin etmək və yeni məşğulluq

imkanları yaratmaq kimi mövzularda da əhəmiyyətli iqtisadi qatqılar təmin edəcək. Administrativ tənzimləmə və idarəetmənin yaxşı edilmədiyi azad zonaların qaçaqçılığı artırma, ətraf mühiti çirkləndirməsi, yerli firmalara xarici bazarda rəqib yaratma, idxal təzyiqi yaratması kimi qorxuları da mövcuddur. Buradakı qorxu xüsusi zonanın özündən deyil, vəzifəsini yerinə yetirməyən rəhbərlikdən qaynaqlanmaqdadır. Xüsusi zona əməliyyatlarından hər il təxminən 60 milyon $ ümumi büdcəyə köçürülməkdədir. Dünya ticarətinin təxminən 15%-ni idarə edən xüsusi zonalar, bu baxımdan baxıldığında xüsusilə məşğulluq istiqamətiylə iqtisadiyyata böyük bir qatqı təmin etməkdədir.

Azərbaycan Respublikasında xüsusi iqtisadi rayonların qurulması və inkişaf etdirilməsi üçün kompleks tədbirlərin işlənib hazırlanması lazımdır. İlk növbədə, vergi, gömrük və digər güzəştlərinin nələrdən ibarət olunmasına açıqlıq gətirilməlidir və qanunlarla tənzimlənməlidir. Bundan əlavə burada fəaliyyət göstərən müəssisələrə hansı şərtlərə əsasən qurulması bu planda tam şəkildə öz əksini tapmalıdır. Bilindiyi kimi dünyada XİZ-lər xarakter və funksional baxımdan üç yerə - özəl, dövlət və qarışıq formalara bölünürlər. Dünyada ən çox tətbiq edilən qarışıq XİZ formalarıdır. Azərbaycan Respublikasında qurulan Sumqayıt texnoparka və Balaxanı EkoSənaye Parkına nəzər yetirsək görərik ki, burada əsasən dövlət müəssisələrin rolu genişdir. Əlbəttə ki, istər bu zonalarda, istərsə də digər qurulacaq XİZ-lərdə xüsusi mülkiyyətin, yerli və xarici özəl müəssisələrin, həmçinin, universitetlərin, tədqiqat institutların da bu işə cəlb olunması istiqamətində addımların atılması vacibdir. Bunun üçün bizə daha yaxın olan Türkiyənin təcrübəsi tədqiq olunmalı və dünya təcrübəsindən də istifadə edərək yeni konsepsiya hazırlanmalıdır. Bundan başqa XİZ-lərin regionlarda qurulması üçün ayrı tədqiqatlar aparılmalı və əsaslandırılmış xüsusi təkliflər paketi hazırlanmalıdır. Azad İqtisadi Zonaların qurulması məsələləri ortaya çıxdığı zaman ən çox müzakirə olunan ərazilər Sumqayıt şəhəri, Naxçıvan MR-nın Sədərək qəsəbəsi, Lənkəran şəhəri olmuşdur. Lakin hal-hazırda əsasən Bakı şəhəri və Abşeron iqtisadi rayonunda qurulmasına daha çox diqqət yetirilir. Azərbaycanın təbii və coğrafi mövqeyi ölkəmizin digər ərazilərində də bir çox XİZ formalarının qurulması imkanlarını ortaya çıxarır. Əsasən, sərhədyanı və liman ərazilərdə azad ticarət zonaların qurulması məsələlərinə baxıla bilər. Xüsusəndə İran, Türkiyə və Rusiya ilə.

Göründüyü kimi Xüsusi İqtisadi Zonaların ölkə iqtisadiyyatın inkişafında rolu çox böyükdür. Bu vasitələrdən istifadə edərək istər köhnə ərazilərdə yeni təsərrüfatçılıq sahələrinin inkişaf etdirilməsinə və ya yeni təsərrüfat sahələrinin formalaşmasına gətirib çıxaracaqdır.

Ədəbiyyat

1. Əliyev Şəfa, "Xüsusi iqtisadi zonaların tətbiqi problemləri", Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Bakı, 2012
2. Samirə Tağıyeva, "Dünya təcrübəsində xüsusi iqtisadi zonalar, mövcud vəziyyət, inkişaf perspektivləri", Bakı, 2015
3. Rasim Abutalıbov, "XÜSUSİ İQTİSADİ ZONALARIN SOSİAL-İQTİSADİ İNKIŞAFA TƏSİRİ", Bakı, 2012
4. Ramiz Məhərrəmov, "ƏLƏT AZAD İQTİSADİ ZONASINDA VERGİTUTMA MƏSƏLƏLƏRİNİN TƏNZİMLƏNMƏSİ"
5. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli, 538 nömrəli Fərmanı
6. Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının 2009-cu il 14 aprel tarixli Qanunu
7. Azərbaycan Respublikası Prezidentinin "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 2009-cu il 3 iyun tarixli, 101 nömrəli Fərmanı
8. Ayhan Orhan, Serbest Bölgelerin Sağladığı avantajlar, 2003
9. Cem Alpar, Dünyada ve Türkiye'de Serbest Bölgeler. Ankara, 1985
10. Robert Alter, Lessons from the Export Processing Zone in Mauritius, 1991
11. https://ticaret.gov.tr/
12. https://portofbaku.com/az/Free-Zone/

AZƏRBAYCANDA SOSİAL SAHƏDƏ İNNOVASİYALAR

Roza Əliyeva,
İqtisad üzrə Fəlsəfə Doktoru,Dosent,
Azərbaycan Texniki Universiteti,
"İqtisadi nəzəriyyə və xidmətlər" kafedrası
E-mail: farida94@mail.ru

Summary: *Sosial protection of the population is one of the most important components of the state sosial policy and labor relations. Its subject area covers the basic conditions of human life, financial support to the population and the organization of sosial and medical assistance to disabled members of society. Changes in Azerbaijani society in the last decades of the 20th century have resulted in the following results: the emergence of a new structure of society. This is primarily due to the emergence of sosially vulnerable groups of the population, such as unemployed, refugees, IDPs, as well as*

categories of citizens who do not receive adequate support from the state and society at this stage. Sosial protection of the population is the most important direction of the state sosial policy.
Keywords: *Sosial protection, society, vulnerable groups, financial support, population.*

Əhalinin sosial müdafiəsi dövlət sosial siyasətinin və əmək münasibətlərinin ən vacib komponetlərdən biridir. Onun predmet sahəsi insan həyatının əsas şərtlərini əhatə edir: əhaliyə maddi dəstək və cəmiyyətin əlil üzvlərinə sosial və tibbi yardımın təşkili. XX əsrin son onilliklərində Azərbaycan cəmiyyətindəki dəyişikliklər aşağıdakı nəticələrə səbəb oldu: cəmiyyətin yeni bir quruluşunun ortaya çıxması. Bu, ilk növbədə, əhalinin sosial cəhətdən həssas təbəqələrinin, məsələn, işsizlər, qaçqınlar, məcburi köçkünlər, habelə indiki mərhələdə dövlət və cəmiyyət tərəfindən lazımi dəstəyi tapmayan vətəndaşların kateqoriyalarının yaranmasından gedir və bunlar əlillər, pensiyaçılar, uşaqlar və s. yeniyetmələr. Bütövlükdə, ölkədə müdafiəyə ehtiyacı olan insanların sayı artır. Öz növbəsində, sosial yardım problemləri çətinləşdi, çünki iqtisadi dəyişikliklərin başlaması ilə problemləri olan bir insan bazar ünsürünün mərhəmətinə qaldı. Bu gün əhalinin sosial müdafiəsi yoxsullar üçün sosial kompensasiya rolunu oynamalıdır, eyni zamanda, sürətlə böyüyən mülkiyyət bərabərsizliyinə qarşı müəyyən bir çəki rolunu oynamalıdır.

Mövcud iqtisadi və ictimai-siyasi şəraitdə sosial müdafiə sisteminin rolu və əhəmiyyəti xeyli artmışdır. Çox vaxt sosial xidmətlər orqanları və qurumları müraciət edən insanlara həyat probleminin həllində dəstək və yardım almaq üçün yeganə qurumlar kimi çıxış edir. Əhalinin sosial müdafiəsinin aktuallaşdırılması, "sosial müdafiə" anlayışının dövlətə "sosial qayğı" konsepsiyası ilə əlaqəli olması, peşə təhsilli insanlar tərəfindən təşkil edilmiş və "sosial iş" anlayışı ilə ifadə olunan insan qruplarına fərdi yardımın son məqsədi kimi inamın dəstəklənməsindən ibarətdir. Buna görə son illərdə əhalinin sosial müdafiəsi üzrə mütəxəssislərin əksəriyyəti "əhalinin sosial müdafiəsi" kimi geniş, lakin spesifik olmayan bir anlayışdan imtina edir və getdikcə "əhalinin dövlət tərəfindən sosial dəstəyi" ifadəsini istifadə edir. Əhalinin sosial müdafiəsini maliyyələşdirmə mənbələri dövlət sosial fondlardır: Sığorta Fondu, Pensiya Fondu, Dövlət Məşğulluq Fondu, Məcburi Tibbi Sığorta Fondu. Azərbaycan Sosial Sığorta Fondu Azərbaycan hökuməti yanında ixtisaslaşmış maliyyə-kredit qurumudur. Sosial Sığorta Fondunun əsas məqsədi işçilərin və onların ailələrinin müvəqqəti əlillik, hamiləlik və doğuş, doğuş, uşaq baxımı, dəfn, sanatoriya müalicəsi və reabilitasiyası üçün dövlət tərəfindən təmin edilmiş müavinətlərin verilməsidir.

Azərbaycan Pensiya Fondunun vəsaiti aşağıdakılardan ibarətdir:

- işəgötürənlərin sığorta haqları;
- Fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşların sığorta haqları;
- işləyən vətəndaşların digər kateqoriyalı sığorta haqları;
- büdcədən ayrılan vəsaitlər və s.

Məşğulluq Fondu dövlət məşğulluq siyasətinin hazırlanması və həyata keçirilməsi ilə bağlı fəaliyyətlərin maliyyələşdirilməsi üçün yaradılan Azərbaycanın dövlət büdcədənkənar fondudur. Məşğulluq Fondu hüquqi şəxs deyildir və məşğulluq xidməti orqanlarının operativ idarəetmədədır. Məşğulluq fondu aşağıdakı gəlirlərdən formalaşır:

- işəgötürənlərin icbari sığorta haqları;
- işçilərin qazancından icbari sığorta haqları;
- Büdcə ayırmaları.

Məşğulluq Fondunun vəsaiti işsiz vətəndaşların karyera rəhbərliyi, təlim və yenidən hazırlanması üçün ayrılır; ictimai işlərin təşkili; işsizlik müavinətlərinin, kompensasiyaların ödənilməsi; maddi və digər yardımların göstərilməsi. Əhalinin sosial dəstəyi üçün vəsait əhalinin sosial xidmətlərini həyata keçirmək üçün maliyyə mənbələrindən biridir. Bunlar ən çox ehtiyacı olan vətəndaşlara sosial dəstək mənbəyi yaratmaq və aztəminatlı qruplara ünvanlı sosial müdafiəni təmin etmək məqsədi ilə yaradılan müstəqil dövlət qurumlarıdır. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu fondun vəsaitlərinin xərclənməsinin əsas istiqamətlərini müəyyənləşdirir. Azərbaycanda əhaliyə dəstək fondları icra hakimiyyəti və sosial müdafiə orqanlarının rəhbərliyi altında fəaliyyət göstərir. Əhalinin Sosial Dəstəyi Fondundan yardım almaq hüququ, xüsusilə ehtiyacı olan təqaüdçülərə, əlillərə, himayəsində olanlara, adambaşına düşən ümumi gəliri Azərbaycanda müəyyən edilmiş minimum səviyyədən çox olan digər əlil vətəndaşlara verilmişdir. Dövlətdə həyata keçirilən siyasi, iqtisadi və sosial sahələrdə baş verən dəyişikliklər yaxşı qurulmuş prioritetlər sisteminə əsaslanmalı, sosial problemlərin spektrinin mərhələli şəkildə həll edilməsi, sosial məqsədlər üçün ayrılmış mənbələrdən səmərəli istifadə mexanizmlərinin inkişafı, dövlət və real öhdəliklərin əlaqələndirilməsi olmalıdır.Dövlət sosial siyasətinin ən vacib istiqaməti əhalinin sosial müdafiəsidir. Müasir şəraitdə əhalinin ehtiyaclı təbəqələrinə digər vətəndaşlarla bərabər Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş hüquq və azadlıqların verilməsini elan edən bir sıra qanunlar qəbul edilmişdir. Mövcud iqtisadi şəraitdə yaşayış səviyyəsinin kəskin aşağı düşməsinin mənfi nəticələrini azaltmaq və əhalinin ən çox ehtiyacı olan qruplarına itkini qismən kompensasiya etmək üçün tədbirlər görülür. Uşaqları olan ailələr, veteranlar, əlillər, iş yerlərini itirmiş vətəndaşlar və əhalinin digər təbəqələri üçün sosial dəstək mexanizmləri yaradılır. Bununla birlikdə, bir çox

müavinət, kompensasiya, sosial müavinət və müavinət ailələrin maddi durumunu və insanların öz rifahlarını təmin etmək üçün real qabiliyyətləri nəzərə alınmadan təqdim olunur. Nəticədə həqiqətən ehtiyacı olanlara kömək etmək imkanı məhdudlaşır.Müəyyən dərəcədə sosial müdafiəyə ehtiyacı olan bir çox əhali kateqoriyası meydana çıxdı və buna görə də hazırda sosial müdafiə sisteminin məqsədi effektiv vasitələrdən - tənzimləyici, sosial-psixoloji, iqtisadi və s. istifadə edərək təmin etməkdir. Bu əhali ehtiyacı olanlara və ayrı-ayrı vətəndaşlara dəstəkdir. Bu mənada, sosial təminat, sosial sığorta və sosial yardımı özündə cəmləşdirən əhalinin sosial müdafiəsi, dövlətin sosial siyasətinə uyğundur, Konstitusiyaya görə, insanın layiqli həyatını və azad inkişafını təmin edən şərait yaratmağa yönəlmişdir. Əhalinin sosial müdafiəsinin təşkilində dövlət mühüm rol oynayır. İndiki mərhələdə müvafiq normativ hüquqi aktlara əsaslanan Azərbaycan əhalisinin sosial müdafiəsində dörd prioritet sahə müəyyən edilmişdir. Birincisi, uşaqların, uşaqlıq və yeniyetmələrin sosial müdafiəsi, ikincisi, əmək qabiliyyətli əhalinin sosial müdafiəsi, üçüncüsü, əlil vətəndaşların sosial müdafiəsi, dördüncüsü, ailənin sosial müdafiəsidir. Sosial müdafiənin idarəetmə orqanları və onların tabeliyində olan müəssisə, idarə, təşkilat, əhalinin sosial müdafiəsinin ərazi orqanları dövlət dəstəyini təmin edən vahid dövlət sosial müdafiə sistemini təşkil edir.

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyin ("DOST") Mərkəzdə xidmətlər "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilir. "DOST" Mərkəzdə xidmətlər birbaşa (yerində) xidmət, özünəxidmət, "çağrı mərkəzi" vasitəsilə xidmət və səyyar xidmət formasında, habelə qanunazidd olmayan digər formalarda təşkil edilir.

Ədəbiyyat

1. T.A. Paşkina, M.V. Kalinikova "Əhalinin sosial müdafiəsi" elmi-metodiki vəsait. M.: 2016
2. G.V. Süleymanova "Sosial təminat hüququ." Dərslik. "Yurayt": 2018
3. T. Zarembro, A. Savinov "Sosial müdafiə qurumlarının işinin təşkili." BC.: 2018

PROBLEMS IN PROVIDING PERSONNEL IN AN AGRARIAN SECTOR

Nadjiba Hajiyeva
PhD in Econ., "World Economy" department of
"International relations and economy" faculty of Baku State University
E-mail: nadjiba_h@mail.ru

Summary: *The article discusses the problems of providing agriculture with qualified personnel in modern conditions. The author identifies factors contributing to the lack of qualified personnel in the agricultural sector. The analysis of the state of employment and production in the agricultural sector is given. The main problems of training for the agricultural sector are identified and proposals for improving training for the agricultural sector are given.*

Keywords: *personnel, agricultural sector, vocational training, career guidance, education*

The share of the agricultural sector in GDP, which is an important part of the national economy of our country, amounted to approximately 4.9%, according to data provided by the State Statistics Committee in 2018. Of great importance in the formation of the national income, the quality of agricultural products, which is the raw material base of three quarters of the consumer market, affects not only people's health, but also the development of the entire economy. Reforms in the agricultural sector have led to sharp changes in the production and commercial activities of enterprises in this sector. Although the total number of agricultural enterprises decreased from 2487 in 1995 to 1721 in 2017, the number of private enterprises increased significantly. So, in 1995, from 2487 enterprises 315 were private, and in 2017 of the 1721 enterprises 1523 were private enterprises. Of the 2158 agricultural enterprises operating in 2000, 1026 were profitable, and in 2017 out of 1608 enterprises, 1122 enterprises operated with profit. That is to say, despite the decrease in quantity, the quality has changed and improved. The total income of agricultural enterprises has increased from 1 mln. 118 thousand Manat in 2000 to 115 mln. 25 thousand Manat in 2017. The total return over the same period changed from a negative of 19.2% to a positive of 14.1 %. [9]. As we can see from the Decree "On measures for acceleration of socio-economic development in the Azerbaijani Republic", signed by President Ilham Aliyev on November 24, 2003, Decree "On additional measures to improve the performance of the agricultural and food market" from January 16, 2014 and the Order from January 16, 2014 "On additional measures to improve the activity of the market of agricultural and food products", Decree from April 16, 2014 "On measures to improve governance in the agricultural sector and acceleration of institutional reforms" Order from April 11, 2017 "On measures for development of agriculture in the Republic of Azerbaijan" was given a kick off to the solution of economic problems in the agricultural sector and achievement of positive development. [1,2,3,4,5]

Obviously, in every success achieved, workforce plays a crucial role. Each stage of the country's development requires a certain qualification level of personnel. If we consider the number of people employed in the agricultural sector, we will notice, that this level is growing annually. Although their share in the total number of employed people in recent years has begun to fall. Note that in 2010 the number of people employed in agriculture amounted to 38.2% of total employment, and in 2018 this figure was 36.3%. If we analyze the number of those, receiving education in the field of agriculture, despite the growth in the share of the total number of students, the difference between employed ones and those who receive education in this field, is still considerable.

Table 1.

Analysis of agricultural workers and receive education on Dunn second specialty

	2005	**2010**	**2014**	**2015**	**2016**	**2017**	**2018**
The number of economically employed population (end of the year, figures in thousand, total	4062.3	4329,1	4602.9	4671.6	4759.9	4822.1	4879.3
Population employed in agriculture, forestry and fisheries (end of the year, figures in thousand, total)	1573.6	1655.0	1691.7	1698.4	1729.6	1752.9	1770.8
Specific gravity,%	38.7	38,2	36.7	36,4	36.3	36, 4	36.3
The number of hired employees in the economy (end of the year, thousand, total)	1297.1	1382.9	1519.7	1502.5	1514.3	1525.0	1551.7
The number of hired employees in agriculture, forestry and fisheries (end of the year, thousand, total)	45.7	41.2	45.3	46.3	47.2	49.4	51.3
Specific gravity,%	3,5	2.9	2.9	3.0	3,1	3.2	3.3
The number of students studying in state and non-state educational institutions (at the beginning of the school year)	129948	140241	151274	158212	161234	163779	167677
The number of students enrolled in agricultural specialties in public and private educational institutions (at the beginning of the school year)	-	879	1845	1764	1997	2436	2884
Specific gravity,%	-	0.6	1,2	1,1	1,2	1.4	1.7

The source : https :// www . stat . gov . az / source / labor / and https://www.stat.gov.az/source/education/

If you take into account that the factors in the development of the agricultural sector are: the level of technology , management system and human resources, among them requiring the long-term investment and a large amount of time is the training for the agricultural sector . Therefore, staff provision in an agriculture today is the strategic task of the state.

The government provides loans for agricultural development, applies tax deductions, provides material and technical support to entrepreneurship, opens agro financing, agricultural services, but does not have high-quality specialists, which impedes development. Today, there is a need to invite specialists from foreign countries due to the lack of national personnel for the development of various fields of agriculture. For example, there is a State program in the country for the promotion of tea and the subtropics, but experts in these areas have not been trained, and the demand for these professionals cannot be provided by the local labor market. The shortage of specialists in the agricultural sector due to the fact that for many years, agriculture remained neglected [7] . For many years, agriculture was considered as a not very promising area in terms of profitability, and even those who received higher education in this area did not choose this direction for further work. Workers in this field, especially farmers, did not have sufficient education and knowledge. Given that American farmers have on average of 3,000 hectares of land , but a specific education is required to manage this area. Farmers without special agricultural education are not allowed to work in this field [10]. Obviously, the training of national personnel for the agricultural sector takes time. Taking into account the development of higher education in the agricultural sector as part of the Strategic Road Map for agricultural production and processing, including the provision of graduate employment, the introduction of dual degree programs, the importance of this problem for the state becomes obvious. The agrarian orientation of the state has led to sharp changes in public opinion and views. As a result, the agricultural sector began to change. In the 2019/2020 academic year, the Ministry of Agriculture also confirms

the enrollment of 1368 students out of 1485 (which is 92.12%) allocated to the Azerbaijan State Agrarian University. In the 2019/2020 academic year there was an enrollment of students on 54 specialties in agriculture for full-time and part-time departments. The additional scholarships to students who are selecting the agricultural studies in the Azerbaijan State Agrarian University constituted 100 Manat for students who scored more than 400 points and 200 Manat for students who earned more than 500 points. At the same time, in addition to this, the students, studying English language in the Azerbaijan State Agrarian University receive 70 Manat extra per month. For those students who have achieved the best results in 6 subjects, the additional scholarship of 100 Manat in provoded, which is a great motivation for further training [6] This year more than 50 graduates found jobs at the job fair, which presented 164 companies from 41 regions and 918 jobs were proposed [8] . And this confirms once again that the demand for qualified personnel in the agricultural sector remains high.

Also, practice shows that a simple increase in the training of specialists by universities does not solve the problem of providing qualified personnel. Technological knowledge, scientific innovation is constantly growing, and the university cannot provide the student with complete information in this area. Therefore, practical training and exchange of experience is necessary in the training and retraining of personnel in this sector.

The main problems of vocational training at the moment are:

– lack of communication between the vocational education system and the labor market of the agricultural sector, that is, the imperfection of methods for assessing educational needs;

– lack of modern teaching materials in the national language for the organization of vocational training;

– imperfection of vocational and continuing education programs;

- lack of effective mechanisms for monitoring the effectiveness of training.

To solve the main problems of providing personnel, the agricultural sector must:

– formulate requirements for training taking into account the development trends of the world-class agricultural sector;

– the student should exchange experience and therefore it is necessary to integrate new trends in agricultural specialties, biotechnologies, innovations and information related to the introduction of science into the curricula of both agricultural and educational universities .

Literature

1. An order signed by a President Ilham Aliyev April 11, 2017 "On measures for development of agriculture in the Republic of Azerbaijan"
2. The order , signed by a President Ilham Aliyev January 16, 2014 "On additional measures to improve the activity of the market of agricultural and food products"
3. Decree "On additional measures to improve the performance of the agricultural and food market", signed by a President Ilham Aliyev January 16, 2014
4. Decree "On measures to accelerate socio-economic development in Azerbaijan Republic", signed by a President Ilham Aliyev November 24, 2003
5. The decree, signed by a President Ilham Aliyev April 16, 2014 "On measures to improve governance in the agricultural sector and to accelerate institutional reforms"
6. Abituriyentlərin aqrar ixtisaslara artan marağı (Increased interest of entrants in agrarian specialties) URL: http://www.kaspi.az/az/abituriyentlerin-aqrar-ixtisaslara-artan-marai
7. Aqrar sahənin dərinləşən kadr problem (Deep staff problem in the agrarian sector)
8. URL: http://www.movqe.az/news/sosial/63174.html .
9. Aqrar sahənin sürətli inkişafı yüksəkixtisaslı kadrlardan asılıdır (Rapid development of the agrarian sector depends on highly qualified personnel) URL: http://www.azerbaijan-news.az/view-169636/aqrar-sahenin-suretli-inkisafi-yuksekixtisasli-kadrlardan-asilid
10. Data from the State Statistics Committee. https : // www . stat . gov . az
11. Продивлянова Алла Викторовна Система подготовки кадров для сельского хозяйства // Известия ОГАУ. 2011. №31-1 (Prodivlyanova Alla Viktorovna Training system for agriculture // News of the OGAU. 2011. No. 31-1).

URL: https://cyberleninka.ru/article/n/sistema-podgotovki-kadrov-dlya-selskogo-hozyaystva

12. Ухоботов Владимир Владимирович, Варцев Денис Александрович Рабочие кадры сельского хозяйства и их воспроизводство // Нива Поволжья. 2009. №2. (Ukhobotov Vladimir Vladimirovich, Vartsev Denis Aleksandrovich Workers in agriculture and their reproduction // Niva Volga. 2009. No2). URL: https://cyberleninka.ru/article/n/rabochie-kadry-selskogo-hozyaystva-i-ih-vosproizvodstvo

AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİ ARTIMIN TƏMİN EDİLMƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Jalə Şəfizadə
Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, Magistr
E-mail: jale.shafizade@gmail.com

Xülasə: *İqtisadi artım ölkədə iqtisadi vəziyyəti müəyyən etməyə yardım edən əsas göstəricilərdən biridir. İqtisadi sistemin xarakterindən asılı olmayaraq hər bir ölkə iqtisadi artıma nail olmağa çalışır və bunun nəticəsində müəyyən iqtisadi problemlərin həlli mümkün olur. Bundan əlavə iqtisadi artım ölkədə iqtisadi inkişafın təminatçısı kimi çıxış edir və iqtisadi inkişafı şərtləndirən əsas amillərdəndir. İqtisadi inkişafa nail olmaq üçün iqtisadi artımın davamlılığı və dinamik tarazlılığının təmin edilməsi vacibdir. İqtisadi artım müəyyən zaman çərçivəsində bir iqtisadiyyatın mal və xidmətlər istehsal etmək gücünün artması deməkdir və cəmiyyət üzvlərinin tələbatlarını ödəmək üçün iqtisadiyyatın məhsuldar potensialının uzunmüddətli genişlənməsini nəzərdə tutur. Ölkənin iqtisadi artımına təsir edən bir sıra amillər vardır: İqtisadi amillər, insan kapitalı, texnoloji inkişaf, təbii ehtiyatlar, coğrafi mövqe və iqlim, demoqrafik amillər, siyasi, sosial və mədəni faktorlar və s.*

İqtisadi inkişafa nail olmaq üçün uzunmüddətli iqtisadi artımın təmin edilməsi hər bir dövlətin qarşısında duran önəmli məsələlərdəndir. Müstəqillikdən sonrakı dövrdə bağlanmış neft müqavilələri ölkənin iqtisadi dirçəlməsi və inkişafı yolunda mühüm rol oynamışdır. 2010-2014-cü illərdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft sektoru olmuşdur. Bu dövrdə həyata keçirilən iqtisadi artım modeli sayəsində ölkəmizdə iqtisadi artım tempi yüksəlmiş, qlobal iqtisadi əlaqələr yaxşılaşmış və ölkədə adambaşına düşən milli gəlir artmışdır. Hal-hazırki dövrdə iqtisadi inkişaf yolunda prioritet məsələlər xarici investisiyaların cəlb olunması, əlverişli biznes mühitinin inkişaf etdirilməsi, innovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi, insan kapitalının inkişafının stimullaşdırılması və s. bu kimi məsələlərdir.

Açar sözlər: *iqtisadi artım, iqtisadi inkişaf, iqtisadi siyasət, investisiya*

Giriş

Dünyada müxtəlif formada və müxtəlif gücdə iqtisadiyyatı olan ölkələr vardır. Bəzi ölkələr çox zəngin, bəziləri isə çox kasıbdır. Bəzi iqtisadiyyatlar sürətlə böyüyür, bəziləri isə ümumiyyətlə, böyümür. (Jones&Vollrath,2013) İqtisadi artım dedikdə, müəyyən zaman çərçivəsində iqtisadi faktorların dəyişməsi nəzərdə tutulur və bu dəyişmə kəmiyyət baxımından baş verir. Müəyyən zaman çərçivəsində iqtisadi göstəricilərin, əsasən, ÜDM (Ümumi Daxili Məhsul), ÜMM (Ümumi Milli Məhsul), MG (Milli Gəlir) göstəricilərinin, həmçinin, adambaşına düşən ÜDM, ÜMM və Milli Gəlir göstəricilərinin dəyişməsi iqtisadi artım və ya iqtisadi böyüməni özündə əks etdirir. İqtisadi artım həmişə uzunmüddətli iqtisadi inkişafı təmin edə bilməz. Belə ki, iqtisadi inkişafa nail olmaq üçün dinamik tarazlı iqtisadi artım əldə edilməlidir. İqtisadi artım iqtisadiyyatın səmərəli fəaliyyətinin yekun nəticəsidir. Ölkənin davamlı iqtisadi böyüməsi milli gəlirə və məşğulluq səviyyəsinə müsbət təsir göstərir və bu da daha yüksək yaşayış səviyyəsinə səbəb olur. İqtisadi artım prosesində əsas məqsəd istehsalın real həcminin artırılmasından, rifah vəviyyəsinin yüksəldilməsindən ibarətdir ki, bütün bunlar da iqtisadi inkişafa yol açır.

Metod

Məqalədə müşahidə, sistemli və müqayisəli təhlil, statistik və qruplaşdırma metodlarından istifadə olunmuşdur.

Analiz

Ölkənin iqtisadi artımına təsir edən bir sıra amillər vardır:

- İqtisadi amillər;
- İnsan kapitalı;
- Texnoloji inkişaf;
- Təbii ehtiyatlar;
- Coğrafi mövqe və iqlim;
- Demoqrafik amillər;
- Siyasi, sosial və mədəni faktorlar və s.

İxtisaslı işçi çatışmazlığı iqtisadiyyatın böyüməsinə mane olan amillərdəndir. İxtisaslı işçi qüvvəsinin artması isə iqtisadi artım üçün önəmli əhəmiyyət kəsb edir və ölkənin insan kapitalını təşkil edir. İnsan resursu və ya insan kapitalı bir ölkənin iqtisadi böyüməsinə təsir göstərən ən vacib amillərdən biridir. İnsan kapitalının həm keyfiyyəti, həm də kəmiyyəti iqtisadiyyatın böyüməsinə birbaşa təsir göstərə bilər. İnsan resursunun keyfiyyəti onun bilik və bacarıqları, təcrübə və dinamizmi, yaradıcılıq qabiliyyəti, təlim və təhsilindən asılıdır. Əgər bir ölkənin insan resursları bacarıqlı və təhsilli olarsa, iqtisadi böyümə nəticələri də yüksək olacaqdır. Bu səbəbdən bir ölkənin insan resursları lazımi bilik və bacarıqlara kifayət qədər yiyələnməlidir ki, iqtisadi artım əldə olunsun.

Texnoloji inkişaf və iqtisadi inkişaf bir-biri ilə əlaqəli anlayışlardır. Texnoloji inkişaf hər hansı bir ölkənin iqtisadiyyatının böyüməsinə təsir edən önəmli amillərdən biridir. Belə ki, texnoloji yeniliklər və texnoloji tərəqqi

inkişaf etməmiş ölkələrin belə inkişafına əhəmiyyətli dərəcədə töhfə verir. Texnologiya amilli özündə elmi metodların və istehsal texnikalarının tətbiqini ehtiva edir. Başqa sözlə, texnologiya müəyyən bir əmək miqdarı ilə istifadə olunan texniki vasitələrin təbiəti və növü kimi müəyyən edilə bilər. Yaşadığımız müasir dövrdə texnoloji yeniliklər, iqtisadi böyümə və ümumilikdə, insan rifahı bir-biri ilə sıx əlaqəli anlayışlardır. Doğru texnologiyanın seçilməsi iqtisadiyyatın böyüməsində mühüm rol oynayan faktordur. Hətta bir sıra mənbələrdə qeyd edilmişdir ki, Şumpeterin fikirlərinə görə, innovasiya və ya texnoloji inkişaf iqtisadi tərəqqinin və inkişafın yeganə müəyyənedicisidir. Bir çox araşdırmaların nəticələrinə görə, texnoloji inkişafa diqqət edən ölkələr texnoloji inkişafa az diqqət ayıran ölkələrə nisbətən daha sürətlə böyüyür.

Ölkənin təbii ehtiyatlarının, coğrafi mövqeyi və iqlim şəraitinin də iqtisadi böyüməyə təsirləri vardır. Hekşer-Ohlin nəzəriyyəsinə görə, istehsal amillərinin təchizatı baxımından ölkələr fərqlidirlər. Belə ki, müəyyən ölkələrdə konkret amillərin nisbi bolluğu müşahidə olunur. Bu nəzəriyyəyə görə, hər hansı bir amilin geniş yayıldığı bir ölkənin həmin amilin geniş istifadə olunduğu məhsullar üzrə ixtisaslaşmağı və bu məhsulları ixrac etməyə səy göstərməsi daha səmərəli olacaqdır. Belə ki, gəmi sənayesi və dənizi olmayan bir ölkədə balıqçılıq, meşə ərazisi olmayan bir ölkədə kağız istehsalı ilə məşğul olmaq çətin prosesdir.

Bir ölkənin təbii sərvətlərlə zəngin olması, əlverişli coğrafi mövqedə yerləşməsi onun iqtisadi inkişafı üçün səmərəlidir, lakin bu artımın yeganə müəyyənedicisi deyildir. Elə ölkələr vardır ki, zəngin təbii sərvətlərə sahib olmasına baxmayaraq yüksək inkişaf səviyyəsinə çatmamışdır. Burdan da belə nəticəyə gələ bilərik ki, iqtisadi artıma və iqtisadi inkişafa nail olmaq üçün bütün amillərin kompleks şəkildə prosesdə iştirak etməsi labüddür.

İqtisadi artıma təsir edən iqtisadi amillər bir neçə qrupda təzahür edir ki, bu da özündə makroiqtisadi sabitliyi, kapital yığımı və investisiyaları, beynəlxalq ticarəti, açıq iqtisadiyyatı, struktur islahatlarını və s. əks etdirir.

İnvestisiya iqtisadi sistemin və iqtisadi inkişafın ayrılmaz tərkib hissəsidir. İnvestisiyalar daxili investisiyalar və birbaşa xarici investisiyalar olmaqla ölkə iqtisadiyyatında həm makroiqtisadi, həm də mikroiqtisadi səviyyədə təsir göstərir. İqtisadi artım göstəricisi olan ümumi daxili məhsul və investisiya anlayışları qarşılıqlı əlaqəli anlayışlardır. Belə ki, həyata keçirilən investisiya qoyuluşları birbaşa ölkənin ümumi daxili məhsuluna təsir göstərir.

İqtisadi artıma nail olmaq üçün intensiv və ekstensiv yollar vardır. Ekstensiv yol resurslardan istifadə miqyasının genişlənməsi hesabına ÜDM-in artmasıdır (maşın sayının artması, əlavə işçilərin qəbulu, istehsal texnologiyasının dəyişməz saxlanması, artan əkin sahələri). İntensiv yol isə istehsal amillərinin keyfiyyətcə yaxşılaşması və səmərəliliyinin artması hesabına ÜDM-in artmasını əks etdirir (elmi və texnoloji tərəqqi, iqtisadiyyat miqyasının artması (istehsalın genişlənməsi onun səmərəliliyini artırır), işçilərin sonrakı təhsili, resursların rasional paylanması (kapital və əmək az səmərəli sektorlardan daha səmərəli səviyyəyə keçir)).

İqtisadi artım prosesində əsas məqsəd istehsalın real həcminin artırılmasından, rifah səviyyəsinin yüksəldilməsindən ibarətdir ki, bütün bunlar da iqtisadi inkişafa yol açır. İqtisadi inkişafa nail olmaq üçün uzunmüddətli iqtisadi artımın təmin edilməsi hər bir dövlətin qarşısında duran önəmli məsələlərdəndir.

Dövlətimiz müstəqilliyini bərpa etdikdən sonrakı ilk 4 il ərzində ölkədə regional qeyri-sabitlik, yüksək inflyasiya və işsizliyin hökm sürməsinə, o cümlədən, iqtisadi əlaqələrin zəifləməsinə baxmayaraq 1995-2013-cü illəri əhatə edən dövrdə həyata keçirilən islahatlar nəticəsində ölkədə makroiqtisadi sabitlik təmin olunmuş və iqtisadi artım üçün əsaslı zəmin formalaşdırılmışdır. Dövlət büdcəsinin dayanıqlı maliyyələşmə mənbələrinin təmin edilməsində "Əsrin müqaviləsi"nin müstəsna əhəmiyyəti olmuşdur. 2000-ci ilə qədərki dövrdə ölkə iqtisadiyyatının qarşısında üç əsas məsələ dururdu ki, bunlar mükiyyətdə struktur islahatlarının aparılması yolu ilə xüsusi mülkiyyətin genişləndirilməsi, bazar institutlarının qurulması vasitəsi ilə keçid dövrünün sürətləndirilməsi və neft sektorunda qarşılıqlı iqtisadi əməkdaşlığın gücləndirilməsi yolu ilə xarici investisiyaların cəlb edilməsi olmuşdur. 2007-ci ildə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların əsas tərkib hissəsini birbaşa xarici investisiyalar təşkil etmişdir. Birbaşa xarici investisiya axını texnologiyaya, biliyə, məşğulluğa, daxili investisiyalara və ölkənin xarici ticarətinə müsbət təsir göstərir. Bundan əlavə, bu investisiyalar bir ölkənin rəqabət qabiliyyətini artırmaqda və uzunmüddətli davamlı böyüməsində təsirli olur. Buna görə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, birbaşa xarici investisiya axınını bilik və texnologiya qazanmaq, istehsal proseslərini inkişaf etdirmək, idarəetmə bacarıqlarını artırmaq üçün bir vasitə olaraq görür.

Ölkəyə investisiyaların cəlb edilməsi məqsədilə respublikamızda "açıq qapı" siyasəti həyata keçirilir. Respublikada xarici investisiyaların cəlb edilməsi və səmərəliliyinin artırılması məsələlərinə qəbul olunan qanunlarda, normativ-hüquqi aktlarda yer verilməsi dövlətin bu sahəyə verdiyi önəmin göstəricisidir.

Ölkə İqtisadiyyatına Yönəldilmiş İnvestisiyalar (milyon ABŞ dolları ilə)

	2016	**2017**	**2018**
Cari investisiyalar	**14,228.0**	**14,213.3**	**15,221.7**
O cümlədən:	**6,983.4**	**6,959.2**	**6,701.1**

neft-qaz sektoruna			
Qeyri neft-qaz sektoruna	**7,244.6**	**7,254.1**	**8,520.6**
Daxili investisiyalar	**4,066.9**	**5,092.8**	**6,985.2**
O cümlədən: neft-qaz sektoruna	**1,155.1**	**1,275.4**	**1,468.6**
Qeyri neft-qaz sektoruna	**2,911.8**	**3,817.4**	**5,516.6**
Xarici investisiyalar	**10,161.1**	**9,120.5**	**8,236.5**
O cümlədən: neft-qaz sektoruna	**5,828.3**	**5,683.8**	**5,232.5**
Qeyri neft-qaz sektoruna	**4,332.8**	**3,436.7**	**3,004.0**

Mənbə : Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK)

2015-ci ildə xaricə yönəldilmiş birbaşa investisiyalar, portfel investisiyaları, və digər investisiyalar hesabına xalis maliyyə aktivlərimiz 13.7 milyard dollar artmışdır. Bu dövrdə birbaşa xarici investisiyalar 7.5 milyard təşkil etmişdir ki, bunun 860.4 milyon dolları qeyri-neft sektoruna cəlb edilmiş birbaşa xarici investisiyalar, 6.6 milyard dolları isə neft-qaz sektoruna edilən investisiyalar olmuşdur.

2004-2014-cü illərdə həyata keçirilən iqtisadi artım modeli sayəsində ölkəmizdə iqtisadi artım tempi yüksəlmiş, qlobal iqtisadi əlaqələr yaxşılaşmış və ölkədə adambaşına düşən milli gəlir artmışdır.

Aparılmış iqtisadi siyasət Azərbaycanın dünya ölkələri sırasında adambaşına düşən milli gəlirin həcminə görə nəzərəçarpacaq dərəcədə irəliləməsinə səbəb olmuşdur. Dünya Bankının təsnifatına əsasən, Azərbaycan 2004-cü ildə adambaşına milli gəlirin həcminə görə yoxsul ölkələr qrupuna aid edilmişdisə, 2005-ci ildə aşağı-orta gəlirli, 2009-cu ildən yuxarı-orta gəlirli ölkələr qrupuna daxil edilmişdir. (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, 2016)

2004-2010-cu illəri əhatə edən sıçrayış artım dövründə iqtisadi artımın əsas mənbəyi neft sektorundan əldə olunan gəlirlər olmasına baxmayaraq, 2010-2014-cü illərdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft sektoru olmuşdur. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən bu dövrdə neft sektorunda 2.9% geriləmə olduğu halda, qeyri-neft sektoruna qoyulmuş investisiyalar sayəsində bu sahədə 8.8% artım müşahidə edilmişdir. Ölkənin iqtisadi artımında önəmli payı olan investisiyaların əsas maliyyə mənbəyini neftdən gələn gəlirlər təşkil etmişdir. Dünya İqtisadi Forumunun 2016-2017-ci illər üzrə qlobal rəqabətlilik hesabatına görə, qlobal rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünyada 37-ci yerdə qərarlaşmışdır.

2019-cu ildə ötən ilin müvafiq dövrünə nisbətən ÜDM-in qeyri-neft sektoru real ifadədə 3.5% artmışdır. Neft-qaz sektoru üzrə isə 2019-cu ildə 2018-ci ilin müvafiq dövrünə nisbətən 0.4% artım qeydə alınmışdır. Bu sektorun ÜDM-də xüsusi çəkisi 38.3% olmuşdur. 2019-cu ildə ölkədə əsas kapitala yönəldilmiş ümumi investisiyaların 68.1%-i qeyri-neft bölməsinin, 31.9%-i isə neft bölməsinin inkişafında istifadə edilmişdir.

Bazar iqtisadiyyatında sabitliyə və iqtisadi artıma nail olmaq məqsədilə dövlətin tətbiq etdiyi makroiqtisadi siyasət vergiqoyma və dövlət xərcləri mexanizmlərini əhatə edən vergi – büdcə siyasətini və kredit – pul siyasətini (faiz dərəcələrinə və kreditləşdirməyə nəzarət) özündə birləşdirir (Şəkərəliyev, 2009).

2004-2014-cü illər ərzində Azərbaycanda yürüdülən makroiqtisadi siyasətin hər iki istiqaməti, yəni fiskal və pul məzənnə siyasətləri iqtisadi artımın dəstəklənməsinə yönəlmişdir. Dövr ərzində Azərbaycan makroiqtisadi sabitlik göstəricilərinə görə qlobal miqyasda qabaqcıl mövqelərdə qərarlaşmış, əldə edilmiş iqtisadi siyasət uğurları ölkənin biznes-investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə yüksəltmişdir. Ötən dövr üzrə makroiqtisadi siyasətin təhlili onu göstərir ki, iqtisadi siyasətin formalaşdırılması və reallaşdırılmasında neft ən mühüm amil olmuşdur. Qeyd etdiyim kimi fiskal və pul məzənnə siyasətləri iqtisadi artımın dəstəklənməsinə yönəlmişdir. Həmçinin, araşdırarkən görə bilərik ki, ölkədə iqtisadiyyatının sıçrayışlı artım dövründə iqtisadi artıma yüksək ötürücülüyə malik ən mühüm siyasət istiqaməti fiskal siyasət olmuşdur. Fiskal göstəricilər dövr ərzində əhəmiyyətli dərəcədə yaxşılaşmış, dövlət maliyyəsinin iqtisadi artıma töhfəsi ciddi şəkildə artmışdır. İrihəcmli dövlət maliyyə resurslarından istifadə edilməsi nəticəsində yüksək keyfiyyətli sosial-iqtisadi infrastruktur qurulmuş, iqtisadi aktivlik yüksəlmiş, bank-maliyyə sektorunda əhəmiyyətli dərəcədə canlanma müşahidə olunmuşdur.

İqtisadi artıma təsir edən mühüm amillərdən danışarkən ixrac potensialını da qeyd etmək lazımdır. Ölkənin ixrac potensialının əsasını neft ixracı təşkil edir və Azərbaycanda neft ixracının mühüm dərəcədə artmasına səbəb neft müqavilələri olmuşdur.

Qeyd etmək lazımdır ki, ixracın iqtisadi artıma stimullaşdırıcı təsiri əldə edilən gəlirlərin artım potensialı yüksək olan sahələrin canlandırılmasına və qabaqcıl texnologiyalı yeni istehsalların qurulmasına yönəldilməsi şərti daxilində baş verə bilər. Başqa sözlə desək, sırf xarici iqtisadi tənzimləmə tədbirləri vasitəsilə dünya təsərrüfatına inteqrasiyanın struktur problemlərinin həll edilməsi mümkün deyildir. Həmin vəzifənin icrası sahə-struktur prioritetlərinin reallaşdırılmasını hədəfləyən sənaye siyasətinə əsaslanmalıdır. Yəni ölkəmizin qarşısında duran

vəzifə nəyin bahasına olursa-olsun beynəlxalq iqtisadi əməkdaşlığı genişləndirmək deyil, mövcud potensialımıza uyğun olaraq dinamik müqayisəli üstünlüklərə əsaslanaraq, qlobal təsərrüfata üzvi şəkildə qovuşmaq olmalıdır (Şəkərəliyev, 2009).

Ölkənin gələcək iqtisadi artımının təmin edilməsi mühüm məsələlərdən biridir və dövlətin artımın təmin edilməsi məqsədilə düzgün strateji seçim etməsi çox əhəmiyyətli nüansdır. Belə halda ölkənin iqtisadi artımının hansı "artım nöqtələri" vasitəsilə təmin edilməsi barədə mühüm strateji qərarlar verilməsi labüddür. Belə ki, aktiv şəkildə kapital yığımı modelinin yeni strateji dövrdə əlavə dəyər formalaşdırma imkanlarının daralması nəticəsində gələcək artım yanaşması ilə bağlı ölkənin qarşısında iki seçim vardır.

1. əmək tutumlu artım yanaşması
2. məhsuldarlıq – effektivlik əsaslı artım yanaşması.

Qlobal dəyər zəncirində inteqrasiya, iqtisadi artımın keyfiyyəti və dayanıqlılığı baxımından münasib və məntiqli zaman dövründə məhsuldarlıq – effektivlik əsaslı iqtisadi artım yanaşmasına transformasiya strateji seçim ola bilər.

İstər yaxın və ortamüddətli, istərsə də uzunmüddətli dövr üçün strateji çağırışlara adekvat reaksiyalar üçün islahat gündəliyində genişmiqyaslı institusional islahatlar durur. Daha keyfiyyətli, effektiv və inklüziv institutlar biznes – investisiya mühitində yaxşılaşdırmaqla, yaxın perspekpektivdə ucuz neft qiymətləri dövrünün neqativ təsirlərini minimuma endirməyə, orta və uzunmüddətli dövrdə isə məhsuldarlıq əsaslı artım yanaşmasına keçidə münbit zəmin formalaşdıracaqdır (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, 2016).

Azərbaycanda yüksək iqtisadi artımın təmin edilməsi üçün 2004-2014-cü illərdə makroiqtisadi siyasət həyata keçirilmişdir. Bu dövrdə həyata keçirilən fiskal siyasət nəticəsində nəticəsində iqtisadi aktivlik yüksəlmiş, dövlət büdcəsi demək olar ki, kəsrsiz icra edilmişdir. Pul- məzənnə siyasəti nəticəsində idxal inflyasiyasının qarşısının alınmasına nail olunmuşdur. İrimiqyaslı neft layihələrinin həyata keçirilməsindən əldə olunan gəlirlər iqtisadiyyatın inkişafına yönəldilmişdir.

Həyata keçirilən düzgün iqtisadi siyasət və islahatlar nəticəsində ölkənin qlobal reytinq göstəriciləri əhəmiyyətli dərəcədə yüksəlmişdir. Dünya Bankının "Doing Business" hesabatına görə, Azərbaycan 2009-cu ildə dünyanın lider islahatçı dövləti kimi qiymətləndirilmişdir. Hal-hazırki dövrdə də Azərbaycan Respublikasının iqtisadi inkişafının davamlılığının və dayanıqlılığının təmin edilməsi yolunda bir sıra islahatlar həyata keçirilməkdə və konsepsiyalar qəbul olunmaqdadır. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası təsdiq edilmişdir.

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına, ağır sənaye və maşınqayırmanın inkişafına dair, Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına, logistika və ticarətin, maliyyə xidmətlərinin, həmçinin telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair strateji yol xəritələri tərtib edilmiş və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti, 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək uzunmüddətli baxış, 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış, strateji məqsədlər və maliyyələşdirmə mexanizmləri öz əksini tapmışdır. Nəzərdə tutulan tədbirlərin maliyyələşdirmə mənbələri kimi dövlət büdcəsi, büdcədənkənar fondlar, yerli büdcələr, birbaşa xarici investisiyalar və qanunvericiliklə qadağan olmayan digər mənbələr nəzərdə tutulmuşdur.

2018-ci ilin aprelində prezident seçkisindən bəri Azərbaycan hökumətində əhəmiyyətli dəyişikliklər baş vermişdir.

Sabit neft hasilatı və daxili tələbatın mülayim sürətlənməsi ilə dəstəklənən real ÜDM, 2018-ci ildə 1,4 faiz artdı. Qeyri-enerji iqtisadiyyatı əksər iqtisadi sahələrdən daha yüksək dinamiklik əks etdirərək 1,8 faiz artmışdır. 2018-ci ildə istehlak qiymətləri inflyasiyası kəskin şəkildə azalsa da, 2017-ci ildəki 7,9 faizdən 1,6 faizə düşməsi müşahidə olundu.

Ölkəyə özəl sektora qoyulan sərmayənin artırılması, dövlət səviyyəsinin azaldılması, rəqabət qabiliyyətlilik problemlərin həlli və insan kapitalının yaxşılaşdırılması üçün islahatlar lazımdır.

2019-cu il üzrə büdcə ayırmalarında nəzərə çarpan artım təhsil (13 faiz) və səhiyyə (44.5 faiz) insan kapitalının yaxşılaşdırılması üçün vacibdir. Bununla birlikdə büdcə xərclərinin, orta müddətli büdcənin gücləndirilməsi və dövlət sərmayələrinin idarə edilməsi sistemi də daxil olmaqla inkişaf ehtiyacları ilə uyğunlaşdırılması üçün əlavə səylərin göstərilməsi tələb olunur.(Dünya Bankı 10 aprel,2019)

Cədvəl 2. Dünya Bankının (The World Bank) Azərbaycan üçün inkişaf göstəriciləri (2018)

Azərbaycan	**2018**
Əhali, milyon	10.0
ÜDM, cari milyard ABŞ dolları	46.9

Adambaşına düşən ÜDM, cari ABŞ dolları	4.780
Ömrün uzunluğu, illər (2017)	72

Mənbə : *Dünya Bankı*

Nəticə

Qloballaşma dünya iqtisadiyyatına təsir göstərən ən vacib amillərdən biridir. Belə bir şəraitdə iqtisadi artımın davamlılığı və dayanıqlılığına, iqtisadi inkişafa nail olmaq çətin və bir o qədər də mühüm məsələlərdən biridir. Son dövrdəki iqtisadi göstəricilərimizə diqqət yetirdikdə inkişaf yolunda mühüm addımlar atıldığını və xeyli yol qət edildiyini görərik. Ölkənin müharibə şəraitində olması uzun illər iqtisadiyyata mənfi təsir göstərsə də, keçirilən siyasi-iqtisadi islahatlar və düzgün iqtisadi siyasət nəticəsində Azərbaycanda yüksək iqtisadi artım göstəricilərinə nail olunmuşdur. Lakin ixrac potensialının əsasını neftin təşkil etməsi, ölkənin xammal ixracatçısı olması, idxalın yüksək olmasını nəzərə alsaq davamlı iqtisadi artımın təmin olunması çətindir. Ölkəyə xarici investisiyaların daha çox cəlb olunması, investisiyalardan, həmçinin, neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi, elmi texniki tərəqqi, texnoloji yeniliklərdən istifadə edərək məhsuldarlığın artırılması, rəqabətqabiliyyətli məhsul istehsalına nail olunması və ixrac edilməsi və beləliklə də, xarici ticarət strukturunda qeyri-neft sektoru məhsulları üzrə ixrac potensialını gücləndirmək önəmli və məqsədəuyğun məsələlərdir.

İqtisadi artım əsas məqsədlərə çatmaq üçün bir vasitə rolunu oynayır və onun təmin olunması ilə cəmiyyətin sosial iqtisadi problemləri öz həllini tapmış və resursların məhdudluğu probleminin həlli yüngülləşmiş olur. Beləliklə, bunun nəticəsində iqtisadiyyatın əsas ziddiyyəti öz həllini tapmış olur ki, buradan da iqtisadin artımın nə dərəcədə zəruri olduğunu anlamış oluruq. Əhali böyüdüyü üçün iqtisadiyyat böyüməlidir. İqtisadiyyat əhaliyə nisbətən daha yavaş sürətlə böyüyərsə, həyat səviyyəsi azalacaqdır.

Nəticə etibarilə iqtisadi artım balanslaşdırılmış bir sıra məqsədə çatdıqda məna kəsb edir: ömür uzunluğunu artırmaq, xəstəlik və xəsarətləri azaltmaq, təhsil və mədəniyyət səviyyəsini yüksəltmək, ehtiyacları tam qarşılamaq, korrupsiyanın qarşısını almaq, sosial sabitliyi və cəmiyyətə inamı rasionallaşdırmaq, maksimum məşğulluq təmin etmək, ətraf mühiti qorumaq, cinayətləri azaltmaq və s.

Həmçinin, dayanıqlı iqtisadi artıma nail olmaq üçün bu kimi prioritet addımlar atılmalıdır: biznes mühitinin yaxşılaşdırılması, fiskal və pul-məzənnə siyasətinin səmərəliliyinin yüksəldilməsi, özəl yığımların investisiyaya yönəldilməsi, xarici maliyyələşmə mənbələrinin genişləndirilməsi, qanunun aliliyinin gücləndirilməsi və s.

Ədəbiyyat

1. Şəkərəliyev, A.(2009). Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər, 32-64
2. Charles I.Jones və Dietrich Vollrath (2013). Introduction to economic growth.
3. Daron, A (2009). İntroduction to modern economic growth.
4. Bayulgen, O. (2010). Foreign İnvestment and political regimes: The oil sector in Azerbaijan, Russia, and Norway.
5. Azərbaycan Respublikası qanunvericiliyi.
6. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. (2016)
7. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası (2012)
8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatları.
9. Beynəlxalq Valyuta Fondunun məlumatları
10. Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları
11. United Nations Conference on Trade and Development (UNCTAD)
12. World Bank Group Doing Business (2009), World Bank Group Doing Business (2010)

MÜASİR DÖVRDƏ SOSİAL SIĞORTA SİSTEMİNİN İNKİŞAFININ İNSTİTUSİONAL ASPEKTLƏRİ

Novruz Hüseynov
Azərbaycan Respublikası Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun
Xüsusi Şərtlərlə Təyinat İdarəsinin Hərbi rütbəli şəxslərə
pensiya təyinatı sektorunun məsləhətçisi
E-mail: novruz_huseynov_92@mail.ru

Summary: *Currently, sosial protection of the population has become an indispensable attribute of the sosial policy of any civilized state. Its effective organization aims to ensure the provision of certain standards of the level and quality of life of the population based on the redistribution of national income in favor of disabled and poor citizens on the principles of sosial solidarity.*

Sosial insurance is an integral part of the system of sosial protection of the population. The uniqueness of the institution of sosial insurance lies in the fact that it has a positive influence on the formation of a balanced "sosial market" mentality of the population. Due to the organization of sosial insurance, the company was able to compensate for sosial risks by redistributing part of the national income between separate groups of the population. The basic sosial security principles that

form the basis of sosial insurance, which determine its specificity and high significance, show how important this is also as a sosial institution.

During the past period, among the major issues of state sosial policy, a strategic task arose to modernize the sosial protection system, adapt it to the requirements of the functioning of a market economy, form economic, organizational and legal mechanisms of sosial insurance.

It should be noted that a well-developed and large-scale sosial insurance system is the best indicator of economic, sosial and political stability of society.

The creation of an adequate sosial insurance institution for the demand of a market economy requires a solid economic base and the availability of developed sosial and labor relations. The article examines the institutional and synergistic aspects of sosial insurance, the factors determining sosial risk, as well as its advantages as a special sosial institution and the multi-vector problems of the development of the institutional environment of sosial insurance.

Giriş

Sosial sığorta institutunun təşkili və inkişafı ölkədə sosial ədalətin və sabitliyin əsasıdır. Bu sosial institutun əhəmiyyətini nəzərə alaraq bütün sivil ölkələrdə, o cümlədən, Azərbaycanda da əhalinin etibarlı sosial müdafiəsini təmin edən məcburi dövlət sosial sığorta sisteminin formalaşdırılması, onun təkmilləşdirilməsi və inkişafı prosesi gedir. Sosial sığorta probleminin həll edilməsi beynəlxalq təşkilatlar tərəfindən sosial siyasətin prioritet məqsədlərindən biri kimi qəbul edilmişdir. Müasir Azərbaycan dövlətinin inkişafının starteji vəzifələrində əhalinin rifahının yüksəldilməsi, iqtisadi artım və sosial inkişaf məsələlərinə xüsusi önəm verilir. Ölkədə həyata keçirilən mühüm sosial-iqtisadi dəyişikliklər dövlətin sosial siyasətinin prioritet vəzifələrinə hədəflənmişdir. Bu isə öz növbəsində səmərəli məcburi sosial sığorta sisteminin formalaşdırılmasını tələb edir.

Sosial sığorta əhalinin sosial müdafiə sisteminin ayrılmaz tərkib hissəsidir. Onun yaratmaqla hər bir ölkə arzuolunmaz sosial-iqtisadi hadisələrlə qarşlaşan vətəndaşlarına zəruri maddi dəstəyin göstərilməsini təmin edir [2. səh.4]. Müxtəlif sosial yardım tədbirlərinin ortaya çıxması və tədricən vahid dövlət tənzimləmə sistemində birləşməsinin əsas səbəbləri, həm ayrı-ayrı insanların, həm də bütövlükdə cəmiyyətin mövcudluğunun risklilik xarakterdə olmasıdır.

Sosial məkanın təşkili üzrə dövlət təcrübəsi anlamında sosial sığorta nəzəriyyəsi ilk növbədə müxtəlif həyat şəraitli sosial qrupların qarşılıqlı əlaqəsi nəticəsində yaranan problemlərə söyknir. Belə qarşılıqlı fəaliyyətdə həlledici amil həyat şəraitidir. Dövlətin sosial siyasətini iqtisadi vəziyyət, sosial qrupların fiziki və mənəvi güclərini, yəni istehsaledici qabliyyətlərini təkrar istehsal etmək imkanlarının olmaması müəyyən edir. Zəruri sıxıntılar sosial qrupları tələblər irəli sürməyə və onları dövlətin sosial siyasətində həyat keçirməklə müsbət nəticələrə nail olmağa məcbur edir. Onlar, eyni zamanda, sosial siyasətin vəziyyəti, onun ünvanlığı üzərində nəzarəti də həyata kecirirlər.

Qeyd etdiyimiz kimi, insan həyatının risklilik xarakteri risklərdən müdafiənin müxtəlif mexanizmlərinin ortaya çıxması üçün əsasdır. Risk zərərin baş verməsinin potensial imkanlarını xarakterizə edən anlayışdır. Əmtəə istehsalının yaranması və inkişafı, ictimai əmək bölgüsünün dərinləşməsi və bazar münasibətlərinin inkişafı işçi ilə onun gəlirləri arasındakı birbaşa əlaqəni pozaraq, cəmiyyətdə işə gütürən və işçi qrupları kimi təbəqələrin ayrılmasına gətirib çıxarmışdır. İctimai istehsalın təşkilində iştiraka görə işə götürən tərəfindən işçiyə ödənilən əmək haqqı bu gün əhalinin fəal hissəsinin (məşğul əhalinin) yaşayışının yeganə mənbəyidir.

Bazar iqtisadiyyatının fərqləndirici xüsusiyyəti hər bir insanın öz həyat şəraitinin formalaşdırılmasına yüksək səviyyədə məsuliyyətli olmasıdır. İqtisadi prosesdə hansı şəkildə iştirak etmək (muzdlu işçi olmaq, hüquqi şəxs yaratmadan müstəqil fəaliyyət və s.) haqqında özü qərar qəbul edir. İstehsal, ticarət yaxud digər fəaliyyət nəticəsində əldə edilən gəlirlər onun maddi və mənəvi tələbatlarını ödəyir, ailəsini saxlayır, əmək qabliyyətini bərpa edir və s., yəni işçi qüvvəsinin təkrar istehsal prosesini təmin edir. Lakin hər bir insanın həyatında yaşamasına təhlükə yaradan və onun öhdəsindən təkbaşına gələ bilməyən vəziyyətlər ola bilər.

Ədəbiyyatların icmalı.

İstehsalın əsas amillərindən olan işçi qüvvəsinin əmtəəyə çevrilməsi səbəbindən əhalinin əksər hissəsinin yaşamasının əsas mənbəyinin əmək haqqı olması sosial müdafiəsizliyin xüsusi növünü - qazancın yaxud onun əldə edilməsi imkanlarının itirilməsi nəticəsində nail olunmuş maddi rifah səviyyəsinin aşağı düşməsinin yüksək ehtimalını ortaya çıxarmışdır. Belə imkan hər bir insanın şəxsi xarakteristikası ilə bağlı deyildir və onun gücündən asılı deyildir. O, sosial səbəblərlə müəyyən olunur və ona görə də kütləvi, ictimai xarakter daşıyır. İnsan həyatındakı belə hadisələr sosial risk adlandırılır. Fikrimizcə, bu halda insanın sosial müdafiəsizliyinə insanın və insan kapitalının təkrar istehsalı prosesinin pozulması imkanı kimi baxmaq lazımdır. İnsanın təkrar istehsalı prosesinə məhdud deyil, geniş mənada yanaşmaq lazımdır. Birincisi, ev təsərrüfatı (ailə) səviyyəsində ictimai münasibətlərin subyekti kimi insanın doğumu, tərbiyəsi baş verir və həyat fəaliyyətinin ilkin şərtləri təmin edilir. İkincisi, makroiqtisadiyyat səviyyəsində insanın təkrar istehsalı əhalinin sayı və tərkibinin qorunub saxlanması və tənzimlənməsi prosesi kimi çıxış edir. Belə yanaşma insanların ictimai təkrar istehsal prosesində sosial-iqtisadi funksiyalarını yerinə yetirməyə obyektiv olaraq mane olan yaxud pozan bütün hadisələrə sosial risklər kimi nəzərə almağa imkan verir.

Fikrimizcə, sosial risk iqtisadi prosesdə iştirak imkanlarının itirilməsi nəticəsində vətəndaşın maddi təminatsızlıq ehtimalıdır. Cəmiyyətin sosial-iqtisadi inkişafının əsas meyllərini və bütün müxtəlif mümkün riskləri nəzərə alaraq, bütövlükdə, üstünlük təşkil edən sosial riskə-əmək gəlirinin itirilməsinə diqqət yönəltmək zəruridir. Müasir şəraitdə insanların əksər hissəsinin öz həyat vasitələrini təmin etməsi üçün iki şərtin (əmək qabliyyətli olması və işlə təmin edilmə imkanları) olması tətləb olunur.

Sosial risk obyektiv, sosial əhəmiyyətli səbəblərdən əmək gəlirlərinin yaxud qazancın itirilməsi, həmçinin, əlavə müalicə xərclərinin yaxud sosial xidmətlərin ödənilməsindən yaranan zərurət nəticəsində maddi təminatsızlığın baş veməsi ehtimalıdır [8.səh.20]

Ümumiyətlə, sosial risk kateqoriyasının sosial-iqtisadi məzmununa dair müaisr yanaşmaları aşağıdakı kimi sistemləşdirmək olar:

– sosial fəlsəfə baxımından sosial risk problemlərinin tədqiqi (E.M.Veber, E.Toffler, V.S.Barulin, V.Mantatov və s.). Onlar riskin çoxtərəfli sosial-fəlsəfi izahını verirdilər. Riskə qeyri-müəyyənlik şəraitində subyekt tərəfindən həyata keçirilən fəaliyyətin spesifik forması kimi baxılır. Məcmusu və qarşılıqlı fəaliyyəti riskin məzmununu təşkil edən, onun sosial funksiyalarını xarakterizə edən əsas ünsürləri və xüsusiyyətləri aşkar edilir, sosial risklərin mövcudluğunu şərtləndirən obyektiv və subyektiv səbəblər izah edilir.

– riskin idarəedilməsi nəzəriyyəsi (M.Markov, M.K.Bocarov, R.Kleyn, V.İ.Francuk və s.). Səmərəli yanaşma baxımından risk probleminin həll edilməsini, risklərin təhlili zəruriliyinə gətirib çıxaran ziddiyətlərin aradan qaldırılmasını müəyyən edən sosial risklərin təbii xüsiyyətləri əsaslandırılır.

– riskin nəzəri və metodoloji məsələlərinin öyrənilməsi (V.A.Remizov, K.E.Klark, E.A.Bukin, A.A.Boqdanov, V.M.Buyanov və s.). Sosial risk dedikdə, ictimai həyatın təkrar istehsalının müxtəlif tərəflərinə toxunan hadisələr başa düşülür. Riskin bütün tərəfləri tədqiq edilir, risklərin idarəedilməsi və subyektlərin aktivliyi məsələləri ayırd edilir, risk və vətəndaşın müdafiəsi problemi qoyulur, cəmiyyətin strukturunda risk təhlil edilir.

– sosioloji istiqamətdə risk probleminin tədqiqi (P.Larok, V.İ Zubkov, K.İsaev, N.A.Meşavkin və s.). Sosial risklərin ortaya cıxma şərtləri və səbəbləri aşkar edilir. Risk fenomeni, onun nəticələri (böhran, münaqişə, zərər, fəlakət) haqqında bilgilər əlavə edilmişdir. İdarəetmə fəaliyyəti prosesində risklərin yaranma qanunauyğunluqları, risklərin minimumlaşdırılması metodları aşkar edilir [11].

İqtisadi kateqoriya kimi sosial risk insanın fizoloji və sosial-iqtisadi həyat fəaliyyətinin normal təkrar istehsalına təhlükə yaradan və onun iradəsindən asılı olmayan yaxud təsadüfi hadisələrin baş vermə ehtimalıdır. Başqa sözlə desək, sosial risk işçinin əmək prosesində iştirakının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq onun maddi təminatsızlığının baş vermə ehtimalıdır.

Sosial riskin əlamətlərinə aid edilir: ancaq obyektiv xarakterdə olmalı, insanın həyat fəaliyyətini məhudlaşdırmalı və onun sosial təminatsızlığını müəyyən etməli, milli qanunvericiliklə təsbit edilmiş vəziyyət olmalı və onun baş verməsi nəticəsində cəmiyyətin yaxud dövlətin yardımına güvənmək olar, onlardan bəziləri hər kəs üçün potensial qanunauyğunluqdur, yəni yüksək ehtimalılıq dərəcəsi ilə baş verə bilər (qocalıq, xəstəlik və s.).

Sosial riskin iqtisadi və sosial ünsürlərini aşkar etmək üçün o faktı nəzərə almaq lazımdır ki, sosial sığortanın inkişafı obyektiv şərtlənmişdir və sosial-əmək münasibətləri ilə sıx bağlıdır. İşə götürənlə işçi arasındakı sosial-əmək münasibətləri sosial sığorta institutlarının təşkilinin əsasında duran iqtisadi və hüquqi proqramdır (platformadır). Mahiyyət etibarilə sığorta münasibətləri sosial risklərdən sosial müdafiə sferasınıda işəgütürənlə işçi arasındakı sosial-əmək münasibətlərinin davamı və inkişafıdır. Bu münasibətlər qanunvericiliklə tənzimlənir və sosial risklərin nəticələrini qarşılamaq və minimumlaşdırmaq üçün nəzərdə tutulan sığorta resurslarının toplanması və bölgüsü kimi bir sıra qanuni funksiyaları üzərinə götürən xüsusi subyekt - sığorta orqanının köməyi ilə təşkil edilir.

Sosial sığorta institutlarının sığorta münasibətlərini və onların sosial-əmək münasibətləri ilə əlaqəsini sığorta fondu nəzəriyyəsi ortaya çıxarır. Belə fondun yaradılması sığorta müdafisəi məqsədləri üçün nəzərdə tutulan iri həcmli maliyyə resurslarının toplanmasını tələb edir. Sığorta müdafiəsinin iqtisadi mahiyyəti öz maddi təcəssümünü cəmiyyət üzvülərinin kollektiv və şəxsi maraqları reallaşan sığorta fondunda tapır və onların həyat fəaliyyətinin müxtəlif iqtisadi və sosial tərəfləri ilə müəyyən olunur [5.səh.137].

Sığorta və sosial-əmək münasibətlərinin digər tərəflərini riskin köçürülməsi və zərərin bölgüsü nəzəriyyəsi açıb göstərir.

Ümumiyyətlə, sosial sığortanın əsas xarakteristikalarına aşağıdakıları aid etmək olar:

– əmək fəaliyyəti növünü sərbəst seçmək və hər bir fərdin özünün həyat şəraitinin formalaşdırılması üzərində məsuliyyətinin onunla bağlı olması,

– xüsusi mülkiyyət münasibətlərinin, sosial subyektlər arasındakı iqtisadi əlaqələrin əmtəə formasında inkişafı, ictimai istehsalın bazar vasitələri ilə tənzimlənməsi nəticə etibarilə əmək haqqının muzdlu işçinin və onun ailəsinin yaşamasının yeganə mənbəyi olmasına gətirib çıxarmışdır.

Sosial sığortanın institusional xüsusiyyətləri və üstünlükləri.

Cəmiyyətdə sosial yönümlü iqtisadiyyat ideyası ortaya çıxdıqdan sonra əmək qabliyyətindən asılı olmayaraq şəxsi gəlirlərin cəmiyyətdə mövcud olan sosial standartların səviyyəsindən aşağı olmasına gətirib çıxaran risklər ta-

nınmışdır. Birinci halda sosial risklər insanın obyektiv olaraq özünü və ailəsini müstəqil olaraq təmin edə bilməməsi səbəbindən irəli gəlir. İkinci halda sosial risklər subyektiv xarakter daşıyır və cəmiyyət (dövlət) tərəfindən müəyyən edilir.

Sosial yönümlü bazar iqtisadiyyatı şəraitində sosial risk həm qazancın, həm də cəmiyyətin təminatlı minimal həyat standartlarının itirilməsində təzahür edir. Bütün sosial riskləri üç qrupda-gəlirlərin, sosial statusun itirilməsi və əlavə xərclərin zəruriliyi riskləri birləşdirmək olar.

Sosial sığortanın digər sosial müdafiə institutlarından (dövlət sosial yardımı yaxud şəxsi sığorta) fəqləndirən instutisional xarakteristikaları aşağıdakılardır:

– sığorta olunan əmək haqqının itirilməsindən müdafiə olunur, sığorta ödəmələrinin həcmi və kompensasiya ödəmələri məhz əmək haqqı ilə əlaqələndirilir. Müqayisə üçün qeyd edək ki, sosial yardım və şəxsi sığortada belə asılılıq təmin edilmir.

– sığorta ödəmələrini yalnız sığorta olunan şəxs ala bilər. Bir qayda olaraq, sığorta olunan sosial müdafiənin bu növündən yararlanma hüququnu əldə edir.

– ödəmələrin həcmində sığortaolunanın öhdəsində əmək qabliyyətli olmayanların mövcudluğu nəzərə alınır.

– pensiya və yardımın həcmi əmək haqqının məbləği, sığorta haqlarının ödənilməsi dövrü ilə ilə əlaqələndirilir. Pensiya və yardımın əldə edilməsi müddətində ehtiyac dərəsəci nəzərə alınmır.

– sosial sığortanın maliyyə bazası işəgötürənlərin və işçilərin sığorta ödəmələri əsasında formalaşan məqsədli maliyyə fondlarıdır. Fondun vəsaitləri sığorta hadisəsi baş verən sığorta olunan şəxslər arasında bölüşdürülür. Sığorta hadisəsi baş vermədiyi halda isə maliyyə resursları sığorta hadisəsi baş verən digər işçilərə sosial yardımları verilməsi üçün istifadə edilir ki, bu da sosial sığortanı digər sığorta institutları ilə müqayisədə daha ucuz və əlverişli edir.

Maliyyə vəsaitlərinin həcminə, kütləvi əhatəlilik, xidmətin müxtəlifliyi və keyfiyyətinə görə baza və həlledici məcburi sosial sığorta institutudur. Belə ki, inkişaf etmiş dünya ölkələrində sosial sığortanın bu növlərinin sosial müdafiə məqsədləri üçün yönəldilən xərclərin ümumi məbləğində xüsusi çəkisi bir qayda olaraq 60-70%, ÜDM -da payı isə 15-25% təşkil edir [1].

Sosial sığortanın sosial müdafiənin digər institutlarından fərqləndirən mühüm tərəfi ondan ibarətdir ki, sığorta hadisəsinin baş vermə faktı təsdiq olunandan sonra sığorta olunan şəxs sığorta ödəməsi əldə etmə hüququnu qazanır. Bir qayda olaraq, digər şərtlər irəli sürülmür. Bu prinsipial cəhəti - ehtiyacın, yəni həmin şəxsin maddi vəziyyətinin yoxlanılmasının lazım olmadığının nəzərdə tutur. Bundan başqa sosial sığorta kompensasiaya ilə yanaşı digər funksiyalarda - mümkün olduğu halda sosial riski qiymətləndirmək, onun nəticələrinin qarşısını almaq - yerinə yetirir.

Sosial sığorta bir sıra əlamətləri ilə sosial müdafiənin digər institutlarından fərqlənir. Belə ki, onun əsasında gələcəkdə baş verə bilən (xəstəliklə, bədbəxt hadisələrlə, qocalıqla bağlı olaraq qazancın əvəz edilməsi) ehtiyac növlər və qrupları durur. Eyni zamanda, sosial sığortanın mühüm əlamətlərindən biri də onun əmək münasibətləri ilə sıx əlaqədə olmasıdır. Sosial sığorta sistemi qanunvericiliklə müəyyən edilmiş təminat səviyyəsi vasitəsilə sığorta olunan şəxslərə sosial təminatının geniş dairəsini tətbiq etməklə müvafiq ödəmələri həyata keçirir və xidmətlər göstərir.

Sosial sığortanın fəaliyyətinin açıq-hüquqi və demokratik xarakteri maliyyə resurslarınını məqsədli istifadəsinə və maksimum şəffaflığa nail olunmasına, həmin institutun təşkilinin geniş məsələlər dairəsi üzrə sosial subyektlər arasında razılığa gəlməyə, sığortacının, sığorta olunanların və sığorta edənlərin maraqlarının uzlaşdırılmasına imkan verir. Nəticə etibarilə, bu, sığorta olunan şəxslərin şəxsi məsuliyyətini, sığortaedənlərlə sığorta olunanların həmrəyliyini gücləndirilməsinə, cəmiyyətdə sosial razılığa nail olunmasına və münaqişəli vəziyyətlərin yumşaldılmasına, həmçinin, onların aradan qaldırılmasına şərait yaradır.

Kollektiv sosial təminatın digər formaları ilə müqayisədə belə sosial müdafiə institutu bir sıra mühüm üstünlüklərə malikdir. Birincisi, ancaq qoruma tədbirləri, tibbi xidmət və və sığorta olunan şəxslər üçün maksimum əlverişli şəraitdə pul ödəmələri ilə məğul olan ixtisaslaşmış (yüksək səmərəli) sığorta təsisatı yaradılır. Deməli, sosial sığorta yalnız sosial riskin nəticələrinin konpensasiyası deyil, həm də cox vaxt riskin aşkar edilməsi (qiymətləndirilməsi) və qoruma tədbirlərinin, məsələn, əhalinin kütləvi xəstəliklərdən vaksinlənməsi, işləyənləri təhlükəsiz iş metodları ilə təlimatlandırılması, işsizlik riskləri zamanı təkrar təlimlərin keçirilməsi və s. koməyi ilə onun minimumlaşdırılması funksiyasın da yerinə yetirir.

İkincisi, sığorta haqlarını ödəyən vətəndaşların konstitusion hüququna təminat verilir ki, bu da onları sosial vəsaitlərin ödənilməsinə cavabdeh olan orqanın əsasız qərarlarından müdafiə edir. Üçüncüsü, işçi qüvvəsi xərclərinin bir hissəsinin müntəzəm ehtiyatda saxlanılması yolu ilə ödəmələrin kəmiyyətinə və sığorta hesablamalarına, həmçinin, qanunvericiliyə uyğun olaraq uzunmüddətli dövr üçün onların bölgüsünə təminat verilir.

Sosial sığorta sistemində demoqrafik və əmək bazarının vəziyyətinin etibarlı statistikası və proqnoz hesablamaları əsasında gəlir və xərclərin balanslığının orta və uzunmüddətli dövrə qiymətləndirilməsini aparmağa, sığorta

tariflərinin məbləği üzrə tövsiyələrin verilməsinə, təminatlı ödəmələrin sə təqdim edilən xidmətlərin səviyyəsinin dəqiqləşdirilməsinə imkan verən aktuar hesablamalar tətbiq edilir.

Nəticə və müzakirə

Müasir dövrdə sosial sığorta vətəndaş cəmiyyətinin instutisional ünsürü kimi əhalinin sosisl müdafiəsi sistemində mühüm rol oynayır.

İctimai hadisə kimi sosial risk cəmiyyət həyatının müxtəlif amillərinin (dövlətin sosial və iqtisadi siyasəti, vətəndaş cəmiyyətinin və qanunvericilik bazasının yetkinliyi, işə götürənlə muzdlu işcilər arasındakı əmək münasibətlərinin inkişafı və s.) qarşılıqlı fəaliyyəti və təsiri ilə müəyyən edilir. Bu zaman sosial riskin konkret amillərinin xarakteri, müvafiq olaraq müdafiə formaları cəmiyyətin və fərdin həyat fəaliyyətinə, dövlətin həyata keçirdiyi siyasətə, məhz, məşğulluğun şəraitinə, əmək bazarının inkişafına, demoqrafik vəziyyətə, əmək sferasının və ictimai həyatın təşkilinin iqtisadi şəraitinə, əmək qabliyyətinin itirilməsinin kompensasiyasının və qorumasının təşkili şəraitinə və formalarına təsir göstərən kompleks amillərdən asılı olur.

Sosial sığortanın fəaliyyəti üçün optimal şərait bir sıra şərtlərin mövcudluğudur. Onlardan vacibi sosial risklərin nəticələrini qarşlamaq üçün tələb olunan zəruri maliyyə resursunun təmin edən sosial-əmək amilləridir.

Sosial sığortanın böyük maliyyə resursu sığorta olunan şəxslərin yüksək həyat standartlarını və onların gəlirlərinin sosial müdafiə səviyyəsini təmin etməyə imkan verir. Belə ki, araşdırmalar göstərir ki, iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə sosial yardım və pensiyaların həcmi sığorta ödəmələrini alan şəxslərin əksəriyyətinin əmək haqqında nəzərə çarpacaq paya malikdir. Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə dünyanın qabaqcıl ölkələrində pensiya və sosial sığortanın digər növləri inkişaf etmiş sosial, təşkilati, maliyyə və tibbi - reablitasiya sistemi kimi çıxış edir, iqtisadiyyat və əmək bazarı, dövlətin demoqrafik və qrentologiya siyasəti ilə ayrılmaz şəkildə bağlıdır.

Sosial sığortanın əsas institusional formalarının təhlili sosial sığorta sisteminin müəyyən prinsiplərə əsaslanan, dəqiq təşkilati strukturu olan, xüsusi sosial funksiyalar yerinə yetirən, dövlət qanunları əsasında fəaliyyət göstərən, cəmiyyət həyatının sosial sabitliyini təmin edən spesifik sosial institut kimi çıxış etdiyini deməyə əsas verir.

Ədəbiyyat

1.Абалтусова, А. А. Социальное страхование в системе социальной защиты населения / // Экономика и социум. – 2015. 1-10 с.

2.Агеева Е. В. Социальное страхование : / Иркутск : Изд-во БГУЭП, 2013. – 122 с.

3.Ермасов С. В., Ермасова Н. Б. Страхование. М., 2014. с. 6

4.Гареев И. А., Дорохин М. В. Социальное страхование в современной России, Электронное научное издание «Ученые заметки ТОГУ» 2017, Том 8, № 1, с. 310 – 313

5.Гвозденко А. А. Основы страхования. М., 2013 с. 137

6.Institutions, Policies and Enlargement of the European Union: Glossary.-Luxemburg: Office for Official Publications of the European Communities,2000.

7.Novruzov N., Hüseynov X. – Maliyyə, Bakı – 2007

8.Роик В. Д. Основы социального страхования: организация, экономика и право:. М. : Изд-во РАГС, 2016. с. 20

9.Семенов И.В. Социальное страхование: сущность, виды. // Социально-политические науки .- 2014 .- №1 .- с. 53-58

10.Соловьев А. К. Экономика пенсионного страхования : . М. : ЮНИТИ-ДАНА, 2014. с. 109.

11.Степанова М.Н. Социальное страхование в схемах, таблицах, определениях / М.Н. Степанова. – Иркутск : Изд-во БГУЭП, 2015. – 130 с.

12. Янова С.Ю. Социальное страхование в системе социальной защиты населения: организация и финансовый механизм: дис. … д-ра экон. наук / С.Ю. Янова. – СПб., 2001. – 413 с.

13.http://www.sspf.gov.az

MÜASİR ŞƏRAİTDƏ ÖLKƏNİN İNNOVATİV İQTİSADİ POTENSİALININ FORMALAŞMASINDA TƏHSİLİN ROLU

Həvva Adıgözəlova
i.ü.f.d., dosent Naxçıvan Dövlət Universiteti
"İqtisadiyyat" kafedrası,
E-mail: eva.alieva.2012@mail.ru

Summary: *The study highlights the relationship between economic subjects and innovation related to education. It is noted that innovations considered as important factors in the economic potential of the country (region), along with practical application, serve as the object of current and prospective teoretical research. Expression of ideas demonstrates the existence of different situational relationships, their specific features.*

Keywords: *innovation, innovative economy, economic potential, capacity building, the education system.*


Hər bir ölkə özünün iqtisadi sisteminin tam mənalı sahəvi əlaqələrinin yaradılması və qarşılıqlı fəaliyyətinin (təsirinin) təmini ilə təzahür etməkdədir. Cəmiyyətin müsbət yöndə keyfiyyət dəyişikliklərinə məruz qalması, onun tələblərinin daha yüksək mərhələyə keçidinin təmin olunması təmasda olunan hər bir sahə üzrə çoxsaylı transformativ və təkmilləşdirici xarakterə malik dəyişikliklərin mövcudluğuna dəlalət edir.

Beynəlxalq arenada iqtisadi sistemin sahələrinin qarşılılqlı əlaqələrinin kifayət qədər çoxşaxəli quruluşları mövcuddur. Onların bir çoxuna respublikamızda da rastlanmaqdadır. Aydındır ki, bu əlaqələrin ümumi trayektoriyası qalmaqla spesifik məqamları da müşahidə olunmaqdadır. Digər tərəfdən, xarici təcrübədə əldə olunmuş mütərəqqi nəticələrin ölkəmizə gətirilməsi, yerli spesifik cəhətlər nəzərə alınmaqla onların təcrübi tətbiqi iqtisadi sistemin müəyyən həlqələrinin keyfiyyət dəyişikliklərinə məruz qalmasında, onların daha yüksək mərhələdə təmsil olunmasına şərait yaratmaq məqsədi güdür.

Yenilikçi düşüncə, təkmilləşdirilmiş mexanizmlərdən istifadə, tərəflərarası mənafelərin gözlənilməsi, əldə olunmuş nəticələrdən qarşılılı istifadə olunması, təcrübi təyinatlı informasiyaların kəmiyyət və keyfiyyət parametrlərinin daha yüksək mərhələlərə daşınması kimi prinsiplərin məqsədyönlü tətbiqi istər ölkə, istərsə də regionlar miqyasında daha səmərəli və məhsuldar mühitin formalaşmasına imkan verir. Sahələrarası əlaqələrin mühüm formalarından birini də "nəzəriyyə - təcrübə" tandeminə yeni baxışı təmin edəcək iqtisadi sahələrlə təhsil subyektləri arasında olan qarşılıqlı əlaqələrdir. Bu əlaqələr məzmun elementi nəzərə almaqla özünün geniştərkibliliyi ilə fərqlənməkdədir. Onların sırasında "iqtisadi sahələrin fəaliyyətində innovasiyalılıq dərəcəsi", "iqtisadi sistemdə əldə olunmuş innovasiyalar və tədrisin təşkil olunması xüsusiyyətləri" kimi istiqamətlər müasir dövrdə öz əhəmiyyətini günü-gündən artırmaqdadır.

İşin adından da göründüyü kimi, onun mərkəzi kimi qəbul olunan iqtisadi potensialın formalaşmasında innovativlik amili və təhsil sahəsinin bu yöndə imkanlarının qarşılaşdırılması kifayət qədər "çəkili" problemin mövcudluğuna diqqəti çəkir. Məzmun etibarı ilə, innovasiya – iqtisadi sistemin istənilən sahəsində işin, xidmətin, məhsulun keyfiyyətinin yüksəldilməsi, subyektlərin iqtisadi, təşkilati, inzibati və digər aspektlərdə fəaliyyət alətləri və mexanizlərinin təkmilləşdirilməsi yönündə tətbiq olunan yenilikləri ifadə etməkdədir. İnnovasiyaların istehsal-iqtisadi və sosial xarakterli qrupları xüsusi əhəmiyyət kəsb etməkdədir [5, s. 87.] Bəhs olunan məsələdə daha ayrıntılı fikir və mülahizələrə keçməzdən əvvəl sxem 1-in məzmununa diqqət yetirək.


Sxem 1.



Mənbə: [müəllif tərəfindən tərtib edilmişdir]

Sxemdəki ardıcıllıqdan da göründüyü kimi, "iqtisadi (istehsal və xidmət sahələri) sfera ↔ təhsil fəaliyyəti" qarşılıqlı əlaqələri öz aralarında qarşılqlı təsiri də ehtiva etməkdədir. Belə ki, iqtisadi sahələrə tətbiq olunan innovasiyaların təhsil subyektlərində öyrənilməsi öz növbəsində həmin subyektlər vasitəsilə yeni innovasiyaların nəzəri "qəliblərinin" hazırlanmasına və elə həmin təcrübi iqtisadi sahələrdə tətbiqinə şərait yaradır. Bəhs olunan müstəvi bir tərəfdən təhsil (və elm) ocaqlarının spesifik fəaliyyət yönlərinə diqqəti çəkdiyi halda, digər tərəfdən "təsir- əks - təsir" əlaqələrinin, xüsusilə də, müasir dövrdə güclənməsi və kəskinləşməsi müşayət olunmaqdadır. Fikrimizcə, haqqında mülahizələrin bildirilməsi məqsədəuyğun hesab edilən, "nəzəri biliklər – təcrübi tətbiq nəticələri" müstəvisi əsasında formalaşan əlaqələr özünün uzunmüddətliliyi ilə fərqlənməlidir.

Sxem 2.



Mənbə: [müəllif tərəfindən tərtib edilmişdir]

Sxem 2-dən də göründüyü kimi, mövzu ilə bağlı ümumi şəkildə ifadə edilən fikir və düşüncələr kifayət qədər geniş və rəngarəng tərkibə malikdir. Əyani təsvir bəhs olunan sahələrdə 1-ci və 3-cü sütunlar arasında daim əlaqələrin olması zərurətini sərgiləmiş olur. Eyni zamanda, nəzərdən yayınmamalıdır ki, müvafiq sütüunlar arasında informasiya mübadiləsi hər sütundan "bir maddədən – bir maddəyə" qaydasında deyil, "bir və ya bir neçə maddədən – bir neçə maddəyə" şəklində quraşıq qaydada təşkil oluna bilər.

Rəsmi statistikaya müracət edildikdə görmək olar ki, təkcə son iki ildə irili-xırdalı innovativ layihənin müzakirəsi və təcrübəyə tətbiqi mümkün olmuşdur. Bu layihələrin hər biri məzmun etibarı ilə maliyyə əsaslandırılmasına da malikdir. Yəni onların təcrübədə təşəkkülü xeyli həcmdə pul vəsaitlərinin xərclənməsi ilə müşayət olunmaqdadır. Bununla belə sosial sahələrdə tətbiqi nəzərdə tutulan innovasiya layihələri istisna olmaqla, iqtisadi sistemin digər sahələri üzrə belə işlərin icrası perspektiv dövrdə maddi və pul şəklində ifadəsini tapacaq gəlirlərin əldə olunmasına hesablanmışdır.

Digər tərəfdən, nəzərə alınmalıdır ki, iqtisadi sahənin kadr potensialının əsas hissəsi məhz tədris müəssisələri hesabına formalaşmaqdadır. Bu isə haqlı olaraq "keyfiyyətli təhsil – keyfiyyətli iqtisadiyyat" mülahizəsinin məzmununa diqqəti çəkir, onun nə dərəcədə düzgün olmasına nəzərləri yönəltmiş olur. Belə ki, təcrübə ilə əlaqəli şəkildə təhsil alan gələcəyin mütəxəssisi öz növbəsində perspektiv dövrdə iqtisadi sahədə öz biliklərini fəaliyyətə tətbiq edəcəkdir. Öz növbəsində daha mütərəqqi təşkilati və digər şəraitə malik subyektlər təhsilin (tədrisin) keyfiyyətinin yüksəldilməsində mühüm amillərdən hesab olunmaqdadır.

Bir faktı da diqqətdən qaçırmamaq lazımdır. Bəzi spesifik hallarda "tədris-təcrübə" əlaqələri özünün məhdudluğu fərqlənməkdədir. Belə ki, yaxın keçmişə qədər mövcud olan, sonradan isə "AzəriSilah" adlı hüquqi subyektlərin birliyi adı altında yenidən təşkil olunan Müdafiə Sənaye Nazirliyi öz nəzdində onlarla müdafiə təyinatlı müəssisəni birləşdirməkdə idi. Onlarda yeniliklərin tətbiqi daha sürətli həyata keçirilməkdir. Bununla belə bu innovasiyalarla tanışlıq, onların mənimsənilməsi ancaq məhdud sayda təhsil müəssisələri tərəfindən mümkündür.

Məsələdə ən maraqlı maddə - iqtisadi sistemin sahələrindən biri (sosial sahə) olan təhsilin özündə mümkün ola biləcək yenilikçi alət və mexanizmlərin tətbiqidir. Aydındır ki, təhsil innovasiyaları bu sahənin əsas fəaliyyətini əhatə etməklə mükəlləfdir. Bu isə öz növbəsində, tədrisdə təkmilləşdirici üsul və vasitələrin tətbiqini nəzərdə tutur ki, onların sirasında fəaliyyətdə elektron vasitələrin tətbiqinin genişlənməsi, interaktiv üsullara müraciət olunması, orta məktəb şagirdlərinin informativliyinin təmin olunması daha az zaman kəsiyində daha çox dinləyiciyə məlumatların çatdırılması məqsədilə İnternet sisteminin imkanlarından daha geniş istifadə olunması (məsələn, mərkəzdə deyilən mühazirələrin eyni vaxtda ucqar kəndlərin tədris ocaqlarında dinlənilməsi, yaxud kənd məktəblərində yaradılan şərait hesabına mərkəzin elm və təhsil bazalarının imkanlarından istifadə olunması, bu əsasda digər bilik ünvanlarına müraciətlərin rahatlığı və s.) kimi maddələr nümunə kimi göstərilə bilər.

Ədəbiyyat

1. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009, 416 s.
2. Azərbaycanda innovasiya infrastrukturu//AMEA Xəbərləri. Elm və innovasiya seriyasının İnnovasiya bülleteni, 2012, № 2.
3. Elm və innovasiya, jurnalı 2009, №1
4. Əzizova G. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı : ―İqtisad Universiteti‖ nəşriyyatı, 2012
5. Управление инновационными процессами. Самара: СГТУ, 2009, 153 с.

SƏNAYEDƏ İNVESTİSİYA-İNNOVASİYA SİYASƏTİ DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİ KİMİ

Səbinə Əliyeva
iqtisad üzrə fəlsəfə doktoru
Azərbaycan Texniki Universiteti
E-mail: s_aliyeva99@mail.ru

Sənaye sahəsində iqtisadi artımın və tarazlığın təmin olunması üçün ilk növbədə, onun daxili və xarici mənbələr hesabına investisiya tələbatını ödəməyə cəhd olunmalıdır. Deməli, kimya sənayesinin perspektiv inkişafı ilə əlaqədar qarşıda duran iqtisadi problemləri dərk etmək və onların həllini təmin edə bilən investisiyalarla bağlı fikirləri formalaşdırmaq, bu fikirləri reallaşdıra bilən vasitələri və mexanizmləri təkmilləşdirmək üçün sənaye sahəsinin iqtisadi durumunu investisiya tələbatı baxımından təhlil etmək məqsədə uyğun hesab edilir. Kimya sənayesinin mövcud texniki-texnoloji vəziyyətini və innovasiya mühitini yaxşılaşdırmaq, onun inkişafına nail olmaq üçün orada xarici investisiyalardan, texnologiyalardan və daxili potensiallardan səmərəli istifadə olunması tələb olunur. Onu da qeyd etmək lazımdır ki, Sənaye Energetika Nazirliyi "Azərkimya" müvafiq kompleksi inkişaf proqramının tərtib olunmasında, sənaye sahəsinin iqtisadi potensialından, kimya müəssisələrinin maliyyə resurslarından səmərəli istifadə edilməsində, sənaye sahəsinin investisiya-innovasiya siyasətinin formalaşmasında, diversifikasiya prosesinin genişləndirilməsində, yeni məhsulların mənimsənilməsində və mövcud məhsulların modernləşdirilməsində, kooperasiya əlaqələrinin genişləndirilməsində və.s istifadə oluna bilər.

Hər bir ölkənin inkişafında investisiyaların rolu müasir dövrdə çox böyük əhəmiyyət kəsb edir. İnvestisiyalar iqtisadi artım və təhlükəsizliyi, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini təmin edir, əhalinin həyat səviyyəsinin artmasına zəmin yaradır. İqtisadi artımı təmin etmək məqsədilə investisiyaları iqtisadiyyatın prioritet sahələrinə yönəltmək, iqtisadiyyatın quruluşunda elm tutumlu sahələrin payını artırmaq zəruridir. İnvestisiyaların artımını təmin etmək üçün bazar infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsi önəmli yer tutur. İnvestisiya imkanlarının, xüsusilə də, innovasiya yönümlü investisiyaların artması istehsalın strukturunun dəyişən bazar konyukturasına müvafiq olmasını təmin edir. Dövlətin investisiya siyasəti – ölkə iqtisadiyyatının müxtəlif sahə və sferalarına tələb olunan kapital qoyuluşunun səviyyə və strukturunu təmin edən, investisiya aktivliyini artıran bir-biri ilə əlaqəli məqsədlər kompleksidir. Başqa sözlə desək, investisiya siyasəti – investisiya mənbələrinin tapıb onların səmərəli sahələrə yönəldilməsidir. İnvestisiya siyasətinin xarakteri iqtisadi proseslərə müdaxiləsi səviyyəsi ilə və bu siyasətin vergi, maliyyə-kredit, amortizasiya, qiymət, gəlir və d. siyasətlər əlaqəsi ilə izah edilir. İnvestisiyaların tənzimlənməsi və investisiya siyasəti fərqli anlayışlardır, çünki investisiya siyasətinin əsası – bu sahəyə müdaxilə etməmək prinsipinə üstünlük verilməsi ilə açıqlandığı halda, investisiyaların tənzimlənməsi dövlətin müdaxiləsini nəzərdə tutur. İnvestisiya siyasətində dövlətin rolu "investor – investisiya obyekti" münasibətlərində qaydaları müəyyən etmək, iqtisadi sistemin özünü tənzimləmək və sərbəst inkişaf etmək üçün imkanı yaratmaqdır. Dövlətin investisiya siyasəti 2 hissədən ibarətdir:

– tənzimləmə

– stimullaşdırma.

Tənzimlənmə sistemi hər qoyulan kapitalın pul vahidinə (manata) görə maksimim gəlirin əldə edilməsini nəzərdə tutur. Stimullaşdırıcı element isə maksimum investisiya cəlb olunmasını tələb edir. Ölkə iqtisadiyyatına investisiya cəlb etmək üçün dövrün tələblərinə cavab verən investisiya siyasəti işlənib hazırlanmalıdır. Ona görə investisiya siyasətində - kompleks şəkildə iqtisadiyyata yönələn investisiyaların həcmi, quruluşu və istiqamətləri müəyyən edilməlidir. İnvestisiya siyasətinin əsas vəzifəsi ölkənin sosial-iqtisadi inkişafına tələb olunan resursların cəlb edilməsi və onların səmərəli istifadəsi üçün əlverişli şəraitin yaradılmasıdır. İnvestisiya siyasəti hər konkret dövr üçün investisiyaların həcmi və quruluşunu müəyyən etməlidir. Bura sahə, təkrar istehsal, texnoloji, ərazi və mülkiyyət formaları üzrə strukturlar daxildir. İnvestisiya siyasəti, həmçinin, prioritetlərin seçilməsini və investisiyaların səmərəliyinin artırılmasını da nəzərə almalıdır. İnvestisiya siyasəti müddətinə görə fərqləndirilir və o, uzun və qısamüddətli ola bilər. Uzunmüddətli investisiya siyasəti iqtisadi fəaliyyətin bir çox il qabağa işlənib hazırlanmasını, qısamüddətli isə - bir neçə ay ya bir il müddəti nəzərdə tutur.

İnvestisiya fəaliyyətində dövlət:

Birincisi, maliyyə-investisiya bazarlarının təşkilatçısı kimi;

– ikincisi, maliyyə-investisiya bazarlarının iştirakçısı kimi;

– üçüncüsü, investisiya proseslərinin meneceri kimi çıxış edir.

İnvestisiya siyasətinin əsas prinsipləri:

– iqtisadiyyatın real sektoruna yönələn investisiyaların səmərəliyini təmin edən faiz dərəcəsinin müəyyən edilməsi;

– vergi sisteminin sadələşdirilməsi;

– amortizasiya siyasətinin təkmilləşdirilməsi;
– investisiya cəlbediciliyi baxımından müəssisələrin yenidən qurulması üçün şəraitin yaratması;
İnvestisiya siyasətinin əsas istiqamətlərinə aiddir:
– hər konkret dövr üçün məqsədəuyğun investisiyaların həcmi və strukturunun müəyyən edilməsi;
– prioritetlərin seçilməsi;
– investisiya qoyuluşlarının səmərəliliyinin artırılması.
– **İnvestisiya siyasətinin əsas məqsədləri kimi aşağıdakılar sayılır:**
– ölkə iqtisadiyyatının strukturunun yenidən qurulmasını təmin etmək;
– sahibkarlıq fəaliyyəti üçün və xüsusi investisiyaları stimullaşdırmaq;
– yeni iş yerlərini yaratmaq;
– müxtəlif mənbələrdən, o cümlədən, xaricdən investisiyaları cəlb etmək;
– investisiya fəaliyyətində lizinq xidmətlərini inkişaf etdirmək;

İqtisadiyyatın səmərəli inkişafı üçün ənənəvi inkişaf modelindən innovasiyalı modelə keçidi təmin etmək vacibdir. Yalnız innovasiyalı inkişaf modeli xammalın ixracında ixtisaslaşdırılmış iqtisadiyyatdan postindustrial iqtisadiyyata, elm tutumlu sahələrin inkişafına keçidi təmin edə bilər və ölkə qloballaşan dünyada özünə daha layiqli yer tuta bilər. Müasir dövrdə yalnız innovasiya tipli inkişafa nail olan ölkələr iqtisadi və hərbi-siyasi təhlükəsizliyini təmin edə bilər, əhalisinin həyat səviyyəsinin müasir sivilizasiya uyğun olmasına şərait yaradar. Xarici bazarda sərt rəqabətə davam gətirmək üçün innovasiyalı inkişaf ölkənin beynəlxalq münasibətlər subyekti kimi fəaliyyətinin əsas şərtlərindən biridir. İnnovasiyaların tək sayını artırmaq kifayət deyil, onlar bütün iqtisadi proseslərin tərkib hissəsinə çevrilməlidir və informasiya, maliyyə, sosial və d. proseslərdə istifadə olunmalıdırlar. Beləliklə, innovasiyalar tək texnika-texnoloji proseslərdə yox, hətta təşkilati, idarə etmə, maliyyə, təhsil, ekoloji və digər sahələrdə də tətbiq olunmalıdır. İnnovasiyalı inkişaf elmi tədqiqatların aktivləşdirilməsini tələb edir. İnnovasiya anlayışının yeganə elmi və hüquqi tərifi olmadığına görə bəzi hallarda innovasiya fəaliyyətinin meyarlarını müəyyən etmək və bu fəaliyyəti stimullaşdırmaq çətin olur. Azərbaycan üçün digər postsovet ölkələri kimi təkcə elmi tədqiqatların intensivləşdirilməsi deyil, həm də bu tədqiqatların tətbiqi mexanizminin işlənib hazırlanması, müxtəlif kommersiya layihələrinin həyata keçirilməsi önəmlidir.

İnvestisiya siyasəti vasitəsi ilə dövlət maliyyə və pulkredit mexanizmindən istifadə edərək ictimai istehsalın artımına və tənasübünə təsir göstərir. Əgər investisiya siyasəti innovasiya xarakterlidirsə buna investisiya-innovasiya siyasəti deyilir Bu siyasətin əsasını təşkil edən və əsas məqsəd olan investisiya-innovasiya fəaliyyətinin aktivliyinin artırılmasında dövlət aparıcı rol oynayır. Dövlətin investisiya-innovasiya siyasəti iqtisadi proseslərə dövlət müdaxiləsinin vergi, maliyyə-kredit, amortizasiya, lisenziya, qiymət və xarici investisiyaların cəlb edilməsi və digər mexanizmlərinin tətbiq səviyyəsindən və sahədə həyata keçirilən siyasətlə əlaqəlidir. Bundan başqa investisiya-innovasiya siyasəti hüquqi və inzibati idarəetmə sistemi ilə sıx əlaqəlidir. Hüquqi bazasından asılı olaraq formallaşdırılmış və qeyri-formallaşdırılmış investisiya siyasəti mövcuddur. Formallaşdırılmış investisiya siyasəti investisiya prosesinin əsas parametrlərini tənzimləyən tamamlanmış hüquqi bazası olan siyasətdir. İnvestisiya prosesinin parametrləri deyəndə, bura vergi, qiymət, gəlir, gömrük-tarif sistemi, avadanlığın amortizasiya müddəti və üsulları, əsas fondların uçot üsulu və s. nəzərdə tutulur. Bir qayda olaraq, formallaşdırılmış investisiya siyasətində dövlətin kapital qoyuluşu səviyyəsi yüksək olur. Qeyri-formallaşdırılmış investisiya siyasətində dövlətin kapital qoyuluşu səviyyəsi az, xüsusi kapital qoyuluşların səviyyəsi isə yüksək olur. Bundan başqa qeyri-formallaşdırılmış investisiya siyasətində investisiya prosesinin hüquqi bazası sistemləşdirilməyib. İdarə edilmə tipinə görə liberal və mərkəzləşdirilmiş investisiya siyasəti fərqlənir. Liberal tip investisiya siyasətində iqtisadi idarəetmə metodları istifadə olunur, investisiya sistemi isə şaquli xarakter daşıyır və aşağıdakı kimi təsnifləşdirilir:

– dövlət;
– maliyyə institutları;
– iri biznes;
– xırda investorlar.

Liberal tip investisiya siyasətində bir çox investisiya mənbələri və inkişaf etmiş maliyyə infrastrukturu mövcuddur. Burada dövlətin rolu investor və investisiya obyekti arasında "oyun qaydalarını" müəyyən etməkdən ibarətdir. Belə siyasət nəticəsində iqtisadiyyat özü özünü tənzimləyir və nisbətən azad inkişaf edir. Mərkəzləşdirilmiş investisiya siyasətinin əsas cəhəti birbaşa, əsasən də, inzibati üsullardan istifadə edilməsidir. Burada müxtəlif dövlət strukturları tərəfindən investisiya resursları akkumulyasiya olunur, mərkəzləşdirilmiş qaydada uzunmüddətli proqnozlaşdırılma aparılır və investisiya prosesləri daha sərt reqlamentləşdirilir. Qeyd etmək lazımdır ki, investisiya prosesinin sırf liberal və ya mərkəzləşdirilmiş inkişafı reallıqda mövcud deyil. Reallıqda investisiya siyasətində həm liberal, həm də mərkəzləşdirilmiş siyasətin elementlərindən istifadə olunur. İqtisadi vəziyyətdən asılı olaraq, siyasətin bu iki elementinin mütənasibi dəyişir. Məsələn, iqtisadiyyatda canlanma müşahidə olunursa, mərkəzləşdirilmiş sistemin elementlərinin istifadəsinə ehtiyac olmur. Əks halda, xüsusən də, böhran zamanı investisiya fəaliyyətini stimullaşdırmaq tələb olunur. Dövlətin investisiya siyasəti maliyyə sistemi vasitəsi ilə həyata keçirilir. Ölkə-

nin maliyyə sistemi iqtisadiyyatın, dövlətin, cəmiyyətin fəaliyyətini və maliyyələşdirilməsini təmin edən maliyyə münasibətləri, maliyyə institutları və fondları məcmusundan ibarətdir. Maliyyə sistemi akkumulyasiya, bölgü və nəzarət funksiyasını həyata keçirir. Maliyyə sisteminə dövlət büdcəsi, bələdiyyə büdcələri, büdcədən kənar fondlar, dövlətin kredit sistemi, sığorta sistemi, müxtəlif mülkiyyət növləri, müəssisələrin öz maliyyə resursları, əhali və sahibkarların şəxsi vəsaiti daxildir.

Maliyyə sisteminin tərkib hissələri bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Belə ki, dövlət büdcəsi vasitəsi ilə fiskal siyasət həyata keçirilir – vergi və büdcə xərclərinin istifadəsini sosial məqsədlər və işgüzar aktivlik tənzimləyir. Bu siyasət vergi və dövlət xərclərinin tənzimlənməsi vasitəsi ilə həyata keçirilir, o stimullaşdırıcı və məhdudlaşdırıcı olur. Tənəzzül zamanı stimullaşdırıcı fiskal siyasətindən istifadə edirlər.

Ədəbiyyat

1. «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu 1992.
2. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu, 1995.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 1999.
4. Atakişiyev M.C. İnnovasiya menecmenti, Bakı 2004
5. Tağıyev A.H., İ.B. Əmirov, İnnovasiya menecmenti, Bakı 2010
6. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri, Bakı 2009.
7. Tağıyev A.H. -Bazar iqtisadiyyatının əsasları. Bakı 2000
8. Валдейцев В. «Управление инновационным бизнесом». Москва 2010.
9. Герчикова И.Н. «Менеджмент» М. 2011.
10. Иванов «Инновационный менеджмент» М. 2002.

TƏDİYYƏ BALANSININ QEYDİYYAT XÜSUSİYYƏTLƏRİ VƏ TƏSNİFLƏŞDİRİLMƏSİ

Sədaqət Əhmədova
Dünya iqtisadiyyatı kafedrasının dosenti,
Bakı Dövlət Universiteti
E-mail:sedaqat.ahmedova2016@mail.ru

Novruzə Adilova
Dünya iqtisadiyyatı kafedrasının dosenti
Bakı Dövlət Universiteti
Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsi
E-mail: adilova.novruze.20@mail.ru

Summary: *Discussed unique operations related to the accounts properties and classification of the balance of payments in the example of Azerbaijan and countries of the world. The study of classification and accounting properties of the balance of payments and the study of the work done in this field in Azerbaijan to improve the quality.*

Key words: *balance of payments, the market price, account no statistically diflercnces, reserve balances*

Giriş

Tədiyə balansının tərtib edilməsi qaydaları, əməliyyatların qeydiyyat xüsusiyyətləri, təsnifləşdirilməsi, qruplaşdırılması məsələləri geniş şəkildə araşdırılmış, tədiyə balansı hesablarının düzülüşünün əsas prinsiplərinə ayrı-ayrılıqda toxunulmuşdur. Tədiyə ba- lansının qeydiyyat məsələrini ön plana çəkməklə Beynəlxalq Valyuta Fondu və müxtəlif iqtisadi ədəbiyyatlarda istifadə olunan təcrübə təhlil edilmiş, qeydiyyat və təsnifləşdirmə ilə bağlı əsas xüsusiyətlər göstərilmişdir.

Milli iqtisadiyyatın xarici bazarlarla olan iqtisadi əlaqələri, xarici ticarət balansı kimi qeyd olunan bir terminlə birgə anılmaqdadır. Xarici ticarət balansı bir ölkənin valyuta mədaxil-məxaric fəaliyyətlərini illik formada göstərməkdədir.

Bir ölkənin tədiyə balansı müəyyən bir zaman çərçivəsində bu ölkədəki rezident şəxslərlə digər ölkələrdəki rezidentlər arasında meydana gələn iqtisadi əməliyyatların nəticəsini göstərməkdədir.

Tədiyə balansı bir iqtisadiyyatda rezident şəxslərin digər iqtisadiyyatlardakı rezidentlər ilə müəyyən bir zaman çərçivəsində etdikləri iqtisadi əməliyyatların sistemli qeydiyyatını əldə etmək üzrə hazırlanan statistik hesabatdır.

Yuxarıda tədiyə balansına fərqli anlayışlar verilmişdir. Bundan yola çıxaraq tədiyə balansının, bir il və ya müəyyən müddət çərçivəsində bir ölkə daxilində yerləşən bütün iqtisadi subyektlər ilə digər ölkələrdə olan iqtisadi subyektlər arasında meydana gələn iqtisadi, maliyyə və ya bir öhdəlik doğurmayan əməliyyatların, müəyyən valyuta ilə qeydiyyata alınaraq göstərildiyi və ölkə daxilindəki iqtisadi vəziyyət haqqında məlumat verən və ehtimalların tapılmasına kömək edən bir cədvəl olaraq göstərə bilərik

Tədiyə balansının xüsusiyyətləri.

Tədiyə balansının özünəməxsus xüsusiyyətləri vardır. "Rezident olma", "borclu əməliyyat", "beynəlxalq əlaqələrin ikili prinsipi" kimi xüsusiyyətləri haqqında açıqlamalar ediləcəkdir. Beləliklə, tədiyə balansı və bununla əlaqədar anlayışların qavranılması təmin ediləcəkdir.

Yuxarıdakı tədiyə balansı açıqlamalarında əksəriyyətində tədiyə balansının müəyyən bir vaxt üçün hazırlandığından bəhs edilməkdədir. Bu müddət, ümumilikdə, bir il olmaqla birlikdə, bəzi ölkələr tədiyə balanslarını müəyyən edilmiş müddətdə cəmiyyətlə paylaşmaqdadır.

Bir çox ölkələr tədiyə balanslarım illik olaraq tərtib edirlər. Hər bir ölkənin tədiyə balansının illik olaraq hazırlanmasının bir faydası vardır. Beləliklə, eyni müddət aralığı əsas götürülərək hazırlandığı üçün bir ölkənin öz tədiyə balansı ilə digər ölkələrin tədiyə balanslarının daha asan bir şəkildə qarşılaşdırma şansı əldə edilməkdədir.

İqtisadi əməliyyat və rezident olma.

Rezident dedikdə, ev təsərrüfatı və ya hüquqi şəxs olaraq ölkə daxilində 1 ildən çox ol- maq şərti ilə iqtisadi maraqlarının mərkəzi yeri olması nəzərdə tutulur. Fiziki şəxs isə ölkənin iqtisadi ərazisində bir ildən artıq və həyat mənafelərinin mərkəzi olmaqla rezident hesab olunur. Turistlər, mövsümi işçilər, sərhədyanı işçilər, beynəlxalq təşkilatların işçiləri, xarici səfirliklərin personalı, gəmi komandası və təyyarənin ekipaj üzvləri gəldikləri ölkənin rezidenti hesab olunur.

Aktivdə olan artma və azalmalar bütün hallarda passivdə dəyişməyə gətirib çıxarmır. Aktiv bir hesabın artımı digər aktivin azalmasım şərtləndirə bilər. Məsələn, ABŞ firması məhsulu 100 000 dollar dəyərində kreditlə alman firmasına verməklə əməliyyat təşkil edilir. Nə vaxt ki, ABŞ firması krediti dollarla verirsə Almaniya tədiyə balansında ticarət kreditləri ixtisar edilir, lakin valyuta ehtiyatlarında artım olur. Almaniya tədiyə balansında bu əməliyyat aşağıdakı şəkildə olacaqdır.

Cədvəl 1.

Aktiv hesabda qeydiyyat

	Kredit	Debet
Aktiv (ticarət krediti)	100	
Aktiv (xarici valyuta)		100

Analoji şəkildə bir passiv əməliyyat eyni zamanda passiv hesabın kredit və debetində qeyd ediləcəkdir. ABŞ firması öhdəlik götürərək Almaniya bankından kredit əldə edir. Tədiyə balansında qeydiyyat aşağıdakı formada olacaqdır.

Cədvəl 2.

Passiv hesabda qeydiyyat

	Kredit	Debet
Passiv (bank depoziti)	100	
Passiv (ticarət krediti		100

Bir ölkədə daimi məskunlaşmaq məqsədi ilə yaşayan vətəndaşlıq və ya pasport statusu o ölkəyə bağlı olaraq yaşayanlar, o ölkədə məskunlaşdırılmış sayılmaqdadır. Bu şəxslər yaşadıqları yerdə keçərli olan valyutadan istifadə etməkdədirlər.

Tədiyə balansı, qeydiyyat xüsusiyyətləri

Tədiyə balansını düzgün şəkildə anlamaq və analiz etmək üçün hər şeydən əvvəl tədiyə balansı hesablarının düzülüşünün əsas prinsiplərini müəyyənləşdirmək lazımdır.

Tədiyə balansında əməliyyatlar ikili qeydiyyat prinsipi əsasında həyata keçirilir. Bütün əməliyyatlar iki hissəyə qeyd edilir. Bu qeydlərin biri kredit əməliyyatı kimi + işarə ilə, digər isə - işarəsi ilə debet əməliyyatı kimi qeyd edilir. Yəni tədiyə balansına mühasibatlığın əsas qaydalarına görə ikili qeydiyyat sisteminə görə qeyd edilərək, aktiv və passivin cəmi bir-birinə bərabər olacaqdır. [1]

Tədiyə balansında debetə qeyd edilən bütün əməliyyatlar əks işarə ilə kreditə qeyd edilməlidir. Götürək ki, Rusiya ABŞ hökumətindən səhm alır və ABŞ bank hesabına 100 milyon dollar idxal üçün ödəniş edir. Bu halda Rusiya öz hesabında aktiv əldə etməklə bərabər, eyni zamanda, passivə ABŞ qarşısında götürdüyü öhdəliyi qeyd edirik. Rusiya tədiyə balansında qeydiyyat aşağıdakı formada verilməlidir.

Cədvəl 3.

	Kredit	Debet
Aktiv		100
Passiv	100	

Hesab vahidi, tədiyə balansı hazırlanan zaman valyuta növü seçilməli və daxili əməliy- yatlarda da o istifadə edilməlidir. Bu zaman milli valyutanın dollar və yaxud da digər valyutu qarşısında məzənnəsi müəyyən edilərək tə-

diyə balansına qeydiyyatı aparılır, əgər ölkə bir neçə valyuta ilə əməliyyat edirsə, bu zaman hər biri üzrə əməliyyatlar ayrılıqda hesablanır və hər bir halda bir valyutada tədiyə balansında əks etdirilir. [2]

Tədiyə balansında 2 əsas hesab cari əməliyyatlar və kapital hesabı olduğu görülməkdədir. Qısası cari hesab real mənbələrlə (mal, xidmət, gəlir) əlaqəli əməliyyatları və cari transferdən (qarşılıqsız transfertlər), kapital hərəkətləri də real qaynaq axınlarının maliyyələşdirilməsini (ümumi şəkildə investisiya transferi ya da maliyyə əməliyyatları ilə əlaqədar əməliyyatlar) göstərir.

Cari əməliyyatlar hesabı bir ölkə iqtisadiyyatının ümumi gedişatı haqqında dəyərləndirmələr edilməsinə, nəticə çıxarılmasına və proqnozlar verilməsinə xidmət etdiyini deyə bilərik.

Xarici ticarət statistikasında ixracat FOB (free on board) qiymətləri ilə göstərilməkdədir, ixrac ediləcək olan mal, istehsal edildiyi yerdən xarici ölkəyə yollanacağı çatdırılma vasitəsinə qədər gətirilir və orada təslim edilir. İxrac malının vahidinin qiyməti, nəqliyyat vasitəsinə qədər edilən çatdırılma xərclərini də əhatə etməkdə lakin bu qiymətin formalaşmasında sığorta xərclərinə daxil edilməməkdədir.

Əmtəələrlə adi idxal-ixrac əməliyyatı tədiyə balansına aşağıdakı cədvəldə kimi qeyd edilir [3].

Cədvəl 4.

	İxracatçı ölkəsi	İdxal atçı ölkəsi
Əmtəə	Kredit	Debet
Maliyyə hesabı	Debet	Kredit

Misal olaraq, Azərbaycan 100 000 dollar dəyərində Rusiyaya mal ixrac edir. Azərbaycan tədiyə balansında qeydiyyat aşağıdakı formada ediləcəkdir.

Cədvəl 5.

	İxracatçı ölkəsi	İdxalatçı ölkəsi
	Kredit	Debet
Əmtəə	100	
Maliyyə hesabı		100

Rusiya tədiyə balansında qeydiyyat isə aşağıdakı formada olacaqdır

Cədvəl 6.

	İxracatçı ölkəsi	İdxalatçı ölkəsi
	Kredit	Debet
Əmtəə		100
Maliyyə hesabı	100	

Beynəlxalq xidmətlər və gəlirlər.

Cari əməliyyatlar hesabının digər bir alt hesabı xidmət idxal və ixracıdır. Xidmətlər hesabı gözlə görülməyən bir məna daşımaqdadır. Xarici investisiyaların gəlir və xərcləri, divident və faiz ödəmələri günəmuzdlu görünməz alt hesabların böyük bir qismini təşkil etməkdədir.

Xidmətlərlə adi idxal-ixrac əməliyyatı tədiyə balansına aşağıdakı sxem əsasında qeyd edilir.

Misal olaraq götürək ki, yükdaşımanın dəyəri CİF qiymətləri ilə 100 000 dollar, hansı ki, fraxt və sığorta 10 % yəni 10 000 dollar təşkil edir. Bu çatdırılma və sığorta xidmətini qeyri-rezident təşkil edir. Tədiyə balansında qeydiyyat aşağıdakı formada olacaqdır.

Cədvəl 7.

	Kredit	Debet
Əmtəə		90
Fraxt və sığorta		10
Maliyyə hesabı	100	

Əgər çatdırılma və sığorta xidməti rezident tərəfindən həyata keçirilərsə, tədiyə balansında qeydiyyat bu şəkildə olacaqdır.

Cədvəl 8.

	Kredit	Debet
Əmtəə		90
Fraxt və sığorta	10	
Maliyyə hesabı	80	

Misal olaraq baxaq ki, Azərbaycan rezidenti Türkiyəyə altı aylıq istehsalat təcrübəsinə gedir və bu müddət ərzində 10 000 dollar əmttə və xidmətlərin əldə edilməsinə xərcləyir, bunun da 5000 dollarına maşın alır hansı ki, Azərbaycana qayıtdıqda özü ilə gətirir. Bu müddət ərzində qohumlara təqdim edilməsi nəzərdə tutulan 1000 dollar dəyərində hədiyyələr alır. Türkiyədə qaldığı müddət ərzində kirayə haqqı olaraq 6000 dollar türkiyə rezidentinə ödəyir.

Cədvəl 9.

	Kredit	Debet
Əmtəə		1
Səyahət	16	
Cari köçürmələr		
Dövlət idarəetmə sektoru		6
Digər ödənişlər	1	
Maliyyə hesabı		10
	17	17

Avtomobil alışı və otelə görə ödənilən ödəniş səyahət bölməsinin kredit bölməsində, cari köçürmələrin debetində qeyd edilir. Hədiyyə alışları adi idxal kimi debetə, eyni zamanda, kredit hesabı kimi isə cari transferlərə köçürülür.

Misal olaraq türkiyəli işçi 3 ay müddətində Azərbaycanda yerləşən müəssisədə işləmişdir. Bu müddət ərzində işçi 500 əldə etmişdir və bu pullar banka depozit hesaba köçürülmüşdür. Bank depozitindən gəliri isə 50 təşkil etmişdir. Ev haqqı olaraq aylıq 200 xərcləmişdir. Türkiyəli işçinin digər xərcləri isə aşağıdakı kimidir. Qidalanma-110, paltar-100, əmlak vergisi-40, gəlir vergisi-50 təşkil etmişdir. Türkiyə tədiyə alanında əməliyyatlar aşağıdakı kimi olacaqdır.

	Kredit	Debet
Səfər		210
Gəlir		
Əmək ödənişi	500	
İnvestisiyadan gəlir		
Digər investisiyalar	50	
Cari köçürmələr		
Dövlət idarəetmə sektoru		50
Maliyyə hesabı		290

Qarşılıqsız transferlər.

Cari əməliyyatlar hesabının tərkibinə daxil olan bu hesab,ölkənin mal-xidmət-maddi varlıq qarşılığı olmadan digər ölkələrə etdiyi və ya tam əksinə digər ölkələrin qarşılıqsız şəkildə bu ölkəyə etdikləri ödəmələri nəzərdə tutmaqdadır. Qarşılıqsız transferlərin pozitiv olması ölkələrdən edilən transferlərin ölkədən edilən transferlərdən daha böyük olduğunu bizlərə göstərməkdədir.

Ölkələr arasında yardım şəklində edilən əməliyyatlar bu qrupa girməkdə və qarşılığında heç bir ödəmə edilməsi gərəkmədiyi üçün bu cür əməliyyatlar tək tərəfli qarşılıqsız transferlər deyilməkdədir [4].

Əgər mal və xidmət ticarəti ilə transfer ödəmələrindən əldə edilən gəlirlər, bu hesabdakı xərclərdən çox isə cari əməliyyat hesabında bir əlavənin olduğu, tam tərsi halında isə cari əməliyyatlar hesabında bir kəsir meydana gəlməkdədir [5].

Cari əməliyyatlar hesabından sonra ikinci əsas hesab olan, kapital hesabını və bu hesabı əmələ gətirən subhesablar haqqında açıqlamalar ediləcəkdir.

Kapital əməliyyatları ümumi olaraq bir ölkədə məşkunlaşmış şəxs və qurumların xarici ölkədə etdikləri fiziki investisiyalar ilə xaricə köçürülən maliyyə fondlarından təşkil edilməkdədir. [6]

Tədiyə balansının ikinci hesabı olan investisiya hesabı haqqında ilk öncə müddətinə görə bölgü aparılacaq və bu bölgü edildikdən sonra bunlarla əlaqədar açıqlamalar ediləcəkdir.

Müddəti bir ildən az olan özəl və rəsmi beynəlxalq investisiya axınları olmaqla birlikdə 30, 60, 90 gün kimi müddətləri əhatə edən ticarət, maliyyələşdirmə alətləri, ixrac kreditləri, qısamüddətli bank hesablan bu hesabda yer almaqdadır [7].

Qısamüddətli investisiya iqtisadiyyatın inkişaf potensialına görə deyil, ümumilikdə, maliyyə aktivlərindəki yüksək gəlirlilikdən faiz-kurs arbitrajından yararlanmaq məqsədi ilə gələ bilməkdədir.

Müddəti bir il və daha uzun bir zamanı əhatə edən kapital axım olub, ölkələr arası yüksək gəlir dərəcəsi, faiz dərəcəsi, fərqliliklərdən yararlanma, ölkələr arasındakı ticarətlə əlaqədar maneələri dəf etmək və ya xarici xammal ehtiyatlarına çatmaq kimi səbəblərdən ortaya çıxmaqdadır.

Müddətləri, ümumilikdə, bir ilin üzərində olan depozit, səhm və istiqrazların və sairəni xarici ölkə vətəndaşlarına satarsaq bunun nəticəsi olaraq xəzinənin əldə etdiyi valyuta ölkəmizi bir investisiya girişidir.

Rəsmi investisiya axını.

Rəsmi investisiya inkişaf'etmiş ölkələrin, az inkişaf etmiş ölkələrə yardım və kredit şəklində etdikləri ödənişlərdir. Yardımlar bağışlama şəklində olarsa beynəlxalq bir transfer, kredit şəklində isə dövlətlərarası bir borclanma formasında olacaqdır.

Kredit və bağışlama şəklindəki bu yardımların verilməsində iqtisadi, sosial və siyasi amillər təsirli ola bilməkdədir. Ümumilikdə, xarici ölkələr, Dünya Bankı kimi maliyyə qurumları ya da Avropa Yenidənqurma və İnkişaf Bankı kimi regional inkişaf bankları tərəfindən reallaşdırılan bu yardımlardan faydalanan ölkələr bu yardımlarla valyuta kəsirlərini bağlayaraq daha yüksək bir inkişaf sürətinə çatmağa çalışmaqdadırlar.

Statistik fərqlər.

Tədiyə balansı hesablarında, ümumilikdə, bir xəta və əksikgəlmə ehtimalı vardır. Bu xətalar, qeydiyyata düşməyən xətalardan, səhv və əksik bəyanlardan, dəqiq rəqəmlərə nail olmaq çətin olduğu hallarda ehtimallara dayanan rəqəmlərin müəyyən edilməsi kimi səbəblərdən qaynaqlana bilməkdədir. Yaranan bu fərqlər "net xəta və nöqsan" hesabıyla bağlanaraq tədiyə balansı tarazlığa gətirilməkdədir.

Rezerv ehtiyatlar,

Tədiyə balansının hazırlandığı zaman içərisində Mərkəzi Bankın valyuta rezervlərindəki meydana gələn dəyişməni göstərməkdədir. İMF-dən ölkəmizin stand-by müqavilələri çərçivəsində aldığı məbləğ Mərkəzi bankın rezervlərindən çıxılır. Müəyyən bir proqram çərçivəsində İMF-ə ödənilən miqdar qədər rezervlər hesabına cəmlənməkdədir.

Cari əməliyyatlar hesabı ilə kapital axım balansının cəmi nəticəsi tədiyə balansının ümumi kəsirim göstərməkdədir. Bu nəticəyə görə bir ölkənin xarici qüvvələrə qarşı borc və ya alacaqları dəyişmiş olacağından aradakı fərq, rezerv hərəkətləriylə bağlamaqdadır.

Mərkəzi Bankın və idarəetmə strukturunun əlində olan və tədiyə balansında ortaya çıxan disproporsiyam maliyyələşdirmək üçün istifadə edilən bir hesabdır.

Rezerv ehtiyatlara monetar qızıl-qızılın probu 995/1 OOQ-dən aşağı olmayan, Mərkəzi Bankın nəzarəti altında və yaxud da hökumətin müəyyən etdiyi yerdə qorunan, hansı ki istənilən vaxt dünya bazarında xarici valyutaya çevrilmə gücündə olan yerləşən rezerv ehtiyatlar aiddir [8].

Qeyri-monetar qızıl istənilən rezidentdə ola bilər və rezerv ehtiyat hesab olunmur.

SDR-Xüsusi iqtibas hüququ isə BVF tərəfindən buraxılan və ölkənin BVF-də səsvermə hüququnu göstərən rezerv aktivlərdir.

Müasir dövrdə milli iqtisadiyyatların ayn olduğu düşünüləməz. İnkişaf edən elm-texnologiya sayəsində elmi axın gedərək sürətlənməkdə, beynəlxalq mal, xidmət və investisiya axınlarının sıxlığı hər gün daha da artmaqda, qlobal rəqabət gücü yüksək ölkələrlə, neft və neft məhsulları kimi strateji əhəmiyyətə malik ehtiyatlan olan ölkələr bu əməliyyatlardan müsbət baxımdan yararlanmaqda və xarici ticarət balansı tarazlığında mühüm bir problemlə qarşılaşmazkən, rəqabət gücü aşağı bəzi ölkələrin mühüm xarici ticarət kəsirləri verdiyi və bu kəsirlərin asanlıqla aradan qaldırılmadığı bilinməkdədir.

Bir ölkənin tədiyə balansındakı vəziyyəti o ölkənin iqtisadi vəziyyəti haqqmda da vacib bir məlumat verməkdədir. Bu səbəblə bəzi qurum və təşkilatlar əldə etdikləri iqtisadi məlumatlarla birlikdə, əlaqəli ölkələrin tədiyə balanslarını analiz edərək o ölkə haqqmda məlumat əldə etməyə və bu mövzuda ən yaxşı nəticəyə çatmağa çalışmaqdadır. Bundan irəli gələrək tədiyə balansı hər bir ölkədə diqqətlə araşdırılması vacib oları bir mövzu olaraq qarşımıza çıxmaqdadır.

Ədəbiyyat

1. Ə.H.Ələkbərov, M.Ə.Vəliyev, Ş.M.Məmmədov Beynəlxalq iqtisadi münasibətlər, Bakı Çaşıoğlu 2010, 632 səhifə.
2. Z.F.Məmmədov Beynelxalq valyuta-kredit münasibətləri, Bakı "Qanun" 2001, 376 səhifə
3. R.İxasbulatov Beynəlxalq iqtisadi münasibətlər, Bakı "Zərblabi" 2015, 808 səhifə
4. T.Ş.Vəliyev redaktəsi ilə "iqtisadi nəzəriyyə" Bakı Çaşıoğlu 2001, 691 səhifə
5. İ.A.Kərimli Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri, Bakı Çaşıoğlu 2006 304 səhifə
6. Z.İ.Səmədova Azərbaycan xarici iqtisadi əlaqələri Bakı, Bakı universiteti 2007, 177 səhifə
7. A.M.Məhərrəmov, H.H.Aslanov Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, Bakı "Zərdabi" 2008, 399 səhifə
8. Ş.Ş.Qafarov Müasir iqtisadi sistem və qloballaşma , Bakı "CBŞ" 2005, 630 səhifə

ƏMƏK MÜNASİBƏTLƏRİNİN GÜZƏŞTLƏR MEXANİZMİ VASİTƏSİLƏ TƏNZİMLƏNMƏSİNİN MİLLİ İQTİSADİYYATA TƏSİRİ

Əhəd Quluzadə,
Magistrant
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
E-mail: ahadguluzada@gmail.com

Xülasə: *Məqalə əmək münasibətlərinin güzəştlər mexanizmi vasitəsilə tənzimlənməsinə və bunun milli iqtisadiyyata nə dərəcədə təsir etdiyinə aiddir. Bildiyimiz kimi iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində dövlət tərəfindən bir sıra silsiləvi tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri isə 2019-cu ildə vergi və sosial sığorta qanunvericiliyinə edilmiş əhəmiyyətli dəyişikliklər oldu. Belə ki, qeyri-neft qaz və qeyri-dövlət sektorunda çalışanlar üçün 8000 manatadək əmək haqqı alan işçilər üçün gəlir vergisi ləğv edildi və 8000 manatdan yuxarı hissənin isə 14%-i vergiyə cəlb olundu. Sosial sığorta yükü işəgötürən və işçi arasında balanslı şəkildə bölüşdürüldü ki, nəticədə hər iki tərəf üçün də müsbət bir hal qeydə alındı. Belə ki, əvvəl işçi dövlət büdcəsinə 14 % gəlir vergisi, 3 % pensiya fondu və 0.5 % işsizlikdən sığorta fonduna ödəmələr edirdisə, indiki halda əmək haqqısının 200 manatadək olan hissəsinin 3 %-i, 200 manatdan yuxarı hissəsinin isə 10 %-i miqdarında pensiya fonduna ödəmələr, 0.5 % işsizlikdən sığorta haqqı ödəyəcəkdir. İşəgötürən isə əvvəl işçi üçün əmək haqqı fondundan 22 % sosial sığorta ödəməsi və 0.5 % işsizlikdən sığorta haqqı ödəyirdisə, indi əmək haqqının 200 manatadək olan hissəsinin 22%-i, 200 manatdan yuxarı hissənin 15%-i miqdarında sosial sığorta ödəməsi, 0.5 % işsizlikdən sığorta fonduna ödömələr edəcəkdir ki, bu da əvvəlki dövrə nisbətən xeyli azdır. Xüsusilə özəl sektora aid olan bu güzəştlər qeyri-neft sektorunun əvvəlki dövrlərə nisbətən inkişafına təkan vermişdir.*

Açar sözlər: *əmək münasibətləri, sosial sığorta, qeyri-dövlət sektoru, kollektiv müqavilə, COVID-19.*

Giriş

Bildiyimiz kimi dünya praktikasında və eləcə də, bizim ölkənin praktikasında əmək münasibətlərinin tənzimlənməsi çox mühüm yer tutur. Bütün sahələrdə insan faktoru olduğu üçün və həmin insanlar da əmək münasibətlərinin iştirakçısı olduğu üçün bu sahə prioritet sahə hesab olunur və buna görə də əmək münasibətlərinin tənzimlənməsi ön plana çıxır. Dövlətin apardığı siyasətin əsas məqsədi əhalinin sosial rifah göstəricilərinin yaxşılaşdırılmasından ibarətdir. Məhz buna görə də hər il sosial sahədə mühüm qərarlar qəbul edilir. Təkcə 2019-cu il ərzində 2 mühüm sosial paketin təsdiq edilməsini buna misal göstərə bilərik. Əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində aparılan tədbirlərdən biri əmək münasibətlərində güzəştlərin tətbiq edilməsi ilə bağlıdır. Bu sahədə vergi, əmək və sosial sığorta qanunvericiliyinə əhəmiyyətli dəyişikliklər edilmişdir. Qəbul edilən qərarlar özünü bir sıra mühüm iqtisadi göstəricilərdə əks etdirmişdir. Təbii ki, əmək münasibətləri zamanı güzəştlər daha çox sosial həssas əhali qrupuna şamil edilir və onların yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədini güdür. Lakin 2019-cu ildə qanunvericiliyə edilmiş dəyişikliklərlə qeyri neft-qaz və qeyri-dövlət sektorunda çalışan və 8000 manatadək əmək haqqı alan işçilərin gəlir vergisindən azad edilməsi özəl sektorda çalışan hər bir işçiyə faydası oldu və işçilərin gəlir səviyyəsi nisbətən yüksəlmiş oldu. Eyni zamanda, işəgötürənlər kölgə iqtisadiyyatından çıxmağa və rəsmi əmək münasibətlərinə girməyə təşəbbüs göstərdilər ki, nəticədə işçilərin əmək hüquqlarını müdafiə edə bilmək imkanı yarandı. Rəsmi iş yerində çalışdıqları üçün sosial sığorta hesablarında kapitalları formalaşmış və ya artmış oldu.

Metod

Məqalədə bir neçə metoddan istifadə edilməsi nəzərdə tutulmuşdur. Bunlara ölçmə, müqayisə və sistemli analiz metodlarını aid etmək olar.

Analiz

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 9-cu maddəsinin l bəndində (əmək müqaviləsi üzrə işçinin əsas hüquqları) qeyd olunur ki, hər bir işçi sosial müdafiə üzrə müavinətlərdən, **güzəştlərdən**, sosial sığorta hüququndan istifadə edə bilər. Əmək münasibətlərində güzəştlər haqqında danışarkən vacib bir nüansı qeyd etməyimiz lazım gəlir ki, bu da **ayrıseçkilik** məsələsidir. Əmək Məcəlləsinin 16-cı maddəsinin 1-ci hissəsində qeyd olunur:

ARƏM 16.1: *Əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə* ***imtiyazların*** *və* ***güzəştlərin*** *müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır. (Azərbaycan Respublikası Əmək Məcəlləsi Maddə 16.)*

Yəni maddədə qeyd olunan hallarda əmək münasibətləri zamanı hər hansısa ayrıseçkilik etmək qəti qadağandır. Amma həmin maddənin 2-ci hissəsində isə ayrıseçkilik hesab olunmayan hallar qeyd olunur.

ARƏM 16.2: *Qadınlara, əlillərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətlərində* ***güzəştlərin, imtiyazların və əlavə təminatların*** *müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir. (Azərbaycan Respublikası Əmək Məcəlləsi Maddə 16.)*

Əmək qanunvericiliyinin tələblərinə uyğun olaraq kollektiv müqavilələrdə də sosial həssas kateqoriyadan olan işçilərə əlavə güzəşt və imtiyazların nəzərdə tutulması xüsusilə təkid olunur. Yaşı 18-dən az olan işçilər üçün

eləcə də, qadınlar üçün bir sıra güzəştlər nəzərdə tutulmuşdur. Bura iş saatlarının qısaldılması, məzuniyyətə görə əlavə stajların verilməsi, gecə vaxtı işləməyə qoyulan qadağalar və s. aiddir. Əmək münasibətləri zamanı ən mühüm güzəştlər mexanizmi isə Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuşdur. Vergi Məcəlləsinin "Gəlir vergisindən azadolmalar və güzəştlər" adlı 102-ci maddəsində bir sıra güzəşt mexanizmləri nəzərdə tutulmuşdur. Belə ki, aşağıda qeyd olunan kateqoriyadan olan fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirlərinin azaldılma ardıcıllığı aşağıdakı cədvəldə verilmişdir.(A.R.Vergi Məcəlləsi 102-ci maddə)

Fiziki şəxslərin gəlir vergisi ilə əlaqədar müəyyən olunmuş güzəştlər cədvəli (Cədvəl 1)

Vergi tutulmalı olan məbləğ 400 AZN azaldılır	-Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının; -Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının; -müharibə əlillərinin; -həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin) və övladlarının; -1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin; -qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin; -Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin.
Vergi tutulmalı olan məbləğ 200 AZN azaldılır	I və II qrup əlillərin (müharibə əlillərindən başqa) sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin
Vergi tutulmalı olan məbləğ 100 AZN azaldılır	həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar; 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar; Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər; Daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya I qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum; məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər (Bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil edilmir)
Vergi tutulmalı olan məbləğ 50 AZN azaldılır	Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin

Mənbə: Azərbaycan Respublikası Vergi Məcəlləsi 102-ci maddə.

Bu cədvəldə qeyd olunanlar müəyyən sosial-həssas kateqoriyadan olan əhali qrupunu əhatə edir. İşəgötürən tərəf isə kollektiv müqavilələrlə, daxili prosedur qaydaları ilə tənzimlənməklə işçilərinə digər əmək haqqı güzəştləri müəyyən edə bilər.

İndi isə biz illər üzrə əmək müqaviləsi üzrə çalışan işçilərin qüvvədə olan qanunvericiliyə əsasən, əmək haqqı cədvəllərini müqayisə edəcəyik. Müqayisə üçün son 3 il əsas götürüləcəkdir və müqayisə nümunə üzərində aparılacaqdır. 2017-ci ildə qüvvədə olan qanunvericiliyə əsasən işçinin əmək haqqısından 14 % miqdarında gəlir vergisi və 3 % miqdarında sosial sığorta ödəmələri tutulur. 2017-ci il üçün ölkə üzrə yaşayış minimumu isə 155 azn təşkil etmişdir. Bununla yanaşı hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərin 22 faizi miqdarında sığortaedən tərəfindən işçi sığorta edilir.

2017-ci il üzrə hesablamanın alqoritmi cədvəli (Cədvəl 2)

Hesablamanın alqoritmi: 2017-ci il
Vergiyə cəlb olunan məbləğ = Hesablanan aylıq əmək haqqı - Güzəşt
Ölkə üzrə yaşayış minimumunun 1 misli - 155 manat
Gəlir vergisi: Vergiyə cəlb olunan məbləğ 2500-gədər olduqda: (Vergiyə cəlb olunan məbləğ - 155) * 14%) Vergiyə cəlb olunan məbləğ 2500-yuxarı olduqda: 350 + (Vergiyə cəlb olunan məbləğ - 2500) *25%)
DSMF ayırmaları = Hesablanan aylıq əmək haqqı * 3%

Həmkarlar təşkilatına üzvlük haqqı = Hesablanan aylıq əmək haqqı * x%: **(əgər varsa)**
Yekun ödəniləcək məbləğ = Hesablanan əmək haqqı - Gəlir vergisi - DSMF ayırmaları - Həmkarlar təşkilatına üzvlük haqqı

Mənbə: Mühasib.az internet saytı və müvafiq qanunvericilik aktları

Nümunə olaraq 2017-ci il üçün 500 AZN əmək haqqı (gross əmək haqqı) alan işçinin əmək haqqı cədvəli aşağıdakı kimi olacaqdır.

2017-ci il üzrə əmək haqqı cədvəli (Cədvəl 3)

A.S.A	Hesablanan əmək haqqı	Gəlir vergisi	DSMF ödənişləri	Cəmi tutulmalar	Ödənəcək əmək haqqı
İşçi	500 azn	48.30 azn	15 azn	63.30 azn	436.70 azn

İşəgötürən tərəfindən isə işçinin əmək haqqısının 22 %-i miqdarında sosial sığorta haqqı ödənilir və bu məbləğ (500 azn-in 22 %-i) **110 azn** təşkil edir. Deməli 2017-ci il üçün 500 azn əmək haqqı alan işçidən digər tutulmalar nəzərə alınmamaq şərtilə **63.30 azn** və işəgötürən tərəfindən isə **110 azn** miqdarında ödəmələr həyata keçirilir. İşçinin alacağı net əmək haqqı məbləği isə **436.70 azn** olacaqdır

2018-ci ildə qüvvədə olan qanunvericiliyə əsasən, işçinin əmək haqqısından 14 % miqdarında gəlir vergisi və 3 % miqdarında sosial sığorta ödəmələri tutulur. 2018-ci il üçün ölkə üzrə yaşayış minimumu 173 azn təşkil etmişdir. Əlavə olaraq 1 yanvar 2018-ci il tarixindən qüvvəyə minmiş "İşsizlikdən sığorta haqqında" qanuna əsasən işçinin əmək haqqısından və işəgötürənin işçi üçün ayırdığı əmək haqqı fondundan 0.5 % miqdarında işsizlikdən sığorta haqqı tutulur. Aşağıda 2018-ci il üzrə hesablamanın alqoritmi cədvəli əks olunmuşdur.

2018-ci il üzrə hesablamanın alqoritmi cədvəli (Cədvəl 4)

Hesablamanın alqoritmi: 2018-ci il
Vergiyə cəlb olunan məbləğ = Hesablanan aylıq əmək haqqı - Güzəşt
Ölkə üzrə yaşayış minimumunun 1 misli - 173 manat
Gəlir vergisi:
Vergiyə cəlb olunan məbləğ 2500 manatadək olduqda: (Vergiyə cəlb olunan məbləğ - 173) * 14%) Vergiyə cəlb olunan məbləğ 2500 manatdan çox olduqda: 350 + (Vergiyə cəlb olunan məbləğ - 2500) *25%)
DSMF ayırmaları = Hesablanan aylıq əmək haqqı * 3%
İşsizlikdən sığorta haqqı = Hesablanan aylıq əmək haqqı * 0.5%
Həmkarlar təşkilatına üzvlük haqqı = Hesablanan aylıq əmək haqqı * x%: **(əgər varsa)**
Yekun ödəniləcək məbləğ = Hesablanan əmək haqqı - Gəlir vergisi - DSMF ayırmaları - İşsizlikdən sığorta haqqı - Həmkarlar təşkilatına üzvlük haqqı

Mənbə: Mühasib.az internet saytı və müvafiq qanunvericilik aktları

Nümunə olaraq 2018-ci il üçün 500 AZN əmək haqqı (gross əmək haqqı) alan işçinin əmək haqqı cədvəli aşağıdakı kimi olacaqdır.

2018-ci il üzrə əmək haqqı cədvəli (Cədvəl 5)

A.S.A	Hesablanan əmək haqqı	Gəlir vergisi 14 %	DSMF 3 % pensiya fondu	İşsizlikdən sığorta haqqı 0.5%	Cəmi tutulmalar	Ödənəcək əmək haqqı
İşçi	500 azn	45.78 azn	15 azn	2.50 azn	63.28 azn	436.72 azn

İşəgötürən tərəfindən isə işçinin əmək haqqısının 22 %-i miqdarında sosial sığorta haqqı (500 AZN-in 22%-i) və əmək haqqı fondunun 0.5 %-i (500 AZN-in 0.5 %-i) miqdarında işsizlikdən sığorta haqqı ödənilir ki, bu da ümumilikdə, **112.50 azn** təşkil edir. Deməli 2018-ci il üçün 500 azn əmək haqqı alan işçidən digər tutulmalar nəzərə alınmamaq şərtilə **63.28 azn** və işəgötürən tərəfindən isə **112.50 azn** miqdarında ödəmələr həyata keçirilir. İşçinin alacağı net əmək haqqı məbləği isə **436.72 azn** olacaqdır.

Bildiyimiz kimi 2019-cu il üzrə vergi və sosial sığorta haqqında qanunvericiliyə çoxsaylı və əsaslı dəyişikliklər edilmişdir. Ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, neft asılılığından xilas olub qeyri-neft sektorunun inkişaf etdirilməsi, kölgə iqtisadiyyatından xilas olmaq, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması və ümumilikdə, iqtisadiyyatın şaxələndirilməsi məqsədilə mövcud qanunvericiliyə dəyişikliklər edilmişdir. Belə ki 2019-cu il üzrə əmək haqqından tutulmalar fəaliyyət sahəsindən asılı olaraq fərqli formada hesablanmışdır. Əlavə olaraq 2019-cu il üçün ölkə üzrə yaşayış minimumu 180 azn təşkil etsə də əvvəlki illərdən fərqli olaraq əmək haqqından vergi tutulmalı olan məbləği hesablayan zaman yaşayış minimumunu deyil, 200 azn-i çıxmaq nəzərdə tutulmuşdur. Vergi

ödəyiciləri 2 kateqoriyaya ayrılmışdır: 1) Qeyri neft-qaz və özəl sektor 2) Dövlət və neft-qaz sektoru. İlk öncə qeyri-neft qaz və özəl sektor üçün əmək haqqından tutulmaların alqoritmini qeyd edək. Aşağıda 2019-cu il üzrə qeyri neft-qaz və özəl sektor üçün hesablamanın alqoritmi cədvəli əks olunmuşdur.

2019-cu il üzrə qeyri neft-qaz və özəl sektor üçün hesablamanın alqoritmi cədvəli (Cədvəl 6)

Hesablamanın alqoritmi: 2019-ci il
Qeyri neft-qaz və özəl sektor:
Vergiyə cəlb olunan məbləğ = Hesablanan aylıq əmək haqqı - Güzəşt
Gəlir vergisi:
Vergiyə cəlb olunan məbləğ 8 000 manatadək olduqda: 0 Vergiyə cəlb olunan məbləğ 8 000 manatdan çox olduqda: Vergiyə cəlb olunan məbləğ *14%
DSMF ayırmaları:
Əmək haqqı 200 manatadək olduqda: Hesablanan aylıq əmək haqqı * 3%; Əmək haqqı 200 manatdan çox olduqda: 6 + (Hesablanan aylıq əmək haqqı-200) * 10%;
İşsizlikdən sığorta haqqı = Hesablanan aylıq əmək haqqı * 0.5%;
Həmkarlar təşkilatına üzvlük haqqı = Hesablanan aylıq əmək haqqı * x%; (əgər varsa)
Yekun ödəniləcək məbləğ = Hesablanan əmək haqqı - Gəlir vergisi - DSMF ayırmaları - İşsizlikdən sığorta haqqı - Həmkarlar təşkilatına üzvlük haqqı

Mənbə: Mühasib.az internet saytı və müvafiq qanunvericilik aktları

Nümunə olaraq 2019-cu il üçün 500 AZN əmək haqqı (gross əmək haqqı) alan və neft-qaz sahəsində, dövlət sektorunda çalışmayan işçinin əmək haqqı cədvəli aşağıdakı kimi olacaqdır.

2019-cu il üçün özəl sektorda çalışanlar üçün əmək haqqı cədvəli (Cədvəl 7)

A.S.A	Hesablanan əmək haqqı	Gəlir vergisi 14 %	DSMF ödəmələri	İşsizlikdən sığorta haqqı 0.5%	Cəmi tutulmalar	Ödənəcək əmək haqqı
İşçi	500 azn	0 azn	36 azn	2.50 azn	38.50 azn	461.50 azn

İşəgötürən tərəfindən isə özəl sektor üçün mövcud olan qanunvericiliyə əsasən işçinin əmək haqqısının 200 manatadək olan hissəsinin 22 %-i miqdarında, yəni **44 manat** və 200 manatdan yuxarı hissəsinin 15%- i miqdarında (300 azn-in 15 %-i), yəni **45 manat** vəsait ödəyəcəkdir. Əlavə olaraq işəgötürən tərəfindən işsizlikdən sığorta haqqı (500 AZN-in 0.5 %-i) **2.5 manat** ödəniləcəkdir. Ümumilikdə, işəgötürən tərəfindən sosial sığorta ayırmalarına **91.50 AZN** xərc çəkiləcəkdir.

İndi isə dövlət və neft-qaz sektorunda çalışanların əmək haqqından tutulmaların alqoritmini qeyd edək.

2019-cu il üzrə dövlət və neft-qaz sektoru üçün hesablamanın alqoritmi cədvəli (Cədvəl 8)

Hesablamanın alqoritmi: 2019-ci il
Dövlət və Neft-qaz sektoru:
Vergiyə cəlb olunan məbləğ = Hesablanan aylıq əmək haqqı - Güzəşt;
Gəlir vergisi: Vergiyə cəlb olunan məbləğ 2500 manatadək olduqda: (Vergiyə cəlb olunan məbləğ - 200) * 14%); Vergiyə cəlb olunan məbləğ 2500 manatdan çox olduqda: 350 + (Vergiyə cəlb olunan məbləğ - 2500) *25%);
DSMF ayırmaları = Hesablanan aylıq əmək haqqı * 3%;
İşsizlikdən sığorta haqqı = Hesablanan aylıq əmək haqqı * 0.5%;
Həmkarlar təşkilatına üzvlük haqqı = Hesablanan aylıq əmək haqqı * x%; (əgər varsa)
Yekun ödəniləcək məbləğ = Hesablanan əmək haqqı - Gəlir vergisi - DSMF ayırmaları - İşsizlikdən sığorta haqqı - Həmkarlar təşkilatına üzvlük haqqı

Mənbə: Mühasib.az internet saytı və müvafiq qanunvericilik aktları

Nümunə olaraq 2019-cu il üçün 500 AZN əmək haqqı (gross əmək haqqı) alan, dövlət və neft-qaz sektorunda çalışan işçinin əmək haqqı cədvəli aşağıdakı kimi olacaqdır.

2019-cu il üçün dövlət və neft-qaz sektorunda çalışanlar üçün əmək haqqı cədvəli (Cədvəl 9)

A.S.A	Hesablanan əmək haqqı	Gəlir vergisi 14 %	DSMF ödəmələri	İşsizlikdən sığorta haqqı 0.5%	Cəmi tutulmalar	Ödənəcək əmək haqqı
İşçi	500 azn	42 azn	15 azn	2.50 azn	59.50 azn	440.50 azn

İşəgötürən tərəfindən isə (500 AZN-in 22 %-i miqdarında) **110 AZN** və (500 AZN-in 0.5 %-i miqdarında) **2.5 AZN** məbləğində sığorta ayırmaları və işsizlikdən sığorta haqqı hesablanıb ödənilir. İşəgötürən tərəfindən ödənəcək ümumi məbləğ isə **112.50** AZN təşkil edir. 2019-cu il üzrə hər 2 sektor üzrə işçilərin aldığı əmək haqqılarına diqqət yetirsək görərik ki, 500 AZN əmək haqqı alan və özəl sektorda çalışan işçinin əmək haqqısı eyni miqdarda əmək haqqı alan və dövlət, neft-qaz sektorunda çalışan işçinin əmək haqqısından 21 AZN çoxdur. Əgər nümunə olaraq daha böyük rəqəm götürsəydik, bu zaman fərq daha çox nəzərə çarpacaqdır. Daha bir maraqlı nüans ondan ibarətdir ki, dövlət və neft-qaz sahəsində çalışan işçi dövlət büdcəsinə gəlir vergisi ödəyir. Amma 8000 manatadək əmək haqqı alan və qeyri-dövlət, qeyri-neft-qaz sahəsində çalışan işçi isə gəlir vergisindən azaddır. Əvəzində sosial-sığorta xərcləri artsa da, nəticədə, ödədiyi məbləğ işçinin sosial sığorta hesabına ödənilmiş olur və gələcəkdə öz sosial sığorta hesabındakı kapitalı artırmış olur. Bu da özəl sektorun inkişaf etdirilməsi və iqtisadiyyatın diversifikasiyası üçün çox mühüm addımdır.

Əlavə olaraq 2020-ci ildən "İcbari tibbi sığorta haqqında qanun"un qüvvəyə minəcəyini nəzərə alaraq 2020-ci il üçün yenidən fəaliyyət sektorları nəzərə alınaraq icbari tibbi sığorta haqqı tutulacaqdır. Belə ki, neft-qaz sahəsində fəaliyyət göstərməyən və qeyri-dövlət sektoruna aid edilən müəssisələrdə çalışanların əmək haqları 8000 manatadək olduqda, həm işçi, həm işəgötürən tərəfindən əmək haqqının 1 %-i miqdarında, 8000 manatdan yuxarı hissəsində isə 0.5 % miqdarında icbari tibbi sığorta haqqı ödəniləcəkdir. Amma neft-qaz və dövlət sektorunda fəaliyyət göstərən müəssisələrdə isə çalışanların əmək haqları 8000 manatadək olduqda, həm işçi, həm işəgötürən tərəfindən əmək haqqının 2 %-i miqdarında, 8000 manatdan yuxarı hissəsində isə 0.5 % miqdarında tətbiq edilməklə icbari tibbi sığorta haqqı ödəniləcəkdir. Beləliklə, 2020-ci il üzrə icbari tibbi sığorta haqqları üzrə əmək haqqından tutulmalarda neft-qaz və dövlət sektorunda çalışan 500 AZN əmək haqqı alan işçidən və işəgötürəndən hər birindən **10 azn** məbləğində icbari tibbi sığorta haqqı tutulacaqdır. Lakin qeyri neft-qaz və qeyri-dövlət sektorunda çalışan 500 AZN əmək haqqı alan işçidən və işəgötürəndən hər birindən **5 AZN** məbləğində icbari tibbi sığorta haqqı tutulacaqdır. 2019-cu ilin müvafiq göstəriciləri ilə müqayisədə 2020-ci il üçün işçilərin alacağı net əmək haqqı məbləğində cüzi azalma müşahidə olunacaqdır. Ancaq məsələyə başqa bucaq altından baxası olsaq işçilərin sağlamlığı üçün çox düzgün bir addım olduğunu görə bilərik. Lakin qlobal problemə çevrilmiş yeni koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar olaraq icbari tibbi sığorta ilə əlaqədar məcburi tutulmaların 2021-ci iləndək təxirə salınması da gündəmdə olan məsələlərdəndir.

2017-ci il və 2018-ci il əmək haqqından tutulmalarda elə də ciddi bir fərq olmadığı üçün biz 2018, 2019 və 2020-ci illər üçün qeyri neft-qaz və qeyri-dövlət sektorunda çalışan, 500 AZN əmək haqqı alan bir işçinin əmək haqqından tutulmaları müqayisə üçün bir cədvəldə qeyd edəcəyik.

Əmək haqqı tutulmalarının illər üzrə müqayisəli cədvəli (Cədvəl 10)

CƏDVƏL	**2018-ci il**	**2019-cu il**	**2020-ci il**
Əmək haqqı məbləği	**500 AZN**	**500 AZN**	**500 AZN**
Gəlir vergisi (işçi tərəfindən)	45.78	0	0
Pensiya fondu (işçi tərəfindən)	15	36	36
Pensiya fondu (işəgötürən tərəfindən)	110	89	89
Işsizlikdən sığorta haqqı (işçi tərəfindən)	2.5	2.5	2.5
Işsizlikdən sığorta haqqı (işəgötürən tərəfindən)	2.5	2.5	2.5
İcbari tibbi sığorta haqqı (işçi tərəfindən)	0	0	5
İcbari tibbi sığorta haqqı (işəgötürən tərəfindən)	0	0	5
İşçinin aldığı net əmək haqqı	436.72 AZN	461.5 AZN	456.5 AZN

2019-cu ilin ötən dövrü ərzində "Əmək müqavilələri bildirişi üzrə Elektron İnformasiya Sistemi"nin məlumatına əsasən əmək müqavilələrinin sayı 150 min artıb. Artan əmək müqavilələrinin 2/3-si özəl sektorun payına düşür. Bu göstəriciyə görə bir çox məsələləri qeyd etmək olar. Belə ki, qeyd olunan sayda əmək müqavilələrinin artması həmin sayda iş yerinin kölgədən çıxdığının və yeni iş yerlərinin yarandığının göstəricisidir. İşçilərin rəsmi qeydiyyata alınması nəticəsində həm sosial sığorta ödəmələri, həm işsizlikdən sığorta ödəmələri əhəmiyyətli dərəcədə artmışdır ki, bu da gələcəkdə vətəndaşların pensiya təminatı məsələlərinə çox ciddi şəkildə müsbət təsir edəcəkdir. Eyni zamanda, vətəndaşlar öz əmək hüquqlarını müdafiə edə biləcəklər. Məzuniyyət hüquqlarından düzgün şəkildə istifadə edə biləcəklər. Əmək qabiliyyətini müvəqqəti itirdiyi dövrlərdə əmək qabiliyyətinin olmamasına görə müavinət əldə edə biləcəklər. Sosial sığorta sistemində qeydiyyata düşəcəklər və ya öz mövcud kapitallarını artıracaqlar ki, bu da gələcəkdə sosial təminat məsələlərini həll edəcəkdir.

Nəticə

Bütün qeyd olunan məsələlər dövlətin apardığı uğurlu sosial və iqtisadi siyasət sayəsində mümkün oldu. Vergi və sosial sığorta qanunvericiliyinə edilən əhəmiyyətli dəyişikliklər, vergi güzəştlərinin tətbiq edilməsi, sosial sığorta yükünün işçi və işəgötürən arasında balanslaşdırılmış şəkildə tətbiq edilməsi həm işəgötürənlər üçün, həm də işçilər üçün faydalı oldu. Gəlir vergisinin ləğv olunması dövlət büdcəsinə daxilolmalarda azalmaya gətirib çıxartsa da, son nəticədə, aparılan vergi islahatları nəticəsində ümumi sahibkarlıq inkişaf etmiş oldu və 2019-cu il

ABŞ senatının subsidiyaların verilməsi ilə bağlı iki mühüm sənədə etdiyi düzəlişə əsasən Birləşmiş Ştatlar taxıl istehsalçılarına ayrılan subsidiyaların strateji olmasını, təbii fəlakətlər, o cümlədən daşqın və quraqlıq nəticəsində fermerlərə dəymiş ziyanın tam ödənilməsini və fermerləri müdafiə etmək üçün sığorta proqramlarının həyata keçirilməsini nəzərə almışdır. Ümumilikdə, götürsək subsidiyaların həyata keçirilməsində başlıca məqsəd istehsal edilən məhsulların daha ucuz başa gələn analoji malların idxal-rəqabətindən qorumaqdır. Məsələn, bunu ABŞ-ın nümunəsində götürək. ABŞ-da pambığın bir kiloqramı 1 dollar 46 sentə başa gəldiyi halda, bu Afrikada 42 sentə başa gəlir. Buna görə də konqres amerikalı fermerləri subsidiyalar vasitəsilə müdafiə edir. ABŞ və Avropa Birliyi ölkələri fermerlərini daha çox müdafiə edən ölkələrdəndir. Həmin ölkələrdə demək olar ki, fermerlərin xərclərinin böyük bir qismi dövlət tərəfindən qarşılanır. Müqayisə aparsaq görərik ki, istər ABŞ, istərsə də Avropa Birliyi ölkələrində subsidiyaların həyata keçirilməsi zamanı daha çox strateji əhəmiyyət daşıyan sahələrə vəsaitlər ayrılır (Farai Chigavazira, 2016).

Ölkəmizdə də aqrar bölməyə, xüsusilə də, fermer təsərrüfatları üçün ayrılan vəsaitlərin strateji əhəmiyyət daşıyan sahələrə yatırılmasına diqqətin artırılması sahəsində lazımi tədbirlər həyata keçirilir. Ölkəmizdə kənd təsərrüfatında subsidiyalar əsasən aşağıdakı sahələr üzrə verilir.

• şəkər çuğunduru istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiyanın verilməsi; pambıq və tütün istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiyaların verilməsi;

• əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkinlərinə görə subsidiyaların verilməsi;

• süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiya verilməsi (Alıyev və Məmmədova, 2007).

Bildiyimiz kimi kənd təsərrüfatı məhsullarının istehsalı iqlim şəraitindən yüksək dərəcədə asılıdır və bu sahədə kapitalın dövretmə sürəti aşağıdır. Bu da kənd təsərrüfatı məhsulları istehsalçılarının öz vəsaitləri hesabına investisiya qoymaq, eləcə də, maliyyə bazarlarından müvafiq vəsaitlər təmin etmək imkanlarını məhdudlaşdırır. Bu səbəbdən aqrar bölmənin maliyyə təminatının yaxşılaşdırılmasında dövlətin rolu artır. 2008-2018-ci illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı məhsullarının istehsal və emal edilməsi üçün ayrılan güzəştli kreditlərin həcmi 18 dəfədən çox artmşdır. 2006-cı ildən etibarən isə Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə edilməsi üzrə Dövlət Xidməti tərəfindən də bu sahəyə güzəştli kreditlərin ayrılması aqrar bölmədə məhsul istehsalının artırılmasına təsir etmişdir.

Kənd təsərrüfatının maliyyə təminatında vergi və gömrük güzəştlərinin də rolu böyükdür. Bu güzəştlərin edilməsi aqrar bölmənin məhsul istehsalçılarını, sahibkarların fəaliyyətini stimullaşdıran əsas tədbirlərdən biridir. (Qarayev, Əhmədov və Əlirzayev 2010).

Ötən illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə verilmiş kreditlərin ümumi həcminin artımı, əsasən, büdcə vəsaiti ilə təmin edilən güzəştli kreditlər hesabınadır. İllər üzrə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması bu kreditlərin lazımi məqsədlər üçün istifadə edildiyini göstərir. Müasir dövrdə kənd təsərrüfatının maliyyələşməsində bu sahəyə yatırılan investisiyaların da rolu böyükdür. Bu investisiyaların əksər hissəsi fermer təsərrüfatlarının yaradılmasına yönləndirilmişdir.

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il oktyabrın 23-də imzaladığı sərəncamla yaradılıb. 2009-cı ilin 21 iyul tarixində isə "Aqrolizinq" ASC Kənd Təsərrüfatının tabeliyinə verilib. 2006-cı ilin 8 iyul tarixindən "Aqrolizinq" ASC-nin Azərbaycan Respublikasının 61 rayonunda təsərrüfat hesablı Aqroservis filialları fəaliyyətə başlayıb. Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslərə, eləcə də, fermerlərə göstərilən aqroservis xidmətlərinin fəaliyyət dairəsinin genişlənməsində ölkənin Bakı, Gəncə, Şirvan, Ucar, Xaçmaz şəhərlərindəki təchizat bölmələrinin böyük əhəmiyyəti vardır. Hal-hazırda həmin bazalar "Aqrolizinq" ASC tərəfindən respublikaya gətirilən traktorların, kombaynların, ekskovatorların və s. kənd təsərrüfatı texnikalarının yerləşdirilməsini, komplektləşdirilməsini, satış qabağı hazırlığın aparılmasını və satışını həyata keçirir.

Ümumilikdə, "Aqrolizinq" ASC-nin yaradılması zamanı onun fəaliyyət göstərməsindəki əsas məqsəd respublika daxilində kənd təsərrüfatı texnikası çatışmazlığının aradan qaldırılması, fermerlərə güzəştli şərtlərlə bu cür texnika və avadanlıqların verilməsi idi. Sonradan onun funksiyaları və fəaliyyət dairəsi genişləndirilmişdir. Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunmuş qaydalara əsasən, "Aqrolizinq" ASC dövlət büdcəsi hesabına aldığı kənd təsərrüfatı texnikası və avadanlıqlarını fiziki və hüquqi şəxslərin bu avadanlıqların dəyərinin 20%-nin ilkin ödənilməsi və qalan dəyərinin 10 il müddətinə ödənilməsi şərti ilə lizinqə verməlidir. Cəmiyyət, eyni zamanda, damazlıq mal-qaranı, gübrəni, məhsuldar toxum sortlarını da alaraq fermerlərə güzəştli şərtlərlə satmalıdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 273 nömrəli Qərarı ilə təsdiq edilmiş qaydalara əsasən, "Aqrolizinq" ASC-dən özüyeriyən, asılan və qoşulan kənd təsərrüfatı texnikasının ilkin dəyərinin 20%-i ödənildikdə həmin texnikanın qalıq dəyəri həcmində, lakin onların ilkin dəyərinin 40%-dən yuxarı olmamaq şərti ilə güzəşt verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 04 avqust tarixli 273 nömrəli Qərarı ilə təsdiq edilmiş qaydalara əsasən 2015-ci ilin may ayının 1-dən etibarən "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən lizinqə götürülən və lizinq yolu ilə satın alınan suvarma sistemləri dəstinə və avadanlığına da onların ilkin dəyərinin ən azı 20 faizi ödənildiyi təqdirdə dövlət büdcəsinin vəsaiti hesabına ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir.

Kənd təsərrüfatı texnikasına ilkin dəyərinin 40%-i həcmində güzəşt tətbiq edilməsi kənd təsərrüfatında istehsal edilən məhsulların qiymətinə də öz müsbət təsirini göstərmişdir. Bu da aqrar sferanın rəqabət qabiliyyətliliyinin artmasına, dayanıqlı inkişafına səbəb olmuşdur.

Son 10 ildə "Aqrolizinq" ASC tərəfindən 23500-dən artıq kənd təsərrüfatı texnikası alınaraq aqrar bölmədə fəaliyyət göstərən 10000-dən artıq fiziki və hüquqi şəxsə lizinq yolu ilə satılmışdır.

Ümumilikdə, "Aqrolizinq" ASC aqrar sferanın, fermer təsərrüfatlarının müasir istehsal vasitələri ilə təminatında öz rolunu aşağıdakılarda ifadə etmişdir:

- mənəvi və fiziki cəhətdən köhnəlmiş bir çox əsas vəsaitlər sürətlə təzələnir;
- məhsul istehsalçılarının maliyyə vəziyyətini daha da yaxşılaşdırır;
- strateji planda lizinq sadəcə olaraq xammalyönümlü və tənəzzülə uğramış iqtisadiyyatdan çıxmaq üçün zəruridir;
- bu həm də sahibkarlığın fəallaşdırılması hesabına büdcəyə vergi daxilolmalarını da artırır;
- istehsal sferasına investisiya qoyuluşunu fəallaşdırır;
- kiçik biznesin, eləcə də, orta biznesin rəqabət qabiliyyətlilik səviyyəsini daha da yüksəldir;
- digər tərəfdən satış bazarında rəqabət qabiliyyətli məhsulların istehsalı üçün yeni maşın və mexanizmlərin, texnologiyaların əldə edilməsinə və fermerlərin bu texnologiyalardan maksimum faydalanmasına imkan verir;

• həmçinin, yeni iş yerlərinin yaradılmasını təmin edir, məhsulun itkisiz yığılması, daşınması və saxlanılmasına lazımi şəraiti yaradır.

Kənd təsərrüfatı məhsullarının istehsalında əsas yer tutan amillərdən biri də aqroservis müəssisələridir. Eyni zamanda, kənd təsərrüfatında və ərzaq məhsullarında əsas dəyər yaradan xidmətlərdən biri də aqroservis xidmətləridir. Odur ki, müasir kənd təsərrüfatını aqroservis müəssisələri və aqroservis xidmətləri olmadan təsəvvür etmək mümkün deyil. Hazırda ölkəmizin iqtisadiyyatının aqrar sferasında mülkiyyət formasına, göstərdiyi xidmət növlərinə görə müxtəlif formalı aqroservis müəssisələri fəaliyyət göstərir. Bu müəssisələri əhatə edən, birləşdirən vahid məqsəd kənd təsərrüfatı məhsulları istehsalçılarına vaxtında və lazım olan xidmətləri göstərməkdir. Aqroservis müəssisələri üçün texnika parkının saz vəziyyətdə saxlanılması, nasaz texnikaların təmiri və mövsümə hazırlanması, habelə texnikanın işlək vəziyyətdə saxlanılması üçün vacib olan texniki qulluq göstərilməsi mühüm rol oynayır. Digər bir tərəfdən parkın mütəmadi olaraq yeniləndirilməsi aqroservis müəssisələri tərəfindən müasir aqroservis xidmətlərinin göstərilməsində əsaslı yerə sahibdir. Aqroservis müəssisələri Azərbaycan Respublikasının 2005-ci il 31 mart tarixli 58 nömrəli Qərarına görə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən kənd təsərrüfatı texnikasını və texnoloji avadanlıqları, həmçinin, suvarma sistemlərini və avadanlıqlarını lizinq yolu ilə ala bilərlər.

Ölkəmizdə həyata keçirilən aqrar islahatlar aqroservis xidməti bazarına da təsir göstərmişdir. Kənd təsərrüfatı istehsalındakı struktur dəyişikliyi nəticəsində aqrotexniki xidmətlərə yaranan tələbat aqroservis xidmətlərinin inkişafında mühüm əhəmiyyətə malikdir. Aqroservis xidmətləri daim dövlətin diqqət mərkəzində saxlanılmışdır. Belə ki, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda özəl aqroservis xidməti şəbəkəsinin genişləndirilməsi və dövlət tərəfindən dəstəklənməsi tədbirləri yer almışdır.

Kənd təsərrüfatında özəl aqroservis xidmətləri ilə yanaşı "Aqrolizinq" ASC-nin Regional nümayəndəliklərinin tərkibində olan Rayon bölmələri tərəfindən də kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif aqrotexniki xidmətlər göstərilir.

Nəticə

Aqrar sektorun dünya standartlarına cavab verəcək şəkildə inkişaf etdirilməsi, yüksək rəqabət qabiliyyətinə malik olan kənd təsərrüfatı məhsullarının istehsal olunması həm qeyri-neft sənaye sahələrinin kənd təsərrüfatı xammalına olan tələbatlarının ödənilməsinə, həm dünya bazarına bu məhsulların çıxarılmasına və ən əsası da əhalinin keyfiyyətli, ekoloji cəhətdən təmiz qida məhsullarına olan tələbatının ödənilməsinə şərait yaradır.

İntensivləşdirmənin ən əsas amili kimi elmi-texniki tərəqqinin nailiyyətləri kənd təsərrüfatına, eləcə də, fermer təsərrüfatlarının fəaliyyətinə tətbiq edilməsi kənd təsərrüfatı məhsullarının yüksək keyfiyyət və aşağı qiymətlə istehsalına zəmin yaratmaqla bərabər, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə, həmçinin, qeyri-neft sənayesində də yüksək rəqabət qabiliyyətli məhsul istehsalına şərait yaradacaqdır.

Kənd təsərrüfatına ayrılan kapital və investisiyalar həm elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiq edilməsinə, həm kənd təsərrüfatının maddi-texniki təminatının gücləndirilməsinə, eyni zamanda, kənd təsərrüfatında istehsal proseslərinin mexanikləşdirilməsinin gücləndirilməsinə imkan yaradacaqdır.

Kənd təsərrüfatında sığorta sisteminin təkmilləşdirilməsi, dövlət tərəfindən fermerlərin, sahibkarların fəaliyyətinin stimullaşdırılması tədbirlərinin çoxaldılması zəruridir.

Kənd təsərrüfatına xarici investisiyanın cəlb edilməsi üçün sağlam rəqabət mühiti yaradılması, bu investisiyanın qorunması tədbirləri sahibkarlıq fəaliyyətində vacib mövqeni əhatə edir.

Aqrar sektorda çalışan işçilərin müvafiq istehsal sahələri üzrə lazımi məlumatlarla təlimatlandırılması, bu sahəyə ixtisaslı kadrların cəlb edilməsinin təmini məqsədəuyğundur.

Ədəbiyyat

1. "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (27 noyabr 2001-ci il)
2. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf konsepsiyası. Bakı, 2012
3. "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, (23 yanvar 2007-ci il)
4. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (24 fevral 2014-cu il);
5. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər);
6. Qarayev İ.Ş, Əhmədov M.A, Əlirzayev Ə.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi, Bakı, 2010.
7. Alıyev İ.H., Məmmədova Ş.Ə. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı, 2007.
8. İbrahimov İ.H. Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı: Təhsil EİM, 2002
9. Alıyev İ. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi, Bakı 2003
10. İbrahimov İ.H. Aqrar iqtisadiyyatın əsasları. Bakı: Səda, 2003
11. Cavadov N.Ə. "Aqrar sahədə struktur dəyişikliklər" Bakı, 2009

12. İbrahimov İ.H. “Aqrar sahənin iqtisadiyyatı”, Bakı,2016
13. Farai Chigavazira, “The Regulation of Agricultural Subsidies in the World Trade Organization
14. Framework (A developing country perspective)” Hamburg, 2016.

SAHİBKARLIQ FƏALİYYƏTİNİN SOSİAL-İQTİSADİ TƏDQİQAT OBYEKTİ KİMİ ROLU

Nərmin Allahverənova
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi
Magistrant
E-mail: nermin.allahverenova@mail.ru

Xülasə: *Sahibkar qanunla qadağan edilməyən hər hansı bir iqtisadi fəaliyyət növü (maddi mal istehsalı, kommersiya vasitəçiliyi, qiymətli kağızlarla əməliyyatlar və s.) həyata keçirən fərdi və ya hüquqi şəxsdir. Sahibkarın əsas xüsusiyyətləri kimi aşağıdakıları ayırmaq olar: imkanlar və təşəbbüslər axtarmaq; risk iştahı; səmərəliliyə və keyfiyyətə diqqət yetirmək; məqsədyönlülük; məlumatlı olmaq istəyi; sistematik planlaşdırma və müşahidə; inandırmaq və işgüzar və şəxsi əlaqələr qurmaq bacarığı; müstəqillik və özünə inam və s. Sahibkarlıq aşağıdakı fərqli xüsusiyyətlərə malik olan xüsusi fəaliyyət növüdür: iş istiqamətləri və metodlarını seçmək azadlığı; qərar qəbul etmənin müstəqilliyi; qəbul edilmiş qərarlar və onların nəticələri, əlaqəli risk üçün məsuliyyət və s. bura aid edilə bilər.*

Açar sözlər: *sahibkarlıq, sosial-iqtisadi fenomen, sosial mühit, bazar iqtisadiyyatı, obyekt.*

Giriş

Sahibkarlıq subyektləri fərdi şəxslər, fiziki şəxslər qrupları (səhmdar cəmiyyətləri, kooperativlər, ortaqlıqlar və s.) və dövlət ola bilər. Sahibkarlıq obyektləri istehsal, vasitəçilik əməliyyatları, o cümlədən, qiymətli kağızlarla əməliyyatlarla əlaqəli müxtəlif iqtisadi fəaliyyət növləri ola bilər.

Sahibkarlıq fenomeninin sosioloji tədqiqat obyekti kimi ən tam açıqlanması "davranış" və "fəaliyyət" kateqoriyalarından istifadə etməklə mümkündür. Sahibkar davranış, sahibkarın istifadə etdiyi iqtisadi alternativ seçim prinsiplərini əks etdirən, şüurlu, sosial və şəxsən əhəmiyyətli hərəkətlərinin məcmusudur. Bir sahibkarın fərdi hərəkətləri çox müxtəlif ola bilər, lakin bunlar xarici sosial mühit tərəfindən fərqlənən xüsusi bir özəlliklə birləşir, fərqlənir və həm sahibkarlıq davranışının, həm də təsərrüfat subyektinin özü üçün xarakterik hala gəlir.

Mürəkkəb sosial-iqtisadi fenomen kimi sahibkarlıq öz formalaşması və təkamülündə uzun bir yol keçmişdir. Sahibkarlıq nəzəriyyəsi əvvəlcə kapitalist münasibətlərinin digər Avropa ölkələrinə nisbətən daha erkən formalaşmağa başladığı İngiltərədə deyil, İngiltərədən daha sonra kapitalist inkişaf yoluna girmiş Fransa və Almaniyada meydana gəlmişdir. Hesab olunur ki, sahibkarlıq nəzəriyyəsinin mənşəyində: məşhur ingilis iqtisadçısı, bankir R. Kantillon (1680-1734) və fransız iqtisadçısı J.B. Sey (1760-1832) dayanır. Bir qayda olaraq, "sahibkarlıq" anlayışının elmi dövriyyəyə gətirilməsində prioritet R. Kantillon-dur. Kantillon mənfəət və sahibkarlıq gəlirləri arasındakı fərq, dövriyyədəki pul miqdarı ilə mal kütləsi arasındakı əlaqə və s. kimi bir sıra müddəaları formalaşdırmışdır.

Sahibkarlıq nəzəriyyəsi əsrin dörddə bir hissəsindən çox müddətdə Qərbdə inkişaf etmiş tədqiqat sahəsi olmuşdur. 1996-cı ildən bəri isə bu sahədə dünya mükafatı mövcuddur. Burada laureatlar - ABŞ, Böyük Britaniya, İtaliya, İsveç və bir sıra digər ölkələrdən bu sahədə ən çox istinad edilən elm adamları olmuşdur.

Sahibkarlıq fərdi və ya kollektiv təsərrüfat subyektlərinin maddi və mənəvi malların istehsalı, paylanması, mübadiləsi və istehlakı sahələrində təşəbbüs fəaliyyətləri nəticəsində yaranan sosial münasibətlərin təzahür formasıdır. Bu, bir qayda olaraq, mənfəət (gəlir) əldə etmək məqsədi daşıyır və sahibkarın adına, riski altında və əmlak öhdəliyi altında həyata keçirilir. Sahibkarlıq fenomeninin tanınmış tədqiqatçıları (J. S. Mill, A. Marshall, J. Schumpeter, J. B. Say və başqaları) hesab edirdilər ki, bu fenomenin spesifikliyi, iqtisadi fəaliyyətdən fərqli olaraq yeni istehsal amillərinin birləşməsindən ibarətdir (*Шумпетер Й. А.* Теория экономического развития / пер. В. С. Автономова. М. : Директ медиа Паблишинг, 2008.). Bundan əlavə, J. Schumpeter'in fikrincə, "yeni birləşmələr, bir qayda olaraq, köhnələrdən yaranmır və birbaşa yerlərini tutmur, ancaq yan-yana görünür və onlarla rəqabət aparır".

Ümumiyyətlə, 20-ci əsrdə Qərbi Avropa və Şimali Amerika tədqiqatçıları sahibkarlıq fenomenini anlamaq baxımından çox irəliləyişlər əldə etmişdir. Bu dövrdə sahibkarın şəxsiyyətini, fərqli cəhətlərini və davranış xüsusiyyətlərini öyrənməyə başlayan tədqiqatçılar tədricən təhlil dairəsini genişləndirmişlər. Bu gün bu araşdırma populyarlıq qazanan insan inkişafı konsepsiyasına uyğun olaraq aparılır, fəlsəfi, sosial, iqtisadi, və institusional inkişaf nəzəriyyələrini özündə birləşdirir. Bu baxımdan, professor P. Reynolds (1991) ictimai elmlərdə sahibkarlığın öyrənilməsinin əsas hissə olması çərçivəsind dörd əsas istiqaməti müəyyənləşdirmişdir. Bu, həyat yolunun mərhələsi ilə əlaqəli xüsusi problemlərin araşdırılması; sosial şəbəkələrin sahibkarlara resurslara çıxış, təcrübə, gizli biliklərin dövriyyəsi və nüfuz və etimadın təmin edilməsində rolunun təhlili; böyük şəhərlərdə

(əslində sosial şəbəkənin müəyyən bir forması) etnik azlıqlar əsasında yaranan "qapalı" icmalarda sahibkarlığın uğuru amili kimi etnik mənsubiyyətin öyrənilməsi; əhali ekologiyası çərçivəsində aparılan tədqiqatlar, yəni sahibkarlıq firmalarının populyasiyalarında (çoxluqlarda) "təbii seleksiya" nın necə və niyə baş verdiyi, niyə bəzilərinin sağ qalması və inkişaf etməsi, digərlərində çürümə baş verməsi təhlilidir.

Kiçik sahibkarlığın formalaşması üçün müəyyən iqtisadi, sosial, hüquqi və digər şərtlər gərəklidir. Burada iqtisadi şərtlər dedikdə:

1. malların tədarükü və onlara tələbat;
2. müştərilərin ala biləcəyi mal növləri;
3. alış-verişə xərclənə biləcək pulun miqdarı;
4. işçilərin əmək haqqının səviyyəsinə təsir edən iş yerlərinin çoxluğu və ya çatışmazlığı (yəni mal almaq qabiliyyətinə görə) nəzərdə tutulur.

İqtisadi vəziyyətə pul vəsaitlərinin mövcudluğu və əlçatanlığı, qoyulmuş kapital üzrə gəlir səviyyəsi, biznes əməliyyatlarını maliyyələşdirmək üçün sahibkarlara kredit təşkilatlarının verməyə hazır olduqları borc vəsaitlərinin miqdarı təsir göstərir. Bütün bunlar bazar infrastrukturunu təşkil edən, sahibkarlarla işgüzar münasibətlər qura bilən və biznes əməliyyatları aparan bir çox təşkilatlar tərəfindən həyata keçirilir.

Bu təşkilatlara aşağıdakılar daxildir:

1. maliyyə xidmətləri göstərən banklar;
2. xammal, materiallar, yarımfabrikatlar, komponentlər, enerji, maşın və avadanlıqlar, alətlər və s. tədarükü təşkil edən tədarükçülər;
3. malların istehlakçıya çatdırılması üçün xidmətlər göstərən topdansatış və pərakəndə satış xidmətləri;
4. peşəkar hüquqi, mühasibat və vasitəçi xidmətlər göstərən ixtisaslaşdırılmış firma və təşkilatlar;
5. əməyin seçimi ilə məşğul olan məşğulluq agentlikləri;
6. mütəxəssis işçilər hazırlayan təhsil müəssisələri;
7. digər qurumlar (reklam, nəqliyyat, sığorta və s.);
8. rabitə və məlumat ötürmə vasitələri.

Kiçik müəssisələrin formalaşması üçün sosial şərtlər iqtisadi olanlarla sıx bağlıdır. Əvvəla, bu - müştərilərin müəyyən zövqlərə və dəblərə cavab verən məhsullar almaq istəyidir. Eləcə də, müxtəlif mərhələlərdə ehtiyaclar fərqli ola bilər. Ehtiyacların formalaşmasında mühüm rol isə sosial-mədəni mühitdən asılı olaraq mənəvi və dini normalar tərəfindən yerinə yetirilir. Bu da istehlakçıların həyat tərzinə və dolayı yolla mallara olan tələblərinə birbaşa təsir göstərir. Sosial şərtlər insanın işə münasibətinə, əmək haqqı və iş şəraiti miqdarına münasibətinə təsir göstərir.

Metod

Tədqiqatın obyekti müasir iqtisadiyyatdır, tədqiqat predmeti sahibkarlıq fəaliyyətidir.

Tədqiqat ümumi elmi və xüsusi metodlar (müqayisə, bənzətmə, rəsmiləşdirmə, struktur təhlili, ekspert qiymətləndirmə metodu, amil analizi metodu, institusional analiz metodu, habelə peşə xəsarətlərinin və peşə xəstəliklərinin səbəblərinin təhlili) əsasında aparılmışdır.

Analiz

Bəzi iqtisadçılar "sahibkarlıq fəaliyyəti" və "sahibkar" terminlərini müxtəlif aspektlərdən şərh edirlər.

1. Riçard Kantilyon: sahibkar - risk şəraitində fəaliyyət göstərən insandır;
2. Bodo: sahibkar - müəssisədə istehsalı təşkil edən, onu planlaşdıran, nəzarət edən və bunun üçün məsuliyyət daşıyan şəxsdir;
3. Frensis Uoker: sahibkar dedikdə - öz təşkilatçılıq qabiliyyəti ilə mənfəət və faiz əldə edən şəxs nəzərdə tutulur və s.

Qərb nəzəriyyələrini yerli iş təcrübəsində tətbiq etməyin mürəkkəbliyi sosial-mədəni kontekstdə müəyyən edilir. Postsovet məkanında rəsmi sahibkarlıq tarixinin 1985-ci ildə başladığı hesab olunur. SSRİ ideologiyası sahibkarlığı sosialist bir cəmiyyət üçün düşmən hadisəsi olaraq görmüş və ləğv edilməyə başlamışdır. Bu gün isə qəbul olunur ki, SSRİ-də rəsmi və qeyri-rəsmi sahibkarlıq mövcud olmuşdur. Eyni zamanda, "sahibkarlıq" termini sosialist doktrinasına ideoloji zidd olduğu üçün istifadə edilməmişdir. Rəsmi sahibkarlıq "Sovet vətəndaşlarının iqtisadi təşəbbüsü" adlanırdı və cəmiyyətə fayda gətirən kollektiv fəaliyyət idi. Qeyri-rəsmi sahibkarlıq fəaliyyəti böyük sosial-iqtisadi problemləri həll etməyən və buna görə dövlət dəstəyi və ictimai rəğbət almamış vətəndaşlar tərəfindən həyata keçirilmişdir.

İnkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə sahibkarlıq müəssisələri vasitəsi ilə yenilikləri dəstəkləmək üçün xüsusi proqramlar hazırlanmışdır. Bu proqramlar çərçivəsində istiqamətlər, ölçülər və maliyyələşmə mənbələri müəyyənləşdirilir.

İnkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrin xarici təcrübəsi göstərir ki, sahibkarlıq milli iqtisadiyyatda ən vacib funksiyaları yerinə yetirir.

Ötən əsrin 70-ci illərində belə bir formula məşhur olmuşdur - "Kiçik gözəldir!".

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına görə, dünya iqtisadiyyatında kiçik müəssisələrin sayı bütün müəssisələrin ümumi sayının 95% -dən çoxdur. İşləyənlərin 60% -dən çoxu ÜDM-də payı 50% -ə çatır. Bunlar dünya üzrə orta göstəricilərdir.

Ayrı-ayrı ölkələrdə isə - məsələn, Yaponiyada kiçik və orta sahibkarlığın payı şirkətlərin ümumi sayının 99,6% -ni, ÜDM-in 55% -ni və sənayedə işləyənlərin 80% -ni təşkil edir (studbooksnet - Анализ развития предпринимательской деятельности в Европе и Азии).

ABŞ-da ÜDM-in 50% -dən çoxu, yeniliklərin yarısından çoxu, milli işçi qüvvəsinin 2/3-dən çoxu kiçik biznesə aiddir.

Azərbaycanda isə kiçik sahibkarlığın iqtisadiyyatın sektorları üzrə yeri ticarətdə 64,6%, nəqliyyatda 10,69%, mehmanxana və restoran xidmətində 6,5%, sənayedə 2,23%, aqrar sahədə 1,91%, tikintidə 0,74%, digər sahələrdə isə 13,33% təşkil edir.

Cədvəl 1-dən göründüyü kimi Azərbaycanda sahibkarlıq subyektlərinin ümumi sayı 2018-ci ildə 244883 olmuşdur. Bu göstəriciyə əsasən demək olar ki, 2017-ci illə müqayisədə 75280 ədəd artma baş vermişdir. Mikro sahibkarlıq subyektlərinin sayı 2018-ci ildə 237815, kiçik sahibkarlıq subyektlərinin sayı isə 4930 olmuşdur. Cədvəl 2-də isə yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı göstərilmişdir. Belə ki, burada göstərilmiş məlumatlara əsasən demək olar ki, yeni yaradılmış sahibkarlıq subyektlərinin ümumi sayı 2018-ci ildə 83346 olmuşdur. Bunlardan 11958-i hüquqi şəxslər, 71388-i isə fərdi sahibkarların payına düşür.

Ölkəmiz üçün kiçik biznesin inkişafı ən vacib vəzifələrdən biridir. Kiçik biznes işsizliyin azaldılmasına, bazarı yerli mal və xidmətlər ilə doldurmağa kömək edir, rəqabət mühiti formalaşdırır, ÜDM-yə və ölkənin büdcəsinə təsir göstərir. Ən başlıcası, kiçik biznes cəmiyyətin sabitliyinin təməli kimi orta təbəqənin formalaşması üçün bir platformadır.

Böyük firmalar kiçik müəssisələr kimi o qədər həssas deyillər və iqtisadiyyatdakı hər hansı bir dalğalanmaya və ya dəyişikliklərə tez cavab vermirlər. Təsadüfi deyil ki, Almaniya, ABŞ və bir çox inkişaf etmiş kapitalist ölkələrinin hökumətlərinin siyasətində kiçik biznesə yardım xüsusi yer tutur.

Kiçik müəssisələr iqtisadiyyatdakı ümumi vəziyyətin bir növ göstəricisinə çevrilmişdir. Kiçik müəssisələr iqtisadi şəraitdəki dəyişikliklərə, iqtisadiyyatın sektorlarında mənfəət nisbətinin düşməsinə və ya artmasına böyük şirkətlərə nisbətən daha tez adaptasiya olurlar.

Kiçik və orta ölçülü müəssisələr bir çox ölkələrdə iri şirkətlərə nisbətən həm saylarına, həm də göstərilən xidmət və istehsal edilən məhsullara görə üstün mövqe tuturlar. Kiçik müəssisələr istehsala əlavə ictimai əməyi cəlb edirlər ki, bu da milli gəlirin artmasına və yeni dəyərin yaranmasına gətirib çıxan amillərdən hesab olunur.

Cədvəl 1. Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı. (stat.gov.az)

Göstəricilər	**2018**		
	Cəmi	**o cümlədən**	
		Hüquqi şəxslər	**Fərdi sahibkarlar**
Sahibkarlıq subyektlərinin ümumi sayı	**244883**	**26389**	**218494**
Mikro sahibkarlıq subyektlərinin sayı	237815	19321	218494
Kiçik sahibkarlıq subyektlərinin sayı	4930	4930	-
Orta sahibkarlıq subyektlərinin sayı	2138	2138	-

Cədvəl 2. Yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı.

Göstəricilər	**2018**		
	Cəmi	**o cümlədən**	
		Hüquqi şəxslər	**Fərdi sahibkarlar**
Yeni yaradılmış sahibkarlıq subyektlərinin ümumi sayı	**83346**	**11958**	**71388**
Yeni yaradılmış mikro sahibkarlıq subyektlərinin sayı	83071	11738	71333
Yeni yaradılmış kiçik sahibkarlıq subyektlərinin sayı	233	179	54
Yeni yaradılmış orta sahibkarlıq subyektlərinin sayı	42	41	1

Nəticə və təkliflər

Beləliklə, sahibkarlıq fəaliyyətinin vacib mahiyyətini müəyyən edən nəzəri və metodoloji quruluşlarda sahibkarlığın məqsədi mallara, işlərə və xidmətlərə fərdi və kollektiv ehtiyacları ödəməklə mənfəət (gəlir) əldə etmək olduğu düşüncəsi köklənmişdir. Sahibkarlığın sosial funksiyası hər qabiliyyətli fərdin iş sahibi olmasıdır, fərdi istedad və imkanlarını göstərə bilməsidir. Bu funksiya getdikcə cəmiyyətin yeni bir təbəqəsinin - müstəqil iqtisadi və iqtisadi fəaliyyətə meylli, ətraf mühitin müqavimətini dəf edə və məqsədlərinə nail ola bilən insanların formalaşmasında ifadə olunur.

Təkliflər:

1. Kiçik və orta sahibkarlığın iqtisadi stimullaşdırma mexanizminin səviyyəsi yaxşılaşdırılmalı və onun əsas vəzifəsi ölkənin sosial yüksəlişi və iqtisadi artımı prosesinə təsərrüfat subyektlərini daha çevik cəlb etmək olmalıdır.
2. Müasir mərhələdə kiçik biznesə maliyyə mənbələrinin cəlb edilməsində dövlətin rolunun aktuallığının artırılması əsas istiqamət kimi götürülməlidir.
3. Maliyyə bazarının və bank sektorunun sürətli inkişafının təmin edilməsi üzrə mexanizmlər işlənilib hazırlanmalı, maliyyə sferası ilə real istehsal sektorları arasında çevik və səmərəli qarşılıqlı fəaliyyətin artırılması yönündə tədbirlər həyata keçirilməlidir.

Ədəbiyyat

1. Шумпетер Й. А. Теория экономического развития / пер. В. С. Автономова. М. : Директ медиа Паблишинг, 2008.
2. Чепуренко А. Ю., Яковлев А. А. Теория предпринимательства: важность контекста // Рос. журнал менеджмента. 2013. Т. 11, № 2. С. 51–60.
3. Levie J., Autio E. A theoretical grounding and test of the GEM model // Small Bus. Econ. 2008. № 31 (3). P. 235–263. DOI: 10.1007/s11187-008-9136-8.
4. Gartner W. B. What are we talking about when we talk about entrepreneurship? // J. Bus. Ventur. 1990. № 5 (1). P. 15–28. DOI: 10.1016/0883-9026(90)90023-M.
5. Shane S. A General Theory of Entrepreneurship: The Individual–Opportunity Nexus. Cheltenham ; Northamption : Edward Elgar Publishing, 2004.
6. Шумпетер Й. А. Теория экономического развития. Капитализм, социализм и демократия / пер. с нем. М. : Эксмо,2007.

İnternet resurslar

1. https://studbooks.net/1969743/ekonomika/analiz_razvitiya_predprinimatelskoy_deyatelnosti_rubezhom
2. https://vuzlit.ru/768624/annotatsiya_nauchnoy_stati
3. https://www.taxes.gov.az/az/post/266
4. http://www.azerbaijan-news.az/view-176875/prezident-kicik-ve-orta-sahibkarlara-desteyini-davam-etdirir
5. https://economics.studio/ekonomicheskaya-teoriya/1suschnost-usloviya-razvitiya-funktsii-71149.html

http://www.economic-s.ru/index.php/theory/organization-interprenering/usloviya-neobhodimyie-dlya-vedeniya-pred/

КОНЦЕПЦИИ АНАЛИЗА ПРОИЗВОДСТВЕННО-СБЫТОВЫХ ОТНОШЕНИЙ МЕЖДУ ПРЕДПРИЯТИЯМИ СИСТЕМЫ АГРОБИЗНЕСА

Фарид Дилаваров,
Диссертант Сумгаитского Государственного Университета
E-mail: farid90.08@mail.ru

Summary: *This article reflects the models and results of analyzes conducted in the study of communication technologies in the agri-food sector. The main points of modeling technology and its impact on specific aspects of the supply chain are considered, which is one of the important problems of the logistics system for the supply of agri-food products. The conceptual basis of the need to use technologies and their solutions is given.*

Keywords: *Agribusiness, agriculture, enterprise, agricultural products, agricultural sector, value added.*

На сегодняшний день анализ показателей экономической эффективности производства сельскохозяйственной продукции, как по сельскохозяйственным предприятиям, так и для индивидуальных хозяйств показывают общую тенденцию незначительного снижения затрат труда на производство 1 центнера продукции. В то же время, наблюдается аналогичное повышение себестоимости продукции. Анализ конечной цены реализации показывает существенный рост между периодом 2005-2012 гг. и 2013-2017 гг., что в таком раскладе должно было повлиять в значительной степени на рентабельность производства.

Несмотря на повышение производственных затрат и материальных затрат в 2 раза и соответственно себестоимости произведенной продукции в 2,4 раза, прибыль сельскохозяйственных предприятий за анализируемый период увеличился в 4,4 раза, а прибыль от реализации продукции увеличилась в 14,4 раза. [1]

Таблица 1

Показатели экономической эффективности производства сельскохозяйственной продукции в сельскохозяйственных предприятиях

	В среднем затраты труда (1 ц)		В среднем себестоимость продукции (1 ц)		В среднем цена реализации (1 ц)		В среднем рентабельность (%)	
	2005-2012 гг	2013-2017 гг	2005-2012 гг	2013-2017 гг	2005-2012 гг	2013-2017 гг	2005-2012 гг	2013-2017 гг
Зерновые и зернобобовые	11,1	11,2	12,5	17,3	21,9	25,5	36,9	48,9
Хлопок	62,0	60,7	34,3	50,5	36,5	45,7	6,6	27,1
Сах. свекла	11,9	12,9	3,8	2,5	5,2	7,0	61,1	113,8
Табак	396,9	377,6	48,6	51,3	77,4	120,2	40,0	127,6
Чай	257,4	253,6	60,0	85,7	68,9	90,5	4,9	3,2
Картофель	26,9	25,9	25,3	19,7	37,1	42,6	43,3	17,6
Овощи открытый грунт	23,2	22,7	10,8	11,0	17,8	21,4	24,3	55,9
Бахчевые	12,1	12,0	9,4	10,9	12,9	16,9	38,1	35,4
Плоды и ягоды	23,3	19,6	23,0	32,6	35,8	55,1	28,7	18,7
Виноград	44,0	38,6	22,4	30,9	34,7	46,4	17,9	11,3
КРС	263,9	247,9	198,7	298,3	249,7	340,5	14,8	18,5
Козы и овцы	233,1	228,9	178,9	252,9	252,5	374,6	34,1	43,9
Свиньи	234,5	227,3	539,3	2043,4	271,1	265,6	-24,8	0,0
Птицы	130,3	132,4	157,0	172,6	205,8	210,2	16,6	6,4
Молоко	47,7	45,1	26,9	37,6	37,8	50,4	20,7	21,9
Шерсть	393,2	388,7	88,8	114,9	132,0	146,8	36,3	19,4
Яиц (1000 шт)	63,3	38,2	58,4	83,4	75,0	97,2	6,7	9,9
По растениеводству	86,9	83,5	25,0	31,2	34,8	47,1	30,2	46,0
По животноводству	195,1	186,9	178,3	429,0	174,8	212,2	14,9	17,1

Рентабельность производства в 2006 году увеличилось в 6 раз по сравнению с 2002 годом и составила 8,4%. Примечательно то, что такое увеличение сопровождалось снижением площади сельскохозяйственных угодий в 2 раза и посевных площадей, занятых под сельскохозяйственными культурами на 79,4%. В целом это указывает на высокую экономическую эффективность сельскохозяйственных предприятий и на наличие потенциала для повышения размера производства. Возникает вопрос, почему тогда как показали наши предыдущие исследования сельскохозяйственные предприятия имеют низкую долю и более того отрицательно влияют на ВВП сельского хозяйства. На наш взгляд эта проблема носит структурный характер и указывает на необходимость реструктуризации.

В то же время одновременно с повышением общих результирующих показателей наблюдается увеличение производственных затрат в 3 раза и материальных затрат в 2,5 раза, что отразилось на соответствующем повышении себестоимости валовой продукции в 3 раза.

В таком случае, получается, что рост производительности труда мало влияет на эффективность производства. Такая ситуация говорит о том, что следует использовать более инновационные методы повышения производительности труда, что повысит доходы. Другими словами, использование традиционных методов и в принципе затратных повышают транзакционные затраты, которые в малой степени задействованы непосредственно в производственном процессе.

В принципе обозначен механизм, что предусматривает поддержку стартапов и агробизнес инкубаторов. Мы отмечали, что новые предприятия аграрного сектора могут быть конкурентными не столько на внутреннем, но и на внешнем рынке именно за счет нововведений.

Таблица 2

Показатели экономической эффективности производства сельскохозяйственной продукции в индивидуальных фермерских хозяйствах

	В среднем затраты труда (1 ц)		**В среднем себестоимость продукции (1 ц)**		**В среднем цена реализации (1 ц)**		**В среднем рентабельность (%)**	
	за 2005-2012 гг	**за 2013-2017 гг**	**2005-2012 гг**	**2013-2017 гг**	**2005-2012 гг**	**2013-2017 гг**	**2005-2012 гг**	**2013-2017 гг**
Зерновые и зернобобовые	11,1	10,9	12,91	15,21	20,29	22,39	37,6	38,9
Хлопок	59,9	58,8	24,84	29,56	34,61	42,95	44,2	50,4

Сах. Свекла	11,9	14,0	2,55	10,35	4,50	14,17	78,9	87,5
Табак	399,6	385,8	44,48	103,28	66,07	119,98	33,3	19,9
Чай	255,2	260,0	68,23	100,00	100,42	86,66	54,6	0,0
Картофель	25,9	33,8	18,18	26,26	41,60	47,19	64,5	69,3
Овощи открытый грунт	22,6	22,6	8,44	13,72	22,35	29,85	75,7	90,9
Бахчевые	11,8	11,7	7,43	8,19	16,01	12,73	71,8	47,4
Плоды и ягоды	23,2	23,1	15,45	22,17	42,22	74,43	97,5	133,1
Виноград	44,4	44,0	20,00	32,56	34,40	37,41	37,4	24,1
КРС	262,0	258,4	171,74	222,17	254,96	327,07	40,0	36,1
Козы и овцы	231,4	230,7	165,69	224,29	263,73	348,61		47,0
Свиньи	249,9	0,0	229,90	-	247,02	0,00	39,7	0,0
Птицы	133,4	130,6	195,05	228,14	231,65	275,84	40,3	43,5
Молоко	48,0	47,9	22,90	29,05	39,70	51,10	46,4	54,1
Шерсть	386,0	391,4	92,72	116,21	147,93	160,78	42,6	42,1
Яиц (1000 шт)	61,6	63,5	64,62	74,83	129,60	137,93	54,0	74,8
По растениеводству	86,6	86,5	22,3	36,1	38,25	48,78	46,7	43,7
По животноводству	196,0	160,3	134,7	149,1	188,00	217,00	43,6	44,5

В таблице 2 мы можем видеть, что при сравнении двух периодов 2005-2012 гг. и 2013-2017 гг. Затраты остались почти на том же уровне, тогда как себестоимость повысилась в среднем 15-20%, а цена реализации для некоторой продукции снизилось. Даже при высокой рентабельности аграрные предприятия все еще не могут вести процесс простого воспроизводства. На данный вопрос мы постараемся ответить.

В течение последних 5 лет экономических реформ, в сфере аграрного сектора проводились мероприятия по снижению части затрат, непосредственно влияющих на себестоимость производства с тем чтобы повысить уровень доходности сельскохозяйственных предприятий, но больших изменений не последовало. Это связано с тем, что показанная рентабельность главным образом складывается на основе цены реализации, которая образуется в результате наличия других факторов рыночных отношений. Другими словами, непосредственно относящийся к производителю в зависимости от продукции от общей рентабельности перепадает в пределах 20-30%. Так, например, в разнице между ценой реализацией между себестоимость и ценой реализации 1 центнера зерновых и зернобобовых в пределах 2 манат, только лишь от силу 0,40 манат приходится непосредственно производителю. Остальные составляют доходы других участников системы агробизнеса. Так, исследования, проведенные со стороны академика РАН И.Г. Ушачева показывают, что по различным видам продукции вклад отраслей переработки и торговли разнится. Например: для животноводства вклад торговли составляет примерно 35-40%, переработка примерно 40%, остальная часть относится непосредственно к сельскому хозяйству. Наименьшая добавленная стоимость по сравнению с животноводством, в продукции растениеводства относится к сельскому хозяйству, примерно 10-15%, тогда как в торговле почти 60-65%, а в переработке добавленная стоимость составляет почти 25-30%. Таким образом, основываясь на анализе цен реализации агропродукции, которые реализуются в товарно-распределительной цепочке «Производство-Хранение-Переработка-Логистика-Торговля» на долю сельскохозяйственных агропродуцентов приходиться примерно 20% от всего уровня конечной цены. Такая проблема вызывает дисбаланс в распределенной прибыли, что в конечном итоге приводит еще к низкой доходности сельскохозяйственных товаропроизводителей. Так, более высокая доля в ценовом диапазоне отраслей переработки и торговли приводит к более высокой рентабельности и открывает возможности для расширенного воспроизводства. В принципе такое стечение обстоятельств положительно отразиться на общем положении дел в аграрном секторе, но как мы уже сказали, в ущербе остается сельское хозяйство. Другими словами, в системе агробизнеса сельхозпроизводитель, будучи центральным звеном, будет находиться в положении «хромого утенка». Кроме того, улучшение состояния в одних отраслях приводит к их технологической модернизации и соответственно усугубляет проблему «ножницы цен» между сельскохозяйственной и промышленной продукцией.

В данном случае для покупки фермерским хозяйством необходимой продукции (семена, удобрения, агротехника и т.д.) требуется произвести больше сельскохозяйственной продукции. Еще раз акцентируемся на том вопросе, что за счет повышения доходов отдельных отраслей, происходит повышение уровня модернизации, которая приводит к производству более качественной и усовершенствованной продукции с более высокой стоимостью, поскольку требует более высоких инвестиционных затрат. В этом случае, сельское хозяйство превращается в отрасль с низкой добавленной стоимостью, или же в сырьевой придаток этих отраслей. Таким образом, дисбаланс в распределении прибыли между отраслями приводит к низкой доходности в сельском хозяйстве. К сожалению, выявляется и другая проблема, также называемая «ножни-

цы цен», но уже между городом и селом. Так, отрасли переработки находящиеся в непосредственной близости от города, а также объекты торговли, оперирующие в крупных городских центрах, получая более высокую прибыль, в конечном итоге оплачивают работникам более высокую заработную плату. Что не скажешь о сельскохозяйственных предприятиях и тем более о фермерских хозяйствах. В таком случае вырабатывается дисбаланс между доходами работников данных отраслей.

Конечно, такая проблема решается за счет дотационной политики государства, но многие сельхозпроизводители в силу установленных условий не могли получать субсидии. Таким образом, если просчитать рентабельность без субсидий, то данный показатель скатиться до 6%. В результате в среднем по сельскохозяйственным организациям, даже несмотря на то что на одно предприятие в 2017 году было получено в среднем 41,5 тыс. манат чистой прибыли то в расчете на 1 га пашни было получено лишь 630 манат чистой прибыли. Касательно, фермерских и индивидуальных хозяйств, то на одно хозяйство было получено 4,9 тыс манат чистой прибыли и в расчете на 1 га пашни 551 манат. Такие расчеты показывают, что такой уровень производительности недостаточен для ведения эффективного производства. Субсидирование сельского хозяйства, только отчасти помогает решить проблему прибыльности сельскохозяйственных организаций, но вышеуказанный дисбаланс съедает их доходность.

В результате действующий экономический механизм, должен быть усовершенствован, основываясь не на отдельно взятой отрасли, а в цепочке добавленной стоимости, где участвуют все предприятия вспомогательных и сопутствующих отраслей, о которых было заявлено в теории «Diamond Porter".

Опять же возвращаясь к вопросу низкой рентабельности сельского хозяйства, по сравнению с отраслями переработки и сферы услуг (торговли, транспорта и т.д.), то следует определиться, из какой части доходов бюджета выделяются субсидии. Так, в принципе, если субсидии выделяются за счет собранных налогов с государственного бюджета, то они должны выплачиваться непосредственно с части, которая выплачивается со стороны предприятий, которые ведут свою деятельность на основе сельскохозяйственного сырья. Разговор идет о предприятиях сферы переработки, хранения, логистики и торговли. То же самое можно отнести к таможенным тарифам по импорту заграничной сельскохозяйственной продукции. Считаем, такой подход позволит более четко регулировать внутренний продовольственный и сельскохозяйственный рынок. А также приведет к интенсификации процесса импортозамещения в сельском хозяйстве. Таким же образом, следует рассматривать вопросы финансирования и кредитования. Так более высокие доходы, полученные со стороны предприятий сопутствующих, родственных и обслуживающих отраслей агробизнеса должны компенсировать низкие доходы, получаемые со стороны сельхозпроизводителей.

Сложность привлечения заемного финансирования, недостаток собственных средств, недостаточный уровень государственной поддержки, а также отсутствие самофинансирования негативно сказывается на инвестиционной привлекательности сельского хозяйства. В результате за 2013-2018 гг. на фоне роста общего объема инвестиций в экономику страны, инвестиции в сельское хозяйство осуществлялись в основном со стороны государства.

Для того, чтобы выяснить в каких направлениях следует принимать определенные мероприятия по повышению эффективности агробизнеса, мы выделили главные показатели, которые в той или иной степени характеризуют производственно-сбытовую цепь, действующую в рамках системы агробизнеса, и построили модель множественной регрессии, используя программное обеспечение Mathcad. Конечно же, в агробизнес-модели действует большое количество участников, которые непосредственно влияют на конечную цену продукции. С одной стороны это множество аграрных предприятий непосредственно производящих сельскохозяйственную продукцию не требующих дальнейшей переработки, но дающих начало для деятельности предприятий химической, автомобильной и др. промышленности, сферы услуг – предприятий логистики, амбарной и торговой деятельности. Но как мы уже говорили именно эти предприятия главным образом влияют на сохранения товарных свойств продукции повышают полезность (Utility) и соответственно определяют конечную цену продукции. Сельскохозяйственные предприятия в такой ситуации в большинстве своем выступают в роли придатка и поставщиков, которые обречены на получение низких дивидендов от своей деятельности.

Экономическая сущность приведенных выше интерпретаций дают некоторые противоречивые выводы. Так, например, как объяснить результат модели когда выясняется, что при повышении удельного веса дохода сельскохозяйственных организаций приведет к снижению ВВП. И в самом деле, мы более чем уверены в том, что взаимодействие этих предприятий в едином кластере в одной цепи даст наибольший результат. Кроме того, было выявлено, что повышение инвестиций в отрасль переработки также даст большое снижение в ВВП сельского хозяйства. Это также выявляет противоречивое заключение, поскольку логично предполагать, что повышения уровня инвестиций должно привести к повышению производственных мощностей предприятий переработки. Но, как видно ситуаций иная, именно получение более высоких доходов приводит к повышению инвестиционной заинтересованности для перерабатывающей промышлен-

ности и низкому интересу по отношению к отрасли сельского хозяйства, даже несмотря на то, что по результатам модели повышение инвестиций в сельское хозяйство приведет к повышению ВВП. Поэтому в большинстве своем предприятия перерабатывающей промышленности предпочитаю работать на импортном сырье. А это соответственно будет снижать ВВП сельского хозяйства.

Литература

1. Əliyev H.Ə. Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında fərman. 22 mart, 1999-cu il. Azərbaycan qəzeti, 23 mart 1999-cu il.

RESURSLARDAN İSTİFADƏ, AQRAR SAHİBKARLIĞIN EKOLOJİ MÜHİTİ, SAHİBKARLIQ MÜHİTİ VƏ AQRAR BÖLMƏDƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ

Püstə Fərhadi
İqtisad üzrə fəlsəfə doktoru, dosent
Bakı Biznes Universitetinin
"Menecment və marketinq" kafedrası
E-mail: emin.turant1@gmail.com

Xülasə: *Məqalədə resurslardan istifadə, resursların qiymətləndirilməsi, onlardan istifadə mühitinin və mexanizmlərinin xarakteristikası kənd təsərrüfatının istənilən mərhələsində aktuallığı, əmək, təbii, maliyyə və digər resurslardan istifadənin səmərəliliyi aqrar sahibkarlığın gəlirliyini və ətraf mühitə münasibət baxımından məqbulluğunu şərtləndirən mühüm amillərə toxunulmuşdur. Məqalədə torpaqlardan istifadə, onların iqtisadi qiymətləndirilməsi, münbitliyin bərpası, ətraf mühitin çirklənməsinin qarşısının alınmasına investisiyaların mimyyənləşdirilməsi və s. aqrar sahibkarlığın səmərəliliyini şərtləndirən mühüm amillərə baxılmışdır. Bundan əlavə məqalədə torpaqların bərpasına vəsait qoyuluşlarının müəyyən edilməsi, ekoloji-iqtisadi inteqral göstəricilərin hesablanması metodikası qeyd edilmişdir.*

Məqalədə aqrar sahibkarlığın inkişafı vəziyyəti kənd təsərrüfatının və onunla sıx əlaqədar sahələrdə sudan istifadənin səmərəlilik səviyyəsi, suvarma əkinçiliyi zonalarında meliorasiya və aqrotexniki tədbirlərin həyata keçirilməsi, aqrar sahibkarlığın dəstəklənməsi, su təminatı problemlərinin həlli üçün iqtisadi-ekoloji və texnoloji resurslar hərəkətə gətirilməsi, prioritet istiqamətlər müəyyənləşdirilərək innovasiyaların dəstəklənməsi məsələləri öz əksini tapmışdır.

Açar sözlər: *resurs, iqtisadiyyat, qiymət, kənd təsərrüfatı, əmək, təbii resurslar, ekoloji, maliyyə və s.*

Resurslardan istifadə iqtisadiyyatın bir çox sahələrində olduğu kimi kənd təsərrüfatı və onunla əlaqədar sahələrdə də xüsusi əhəmiyyətli məsələdir. Resursların qiymətləndirilməsi, onlardan istifadə mühitinin və mexanizmlərinin xarakteristikası kənd təsərrüfatının istənilən mərhələsində aktual olaraq qalır.

Əmək, təbii, maliyyə və digər resurslardan istifadənin səmərəliliyi aqrar sahibkarlığın gəlirliyini və ətraf mühitə münasibət baxımından məqbulluğunu şərtləndirən mühüm amillərdəndir. Torpaqlardan istifadə, onların iqtisadi qiymətləndirilməsi, münbitliyin bərpasına, ətraf mühitin çirklənməsinin qarşısının alınmasına investisiyaların mimyyənləşdirilməsi və s. aqrar sahibkarlığın səmərəliliyini şərtləndirən mühüm amillərdəndir. Torpaqların bərpasına vəsait qoyuluşlarının müəyyən edilməsi ekoloji-iqtisadi inteqral göstəricilərin hesablanması metodikasını dəqiqləşdirməyi tələb edir.

Müvafiq ədəbiyyatda haqqında danışılan göstəricilərin hesablanmasına yanaşmaların oxşar cəhətləri çox olsa da, fərqləri az deyildir. İstifadə edilən parametrlərin informasiya bazasının münasibətdə, demək olar ki, ümumi yanaşma formalaşmamışdır.

Bir çox mənbələrdə torpaq sahələrinin istifadəsinə sərf edilmiş maliyyə vasitələrinin səmərəliliyi (s) aşağıdakı qaydada hesablanır.

$$S = \frac{delta\ I(XG) \pm M_b}{I}$$

burada, delta İ (XG) investisiya və ya xalis gəlirin artımı;

M_b-torpaqların bərpasına məsrəflərdir.

Düsturda bu parametrin qarşısına qoyulan mənfi işarəsi məsrəflərin tənəzzülün qarşısını ala bilməməsi halını əks etdirir.

Aqrar sahibkarın gəliri kənd təsərrüfatına yararlı torpaq sahələrinin keyfiyyəti, optimal əkin dövriyyəsinin təminatı və bu kimi göstəricilərin vəziyyətindən asılı olduğundan əsas istehsal vəsaiti olan torpağın mühafizəsinin səmərəliliyini qiymətləndirən göstəricilərə icarə xərcləri və renti haqqına aid etmək olar.

Torpaq bazarının formalaşması torpaqların iqtisadi qiymətləndirilməsi məsələsinin aktuallaşdırır. Sahədən alınan kənd təsərrüfatı məhsullarının dəyəri torpağın qiymətində (Tq) iştrak edir. Beləliklə,

$$T_q = A_m - Q_s - V_m - N_g$$

burada,

A_m – aparıcı sahənin orta məhsuldarlığı;
Q_s –əsas məhsulun dövlət satış qiyməti;
V_m – məhsul vahidinin maya dəyəri;
N_g – məhsul vahidinə düşən normativ gəlirdir.

Sahibkatların nisbətən kiçik torpaq payları iqtisadi qiymətləndirmə zamanı digər amillərlə yanaşı təsərrüfatçılığın təşkilati forması və ixtisaslaşma kimi amilləri nəzərə almağı tələb edir. Sahibkarlığın orta illik gəlirini (G) aşağıdakı kimi hesablamaq olar:

$$G = \frac{\mathrm{T_f} \cdot \mathrm{X_t}}{\mathrm{F_i} \cdot \mathrm{f}} \cdot 100$$

burada,

$\mathrm{T_f}$– təsərrüfat tipinin illik xalis gəliri;
$\mathrm{X_t}$ – dövriyyəyə cəlb edilən torpaqların mənimsənilməsi ilə əlaqədar xərclər;
$\mathrm{F_i}$ - istehsal fondlarının dəyəri;
f - fondlara görə haqq (təsərrüfat tipinə görə orta faiz)

Aqrar sahibkarlığın inkişafı vəziyyəti kənd təsərrüfatının və onunla sıx əlaqədar sahələrdə sudan istifadənin səmərəlilik səviyyəsi ilə bilavasitə şərtlənir. Suvarma əkinçiliyi zonalarında meliorasiya və aqrotexniki tədbirlərin həyata keçirilməsi aqrar sahibkarlığın dəstəklənməsinin, həyati əhəmiyyətli məsələləridir. Su təminatı problemlərinin həlli üçün iqtisadi-ekoloji və texnoloji resurslar hərəkətə gətirilməli, prioritet istiqamətlər müəyyənləşdirilərək innovasiyalar dəstəklənməlidir. Aqrar bölgədə fəaliyyət göstərən sahibkar suyun təmizlənməsi, onun oksigen rejiminin yaxşılaşdırılması və digər ekoloji vacib tədbirlərin reallaşdırılmasıda maraqlıdır. Bununla belə həmin proseslərin maliyyələşdirilməsi aqrar sahibkarların inkişafı xaricindədir.

Bəzi markalar və şirkətlər az təminatlı ailələrə yardım və dəstək kampaniyaları təşkil etmiş, bu təşkilatçılığa öz istehlakçıları belə qoşulmuş və qarşılıqlı dəyərlər zənciri yaradılmışdır.

Nəticə

Pandemiya dövründə dəyişən istehlakçı davranışına qısa zaman kəsiyində adaptasiya olan şirkətlər bu zaman ərzində uğur qazanmışdır. Hesab olunur ki, informasiya texnologiyalarından yüksək səviyyədə yararlanaraq istehlakçılarına onlayn xidməti təmin edə bilən, istehlakçı tələbinə uyğun olaraq məhsulları təmin edən, aztəminatlı ailələrə dəstək ola bilən və mütəmadi olaraq aksiya və endirimlər təşkil edən şirkətlər pandemiya dövrü ilə yanaşı post pandemiya dövründə də uğur qazanacaqdır.

Ədəbiyyat

1.Huseynova Sh.A, Mamadova A., Novruzova A., Nasirova O., Azizova R., Aliyeva M., Features of education financing in developing countries, Revista ESPACIOS | Vol. 40 (Number 26) Year 2019. Page 9 ISSN 0798 1015

2.Godjayeva *Elmira* Mahammad, Babayeva Saida Jabi, Sadigova Ulker Farhad ... Economic and Sosial Development – ResearchGate 2013; Web of Science, *Google Scholar*: 438–442.

3.The Dependence of Personnel Potential on Sosial Investment. The Case of the Tourism Sector. A Eminov, E Suleymanov, A Mirzayev, I Aliyeva - Expert Journal of Economics, 2019.

4.Mammadova N.G., Planning study abroad in a pandemic, materials of the conference "Priority areas of international economic relations in the XXI century", ATMU, 2020 /

5.Improving the Institutional Environment of the Innovation Economy in Azerbaijan
E Suleymanov, FP Rahmanov, Y Özdemir - Online Academic Journal of Information Technology, 2018

6.Marketing of sosial tourism/ F Rahmanov, N Letunovska, O Lyulyov - Economic and Sosial Development: Book of …, 2020

7.Levashenko A.D., Anes S.M. Measures to support the tourism sector in the COVID-19 crisis. URL: https://www.ranepa.ru/documents/monitoring/2020_10-112_April.pdf.

8.Covid-19 coronavirus pandemic. April 27, 2020, 22:31 GMT https://www.worldometers.info/coronavirus/

9.Global Health Security Index https://www.ghsindex.org

İNŞAAT MATERİALLARI İSTEHSAL EDƏN MÜƏSSİSƏLƏRİN RƏQABƏT STRATEGİYASININ İŞLƏNİB HAZIRLANMASI MEXANİZMİ

Zənurə Əliyeva
UNEC, "İstehlak mallarının ekspertizası" kafedrası, baş müəllim
E-mail: zenurealiyeva@yahoo.com

Summary: *In the article are being considered mencement of competitivness of building materials manufacturing compnies and incorporates the following steps: analysis of enterprise's internal and external environments; evaluation of competitiveness of the enterprise on proposed schemes and quality indicators; the level of competitiveness, planning of management; evaluation and control of competitiveness within the strategy of raising competition competitiveness of the enterprise.*

Key words: *competitiveness; strategy; balanced indicators; strategic map*

Giriş

Strateji idarəetmənin problemlərinin həll edilməsinin ümumi qaydaları və sxemləri strateji idarəetmə çərçivəsində mövcuddur – təhlillərin həyata keçirilməsi, strategiyaların seçilməsi və onların reallaşdırılması. Lakin hər bir sahə, müəssisə, hətta hər bir menecer strateji idarəetməni özünəməxsus şəkildə başa düşür və reallaşdırır. Hazırkı dövrdə respublikamızda inşaat materiallarının istehsalı sahəsində müəssisənin rəqabət qabliyyətliliyinin yüksəldilməsi məsələsinə mütəxəssis yanaşması və səmərəli inkişaf strategiyalarının seçilməsi məsələsi lazımi səviyyədə deyildir. Bu da yerli inşaat müəssisələrinin rəqabət qabliyyətliliyinin aşağı olması səbəblərindən birdir. Ümumiyyətlə, bir sıra yerli tədqiqatçıların qeyd etdiyi kimi, -"Müəssisənin bazarda hərəkət tərzi strategiyasını müəyyən edən və istehsal-satış fəaliyyətinə təsir edən amillər əsasında öyrənilən marketinq nəticələrinin qiymətləndirilməsi problemi Azərbaycan respublikasında fəaliyyət göstərən təsərrüfat subyektlərində demək olar ki, həll olunmamış qalır" [2, səh.134].

Təsərrüfat fəaliyyətinin bütün subyektləri üçün bərabər səviyyədə qəbul edilən rəqabət qabliyyətliliyin idarə-edilməsi strategiyası mövcud deyildir. Hər hansı bir sahədə müəssisələrin rəqabət qabliyyətliliyiyinin yüksəldilməsinə istiqamətləndirilən əvvəlcədən işlənib hazırlanmış strategiya yoxdur. Bütün müəssisələr üçün bu sahədə hazır qərarlar ola bilməz, belə ki, onlar öz qarşılarına müxtəlif məqsədlər qoyur və müxtəlif məsələləri həll edir, müxtəlif rəqabət mühitində fəaliyyət göstərir, müxtəlif daxili resurslara malikdir, öz fəaliyyətlərində müxtəlif dərəcədə səmərəlilik əldə edirlər və s.

Bu məqalə çərçivəsində aparılan tədqiqatda inşaat materialları istehsalı müəssisələrinin rəqabət qabiliyyətliliyinin idarə olunması mexanizmi strateji idarəetmənin ümumi prinsiplərinə uyğun olaraq nəzərdən keçirilir. Belə ki, "Müəssisənin bazarda ciddi fəaliyyət konsepsiyasının, marketinq strategiyasının hazırlanması özündə nəzəri cəhətdən əsaslandırılmış hədəf və məqsədlərin təyin edilməsi, bazar şəraitində marketinq fəaliyyətinin düzgün qurulması marketinq fəaliyyətinin metodoloji araşdırmalarını tələb edir" [4 səh.145].

İnşaat materialları istehsalı müəssisələrinin rəqabət qabliyyətliliyinin idarə olunması mərhələləri

İnşaat materialları istehsalı müəssisələrinin rəqabət qabliyyətliliyinin idarə olunması aşağıdakı mərhələləri özündə birləşdirir: müəssisənin rəqabətqabliyyətlilik potensialını təşkil edən vacib amilləri aşkar etmək məqsədilə daxili və xarici mühitlərin təhlili; tədqiqat işində təklif edilən sxemlər və keyfiyyət göstəriciləri üzrə müəssisəni rəqabət qabliyyətliliyinin qiymətləndirilməsi; rəqabət qabliyyətlilik göstəricilərinin səviyyəsinin, idarəetmənin təşkilinin planlaşdırılması; müəssisənin rəqabət qabliyyətliliyinin yüksəldilməsi strategiyası çərçivəsində rəqabət qabiliyyətliliyin qiymətləndirilməsi və ona nəzarət olunması.

Təklif olunan prinsiplərə uyğun olaraq rəqabət qabiliyyətliliyin idarə olunma mexanizmi şəkil1-dəki kimi təsvir edilə bilər.

İnşaat materialları istehsalı sahəsində müəssisələrin xarici mühitinin təhlilinin aparılması zamanı dövlət, sahə və region səviyyəsində rəqabətqabliyyətliliyin vacib amilləri və əsas daxili amillər aşkar edilir; Bakı şəhəri ərazisində inşaat materialları müəssisələri üçün spesifik olan amillər müəyyən edilir: iqtisadiyyat sahələri arasında inşaatın ən yüksək artım tempi, daxili bazarın xarici mallar üçün açıq olması, biznes sahələrinin və əhalinin gəlirlərinin səviyyəsinin artması, ölkədə yaşayış, sosial-mədəni və sənaye sahələrində tikintinin artım tempi, ixrac edilən məhsullara dəstəyin göstərilməsi, digər regionlara nisbətən Abşeron rayonunda inşaat materialları müəsisələrində məhsulların istehsalına çəkilən xərclərin nisbətən yüksək olması, Bakı şəhərində tikintinin artım tempinin ən yüksək olması. Sayılan amillərin inşaat materiallarının rəqabət qabliyətliliyinin idarə edilməsi prosesində nəzərə alınması vacibdir.

Müəssisənin rəqabət qabliyyətliliyinin qiymətləndirilməsi alqoritmin işlənib hazırlanmasından və diferensial, inteqral və ümumiləşdirici, ekspert qiymətləndirmə, ranqlama metodları ilə rəqabət qabliyyətliliyin xüsusi göstəricilərinin hesablanmasından ibarətdir. Məlumdur ki, "Tikinti məhsulunun rəqabət qabliyyətini qiymətləndirmək üçün ümumiləşdirilmiş göstəricilərin alınmasına əsaslanan metodiki yanaşmadan istifadə edilir" [6, səh.140]

Müəssisənin rəqabət qabliyyətliliyinin qiymətləndirilməsi aşağıdakılardan ibarətdir: istehlakçı tələbinin parametrləri əsasında (məhsulun keyfiyyəti, satışın keyfiyyəti, qiymətərin səviyyəsi) istehsal olunan malların rəqabət

qabliyyətliliyinin qiymətləndirilməsi, fəaliyyət səmərəliliyinin və innovasiyaların qiymətləndirilməsi. Müəssisənin rəqabət qabliyyətliliyinin qiymətləndirilməsinin dolayı göstəricisi kimi biznesin sosial tərkib göstəricisi istifadə olunur. İnşaat materialları sahəsinin müəssisələrinin rəqabət qabliyyətliliyinin qiymtləndirilməsinin nəticələrinin aydın ifadə olunması müəssisənin rəqabət mövqeyini əks etdirən xəritənin alınmasına imkan verir.

Rəqabət qabliyyətliliyin idarə ounmasının növbəti mərhələsi planlaşdırmadır: rəqabət qablyyətliliyin xüsusi göstəricilərinin qiyməti əsasında məhsulun və müəssisənin rəqabət qabiliyyətlilik göstəricilərinin səviyyəsinin planlaşdırılması.


Müasir bazar mühiti şəraitində planlaşdırmaya verilən əsas tələb planlaşdırma prosesinin dinamikasıdır ki, bu da xarici və daxili dəyişiklikləri uzaqdan görməyə və ona uyğunlaşmağa əsaslanır. Rəqabət qabliyyətlilik göstəricilərinin hazırlanmasında, hazırkı tədqiqat çərçivəsində təklif edilən metodika əsasında, müəssisənin və onun rəqiblərinin rəqabət qabiliyyətliliyinin səviyyəsinin müəyyən edilməsi zamanı əldə edilən qiymətləndirmə göstəricilərinin istifadə olunması məqsədəuyğundur. Məhsulun rəqabətə davamlılıq göstəriciləri və müəsisənin səmərəlilik və innovasiya göstəriciləri onun fəaliyyətinin güclü və zəif tərəflərini aydın ifadə edir və rəqabət qabliyyətlilik səviyyəsini layihələndirməyə imkan verir. Belə ki, "İnnovasiyaların idarə edlməsi strategiyasının işlənib hazırlanması və reallaşdırılması yerli və regional bazarlarda müəssisələrin rəqabətqabiliyyətlilik şərtlərinin tədqiqini, strateji qərarların qəbul edilməsinin ilkin şərti kimi güclü və zəif tərəflərin üzə çıxarılmasını özündə birlşdirməlidir" [7 səh.129]. "Yüksək səmərəli rəqabət qabliyyətli sahənin formalaşmasının əsas şərtlərindən biri geniş təkrar istehsal üçün şərait yaradılmasından asılıdır. Bu isə yalnız balanslaşdırılmış, sahələrarası münasibətlərin formalaşdırıldığı şəraitdə mümkün ola bilər" [3 səh.151].

Rəqib müəssisələr arasında məhsulun rəqabət qabliyyətliliyinin qiymətləndirilməsinin xüsusi göstəricilərinin, fəaliyyətin səmərəlilik göstəricilərinin qiymətlərinin müqayisə edilməsi, zəif tərəfləri aradan qaldırmaq və müəssisənin mövqeyini gücləndirmək üçün gücləri necə səfərbər etmək lazım olduğunu başa düşməyə imkan verir: qiymət siyasətində korrektələr etmək, yoxsa gücləri məhsulun təkmilləşdirilməsi istiqamətinə yönəltmək, yaxudda ki, istehlakçılarla işləməyin səmərəliliyini yüksəltmək.

Bəzi yerli tədqiqatçıların belə bir fikri ilə razılaşmaq olar ki: "müasir şəraitdə qiymət siyasəti həyata keçirilərkən (məqsədlər müəyyən olunarkən) müxtəlif strategiyalar seçilir. Tikintidə uzunmüddətli qiymətlər fəaliyyət göstərir. Bu səbəbdən tikintidə dəyişən qiymət strategiyasının seçilməsi daha məqsədəmüvafiqdir. [1səh. 147].

Aşkar edilən zəif tərəflər arasında ən vacib olanını və asan kənarlaşdırıla biləni seçib ayırmaq daha vacibdir. Müəssisənin zəif tərəflərinin gücləndirilmsəinə istiqamətləndirilən tədbirlər rəqabət qabiliyyətlilik elementlərinin səviyyəsinin planlaşdırılmasına və həmçinin müəssisənin rəqabət qabiliyyətliliyinin yüksəldilməsinin ümumi strategiyasının reallaşdırılmasına əsaslanmalıdır.

Rəqabət qabiliyyətliliyin idarə olunması mexanizminin vacib elementlərinə idarəetmənin təşkili və strateji planın yerinə yetirilməsinə nəzarət daxildir. Müəssisənin inkişaf etdirilməsi, onun rəqabət qabiliyyətliliyinin yüksəldilməsi strategiyasının reallaşdırılması idarəetmə sisteminin səmərəliliyindən, startegiyanın gündəlik iş səviyyəsində və idarəetmədə iştirak edən bütün iştirakçılar səviyyəsində aparılmasından asılıdır. Bu həm də idarəetmə personalının strategiyanın məqsədini başa düşməklərindən, menecerlərin peşəkarlığından, onların işlənib hazırlanmış strateji planların reallaşdırılmasına hazırlığından da asılıdır. Bu sahədəki tədqiqatların nəticələrinə əsasən, bunu qeyd etmək olar: "Bazar iqtisadiyyatı şəraitində və rəqabət mühitində marketinqin mühüm vəzifələrindən biri də istehlakçıya göstərilən xidmətdir. Bu gün Azərbaycanda xidmət səviyyəsinin aşağı olmasının əsas səbəblərindən biri ixtisaslı mütəxəssislərin az olmasıdır. Bu baxımdan yerli şirkətlərdə xidmət səviyyəsinin artırılması üçün personalın bilik səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilməlidir" [5, səh. 156,157].



Şəkil 1. Müəssisənin rəqabət qabiliyyətliliyinin idarə edilməsinin sxemi

1. Rəqabət qabliyyətliliyinin idarə edilməsi startegiyalarının reallaşdirilmasi

Strateji məqsədlərin reallaşdırılmasının idarə edilməsinin müasir innovasiyalı metodu kimi göstəricilərin balanslaşdırılması sisteminin tətbiqi çıxış edir. Hansı ki, bu da müəssisənin aydın ifadə edilmiş planının səmərəli reallaşdırılmasını təmin edən, starteji planların mövcud idarəetmə səviyyəsində həyata keçirilməsini və məqsədlərə nail olmaq dərəcəsini, proseslərin idarə olunmasının və əməkdaşların işinin səmərəliliyini xarakterizə edən göstəricilərə əsaslanan strategiyanın reallaşdırılmasına nəzarəti təmin edən strateji idarəetmə vasitəsini özündə əks etdirir.

1990-cı illərin əvvəllərində R. Kaplan və D. Norton tərəfindən hazırlanmış balanslaşdırılmış göstəricilər sistemi bir sıra xarici şirkətlər, müxtəlif fəaliyyət sahələri və təşkilatlarda sınaqdan keçirilmişdir. Sistem qeyri-maddi aktivlərin (innovativ məhsullar, informasiy texnologiyaları, ixtisaslar, işçilərin bacarıqları və motivasiyası, istehlakçılarla qarşılıqlı əlaqə, tədarükçülər, maliyyə strukturları) şirkətin fəaliyyətinin nəticələrinə təsirini qiymətləndirməyə imkan verən maliyyə və qeyri-maliyyə göstəricilərini birləşdirir.

Balanslaşdırılmış göstəricilər sisteminə əsaslanan strateji idarəetmə dörd komponenti əhatə edir: maliyyə komponenti (artım strategiyası, rentabellik artımı, məhsuldarlığı artırma), müştəri komponenti (məhsulların yaradılması və təşviqi strategiyası, müştərilərlə işləmək), daxili biznes proseslərinin komponenti (rəqabət üstünlüklərini yaratmağa yönəlmiş biznes proseslərinin optimallaşdırılması strategiyaları), təlim və inkişaf komponenti (peşə artımının prioritetlərini müəyyənləşdirmək, heyətin motivasiyasını artırmaq, idarəetmə təşkilatı təkmilləşdirmək, informasiya texnologiyaları).

Balanslaşdırılmış göstəricilər sistemi strateji bir xəritənin əsasını təşkil edir, hansı ki, bu da qoyulmuş məqsədlərə nail olmaq üçün strategiyanı və idarəetmə mexanizmini ifadə edən diaqramdan ibarətdir. Strateji xəritə təşkil olunduğu səviyyənin səbəb-nəticə əlaqələrini və qeyri-maddi aktivlərin real material (maliyyə) nəticələrinə çevrilməsi prosesini təsvir edir. Strateji xəritə strategiyanın, onun reallaşdırılmasının gedişini başa düşməyə kömək edir.


Strateji xəritənin ümumi modeli şəkil 2-də verilir. Tikinti materialları sənayesinin strateji xəritəsini hazırlayarkən, sənayenin strateji məqsədlərinə, tikintidə yüksək artım tempinin material bazasının təmin olunmasına, ümumi iqtisadi artım və iqtisadiyyata investisiya qoyuluşunun yüksəlişinə, yeni tikintilərin və binaların təmirinə, eləcə də bütün sahələrdə istismar müddəti 45%-i keçmiş bina və qurğuların, həmçinin inşaat sahəsinin perspektiv inkişafına böyük təsir göstərən boşaldılmış yaşayış məntəqələrinin həcminə diqqət yetirmək lazımdır.

Müəssisənin seçilmiş strateji inkişaf istiqamətinin müasir rəqabət mühitinə nə qədər uyğun olmasından nəticədə inşaatin bütün sferalarında material bazasının təmin edilməsi, respublikamızın ÜTT-na daxil olan zaman inşaat materiallarının daxili bazarında üstünlüyünün qoruması asılıdır.

İnşaat materialları sahəsinin starteji məqsədini bütün istiqamətlərdə inşaatın material bazasını təmin etmək kimi ümuiləşdirmək olar və bu regionların, sahələrin və dövlətin inşaat sahəsinin inkişafı ilə bağlı proqramına, tikintinin artım tempinə uyğunlaşdırılmalıdır.

Strategiyanın maliyyə komponentinin qarşısında vəzifə kimi sahə gəlirlərinin artırılması durur ki, bunun da reallaşdırılması fəaliyyətdə olan və yeni müəssisələrdə inşaat materiallarının istehsal həcminin yüksəldilməsində görünür.

Müştəri komponentinin səviyyəsi müştəri dəyərliliyi göstəricilərindən ibarətdir ki, bu da aşağıdakılarla ifadə olunur: inşaatın ənənəvi qəbul edilmiş materiallarla təmin edilməsi; inşaat texnologiyasınn və istehlakçı tələbinin dəyişməsinə uyğun olaraq yeni materialların təklif olunması; inşaat işlərinin maya dəyərini əhəmiyyətli dərəcədə aşağı salan və yaşayış evlərini müxtəlif gəlir səviyəsində olan insanlar üçün əlverişli edən innovasiyalı inşaat materiallarını təklif etmək.



Şəkil 2. Balanslaşdırılmış göstəricilər sisteminin strateji xəritəsinin modeli


Startegiyanın daxili (sahə) komponenti aktivləşdirmə proseslərini özündə əks etdirir: innovasiyaların, həmçinin məsləhət xidmətlərinin təşkili və tətbiq olunması, investisiyaların cəlb olunması, məhsulun keyfiyyətinin yüksəldilməsi, ekoloji proqramların həyata keçirilməsi, infrastruktur obyektlərinin yardım proqramlarının təmin olunması, regionların imkanlarını nəzərə almaqla sahə müəssisələrinin yerləşməsinin və inkişafının koordinasiyası planında regional idarəetmə strukturları ilə əməkdaşlıq proqramı, məhsulların ixracının yüksəlməsinə yardım etmək.

Təlim və inkişaf komponenti sahə üzrə kadrların hazırlanması, sahədə əmək haqqının səviyəsi üzrə razılaşmaların statusunun yüksəldilməsi, strateji idarəetmənin öyrənilməsinin reallaşdırılması proqramlarına malik olmalıdır.


İnşaat materialları sahəsinin strateji xəritəsinin təklif olunan alqoritmi şəkil 3-ki, kimi olacaqdır. Müəssisə səviyyəsində inşaat materialları sahəsinin balanslaşdırılan göstəricilər sisteminin strateji xəritə modeli şəkil 4-də verilmişdir.

Təklif edilən model müxtəlif strateji prosesləri və qərarları nümayiş etdirir. Onlar müxtəlif müəssisələr üçün müxtəlif dərəcədə qəbul ediləndir. Strateji xəritə qeyri material aktivlərin, məsələn, ixtisaslaşmış yüksək peşəkar əməkdaşlar və ya məhsulun istehlakçılara müxtəlif nəqliyyat nönvləri ilə çatdırılması sisteminin tətbiqinin material nəticələrə, məsələn , yeni müştərilərin cəlb olunması ilə satışdan əldə olunan gəlirlərin artmasına necə çevrilməsi haqqında təsəvvür yaradır.

Nəzərdə tutulan nəticəni əldə etmək istəyən müəssisə üçün rəqabət qabliyyətliliyin idarə olunmasına nəzarət və qiymətləndirmə müntəzəm iş olmalıdır, məsələn, büdcənin yerinə yetirilməsinə nəzarət kimi. Nəzarət sistemi qəbul edilən qiymətləndirmə sisteminə uyğun olaraq rəqabətqabliyyətliliyin əldə edilmiş səviyyəsinin gözlənilən səviyyə ilə müqayisəsiylə yekunlaşa bilər, hansı ki bu qiymətləndirmə göstəriciləri istehlakçı tələbinin, səmərəliliyin və innovasiyanın parametrlərini özündə əks etdirir. Müəssisənin rəqabət qabliyyətliliyinin idarə olunmasının qiymətləndirilməsi balanslaşdırılmış göstəricilər sisteminin reallaşdırılması əsasında əldə edilən nəticələrin gözlənilən nəticələrlə müqayisəsini yaradır.



Şəkil 3. İnşaat materialları sahəsinin strateji xəritə modeli



Şəkil 4. İnşaat materialları sahəsinin müəssisələri üçün strateji xəritə modeli

Nəticə

Məqalədə aparılan təhlilləri ümumiləşdirərək aşağıdakı nəticələri qeyd etmək olar:

– inşaat materialları müəssisələrinin rəqabət qabliyyətliliyinin idarə olunması mexanizmi rəqabət qabliyyətliliyin yüksəldilməsi strategiyasının bazasında və ona uyğun işlənib hazırlanmalıdır;

– rəqabət qabiliyyətliliyinin idarə olunması mexanizmini işləyib hazırlayarkən bu sahənin spesifik xüsusiyyətlərini, daxili və xarici mühitdə aşkarlanan xarakterik amilləri, bu sahəyə aid məhsul nomenklaturasının zənginliyini, bazarda inşaat materiallarının müxtəlif növlərinin rəqabət intensivliyinin fərqli dərəcədə olmasını və s. nəzərə almaq vacibdir;

– müəssisənin rəqabət qabliyyətliliyinin idarə olunmasında sahə göstəricilərinin balanslaşdırılmış sisteminin istifadə olunması, müəssisənin nəzərdə tutulan planlarının rellaşdırılmasının səmərəliliyini, strateji məqsədlərin mövcud operativ idarəetmə səviyyəsində həyata keçirilməsini və müəssisənin rəqabət qabliyyətliliyinin yüksəldilməsi strategiyasının reallaşdırılmasına nəzarəti təmin edir;

– balanslaşdırılmış göstəricilər sistemi strateji xəritənin ümumi modeli şəkil 2-də verilir. Tikinti materialları sənayesinin strateji xəritəsini hazırlayarkən, sənayenin strateji məqsədlərinə, tikintidə yüksək artım tempinin material bazasının təmin olunmasına, ümumi iqtisadi artım və iqtisadiyyata investisiya qoyuluşunun yüksəlişinə, yeni tikintilərin və binaların təmirinə, eləcə də bütün sahələrdə istismar müddəti 45%-i keçmiş bina və qurğuların, həmçinin inşaat sahəsinin perspektiv inkişafına böyük təsir göstərən boşaldılmış yaşayış məntəqələrinin həcminə diqqət yetirmək lazımdır.

– müəssisənin seçilmiş strateji inkişaf istiqamətinin müasir rəqabət mühitinə nə qədər uyğun olmasından nəticədə inşaatin bütün sferalarında material bazasının təmin edilməsi, respublikamızın ÜTT-na daxil olan zaman inşaat materiallarının daxili bazarında üstünlüyünün qoruması asılıdır. İnşaat materialları sahəsinin starteji məqsədini bütün istiqamətlərdə inşaatın material bazasını təmin etmək kimi ümuiləşdirmək olar və bu regionların, sahələrin və dövlətin inşaat sahəsinin inkişafı ilə bağlı proqramına, tikintinin artım tempinə uyğunlaşdırılmalıdır;

– İnşaat materialları sahəsinin strateji xəritəsinin təklif olunan alqoritmi şəkil 3-ki, kimi olacaqdır. Müəssisə səviyyəsində inşaat materialları sahəsinin balanslaşdırılan göstəricilər sisteminin strateji xəritə modeli şəkil 4-də verilmişdir. Təklif edilən model müxtəlif strateji prosesləri və qərarları nümayiş etdirir. Onlar müxtəlif müəssisələr üçün müxtəlif dərəcədə qəbul ediləndir. Strateji xəritə qeyri material aktivlərin, məsələn, ixtisaslaşmış yüksək peşəkar əməkdaşlar və ya məhsulun istehlakçılara müxtəlif nəqliyyat nönvləri ilə çatdırılması sisteminin tətbiqinin material nəticələrə, məsələn , yeni müştərilərin cəlb olunması ilə satışdan əldə olunan gəlirlərin artmasına necə çevrilməsi haqqında təsəvvür yaradır.

Ədəbiyyat

1. Abbasov Q.A., "Azərbaycanda tikinti məhsuluna qiymətin əmələ gəlməsinin təkmilləşdirilməsi istiqamətləri". İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2014; səh.147.
2. Hacıyev Q.B., "Azərbaycan respublikasında aqromarketinqin təşkili problemləri". İqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2005, səh.134.
3. Quliyev Ü.F., "Aqrar-səaye müəssisələrində marketinqin səmərəli təşkilinin regional problemləri". İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Gəncə, 2013; səh.151.
4. Manafov İ.N., "Emal sənaye müəssisələrininmarketinq strategiyası əsasında inkişaf məsələləri". İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2012 səh.145.
5. Nəcəfova Ş.E., "Aqrar sektorun inkişafında marketinq amili: müasir səviyyə və perspektiv imkanlar". İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2015 səh.156,157.
6. Yusifov E.M., "Azərbaycanda tikinti şirkətlərinin inkişafı və səmərəli fəaliyyəti". İqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2008 səh.140.
7. Шамхалова С.О. «Проблемы развития рекламного рынка в Азербайджане». Диссертационная работа на соискание ученой степени доктора философии по экономике. Баку,2015 ст.129.
8. Global Construction 2020(2010).

TURİZM MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Ruslan Quliyev,
Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı
E-mail: gmanager@millenniumtour.az

Summary: *The article is devoted to a study of the current state and features of the development of health tourism in Azerbaijan, as an important type of recreational activities. In particular, recreational tourism and its role in the development strategy of the tourism industry in Azerbaijan are being studied, the innovativeness of the market of health-improving tourism services in the country is revealed, and factors for the development of health-improving tourism in Azerbaijan are also revealed. In conclusion, the authors identify the priorities of the overall development strategy for the services of the sanatorium-resort and tourist complex, as well as of the enterprises of medical and health tourism in Azerbaijan.*

Key words: *recreational activity, recreational tourism, innovation, tourism, therapeutic and recreational tourism, health tourism, medical tourism, Azerbaijan.*

Ölkədə sağlamlıq-müalicə turizminin prioritet istiqamətlərinin formalaşması, eləcə də, turizm müəssisələrində idarəetmə sisteminin təkmilləşdirilməsi, sistemli yanaşma metodologiyası nəzərə alınmaqla, proqnoz-analitik xarakterli bir sıra işlərin yerinə yetirilməsini özündə ehtiva edir. Bu işlər, sağlamlıq-müalicə turizminin inkişafının idarəetmə konsepsiyasının məlumat bazası kimi çıxış edirlər. Onlar, idarəetmə prosesinin tərkib hissəsi olaraq, idarəetmə qərarlarının qəbulu üçün əsasdırlar. Bununla əlaqədar, proqnoz-analitik qiymətləndirmə sistemi aşağıdakı vəzifələrə cavab verməlidir:

– ümumilikdə, ölkə üzrə və ayrı-ayrı regionlarda sağlamlıq-müalicə turizminin formalaşması və inkişafı problemlərinin mahiyyətini əks etdirməli, eləcə də, regional inkişafla əlaqədə turizmin inkişaf maraqlarını və məqsədlərini nəzərə almalıdır;

– çətin müəyyən edilən çoxlu sayda parametrlərə malik qəliz modellərin qurulmasını tələb etməyən və icraçılar üçün sadə və aydın olan metodiki üsullar üzərində qurulmalıdır;

– kəmiyyət və keyfiyyət qiymətləndirmələrini təmin etməlidir ki, bu da onunla şərtlənir ki, bir sıra hadisələr sırf kəmiyyət formasında ifadə edilib, qiymətləndirilə bilməz;

– problemlərin araşdırılmasında və onların inkişaf meyllərinin proqnozlaşdırılmasında həm hesabat-statistika, həm də ekspert qiymətləndirmə metodlarına əsaslanmalıdır;

– konkret vəziyyətin qiymətləndirilməsində variantlılıq mütləq nəzərdə tutmalıdır; hadisələrin inkişafında mövcud ola bilən müxtəlif ssenarilərin hazırlanması və onların nəticələrinin proqnozlaşdırılmasında analitik yolla qəbul edilən qərarlar əsaslandırılmalıdır;

– həm dövlət, həm də ölkənin ayrı-ayrı regionları səviyyəsində qərarların əsaslandırılması və qəbulunun dəstəklənməsi funksiyasının yerinə yetirilməsinə istiqamətlənməlidir; eyni zamanda, proqnoz-analitik işlər sisteminin fəaliyyətinin əsas mahiyyəti və predmeti – yalnız informasiyanın ilkin uçotu və emalı deyil, idarəetmə orqanlarının müntəzəm fərdi sistemli yanaşmasını tələb edən problemli vəziyyətlərə dair effektiv işlərinin təmin edilməsidir;

– bütün maraqlı tərəflərə təhlil və qiymətləndirmə nəticələrinin açıq, əlçatan, sadə və anlaşılan olmasını təmin etməlidir.

Bundan əlavə sağlamlıq-müalicə turizmi müəssisələrinin inkişafının idarə edilməsinin əsaslarının formalaşmasında mühüm mərhələ – məqsədlərin müəyyən edilməsi prosesidir. Bu gün Azərbaycanda belə bir sual aktualdır: bir sosial-iqtisadi sistem kimi, sağlamlıq-müalicə turizmi sahəsinin gələcək inkişaf məqsədləri necə olmalıdır?

Əvvəla, ölkənin sağlamlıq-müalicə turizmi sahəsinin (və ya onun hər hansı bir regionunun) inkişaf məqsədləri sosial cəhətdən zəruri olmalıdır (sosial yönümlü məqsədlər), yəni insanların tələbatını təmin etməlidir, onların əldə edilməsi isə resurslarla təmin edilməlidir. Məqsədlər insanların tələbatlarını və maraqlarını obyektiv şəkildə əks etdirir. Bu məqsədlərə müvafiq olaraq, insanlar öz resurslarını təşkil edirlər. Azərbaycanda və onun regionlarında sağlamlıq - müalicə turizminin inkişaf məqsədlərinin formalaşmasının əsasında ictimai tələbatın, o cümlədən, idarəetmə subyektinin müxtəlif səviyyələrdə üzə çıxarılması və qiymətləndirilməsi durmalıdır. Belə ki,

– istehlakçılar üçün bu – konkret turist xidmətlərinə və məhsullarına tələbatın formalaşması və təmin edilməsi sahəsidir;

– turist industriyası nümayəndələri üçün – kapitalın tətbiqi sahəsi və fəaliyyət dairəsidir;

– dövlət icra hakimiyyəti üçün – büdcəyə gəlirlərin daxil olması və mövcud olan sosial-iqtisadi problemlərin ümumdövlət miqyasında həllidir.

Tələbatlar və məqsədlər arasında əlaqə maraqlar vasitəsi ilə təzahür edir. Onların daşıyıcıları, həm, xidmətləri istehsal edən sağlamlıq-müalicə turizmi müəssisələri və təşkilatları, həm də bu xidmətləri istehlak edən əhali, eləcə də bu sahənin infrastruktur qurumlarıdır. Bu baxımdan, əlaqələrinin və onların qovuşma sahələrinin müəyyənləşdirilməsi yolu ilə onların maraqlarının və fəaliyyətlərinin bir-birinə uyğunlaşdırılması lazımdır. Bütün bunlar aşağıdakıların həyata keçirilməsi yolu ilə mümkündür:

– istehsalat və sosial infrastrukturunun inkişafı;

– turizm və təbii ehtiyatların istismarı və onların qorunub saxlanılması;

– əmək ehtiyatlarının səviyyəsinin artırılması;

– ölkənin (və ya onun hansısa regionunun) büdcəsinin formalaşdırılması;

– ölkənin (və ya onun hansısa regionunun) dünya turizm bazarına irəliləməsi sahəsində əməkdaşlıq;

– sağlamlıq-müalicə turizmi sahəsinin inkişaf etdirilməsi üçün çərçivə şəraitinin yaradılmasında birgə iştirak, ən əvvəl, normativ-hüquqi bazanın işlənib hazırlanmasında, və s.

Beləliklə, belə bir məntiqi nəticəyə gəlmək olar ki, sağlamlıq-müalicə turizmi müəssisələrinin inkişaf məqsədləri onun ayrı-ayrı elementlərinin maraqlarına müvafiq olmaya bilməz. Hər bir struktur vahidi reallıqda müəyyən bir inkişaf məqsədini özündə ehtiva edir, buna görə də məqsədlərin ifadə olunması, bir çox hallarda, yalnız o zaman uğurlu ola bilər ki, sosial-iqtisadi sistemin özünün (sağlamlıq-müalicə turizmi müəssisələrinin) və ayrı-ayrı struktur bölmələrin məqsədləri arasında tarazlıq əldə edilmiş olsun.

Buradan prinsipial xarakterli ikinci müddəa irəli gəlir ki, məqsədləri iki qrupa bölmək olar: sağlamlıq-müalicə sisteminin məqsədləri və iştirakçıların məqsədləri. Sistemin məqsədləri – başlıca resurs sahiblərinin gözləntilərinin ümumi yekunudur, buna görə də onların əldə edilməsi bu gözləntilərin həyata keçməsinin başlıca şərtidir. İştirakçıların məqsədləri resurs sahiblərinin bilavasitə istəkləridir. Bu məqsədlərin hər biri müəyyən iyerarxik səviyyəyə müvafiqdir. Birinci halda, hədəflərin (məqsədlərin) sadə bir iyerarhiyasından, ikinci halda isə – iştirakçıların məqsədlərinin iyerarhiyasından söhbət gedir. Lakin, real təcrübədə, təbii ki, bu iki struktur bir-biri ilə çox sıx birləşir və məqsədlərin tam iyerarhiyasını təşkil edir.

Prinsipial xarakterli üçüncü müddəa ondan ibarətdir ki, sağlamlıq-müalicə turizm müəssisələrinin inkişafının idarə edilməsi üzrə ümumi modelin formalaşmasının əsasında ölkənin ictimai inkişaf məqsədləri durmalıdır. Bu məqsədlər həm dövlət, həm regional, həm də bələdiyyə səviyyəsində müəyyən edilməlidirlər. Onların arasında ən əsası – əhalinin özünün həyat keyfiyyətinin təmin edilməsidir. Buna görə də, sağlamlıq-müalicə turizm müəssisələrinin inkişaf məqsədlərini formalaşdırarkən, əhalinin bu inkişafdan birbaşa xeyir əldə etməsi tələbi rəhbər tutulmalıdır.

Sağlamlıq-müalicə turizmi sahəsində fəaliyyət göstərən müəssisələrin inkişafının idarə edilməsinin əsasları formalaşdırılarkən, ölkənin kompleks sosial-iqtisadi inkişaf məqsədləri, eləcə də dövlət və sahəvi səviyyədə sağlamlıq-müalicə turizminin tənzimlənmə prinsipləri böyük əhəmiyyət kəsb edir. Turizmin inkişaf məqsədləri, onların inkişafının şərtləndiyi real əlaqələrdən və münasibətlərdən təcrid olunmuş şəkildə baxıla bilməzlər. Ölkənin və ya onun ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişaf səviyyəsi, əlaqəli və ya rəqib sahələrin mövcud olması və onların inkişaf səviyyəsi, eləcə də digər xarici amillərin təsiri – bütün bunlar turizmin inkişaf məqsədlərinin ölkədə və ya onun hər hansı bir regionunda sağlamlıq-müalicə turizminin kompleks inkişafı məqsədləri ilə uzlaşdırılmasının vacibliyini şərtləndirir. Bundan əlavə, sağlamlıq-müalicə turizminin inkişaf məqsədləri, ölkənin, və ya onun hər hansı bir regionunun kompleks sosial-iqtisadi inkişaf məqsədlərinə münasibətdə ikili tabeli xarakterdə olmalıdırlar (məqsədlər və vəzifələr kimi çıxış etməlidirlər).

Buradan prinsipial xarakterli bir müddəa irəli gəlir. Bu müddəa ondan ibarətdir ki, sağlamlıq-müalicə turizmi müəssisələrinin inkişaf məqsədlərini «daxili» və «xarici» məqsədlər məcmusu şəklində təsəvvür etmək olar.

«Xarici» məqsədlər, bu sahənin beynəlxalq və milli səviyyədə problemlərin həllində iştirak etməsinə ehtiyacdan irəli gəlirlər; «daxili» məqsədlər, sağlamlıq-müalicə turizmi üzərində ixtisaslaşan regionların strateji seçimindən irəli gələn sağlamlıq-müalicə turizmi sahəsinə olan tələblərlə şərtlənirlər.

Beləliklə, tərəfimizdən təklif edilən sağlamlıq-müalicə turizmi sahəsi müəssisələrinin inkişafının idarəedilməsi modeli yuxarıda göstərilən prinsipial müddəalar, eləcə də təhlili işlər, aparılan sorğu, turizmin perspektiv inkişaf məhdudiyyətləri və şərtləri nəzərə alınmaqla, formalaşır və ölkəmizin sağlamlıq-müalicə turizmi kompleksinin bütövlükdə məcmu inkişaf məqsədlərinin formalaşması üçün əhəmiyyətlidir.[1]

Ümumilikdə, proqnoz-analitik xarakterli işlərin xüsusiyyətlərini nəzərə alaraq, qeyd etmək lazımdır ki, turizm müəssisələrinin iqtisadi potensialını və Sağlamlıq-Müalicə turizminin inkişaf strategiyasını, yalnız, həm milli, həm də qlobal səhiyyə sistemlərinin perspektiv inkişaf koordinatlarından irəli gələrək, elmi cəhətdən proqnozlaşdırmaq olar.

Qlobal səhiyyə, dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin müvafiq sahəsinin inkişafı vasitəsilə dünya miqyasında sağlamlığın yaxşılaşdırılmasını məqsəd qoyan məqsədyönlü fəaliyyət kimi təsbit edilə bilər (onun sektorlarından biri kimi dünyanın tibbi-Sağlamlıq-Müalicə turizmi çıxış edir).

Qlobal səhiyyənin beynəlxalq səmərəliliyinin mahiyyəti ondan ibarətdir ki, o, təbii sağlamlıq-müalicə resurslarının dünya miqyasında yenidən bölüşdürülməsi vasitəsi ilə ayrı-ayrı regionların və ölkələrin səhiyyə resurslarının kasıblığını kompensasiya etməyə qadirdir və bunu etməlidir.

Müasir qlobal səhiyyə sisteminin inkişafından əvvəl onun müxtəlif tarixi formaları mövcud idi: missioner aktivliyi, kolonializm dövründə metropoliya-ölkələrin öz koloniyalarına yardımı, qeyri-hökümət statuslu institutların inteqrasiya səyləri və s. Lakin, milli iqtisadiyyatın qloballaşması yeni, əvvəlki tarixə məlum olmayan, ictimai sağlamlığın «qlobal imperativlərini» doğurur. Onlar da, öz növbəsində, bəşəriyyətə yeni təhlükə olan qlobal xəstəliklərin yaranması meyllərini əks etdirirlər. Rasional, səmərəli və genişmiqyaslı qlobal səhiyyə sistemi bu təhlükəli meyillərə qarşı durmalıdır.

Dünya əhalisinin sağlamlığını çoxmillətli təşkilatlar və institutlar vasitəsi ilə idarə edən qlobal səhiyyə sistemi, özünə müvafiq olan «qlobal idarəetmə»nin iqtisadi mexanizminin yaradılmasını tələb edir. Bu, lider-ölkələr və inkişaf etməkdə olan dünya ölkələri arasında, tükənməkdə olan təbii sağlamlıq resurslarından daha səmərəli istifadə edilməsi əsasında təşkil edilən ədalətli beynəlxalq-sağlamlıq münasibətlərinin qurulmasından sonra mümkündür. Bütün bunlar beynəlxalq hüquq reqlamentinin xüsusi altsisteminin hazırlanmasını tələb edir.

Həmçinin, qeyd etmək lazımdır ki, bəzi hallarda, qlobal səhiyyə milli suverenitetin mahiyyətinin və səlahiyyətlərinin dərk edilməsi ilə ziddiyyət təşkil edir, çünki, sağlamlığın qlobal problemlərinin həlli tibbi-sanitar sahədə ümumbəşəri tələblərin prioritetliyinin qəbul edilməsini nəzərdə tutur. Bundan başqa, qlobal səhiyyə xüsusi (qlobal) peşəkar təcrübə alətinə çevrilir. Bu təcrübə istənilən sosial qrupa, peşə qrupuna və ya «pasiyent» qrupuna, eləcə də hər bir insana öz sağlamlıq vəziyyətinin təhlilini aparmağa imkan verməlidir, o cümlədən, milli səhiyyə sistemindən kənarda. Hər bir insan beynəlxalq tibb xidmətlərindən və birbaşa dövlətlərarası tibbi yardımdan istifadə edə bilər.

İnstitusional aspektdə qlobal səhiyyə sistemi – milli sistemə alternativ olan çoxmillətli səhiyyə modeli kimi təsbit olunub. Bu model, çoxmillətli səhiyyə təşkilatlarının yaradılması və reallaşdırılması əsasında qurulmuşdur.

İdarəetmə nəzəriyyəsi baxımından, iqtisadi cəhətdən qeyri-səmərəli olduğuna görə, qlobal səhiyyənin üfüqi təşkilati idarəetmə quruluşu, daxili milli yarımsistemlərin əksəriyyəti üçün qeyri-mümkündür. Qlobal səhiyyənin praktiki inkişafı göstərir ki, ölkədə müəyyən kritik sayda beynəlxalq inteqrasiya olunmuş qlobal səhiyyə institutlarının rəhbərliyi altında olan milli səhiyyənin inkişaf proqramlarının olması məqsədəuyğundur. Yalnız bu səbəbdən, qlobal səhiyyə, əczaçılıq məhsullarının beynəlxalq istehsalçılarının və filantropik tibbi-sanitar təşkilatların fəaliyyəti üçün dəqiq iqtisadi və hüquqi əsaslar qura bilər ki, bu da dünyanın bütün ölkələrinin milli sistemlərinin maraq dairəsi çərçivəsindədir.

İqtisadi baxımdan çox vacibdir ki, qlobal səhiyyə tibbi, sanitar, gigiyenik xidmətlərin bazarlarını genişləndirir, onlara dünyavi xüsusiyyət aşılayır, eyni zamanda, xəstəliklərin qlobal yayılması risklərini azaldır.

Dünyada infeksion xəstəliklərin yayılması təhlükəsi səhiyyənin qloballaşması ehtiyacını artırır. Bu xstəliklər, hər zaman, qlobal statuslu sağlamlıq problemləri hesab edilirdilər. Bu gün, infeksion xəstəliklərin yeni idarəedilməsi, onların qarşısının alınması və onlara nəzarət edilməsi modelləri yaradılmalıdır. Bundan əlavə, infeksion və qeyri-infeksion xəstəlik epidemiyalarının geniş miqyaslı yan təsirlərini proqnozlaşdırmaq lazımdır.

Qloballaşma şəraitinidə «ilkin» və «ikincil» səhiyyəni fərqləndirmək məqsədəuyğundur. «İlkin» səhiyyə deyəndə, milli səhiyyənin səviyyəsini, «ikincil» səhiyyə deyəndə isə – qlobal səhiyyə sistemini nəzərdə tuturlar (qlobal səhiyyə sisteminin yaranması mərhələsindən əvvəl, «ilkin» səhiyyə statusu yerli səhiyyə sisteminə məxsus idi).

Elmi təhlil çərçivəsində, belə strukturlaşma, qlobal sağlamlığın inkişaf meyllərinin (və müvafiq olaraq, qlobal səhiyyə sisteminin inkişaf meyllərinin) və milli sağlamlığın meyllərinin (müvafiq olaraq, ilkin səhiyyə sisteminin, yəni mlli səhiyyə sisteminin inkişaf meyllərinin) öyrənilməsini tələb edir. Daha sonra, onların müqayisəsinin aparılması, ümumi və xüsusi cəhətlərin tapılması, yaranan ziddiyyətlərin aşkara çıxarılması, bu ziddiyyətlərin aradan qaldırılmasının optimal mexanizminin tapılması vacibdir.

Praktiki baxımdan, yuxarıda qeyd olunanlar, ilkin (milli) səviyyənin real potensialından asılı olmayaraq, yüksək sağlamlıq keyfiyyətinin dəstəklənməsi üzrə ümumdünya siyasətini formalaşdırmağa imkan verəcəkdir.

İlkin və ikincil səhiyyənin dəyərlərinin sürətləndirilməsi mexanizminin öyrənilməsi - xüsusi bir istiqamətdir. Belə dəyərlərə aşağıdakılar aiddir:

- səhiyyə xidmətlərinin göstərilməsi sahəsində universal sosial ədalət prinsipi;
- hər hansı bir əlamətə görə (irqi, cinsi, milli, peşə, yaş) istisnalara yol verilməməsi prinsipi;
- sağlamlığın sosial müdafiəsi imkanlarının bütün diapazonuna tam və açıq çıxış;
- insanların real tələbatları və onların gözləntiləri ətrafında tibb xidmətinin yenidən təşkili.

Qlobal səhiyyənin iqtisadi əsası - ilkin və ikincil səhiyyənin strukturuna kapital investisiyalarıdır. Cəmiyyət, milli səhiyyə sistemlərinin müasir səviyyəyə qaldırıla bilməməsinə və gözləntilərə müvafiq üsullarla və səmərəliliklə tibb xidmətlərinin göstərilməməsinə getdikcə daha çox tələbkar və kritik yanaşmağa başlayır. Lakin problem elə bundan ibarətdir ki, qlobal səhiyyə strukturlarına investisiya qoyuluşlarının mənbəyi kimi milli dövlətlərin büdcələri çıxış edir ki, bu da, çox vaxt, çətin həll olunan ziddiyyətlərə gətirib çıxarır, çünki bəzi ölkələr qlobal səhiyyə sisteminə daha çox maliyyə vəsaiti qoyur, lakin ondan daha az töhvə alır, digərləri isə az vəsait sərf etsələr də, daha çox töhvə əldə edirlər.

Son zamanlar, sosial ədalət haqqında danışanda, onun xarakteristikasına, mütləq komponent kimi, müxtəlif ölkələrdə sağlamlıq səviyyəsində və vəziyyətində mövcud olan qeyri-bərabərliyin aradan qaldırılmasını daxil edirlər. Bu qanunauyğun-dur, çünki bəşəriyyət, hələ heç vaxt, bu qeyri-bərabərliyin aradan qaldırılması üçün belə böyük həcmdə potensial səhiyyə resurslarına malik olmamışdır.

Qeyd etmək lazımdır ki, hal-hazırda, iqtisadiyyatda böhranın təzahürlərinə baxmayaraq, qlobal səhiyyənin formalaşması və inkişafına çəkilən xərclərin artım templəri məcmu ümumdaxili məhsulun ümumi həcminin artım templərini üstələyir, sürətli texnoloji inqlab isə cəmiyyətin sağlamlıq potensialını artırır, çünki müasir bəşəriyyətin sağlamlıq səviyyəsi təhsilli və müasir qlobal cəmiyyətin meyarlarına müvafiq olmalıdır.

Bununla belə, reqressiv meyllər də vardır. Paradoksal vəziyyətdir ki, bəzi ölkələrdə, milli səhiyyə sistemlərinin sürətlə inkişaf etdirilməsinə baxmayaraq, digər ölkələrdə milli səhiyyə sistemlərinin pisləşməsi müşahidə olunur. Bu, nəinki, müva-fiq qeyri-bərabərliyi doğurur, həmçinin, qlobal səhiyyənin formalaşmasının ilkin şərti olan milli səhiyyə sistemlərinin ümumdünya konvergensiyasını çətinləşdirir və ona mane olur. Bundan başqa, digər, buna oxşar bir meyl də aşkarlanır. Bu meyl, özünü, eyni ölkənin müxtəlif regionlarında səhiyyənin səviyyəsində və əhalinin sağlamlıq səviyyəsində qeyri-bərabərliyin güclənməsində göstərir.

Beləliklə, sağlamlıq-müalicə turizminin inkişafının iqtisadi və sosial əhəmiyyəti onun səmərəli Azərbaycan variantının formalaşması üzrə xüsusi strateji proqramın hazırlanmasını aktuallaşdırır.

Yuxarıda deyilənləri ümumiləşdirərək, qeyd edək ki, tibbi turizmin dünya bazarında Azərbaycan seqmentinin inkişafı üzrə praktiki tövsiyələr sistemi aşağıdakı aktual prioritetlərə istiqamətlənməlidir:

- əhalinin əsas kateqoriyaları üçün sağlamlıq-müalicə xidmətlərinin əlçatanlığının təmin edilməsi;
- regional tibbi-sağlamlıq klasterlərinin səmərəliliyinin artımı;
- sağlamlıq-müalicə turizmi industriyasının dünya standartlarına müvafiq rəqabət qabiliyyətinin formalaşdırılması və onun infrastrukturunun sürətlə inkişaf etdirilməsi;
- sağlamlıq-müalicə biznesinə xarici və yerli investisiyaların cəlb edilməsi sahəsində qanunvericiliyin sadələşdirilməsi;
- bələdiyyə və regional hakimiyyət orqanlarının sağlamlıq-müalicə biznesini real dəstəkləmələrindən asılı olaraq, Sağlamlıq-Müalicə turizmi sahəsində sahibkarlıq fəaliyyətindən yerli büdcələrə vergi dərəcəsinin proporsional asılılığının təyin edilməsi (lokal Sağlamlıq-Müalicə turizmi sisteminin - ticarət, tikinti, rabitə, nəqliyyat, əyləncə industriyası, məişət xidməti, ictimai iaşənin lokal elementlərinin inkişafına yardım);
- lokal sağlamlıq-müalicəvi turizm komplekslərinə Sağlamlıq-Müalicə turizmi iştirakçılarının çatdırılmasının səmərəli təşkil olunmuş logistikasını - alternativ strategiyanı intensiv sürətdə inkişaf etdirmək lazımdır (onların unikal xüsusiyyətlərini reallaşdıraraq);
- tibbi-sağlamlaşdırıcı turizm sahəsində əhalinin pul gəlirlərinin və xərclərinin balansının strukturuna təsirini proqnozlaşdırmaq, eləcə də onları rekreasiyalı regionların xeyrinə yenidən bölüşdürmək lazımdır;
- tibbi-sağlamlaşdırıcı komplekslərin fəaliyyətində mövsümiliyin aradan qaldırılması əsasında iqtisadi səmərəni artırmaq, bu müəssisələrin ilboyu işləməsini təmin etmək. [2]

Ədəbiyyat

1. https://azertag.az/ru/xeber/RASPORYAZHENIE_PREZIDENTA_AZERBAIDZHANSKOI_RESPUBLIKI_O_GOSUDARSTVENNOI_PROGRAMME_KURORTY_AZERBAIDZHANA-660160 [Elektron resurs] - Распоряжение Президента Азербайджанской Республики о Государственной Программе «Курорты Азербайджана».

2. https://azertag.az/ru/xeber/RASPORYAZHENIE_PREZIDENTA_AZERBAIDZHANSKOI_RESPUBLIKI_OB_UTVERZHDENII_GOSUDARSTVENNOI_PROGRAMMY_RAZVITIYA_KURORTOV_V_AZERBAIDZHANSKOI_RESPU

BLIKE_V_2009_2018_GODAX-699455 [Elektron resurs] - Распоряжение Президента Азербайджанской Республики об Утверждении «Государственной Программы Развития Курортов в Азербайджанской Республике в 2009-2018 годах».

3. Gülnar Xanlar qızı Səmədova, "AZƏRBAYCANDA TURİZM SEKTORUNUN İNKİŞAFININ STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ", Azərbaycan Turizm və Menecment Universiteti, "Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda 5-ci respublika elmi-praktik konfransını keçirir, 22 noyabr 2019-cu il.

4. Разумов А.Н. Основы государственного регулирования в сфере развития восстановительной и курортной медицины // Актуальные проблемы восстановительной медицины, курортологии и физиотерапии. - 2001. - № 2.

5. http://medtrip.ru/view_page.php?page=22 [Elektron resurs] - Медицинский туризм. Стоимость операций за рубежом. Сравнительная стоимость хирургических операций в разных странах.

XİDMƏT SAHƏSİNDƏ MÜŞTƏRİLƏR İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ

Orxan Qədirov
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
E- mail: xangadirov@gmail.com

Summary: *The strengthening of the competitive environment in a market economy makes it necessary to pay more attention to the characteristics of customer interaction. The quality of customer service is one of the key factors in the success of any company working in the field of service. The high level of service leads to an increase in the number of loyal customers. The formation of a benevolent image of the enterprise leads to an increase in its financial performance. In this regard, the current application of CRM(CRM customer relationship management) is aimed at building a sustainable business. The combination of several such activities constitutes a "customer-oriented" approach. In this regard, the article discusses the use of Customer Relations Management (CRM) in the service sector, the effectiveness of the use of CRM by enterprises, etc. investigated.*

Key words: *CRM, liquidity, loyalty, customer, customer relations*

Giriş

Müştərilər ilə münasibətin idarə olunması sistemindən dünya praktikasında geniş istifadə olunur. Bu sistem şirkətin müştərilər ilə əlaqəsinin güclənməsinə, müştərilərin istəklərinin daha yaxşı araşdırılmasına, şirkətin daimi müştərilərinin sayının artırılmasına və ümumilikdə şirkətin gəlirlərinin artımına gətirib çıxarır. Məqaləmizdə xidmət sahəsində müştərilər ilə qarşılıqlı münasibətlərin idarə olunmasının qiymətləndirilməsi barədə bəhz edəcəyik.

1. CRM – Müştəri münasibətləri menecmenti anlayışının mahiyyəti

CRM (Customer relatioship management) – MMM (Müştəri münasibətləri menecmenti) sistemi avtomatlaşdırma sistemidir. Biznesin bəzi əməliyyatlarını avtomatlaşdırmaq üçün nəzərdə tutulub. Bilirik ki, avtomatlaşma ümumi proseslərdən insan əməyinin ixtisarıdır. Hər hansı proses insan tərəfindən deyil, müəyyən bir avtomat qurğu tərəfindən həyata keçirilirsə, bu proses avtomatlaşdırılmış proses adlanır.

Əgər hər hansı bir işi əllə yerinə yetirən bir usta öz işini genişləndirmək üçün müəyyən qədər vəsait toplayır, sonra dəzgah alır, biznesini genişləndirir. Yəni o, öz işini dəzgahla avtomatlaşdırır. MMM-də biznes fəaliyyətinin avtomatlaşdırılması üçün bir alətdir. Əgər şirkətin alıcılarının sayı azdırsa, onları müəyyən formada yada salmaq mümkündür, onu bir faylda saxlamaq da olar. Müştərilər durmadan artırsa, onlar haqqında məlumatlar çoxalırsa, bu məlumatları təhlil etmək yadda saxlamaq çətinləşir. Müştəri isə mühərrikdir. Ona kim yaxşı yanaşırsa, yadda saxlayırsa, ona da istiqamət götürür.

Müştəriyə daha diqqətli yanaşmaq, onunla olan münasibətləri daimi münasibətə çevirmək, onun loyallığını qazanmaq üçün MMM sistemləri yaradıldı.

MMM – proqram təminatı olaraq müştərilərlə münasibətləri avtomatlaşdırır. Bir misala baxaq.

Elə hesab edək ki, tur firma olaraq fəaliyyət göstəririk. Tur firmanın aylıq gəliri 15000 manatdır. Bir ay ərzində 1500 nəfərə xidmət göstərmişik. Bunu həm ofisə gəlmiş müştərilər, həm də birbaşa meyllə etmişik. Bu müştərilərdən 150 nəfər firmamıza səyahət üçün müraciət edir. Müraciət edənlərdən 50%-i daha çox maraqlanır və tur paketlərə alıcı gözü ilə baxırlar. Bu müraciət edənlərin heç də hamısı tur paket əldə etmir, cürbəcür fikirlərlə inkar edirlər, qiymət, müddət və s. xoşlarına gəlmir, amma bir nəfər 30 nəfərlik kollektiv üçün tur paket alır və pulunu ödəyir. Tur paketin orta qiyməti 400 manatdır. Aylıq 30x400=12000 manatlıq mal satırıq. Bu proses marketinqdə satış qıfı adlanır. Deməli, müştərilərin sayı piramida formasında yuxarıdan aşağıya doğru azalır. Sona real alıcılar qalır. Müştəri potensial alıcıdan pul ödəyən alıcıya çevrilir və süzgəcdən keçirilir. Hər mərhələdə alıcının sayı azalır. Mağazaya 150 müştəri gəlir, biz 1350 müştərini itiririk. Bunlar potensial müştərilərdir. Bir az sonra firmaya müraciət edənlərin 68%-i tur paket əldə etmədən gedir.

Sonda cəmi 30 müştəri qalır və görürük ki, hər mərhələdə nəsə baş verir. Bu problemlər baş verir və bunların aradan qaldırılması üçün CRM sistemləri qurulur. Bu sistemdə bütün müraciət edən müştərilərin ümumi bazası yaradılır. Bu sistemdə satış menecerlərinə xəbərdarlıq olunur, telefon danışıqları qeydə alınır, menecerlərin reytinqi

qurulur. İmtinalar təhlil olunur. Müştərilər artır, iş də artır. Səmərəli iş üçün alıcı məlumatlarından düzgün istifadə etmək lazımdır. Bir cox tədqiqatcılar MMM sisteminin səmərəlilik və ugur səviyyəsini tam fərqli izah edirlər. Şirkətlər bu sistem vasitəsiilə onlardan mal almaq həvəsində ola biləcək alıcıları daimi alicıya çevirirlər, əsas məqsəd müştəri loyallışını qazanmaqdan ibarətdir. Belə ki,müştəri artımı 80%, müştəri artımına görə gəlirlər 79%, bazar payının artımı 75%, investisiyalardan gəlirlər 60%, xərclər 50% və sair qeyd olunur.

Alıcı münasıbətlərini idarə olunmasında MMM sisteminin rolunu bir misalla daha yaxşı izah etməyə calışaq. Məsələn, "Pyer Kardin" MMM sisteminindən istifadə sisteminə baxaq. Bu şirkət dünyada ən geniş alıcı məlumatları sisteminə malikdir. Onun informasiya sisteminə demoqrafik məlumatlar daxildir. Son illər bu sistemə satış göstəriciləri də daxil edilib. Bu şirkətin məlumat bazasına 8 milyondan cox müştərisini məlumatları daxıldir. Bundan başqa onun öz ölkəsində və dünyada olan satış şəbəkəsinin məlumatları da bu sistemə daxil edilir. MMM sistemi məlumatlar çoxluğunu təşkil edir. Bu sistem məlumatları təhlil edir. "Pyer Kardin" nə alıcıları ilə ugurlu fəaliyyətin yollarını göstərir. Son məqsəd isə daha cox alıcı cəlb etmək, daha cox alıcı razılığı əldə etməkdir. Şirkətin rəhbərliyi bu sistemdən istifadə edərək alıcılara fərdi yanaşmanın mümkünlüyunu, hər bir alıcının istəklərini daha yaxşı bilərək onlara daha uyğununu təklif edə bildiklərini qeyd edirlər. Şirkət öz fəaliyyətini marketinqlə uğurla əlaqələndirirlər. Təkmilləşdirilmiş marketinq fəaliyyəti imkan verir ki, bu şirkətin uğurları daha da artsın, gəlirləri daha da çoxalsın. Sonda yenə şirkət qazanır. Yüksək müştəri məmnunluğu yaranır. Faydalı müştəri münasibətlərini yaranmasına səbəb olur.

Göründüyü kimi bu çox əhəmiyyətli, yeni və aktual bir məsələdir. Bu baxımdan bu sahədə tədqiqatın aparılmasının bir daha vacibliyi ortaya çıxır.

2. Xidmət sahəsində müştərilər ilə qarşılıqlı münasibətlərin idarə olunmasının qiymətləndirilməsi

Bu sistemin xüsusiyyətlərinin aşkarlanması və müştərilərlə qarşılıqlı əlaqələrin idarə olunması sisteminin öyrənilməsinə kompleks yanaşmadır. Bu məqsədlə bir çox metodlardan istifadə olunur: Return on İnvestment; Total lost of Ownership; "Məqsəd üzrə idarəetmə"; Balanced Score Cards və s.

Layihənin səmərəliliyinin qiymətləndirilməsi ona qoyulan investisiyaların məqsədyönlülüyü haqqında qərar qəbulunda əsas bir mərhələ rolunu oynayır. Ən son belə təəssürat iqtisadiyyatın ümumi prinsipləri nöqteyi-nəzərindən, eləcə də sağlam düşüncə nöqteyi-nəzərindən düzgün hesab olunur. Buna baxmayaraq, informasiya texnologiyalarına qoyuluşların effektivliyinin qiymətləndirilməsi əksər hallarda cətin uşaq səviyyəsində baş verir, ya da ümumiyyətlə baş vermir. Bir tərəfdən bu malgöndərənlər tərəfindən tam ilkin təhlilin keçirilməsinə əmək sərf etmək həvəsində olmamaları, digər tərəfdən isə belə tədqiqatlardan alınan nəticələrə alıcıların inamsızlığı müəyyən rol oynayır. Amma əslində hər iki problem bir mənbədən, daha dəqiq desək, aydın və etibarlı bir metodik iqtisadi effektivliyin İT layihəsinin olmamasıdır.

İnformasiya sistemi adı altında burada və gələcəkdə müştərilərdən informasiyaların yığılması, saxlanması, ötürülməsi sistemi başa düşülür. Bundan başqa, həmin sistem aşağıdakı əsas komponentlərdən təşkil olunmuşdur: proqram təminat, məlumat təminat, texniki vəsaitlər və digər heyətə xidmət edən səviyyələr.

MMM çərçivəsində səmərəli nəticə almaq üçün göstəricilərin riyazi təhlil metodlarından və müasir metodikalar arsenalından istifadə etmək lazımdır. Məsələn, müştəri cəlb etmək üçün vacibdir.

– müştəri üstünlükləri modelini onların axın faizini azaltmağa imkan verə biləcək bir formada qurmaq lazımdır;

– müştəri üstünlüklərinin bu və ya digər kanalla əməkdaşlığı və satışı üzrə təhlil etmək;

– müştərinin həyat dövrünü, onun davranışı mərhələlərində təhlil etmək (diqqətin cəlb olunmasından sadiqliyin yaranmasına qədər)

$$\frac{\left(P_{CRM} - P\right)}{Z \cdot 100\%} \quad [4]$$

burada, P_{CRM} – CRM tətbiqi ilə müəssisənin aldığı gəlir; P – CRM tətbiq olunmadan müəssisə tərəfindən əldə olunmuş gəlir; Z – layihənin həyata keçirilməsinə çəkilən xərclər.

Xərc hissəsinin müəyyənləşdirilməsində bir çox çətinliklər yaranır. İş ondadır ki, proqram təminatına çəkilən xərclər xidmət və avadanlıqlar üzrə məsləhət xidmətləri xərcləri hesaba alınmır. Bura ən azından öz işçilərinin əmək haqlarını, proqram təminatından istifadə xərclərini əlavə etmək lazımdır. Amma daha dəqiq nəticələri iş vaxtı istifadə etmək lazımdır.

Bütün çətinliklərə baxmayaraq, xərc hissəsinin hesablanması üçün daha adekvat metodika mövcuddur (TCO - Total Cost of Ownership - əldəetmənin məcmu dəyəri). O, kifayət qədər formalaşmışdır, onu tam olaraq istifadə etmək olar. Gəlir hissəsinin müəyyən edilməsi ilə iş bir az da çətinləşir.

MMM texnologiyasının tətbiq nəticəsindənə qədər artım baş verdiyini dəqiq təyin etmək üçün yuxarıdakı modeldən necə lazımdırsa, eləcə istifadə etmək lazımdır. İki müxtəlif biznesi eyni zamanda aparmaq lazımdır: avtomatlaşmış və avtomatlaşmamış variantda. Real həyatda bunu həyata keçirmək qeyri-mümkündür. Bir neçə alternativlər isə ekspert qiymətləndirmədir.

Firmanın digər bölmələrinin əməkdaşları və ya menecerlərinin vaxtında əlaqə saxlaya bilmədiklərindən müştəri itkisi azalır. Verilmiş iqtisadi effekt göstəricisinin hesablanmasımüştərilər tərəfindən edilmiş iradlar nəticəsində

firmaya dəymiş ziyan məbləğindən və ya göstərilən xidmətlərin dəyərindən çıxılmaqla həyata keçirmək lazımdır. Misal kimi belə xüsusi hallar üzrə itkilərə tədbirin keçirilməsi haqqında dəyişikliklərlə müştərinin öz vaxtından xəbərdar edilməməsindən baş verən itkiləri qeyd edə bilərik (məsələn, uçuşların vaxtının və tarixinin dəyişməsi və s.). Müştərilərin şirkətlə vaxtında əlaqə saxlamalarının qeyri-mümkünlüyü səbəbindən müştəri itkisinin azalması, göstərilməyən xidmətlərin dəyəri kimi qiymətləndirilir. "Pis" və "soyuq" müştəriləri fərqləndirmək imkanı". Bu bölmədə göstərilən xidmət və ya müştəriyə mal satışından itkinin azalması kimi gələcək müqavilələrin qeyri-dəqiq yerinə yetirilməsi şərti başa düşülür. "Təkrar satışların" miqdarının yüksəldilməsi və uyğun olaraq, gəlirlərin yüksəldilməsi hər müştəri ilə aparılan işin nəticəsindən asılıdır.

Heyətin ixtisaslaşma dərəcəsinə tələbin azaldılması. Şirkətin tərəfdaşlarından biri ABŞ-da yerləşir və qeyd edir ki, onun müştərilərlə iş aparan, telefonla danışıqları həyata keçirən menecerlərinin İQ-si 40-dan yüksək deyil. Beləliklə, CRM sistemi gərək müştərilərin suallarını formalaşdırsın və alınan cavabları müvafiq olaraq aydın, dəqiq əlaqələndirsin. Bundan əldə olunan iqtisadi effektivlikdən heyətə çəkilən xərclərin azaldılması müəyyən olunur, bu məqsədlə daha ucuz işçi qüvvəsindən istifadə olunur. Amma əgər CRM səmərəliliyini müştəri cəlb olunmasından müəyyən ediriksə, MMM avtomatlaşdırılmasını, statistik göstəricilərin dəqiqliyini əsas götürməliyik.

Beləliklə, müştərilərə xidmət üçün avadanlıqlar sisteminə, müştəri ilə qarşılıqlı əlaqənin idarə edilməsinə nəzarət və metodiki qiymətləndirmə sisteminə malik olmaq lazımdır. Dövriyyə kapitalında pul vəsaitlərin payı 6% artmışdır.

Likvidlik əmsalının müsbət istiqamətdə dəyişməsinə aktivlərin absolyut artımı təsir göstərmişdir, mənfi təsiri isə qısamüddətli öhdəliklərin yüksəlməsi göstərmişdir. Bununla bərabər, likvidlik əmsalı nəzəri normativlərə uyğun gəlir. Şirkətin müştəriləri həm hüquqi, həm fiziki, həm də xüsusi şəxslərdir. Bunlardan çıxış edərək bu qrup müştərilərin davranışına təsir edən bir qrup amilləri fərqləndirmək lazımdır.

Bundan sonra fiziki və hüquqi şəxslərə sadalanan amillərin təsiri əhəmiyyətinə görə izah olunur.

Qiymət – bu gün qiymət həlledici faktorlardan biri hesab olunur. Müştərilər onun hər kiçik dəyişməsinə çox ciddi cavab reaksiyası verirlər.

Əmtəəyə ilkin tələb səviyyəsi – hazırki dövrdə artıq tövsiyə olunmuş, uğurları aktiv olaraq irəlilədilməsi baş tutan əmtəələrdə istifadə olunur.

Kreditlə almaq imkanı var, çünki bəzi müştərilərə kredit xətti açılır. Kreditin miqdarı və dərinliyi müştəriyə inam əsasında müəyyən edilir.

Nəticə

Göstərilənləri nəzəra alaraq anlamaq olar ki, CRM şirkətlərin inkişaf prosesində əvəzolunmaz yer onayır. CRM əməliyyatlarının düzgün qiymətləndirilməsi şirkət üçün böyük üstünlüklərin əldə olunmasına tminat yaradır. Bu prossesin həyata keçirilməsi şirkətə maraq göstərən müştərilərin sadiq müştərilərə çevrilməsinə gətirib çıxarır. Bu da, öz növbəsində şirkətin daimi gəlirlərinin artımına müsbət təsir göstərir.

Ədəbiyyat

1. F.Kotler və G. Armstronq "Marketinq" Dərslik. 2008
2. A.Aşurov. Marketinq kommunikasiya sistemi,Dərslik, 2008
3. A.Ş.Əlizadə. Reklam və marketinq kommunikasiyaları , Dərs vəsaiti ,Bakı ,2011
4. Трубочкина М.И. Управление затратами предприятия. – М.: 2005
5. ВсёоCRM:[Customer Relationship Management]Е.Соломатин.2007,N2

İnternet mənbələri

6.Tüketici Davranışlarını Etkileyen Faktörler ve Pazarlama**.** www.ansiklopedim.com/.../Tuketici-Davranislarini-Etkileye

7. İstehlakçı davranışının modelləşdirilməsində yeni istiqamət: Müştəri Münasibətləri Menecmenti (CRM) facemark. az/.../istehlakçı-davranışının modelləşdirilməsi.

SAĞLAMLAŞDIRMA TURİZMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI ÜZRƏ ARAŞDIRMA VƏ BEYNƏLXALQ BAZARA ÇIXIŞIN YOLLARI

Ləman Məmmədova
Iqtisad üzrə fəlsəfə doktoru, Bakı Biznes Universiteit
E-mail: mammadova.laman@atmu.edu.az

Summary: *In modern times, tourism plays an important role in the development of the country's economy in the creation of new jobs and the solution of sosial problems of society. The direct role of tourism in the development of the non-oil sector and the growth of national income is undeniable. At the same time, the development of the tourism sector, the implementation of Marketing Research in the field of health tourism and at the same time the development is one of the aktual issues. There is a great need in the international level of the country in terms of health tourism.*

Keywords: *health tourism, climate, resort, treatment, marketing research.*

Müasir zamanda ölkə iqtisadiyyatının inkişafında turizmin yeni iş yerlərinin açılmasında, cəmiyyətin sosial problemlərinin həllində çox böyük rolu var. Ölkə üzrə turizmin inkişafı qeyri-neft sektorunun inkişafında və milli gəlirlərin artmasının da turizm sahəsinin birbaşa rolu danılmazdır. Bununla yanaşı turizm sahəsinin inkişafı, sağlamlaşdırma turizmi sahəsində marketinq araşdırmalarının aprılması və eyni zamanda inkişafı aktual məsələlərdən biridir. Sağlamlaşdırma turizmi üzrə ölkəni beynəlxalq səviyyədə tanıdılmasında çox böyük ehtiyac var.

İlk öncə, sağlamlaşdırma turizmi barədə qısa məlumat vermək istərdim. Sağlamlaşdırma turizmi – məqsədli şəkildə müayinə və müalicə üçün edilən səyahətləri özündə birləşdirir. Sağlamlaşdırma turizmi – fərdin səhhəti ilə bağlı olan təsir vasitələrindən –mineral sularla, bitkilərlərlə müalicəni, iqlim, balneoloji, dəniz, palçıqla və s. müalicəni özündə birləşdirən turizmin növlərindən biridir. Məhz bu baxımdan səhhətləri ilə bağlı səyahətləri həyata keçirən şəxslər daha çox bu növ kurort, sanatoriya və digər sağlamlaşdırma obyektlərinin yerləşdiyi ərazilərə üstünlük verirlər. Bu baxımdan hər bir ölkə rəhbərivə bu sahədə məsul şəxslər milli təbii sərvətləri olan minerla suların, iqlimini, bitkilərin , ümumilikdə demək olar ki, bütün təbii sərvətləri təhlil etməlidirlər. Və sağlamlıq məqsədilə yaradılan kurort və sanatoriyaların müasir tələblərə cavab verməsi, beynəlxalq səviyyədə tanıdılması hər bir ölkənin qarşına qoyduqları əsas məqsədlərdən biri olmalıdır. Kurort və sanatoriyalar müxtəlif müalicə üsullarından istifadə etməklə ayrı-ayrı xəstəliklərin qarşısının alınması və aradan qaldırılmasında əsas vasitə rolunu oynayırlar.

Dünya dövlətlərinin təcrübəsində isə kurortların 4 əsas növü fərqləndirilir:

5) Əsas müalicə vasitəsi qismində təbii mineral sulardan istifadə olunan balneoloji kurortlar;
6) Müalicəvi palçıq yataqlarının olduğu ərazilərə yaxın məsafədə yerləşən palçıq kurortları;
7) Meşə, dağ, dəniz sahilində müalicə və s. növlərini özündə birləşdirən iqlim kurortları;
8) Bir sıra müalicə üsullarından dərhal və bir yerdə istifadə olunmaqla yaradılan keçid kurortlar.

Onu da qeyd etmək lazımdır ki, digər turizm növlərindən fərqli olaraq, sağlamlaşdırma turizminin davamlılıq müddəti 21-24 gün üçün hesablanır.

Bu baxımda, ilk öncə, vətənimizin Azərbaycan respublikasının bölgələr üzrə sağlamlıq turizmi ilə bağlı araşdırmaları baxaq:

Şəki-Zaqatala bölgəsi müalicəvi mineral sular və bulaqlarla zəngin bölgədir. Zaqatalada rayonunda 2 böyük və 20-dən çox kiçik debitə malik olan mineral su yatağı mövcuddur. Qızılbulaq,Oğlanbulaq, Mosku, Hamambulaq (Qax rayonu), Qəbələ rayonunda yerləşən Bum, Xalxal, Buqusşor və Ağbulaq (Oğuz) və digər bulaqların suyu bir çoxin müalicəsində böyük əhəmiyyət kəsb edir. Bu xəstəiklərə əsəb, dəri, ürək-damar, əzələ xəstəliklərini misal göstərmək olar.

Bizim üçün bəzi hallarda istifadəsi əlçatmaz olan Qax rayonunun termal sularını 150 il bundan əvvəl rus, alman, polyak, yəhudi və s. ölkələrin alimləri tədqiq etmiş, termal və mineral bulaqların texniki göstəriciləri haqqında tam dəqiqliklə məlumat vermişlər. Termal və mineral suların debiti, temperaturu, kimyəvi tərkibi, müalicəvi xüsusiyyətləri və s. göstəriciləri özünün elmi praktiki əhəmiyyətini bu gün də saxlayır.

Qaxın 1500 km2 ümumi ərazisində 5 termal və 6 mineral soyuq bulaq var. Onlardan yeddisi bilavasitə yer səthinə çıxışı olan termal sulardır. İlisu, Qaynama, Nohbulaq, Kürmükçay hər birinin bir çıxışı olan bulaqlardır. Göstərilən termal və mineral bulaqların ilk tədqiqi 1887-ci ildə Q.V.Strube, 1928-ci ildə isə K.N.Paffenqolts tərəfindən aparılmışdır.

Qax rayonunun Suskən kəndi yaxınlığındakı bulaqdan istifadə edilərək "Qax" suyu istehsal edilir. Suskən kəndində bu məqsədlə bir müalicəvi sanatoriya fəaliyyət göstərir. Hamam çayı sahilindəki Oğlan bulaq, Qız bulaq və hamam adlanan hovuzlar oraya gedən yüzlərlə xəstəyə şəfa bəxş edirdi. Əksər hallarda bu bulaqların suyu hədər yerə axıb gedirdi. Sevindirici haldır ki, bu yaxınlarda həmin bulaqların suyu borularla "Ulu dağ" istirahət mərkəzinə gətirilmişdir. Müalicə məqsədi ilə sudan istifadə üçün artıq uzun və üzücü yolu qət etmək lazım gəlmir. Xəstələr hər cür şəraiti olan rahat otaqlarda bu müalicəvi sudan istifadə etməyə başlamışlar.

Naftalan kurort şəhəri müalicəvi nefti ilə məşhurdur. Gəncə-Qazax rayonu kurort-rekreasiya və meşə ehtiyatlarının zəngiliyi ilə fərqlənir. Müalicə əhəmiyyətli mineral suları, nefti və mənzərəli dağ-meşə landşaftı burada müalicə-istirahət mərkəzlərinin yaradılmasına imkan vermişdir. Naftalan nefti 70-dən çox xəstəliyin müalicəsində istifadə olunur.

Mineral sular həm müalicəvi, həm də süfrə suları kimi işlədilir. Aşağı Daşkəsən, Yuxarı Daşkəsən, Narzan, Gədəbəy, Alaxançallı, Qabaqtəpə, Slavyanka məşhur sulardır. Müalicəvi əhəmiyyətli naftalan nefti bu ərazidə çıxarılır.

Turizmin inkişafı üçün Tovuz rayonunun təbii rekreasiya potensialı böyükdür. Tovuz Maral bulağı, Atan bulaq, Fmdıqlı bulağı, Turşsu, Böyrək suyu bulağı və s. dağ yamaclarında il boyu mövcud olan yaşıllıqlar istirahət üçün çox əlverişli imkanlardır.

Daşkəsən rayonu Kiçik Qafqazın şimal-şərqində yerləşir, relyefinə görə səthi şimala doğru alçalan dağlarla əhatə olunmuşdur, dağ çayları ilə zəngin olduğundan təbiəti gözəldir. Rayonda müalicəvi bitkilər də geniş yayılmışdır ki, bunlar müxtəlif xəstəliklərin müalicəsində istifadə edilir. Rayonun gur çeşməli, şəffaf, müalicəvi əhəmiyyətli bulaqları - Yumurtalı bulaq, Narzan bulağı, Turşsu bulağı. Qiblə bulağı, Qayğı bulağı, Böyrək bulağı, İdris bulağı, Seyid bulağı turistlərin ən çox ziyarət etdiyi məkandır.

Lənkəranda Meşəsu mineral bulağı, "İstisu" müalicəvi bulaqları yerləşir.

Qobustan və Şamaxı ərazisində palçıq vulkanları geniş yayılmışdır. Şamaxıda 50-yə qədər müxtəlif böyüklükdə palçıq vulkanı konusu var.Bu palçıq vulkanlarının çoxu fəaliyyətdədir.

İsmayıllı rayonundakı Zərgəran mineral sularından müalicə məqsədli sanatoriya-müalicə komplekslərinin yaradılması nəzərdə tutulmuşdur. Kürdəmir, Salyan, Neftçala və digər rayonlarda olan mineral sular oynaq və revmatizm, dəri-zöhrəvi xəstəliklərin müalicəsi üçün istifadə olıınur. Belə suları yerli əhali "isti sular" adlandırır.

Kürdəmir rayonu ərazisində Kürün sahilində rayon mərkəzindən 25 km-də Mollakənd kəndində "Şəfqət" sanatoriyası Carlı deyilən yerdə çıxan isti radon su bazası əsasında fəaliyyət göstərir. Eyni vaxtda 50 nəfər rekreanta xidmət edə biləcək bu sanatoriyada dincəlmək üçün üzgüçülük hovuzu tikilmişdir.

Salyan şəhəri ətrafında olan xlorid tərkibli soyuq mineral bulaqlar hidrogen-sulfid və karbohidrogen qazları ilə zəngindir. Salyan rayonu Babazənən palçıq vulkanı da müalicəvi əhəmiyyətlidir.

Naxçıvan MR-sı mineral ehtiyatlarına malik bölgədir. Naxçıvan MR ərazisində müalicəvi əhəmiyyətli Badamlı, Sirab, Vayxır və s. mineral su mənbələri də vardır. İstehsal olunan mineral sular həm respublika daxilində istehlak edilir, həm də xarici ölkələrə ixrac olunur.

Rayonda "Qızılvəng", "Əshabi-kəhf" mineral su yataqları da vardır ki, bunlar da müalicəvi əhəmiyyətə malikdir.

Muxtar Respublikanın əsas müalicəvi ehtiyatlarından biri də məşhur duz yataqlarıdır. Naxçıvan "Duzdağ" yatağı Naxçıvan şəhərindən 12 km şimal-qərbdə, Kəngərli rayonu ərazisində yerləşir. Bu dağ şəfaverici xüsusiyyətinə görə tanınmışdır.

Turşsu mineral bulağı Şuşa şəhərindən 17 km-lik məsafədə yerləşir.

Abşeron yarımadası Mərdəkan, Bilgəh, Zıığıılba, Buzovna, Suraxanı kurortlarını əhatə edir. Həmin ərazidə dəniz iqlimi ilə çoxsaylı yodlu-bromlu sular kimi müxtəlif mineral sularla müalicə aparılır. Suraxanı kükiirdlü suları, Masazır və Zığ lil palçıqları da müalicə üçiin istifadə olunur. Abşeronun palçıq vulkanları olduğu çoxdan məlumdur. Bu bölgənin palçığı müxtəlif xəstəliklərin (revmatizm, yel, dəri) müalicəsində işlədilmişdir.

Yuxarıda ədəbiyyatılardan, internet vasitəsilə aparılan təhlillərin nəticəsi kimi vətənimizin nə dərəcədə zəngin təbiətə malik olduğunun bir daha şahidi oluruq. Bütün bu qısa da olsa qeyd eedilənlər ona zəmin yaradır ki, qeyri-neft sektorunun inkişafında turizmin bir çox sahələri önəmli yer tutur. Bu sahələrdən biri də sağlamlaşdırma turizmidir. Bu baxımdan sağlamlaşdırma turizmi üzrə beynəlxalq marketinq mühitini təhlil etməklə aşağıda sadalananlar üzrə beynəlxalq bazara çıxış yollarını təhlillər apararaq göstərmək olar:

1. Sağlamlaşdırma turizmi üzrə müasir dövrdə xarici ticarət və onun xüsusiyyətləri
2. Sağlamlaşdırma turizmi üzrə xarici ticarət siyasətinin təhlili
3. Sağlamlaşdırma turizmi üzrə marketinq fəaliyyətinin daxili və xarici mühitinin təhlili
4. Hüququ mühitin təhlili
5. Sağlamlaşdırma turizmi üzrə Beynəlxalq marketinqdə iqtisadi mühitin təhlili
6. Sağlamlaşdırma turizmi üzrə siyasi mühitin təhlili
7. Sağlamlaşdırma turizmi üzrə beynəlxal marketinqdə mədəni mühitin təhlili
8. Sağlamlaşdırma turizmi üzrə beynəlxalq marketinqin məlumat texnoloji mühitin təhlili
9. Sağlamlaşdırma turizmi üzrə beynəlxalq marketinqdə strateji planlaşdırılmanın təhlili
10. Sağlamlaşdırma turizmi üzrə beynəlxalq marketinqdə qiymət rəqabətinin təhlili
11. Sağlamlaşdırma turizmi üzrə beynəlxalq marketinqdə pablik rileyşnz
12. Sağlamlaşdırma turizmi üzrə reklamın təşkli mexanizmi

Ədəbiyyat

1. http://azkurs.org/movzu-5-turizm-sferasnda-qebul-edilen-qanunlarn-esas-xususiyye.html
2. https://aitf.az/az-opennews/3816.41.html
3. http://interfax.az/view/717650/az
4. https://ebooks.azlibnet.az/book/22070218.pdf
5. http://www.e-qanun.az/framework/14919
6. Həbibə Soltanova. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Monoqrafiya. 2015. 476 səh

ÖLKƏMİZDƏ VƏ DÜNYADA ZEYTUN MƏHSULLARI BAZARININ ARAŞDIRILMASI

Aynur Məmmədova
Bakı Biznes Universiteti,
magistrant
E- mail: aynur.mammedova.96@inbox.ru

Summary: *The article discusses the olive products produced in Azerbaijan and their marketing. How useful the olive products are for the human body. The olive products produced are represented by Grand Agro LLCinvestigated.Grand-Agro LLC was established in 2017. The company is part of the Agricultural and Consumer Products Production Group of PMD Group LLC. The main purpose of the company is to grow agricultural products. At present, the company is engaged in the production of olive and almond products that meet the daily needs of the population by planting olive and almond orchards in the country. Grand Agro LLC is distinguished by its high quality products. The article examines the olive products produced by this enterprise and the demand for them, the current state of the olive markets. At the same time, the article explores ways to further expand the production of olive products in an intensive way and bring better products to world markets.*

Keywords*: olive, products, market, Grand Agro LLC,manufacture,export.*

Aparılmış araşdırılmalara əsasən, müəyyən olunmuşdur ki, zeytun bitkisindən alınan məhsullar insanların qida rasiyonun əsasını təmin edir və eyni zamanda zeytun bitkisinin tərkibində olan vitaminlər insanların sağlam qidalanması üçün cox vacib amil sayılır.Məhz buna görə də bir çox ölkələr zeytun bitikisinin geniş miqyasda əkilməsinə və ondan alınan məhsulların istehsalına, ixracına və idxalına xüsüsi önəm verillər. Zeytun bitkisi subtropik iqlim şəraitində yetişdirildiyinə görə onun ilk olaraq yetişdirildiyi ərazi Kiçik Asiya və Yunanıstan hesab olunur. İlk vaxtlar bu ərazilərdə becərilən bitkilər sonrakı dövrlərdə insanların diqqətini daha çox çəkərək digər ərazilərə Aralıq dənizi sahili ölkələrinə yayılmış və sonrakı mərhələlərdə isə Afrika materiki, Amerika materiki, Avstraliya materikinə aparılmışdır. Zeytun bitkisinin tarixi çox qədimdir. Keçmiş dövrlərdən bu günümüzə kimi gəlib çıxan mədəni bitkilərdən biri kimi zeytunun hazırki yayıldığı areal da çox genişdir.

Zeytun bitkisindən alınan məhsullar məişətdə geniş istifadə olunur.Hansı ki, bu məhsullardan kosmetoloji, dərman preparatları,qida maddəsi kimi istifadə olunur. Hal-hazırki dövürdə ən çox zeytun məhsulları istehsal edən ölkələrin siyahısı qeydə alınmışdır.İlk onluqda yer alan ölkələr aşağdakılardırİspaniya

1. İtaliya
2. Yunanıstan
3. Tunis
4. BƏƏ
5. Türkiyə
6. Mərakes
7. Portuqaliya
8. Əlcəzair
9. İordaniya

Zeytun məhsulları istehsal olunan bazarlara diqqət yetirsək görərik ki, sadalanan ölkələr bazarlara zeytun məhsulları çıxaran digər ölkələrlə rəqabətdə aparıcı yeri tuturlar.Hansı ki, bu ölkələrin aqroiqlim şəraiti əlverirki zeytun bitkisindən daha çox məhsul istehsal olunsun.

1. İspaniya - Aparılan araşdırmalara əsasən müəyyən olunmuşdur ki, İspaniya ölkəsi 1994 -2013-cü illərin statistik göstəricilərinə əsasən orta hesabla 1.169.194 ton zeytun yağı istehsal olunduğu qeydə alınmışdır. İstehsal olunan zeytun yağının yarıdan çox hisəsi təxminən 75%-i ölkənin Andalusiya bölgəsində istehsal olunur. Ölkənin digər əyalətləri ilə müqayisədə daha çox zeytun məhsulları istehsal edən hissəsi Kordoba və Xaen əyalətləridir.İstehsal olunan zeytun yağlarının müxtəlif növləri mövcuddur. Bura daxildir - Picsfuedo, Hujiobldfanca, Lmçsin Vmherdial və Pikyuual və.s aid etmək olar. Castilla- La Manch əyaləti isə ölkə daxilində istehsalının 14% - ni təşkil edir.Bu əyalət istehsal etdiyi məhsulların faizinə görə sadəcə Kordoba və Xaen əyalətlərindən geridə qalır.

2. İtaliya ölkəsi 1993 - 2014–cü illərdə istehsal olunan məhsulun göstəricilərinə görə ikinci yerdədir.Hansıki həmin illərdə ortalama göstəricilərinə əsasən 545.675 ton zeytun istehsal olunduğu qeydə alınmışdır.İtaliyada zeytun yağlarının istehsalı gətrilmə xammala əsasəalanmır. Hansı ki, ölkə daxilində yağların istehsalı yerli xammala əsaslanaraq istehsal olunur və bir sıra ölkələrə ixrac olunaraq dünya bazarlarına çıxarılır.İtaliya yağlarını daha çox Çin,Avstriya,Kanada və ABŞ kimi ölkələrə ixrac edir.

3. Yunanıstan –Yunanıstan 2013-cü ilin göstəricilərinə əsasən dünya bazarlarına çıxarılan zeytun məhsullarının 12%-ni təskil edirdi.FAOSTATIN apardığı araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, Yunanıstan ölkəsi 1993-2014-cü ilin statistik göstəricilərinə əsasən təxminən 334,515 ton zeytun yağı istehsal edərək zeytun istehsal edən ölkələr sırasında üçüncü yerdə qərarlaşmışdır.Yunanıstanda kənd təsərrüfatı üçün yararlı hesab olunan torpaqların yarıdan çoxu təqribən 60%-i zeytun bitkisinin becərilməsi üçün istifadə olunur. Ölkə daxilində bir sıra

bölgələrində zeytun məhsulları istehsal olunur. Bunların içərisində Pelepsonne bölgəsi xüsusi ilə secilir. Bu bölgə ölkə daxilində istehsal olunan məhsullara görə birinci yerdədir.Ölkədə zeytun məhsuları yerli xammala əsaslaraq müxtəlif növ mürəbbələr, turşular, yağlar, konsevrlər şəklində bazarlara çıxarılır. İdxalçı qismində çıxış edən olkələrə misal olaraq ABŞ,Cin,Yaponiya və.s göstərmək olar.Bu kimi ölkələrdə məhsullara tələbat olduqca yüksəkdir. Yunanıstanda istehsal olunan zeytun yağının demək olar ki, böyük bir qismi ixrac olunmaq üçün bazarlara çıxarılır, qalan hissəsi isə olkə daxilində əhalinin qida rasiyonnu təşkil edir.

Sadaladığımız ölkələr hansi ki, ilk onluqda qeydə alınanlar daha çox zeytun məhsulları istehsal ederək dünya bazarlarına çıxarıllar.Bazar alıcı və satıcının qarşılaşdığı məkandır. Alıcı və satıcılar isə onun subyektləridir.Bazarlarda hər kəs çalşır ki, öz mənafeyinə uyğun hərəkət etsin.Satıcı qismində çıxış edən ixracatçı ölkələr alıcı qismində çıxış edən idxalçı ölkələrə öz məhsullarını təqdim edirlər.Bazarlara çıxarılan zeytun bitkisindən alınan məhsulların tərkibi olduqca vitaminlərlə,zülallarla zəngindir.Məhz buna görədə bazarlarda daima alıcıların diqqət mərkəzində olur.Bir sıra xəstəliklərin şəfası hesab olunan zeytun bitkisindən alınan məhsullar insanlarda ürək xəstəliklərinin,metabolik sindirom,diabet,xərçəng və.s xəstəliklərə qarşı mübarizədə insanların həyatına təhlükə törədəcək xəstəliklərin müalicəsində əvəz edilməz rola malikdir.İnsanların sağlam qidalanması ücün bazarlarda zeytun məhsullarına olan tələbat günü gündən artır. Bu isə öz növbəsində, ixracatçı ölkələr qarşısında zeytun bitkisinin əkin sahələrini daha da genişləndirməyi tələb edir. Zeytun bitkisindən istehsal olunan məhsullara dərman preparatları, mürəbbələr,yağlar,kosmetik vasitələr turşular daxildir.Xəstəliklərin baş alıb getdiyi bir dövürdə müalicə üçün daha çox bitki tərkibli dərman prepartlarına üstünlük verilir.Hansı ki, bitkilərdən hazırlanan dərmanlar daha effektivli hesab olunur. Zeytun bitkisinin kosmetoloji əhəmiyyəti çox böyükdür. Zeytunun kosmetoloji bir vasitə kimi istifadə olunması qədimdən insanlara məlum idi. Qədim zamanlardan başlayaraq 2000-ci ilə qədər gəlib çıxmış Minoan mədəniyyətinə malik olan buranın yerli sakinləri zeytundan hazırlanmış məhlulların dərilərinə nə qədər yaxşı təsir etdiyini görürdülər.Artıq zaman keçdikcə zeytun bitkisindən hazırlalnan məhlulların yayılma arealı genişləndi. İnsanlar artıq zeytundan müxtəlif növ balizamlar, şampunlar,bədən gelləri, əl və üz kremləri hazırlanması üçün istifadə etməyə başladılar.Zeytundan alınan əl üçün nəmləndirici kremlərə olive, lalolin ,cistaya linya,amalfi kremlərini misal göstərmək olar.Hansı ki, bu kremlər dəridə olan məsələləri azaldır dəridəki quruluğu aradan qaldırır və bir sıra keyfiyyətləri alıcıların diqqətini daima cəlb etmışdir. Eyni zamanda ,zeytundan istehsal olunan şampunlarada bazarlarda tələbat çox böyükdür.Bu məhsullara Fitoton Olive,Argan Velise və.s aid etmək olar.Bu şampunlarında alıcılıq qabiliyyəti çox yüsəkdir.Hansi ki, bazarlara çıxarılan bu şampunlara bitki tərkibli olduğuna görə digər kimyəvi tərkibli şampunlardan fərqli olaraq daha çox tələbat olur.Çünki həmin şampunlar saçların tökülməsinin, saçda olan yağlanmanın və quruluğun aradan qaldırılmasına səbəb olur.Bu isə öz növbəsində hər bir alıcını qane edir. Zeytun bitkisindən alınan yağlara gəldikdə isə bu yağlar gündəlik olaraq insanların qida rasiyonun əsasını təşkil edir.Bu yağlardan müntəzəm olaraq yeməklərdə,salatlarda və eyni zamanda şirniyyat bişirən zaman istifadə olunur.Zeytun yağları müxtəlif qablaşdırılma formasında və fərqli adlarda bazarlara çıxarılır.Zeytun yağlarına misal olaraq Virgin, Extra virigin, Refinado, Rivera və.s misal göstərmək olar.Dünyada istehsalı 1.6-2.6 ton qiymətləndirilən zeytun yağı 3 əsas kateqoriyaya bölünür.

1. Təbii zeytun yağı – Əksərən salatlara vurulur ki bu yağın keyfiyyəti daha yüksək qiymətlındirilir.
2. Rafinə zeytun yağı - hansı ki,bu yağın turşululuq faizi azaldılmış və eyni zamanda dadının daha yaxşı olması üçün dad verici maddələr əlavə olunmuşdur.Yağın bu növündən daha çox hazırlanan yeməklərdə istifadə olunur. Bu yağın tərkibində 15-25 % təbii yağ əlavə edilərək Rivera adlı zeytun yağı əldə olunaraq bazarlara çıxarılır.Bu yağlar isə alıcıların tələblərinə uyğun olaraq daha çox qızardılmış yeməklərin hazırlanması zamanı əlavə olunur.
3. Zeytun yağının 95.8% triklesride adlanan yağlardan təskil olunmuşdur.Bunların təqribən 15%-i doymuş yağ turşularının olduğu qeydə alınmısdır.12%-i isə doymamış yağ turşuları təşkil edir.Yerdə qalanlar isə tək doymuş yağ turşularıdır.Eyni zamanda zeytun yağının tərkibini təşkil edən maddələr bununla bitmir.Bu yağın tərkibində 310 milliqram fenloeller və 160 milliqram fekforellerler var.Digər bazarlara çıxarılan yağlardan fərqli olarq zeytun yağının tərkibində olan olelim turşusunun miqdarı daha çoxdur.

Bilirik ki, insanlar bazarlara müraciət ederkən daha çox məhsulun keyfiyyətinə önəm verirlər.Hər bir alıcı çalışır ki, öz mənafeyinə uyğun daha az pul xərcləyərək daha keyfiyyətli məhsul əldə etsin.Zeytun məhsulları isthesal edən müəssələr isə müntəzəm olaraq bazarlarda araşdırma apararaq alıcıların istəklərinə uyğun məhsullar isthesal etməyə çalışırlar.Məhsullar istehsal edən müəsissələr araşdırma apararkən nəyə diqqət etməlidirlər.

1. Alıcıların zövqlərinə uyğun məhsullar istehsal edirlər hansı ki, bəzən alıcılar məhsul alarkən onun necə dizayn olunmasına hansı formada qablaşdırılmasına bir sözlə görüntüsünə önəm verirlər.
2. İstehsal olunan məhsullar alıcıların gəlirlərinə uyğun olaraq istehsal olunmalıdır.Belə ki, bazarlara çıxarılan zeytun məhsullarının qiyməti əgər alıcıların gəlirlərindən daha yüksək olarsa bu heç də yaxşı bir nəticə verməyəcəkdir.Nəticə olaraq bazarlara çıxarılan zeytun məhsullarının satış göstəriciləri daha aşağı olacaq.Bu isə öz növbəsində zeytun məhsulları istehsal edən müəssisələr ücün məhsulun satışından gəlir gətirməyəcəkdir.Buna görədə məhsulu istehsal edərkən ilk öncə əhalinin maddi rifahı və alıcılıq qabiliyyəti nəzərə alınmalıdır.

Grand Agro mmc müəssisəsi timsalinda ölkəmizdə zeytun məhsullari bazarinin araşdirilmasi

Hal-hazırda Azərbaycanda bir sıra müəssisələr mövcuddur ki,zeytun məhsulları istehsal edərək bazarlara çıxarırlar.Bu müəssisələr daim araşdırmacı qismində çıxış edərək yuxarıda qeyd etdiymiz amilləri nəzərə alaraq bazarlara məhsullarını çıxarmalıdırlar.Əks hallarda qeyd olunan amillər nəzərə alınmasa həmin müəssisələr istehsal etdiyi məhsul üçün çəkdiyi xərcləri ödəyə bilməyəcəkdir.Əksinə olaraq bu müəssisələr istehsal etdiyi məhsullardan gözlədikləri gəlirləri əldə edə bilməyəcəklər.Bu isə öz növbəsində get–gedə həmin müəssisələrin iflasına gətirib çıxaracaqdır.Nəticə olaraq isə bazarlarda zeytun məhsullarının istehsalı azalacaqdır.Məhz buna görə də zeytun məhsulları istehsal edən müəssisələr bu nəticələrlə qarşılaşmamaq üçün qeyd olunmuş amilləri nəzərə almalıdırlar.Zeytundan alınan məhsullar keyfiyyət baxımından çox yüksək qiymətləndirilsə də bazarlarda vəziyyət heç də ürək açan deyildir.Bu məhsullara tələbat nə qədər yuksək olsa da bazarlara çıxarılan məhsullar azdır.Ölkəmizdə bu məhsulları istehsal edən müəssisələr "Azərsun Holdinq", "3MS"MMC (Bağ sahəsi 831 hektar), "Kənan-S" MMC (bağ sahəsi 374 hektar), "Abşeron-Zeytun" MMC (təsisçi "Gilan" Holdinq, sahəsi 95 hektar), "Gilan" Zeytun emalı müəssisəsi (təsisçi "Gilan" Holdinq) və Grand Agro MMC şirkətləridir. Bu müəssisələr içərisində daha çox məhsul istehsal edən müəssisə "Azərsun Holdinq"-dir. Hətta bu müəssisənin özünün daxilində fəaliyyət göstərən zeytun yağı zavodu mövcuddur.Müəssisə daxilində hazırlanmış zeytun yağları iri qablara doldurularaq Bakı Yağ və Qida sənayesi zavoduna göndərilir.Bu zavodlarda həmin yağlar qablaşdırılaraq bazarlara çıxarılır.Ölkə daxiləndə fəaliyyət göstərən müəssisələr hər il zeytun yığımı kanpaniyası keçirdir.Bu yığıma əsasaən Bakının kəndlərindən Qala, Maştağa, Zığ, Bilgəh, Mərdəkan, Şüvəlan kəndlərindən qeyd olunmuş vaxta qədər əsasən isə payızın əvvəlinə qədər məhsullar gətirilir.Gətirilən xammallar zeytun məhsulları istehsal edən müəssisələrə göndərilərək müxtəlif növdə məhsullar istehsal olunur.Hansı ki, bu müəssisələrdə məhsullar müxtəlif formalarda yağlar, mürəbbələr, dərman preparatları, kosmetoloji məhsullar şəklində istehsal olunaraq bazarlara çıxarılır.Ölkədə müxtəlif adlarda zeytun məhsulları istehsal olunaraq süfrələrimizə verilir.Viera,Tamaşa,Rafina,Süzmə,Final və Zeytun bağları adlı zeytun yağları mövcuddur.Ölkə daxilində istehsal olunan zeytun məhsulları istehsalında " Grand Agro " MMC müəssisəsinin əvəzsiz rolu vardır.Hansı ki, 2017-ci ildən fəaliyyətə başlayan bu müəssisənin əsas məqsədi əhalini yüksək keyfiyyətli məhsullarla təmin etməkdir.Bu müəssisə Agro investments şirkətlər qrupuna aiddir.Şikətin direktoru Məcnun Məmmədov bu müəssisənin gələcək fəaliyyət istiqamətlərinə dair öz tövhəsində bildirmişdir ki, bizim gələcək planlarımızda əsas yeri Abşeron yarımadasında istixana sistemlərinin yaradılması, zeytun yağı zavodunun istehsalının tikintisinə başlanılması və eyni zamanda mövcud olan bağ ərazilərinin inkişaf etdirilməsi qarşımıza qoyduğumuz əsas məqsədlərimizdir.Şirkətin direktoru qeyd etmişdir ki, məhsullara olan tələbatı ödəmək üçün müəssisəmizin fəaliyyət sahəsini genişləndirərək daha çox məhsullar istehsal etmək lazımdır.

Nəticə

Apardığım araşdırmalar nəticəsində belə bir qənaətə gəldim ki, zeytun məhsulları keyfiyyət baxımından çox yüksək qiymətləndirilir.Bazarlarda bu məhsula tələbat olduqca yüksəkdir.Lakin hal-hazır ki,şəraitdə aqroiqlim göstəriciləri bu bitkinin əkilməsinə imkan versədə əkin sahələri olduqca azdır.Bu isə öz növbəsində yerli xammal əsasında istehsal olunan zeytun məhsularının istehsalının az olmasına gətirib çıxarır.Ölkədə məhsula olan tələbat isthesaldan daha çoxdur. Bazarlarda öz istehsal etdiymiz zeytun məhsullar ilə yanaşı xaricdən gətirilən məhsullar da çoxluq təşkil edir. Məhz buna görə də zeytun məhsulları istehsal edən müəssisələr misal olaraq " Grand Agro " MMC müəssisəsi öz fəaliyyət istiqamətlərini daha da genişləndirərək daha çox məhsul istehsal etməlidirlər.Mən təklif edərdim ki,zeytun bitkisinin əkilməsi və istehsalı ilə məşgul olan müəssisələr bunu intensiv yollarla həyata keçirsinlər.

Ədəbiyyat

1 Mais Qasımov Azərbaycanın ədviyyat bitkiləri Bakı Azərnəsr 1992 səh23-25

2 Şükürov C.Z. Az ərbaycanın meyv ə-t ərə v əz bitkil ərinin müalic əvi ə h əmiyy əti. Bakı, "Maarif" nəşriyyatı, 1990. 192 səh

3 www.kendteserrufati mehsullar.com

4 www.agriculture_2017

5 https://inolivia.com

6 https://internationalolivel.org

7 https://haciendaguzman.com

8 https://www.agro.gov.az

9 https://az.wikipedia.org/wiki/Zeytun

10http://www.ziraolives.com/az/products

11https://az.wikipedia.org/wiki/Zeytun

TURİZM MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNDƏ MARKETİNQ STRATEGİYALARININ ROLU

Ayxan Abdullayev
ATMU, magistrant
E-mail: ayxanabdullayev@mail.ru

Summary: *The article deals with strategic planning in tourism management, main directions of regional tourism planning and management, assessment of socio-economic role of tourism, application of strategic models in tourism management and assessment of tourism potential and its formation in budget relations, current state and prospects of tourism development in Azerbaijan. Important issues such as implementation and improvement of methods were clarified.*

Keywords: *marketing, tourism, market, services, competition.*

"Turizm sənayesində marketinq" fənninin öyrənilməsində məqsəd tələbələrin turizm bazarında marketinq nəzəriyyəsi və təcrübəsi sahəsində biliklərinin formalaşdırılmasıdır; onlar tərəfindən bacarıqların əldə edilməsi və müəssisənin marketinq proqramlarının özünü inkişaf etdirilməsi "Turizm sənayesində marketinq" fənninin məqsədi turizm xidmətləri bazarının təhlili və proqnozlaşdırılması metodlarını mənimsəmək, yeni turizm məhsullarını inkişaf etdirmək, bu məhsulları bazara təqdim etmək və marketinq qarışıq proqramı yaratmaqdır. Bu fənni öyrənmək nəticəsində tələbələr biləcəklər: turizmdə marketinq xüsusiyyətləri; marketinq fəaliyyətinin ardıcıllığı; marketinq tədqiqatlarının aparılması texnologiyası, əmtəə istehsalı və müəssisələrin marketinq strategiyası; Turizmdə marketinq anlayışı və marketinq menecmentinin xüsusiyyətləri. Bu fənni öyrənmə prosesində əldə olunan biliklərdən "İqtisadi nəzəriyyə" kursunun öyrənilməsində istifadə edilə bilər. Bu fənn "Reklam", "Turizm bazarının iqtisadiyyatı" kimi fənlər ilə sıx əlaqəlidir.

Əsas hissə

Turizm fəaliyyətinin intensivləşməsinə və rəqabət qabiliyyətinə töhfə verən real vasitə turistlərin xüsusi ehtiyaclarını ödəmək əsasında mənfəət əldə etmək məqsədi ilə turizm mal və xidmətlərinin planlaşdırılması, onların qiymətləri, satış və bazarın tanıdılmasına aid turizm marketinqidir.

Turizm xidmətləri bazarının formalaşması, milli turizm kompleksinin inkişaf etdirilməsi, turizm fəaliyyətinin ticarəti, marketinq prinsiplərinin turizm müəssisələrinin praktikasına tətbiq edilməsinə səbəb olmuşdur. Turizm sektorunda bazar münasibətlərinin inkişafının məntiqi turizm bazarının öyrənilməsi və seqmentləşdirilməsi, turizm xidmətlərinə effektiv tələbatın keyfiyyət və kəmiyyətlə qiymətləndirilməsi, turizm məhsullarının bazara yerləşdirilməsi, rabitə vasitələrinin istifadəsi və satışın təşviqi kimi problemlərin formalaşmasına və həllinə səbəb olur [1, s.264].

Turizmdə marketinqin effektiv inkişafı üçün aşağıdakı şərtlər vacibdir:

- sərbəst bazar münasibətləri, biznes tərəfdaşları seçmək, qiymət təyin etmək, kommersiya danışıqları aparmaq imkanı;
- şirkətin məqsədlərini, strategiyalarını, idarəetmə strukturlarını, büdcə maddələri altında vəsaitlərin bölgüsünü müəyyənləşdirmək üçün turizm şirkəti daxilində sərbəst fəaliyyət;
- bazarın səyahət xidmətləri ilə doyması, müştəri bazarının olması;
- turizm agentliklərinin şiddətli rəqabəti.

Bu şərtlər bütövlükdə turizm bazarı üçün xarakterikdir. Bununla yanaşı, fərdi bazar seqmentlərinin inkişaf səviyyəsində ciddi fərqlərin olduğunu qeyd etmək lazımdır. Bu gün bazarın xarici turizm xidmətləri ilə doyması barədə danışmaq qanunidir [2, s.667].

Mövcud vəziyyətin təhlili əsasında turizm müəssisələri fəaliyyətlərini yenidən istiqamətləndirmək və yeni bazar seqmentlərini seçmək zərurəti barədə qərara gələcəklər. Müəyyən şərtlərdə milli turizm belə seqmentlərdən biri olmalıdır. Yeni təkliflər tələbə səbəb olur. Marketinq nəzəriyyəsi və təcrübəsində tələbin yenidən yönəldilməsi, müəssisələrin fəaliyyətinin dəyişən bazar şəraitinə uyğunlaşdırılması üçün xüsusi vasitələr hazırlanmışdır. Turizm çoxluğunun inkişaf etdirilməsinə ehtiyac olduğuna görə marketinq konsepsiyası həlledici rol oynayacaqdır. Marketinq turizm şirkətlərinə öz konsepsiyasını və texnologiyasını praktikada tətbiq edərək bazarda yaşamağa imkan verəcəkdir.

Turizm marketinqinin əsas məqsədi istehlakçıların müəyyən bir seqmentinin tələbini ödəməyə və xidmətin ən təsirli forma və metodlarını təmin etməyə yönəlmiş xidmətlərin göstərilməsini təşkil etməkdir.

Turizm sektorundakı müəssisə və təşkilatların fəaliyyətlərinin son hədəfləri fərqli ola bilər: mümkün qədər çox turist bölgəyə cəlb etmək, bazar payı qazanmaq, qazancı artırmaq və s. Lakin bazar şəraitində bu hədəflərə çatmaq müasir biznesin fəlsəfəsi kimi xidmət edən marketinqin metod və üstünlüklərini bilmədən mümkün deyil [3, s.372].

Müxtəlif fəaliyyət istiqamətlərinə uyğun olaraq turizmdə marketinq istifadəsinin aşağıdakı səviyyələri fərqləndirilir:

- turizm sahəsində sahibkarlıq fəaliyyətinin əsas bağlantısı olan turizm müəssisələrinin marketinqi;
- Məqsəd, xüsusi istehlakçıların ehtiyaclarını ödəməyə yönəlmiş və xidmətin ən təsirli forma və metodlarını təmin edən xidmətlərin göstərilməsini təşkil etmək olan turizm xidmətləri istehsalçılarının marketinqi;

- ərazilərin və bölgələrin marketinqi - turizm üçün cəlbedici bir ölkənin və ya bölgənin imicini yaratmaq və saxlamaq məqsədi ilə həyata keçirilən tədbirlər. Turizm sahəsində tənzimləmə və əlaqələndirici orqanlar bələdiyyə, regional və milli səviyyədə bu cür fəaliyyətlərə cəlb olunur [4, s.494].

Bu və ya digər dərəcədə bütün turizm müəssisələri marketinqlə məşğuldurlar, lakin bu sahədə marketinq konsepsiyasının həyata keçirilməsində əsas əlaqə turistlərə beynəlxalq və daxili nəqliyyatla, lazımi xidmətlər paketi ilə yanaşı digər vasitəçi əməliyyatları həyata keçirən turizm agentlikləridir.

Turizm marketinqinin əsas məqsədi istehlakçı üçün əlverişli bir məkanda və vaxtda xidmətlər göstərməkdir. Xidmət, keyfiyyətli xidmət sayəsində əlavə xidmətlər, ofislər yaratmaq, iş qrafikini dəyişdirməklə xidmətləri müəyyən bir istehlakçının ehtiyaclarına maksimum dərəcədə yaxınlaşdırmalıdır.

Qeyd olunan vəzifələr turizm sahəsində marketinq fəaliyyətinin əsas funksiyalarını və növlərini müəyyənləşdirir. Turizm marketinqinin əsas funksiyaları bunlardır:

1. Müştərilərlə əlaqələrin qurulması, təklif olunan turistik məkanların və orada mövcud xidmətin, attraksionların və digər üstünlüklərin müştərilərin seçim və istəklərinə tam uyğun olduğuna inandırmaq.

2. Potensial müştərilərin ehtiyac və üstünlüklərinə cavab verməli olan turizm məhsulları üçün yeni marketinq imkanları təmin etmək üçün təkliflərin hazırlanması.

3. Turizm məhsullarını və ya xidmətlərini bazarda tanıtdırmaq üçün fəaliyyətlərin nəticələrinin nəzarət-təhlili və onların turizm sahəsində mövcud imkanlara uyğunluğunun yoxlanılması, marketinq və reklam xərclərinin və gəlirlərinin təhlili [5, s.787].

Bu funksiyaların həyata keçirilməsi aşağıdakı işləri əhatə edir:

- ❖ bazar araşdırması və müştəri ehtiyaclarının təhlili;
- ❖ turizm agentliklərinin marketinq mühitinin təhlili və onun amillərindəki dəyişikliklərə uyğunlaşmanın öyrənilməsi;
- ❖ marketinq tədqiqatları və turizm bazarının seqmentləşdirilməsi;
- ❖ seçilmiş seqmentə uyğun turizm məhsullarının inkişafı;
- ❖ məhsulun xarakterini və ona tələbi əks etdirən optimal qiymətin müəyyən edilməsi;
- ❖ məhsulların marketinq üsulları və üsullarının seçimi;
- ❖ rabitə siyasətinin həyata keçirilməsi.
- ❖ turizm agentlikləri üçün strategiya və marketinq planlarının hazırlanması.

Turizmdə marketinqin əsas prinsipləri bunlardır:

- ❖ səyahət xidmətləri istehsalının müştərilərin maraq və ehtiyaclarının prioritetindən asılılığı;
- ❖ bazar təhlili və turizm xidmətlərinin uzun müddət nəzərə alınmaqla istehlakçıların tələblərinə maksimum uyğunlaşdırılması;
- ❖ marketinqdə müvafiq vasitələrdən istifadə etməklə bazara, istehlakçı tələbinə təsir [6, s.560].

Bu turizm prinsiplərinin milli turizm kompleksinin inkişafı praktikasında tətbiqi kifayət qədər əsaslı görünür.

Marketinqdən istifadə ehtiyacı turizm xidmətləri bazarında rəqabətin yaranması ilə ortaya çıxdı, bu halda xidmətlərin göstərilməsi real müştəri ehtiyaclarından irəli gəlir.

Nəticə

Araşdırmalarımıza əsasən, belə bir nəticəyə gələ bilərik ki, ölkədə turizmin inkişafına nail olmaq üçün istiqamətlərdən biri regional marketinqin inkişafıdır. Bu da öz növbəsində bölgələrdə düzgün marketinq strategiyasının formalaşmasından və bölgələrin daxili və xarici bazarlarda cəlbedici yer kimi mövqeyindən asılıdır.

Regionların marketinq strategiyasını tərtib edərkən aşağıdakı təklifləri nəzərə almaq məqsədəuyğundur:

– bölgələrdə rəqabətin xüsusiyyətlərini vurğulamaq lazımdır ki, bu da onların qiymətləndirilməsini asanlaşdırır;

– Turizmin hüquqi əsaslandırılmasını həyata keçirmək üçün bölgələrdə turizm şöbələrinin yaradılması məsləhət görülür. Bölmələr bölgənin xüsusiyyətlərini nəzərə alaraq regional proqramlar hazırlayacaq və həyata keçirəcək;

– regional turizmin informasiya və metodiki təminatının yaxşılaşdırılması. Bunun üçün bölgənin tarixi, istirahət və müalicə sahələri haqqında broşuralar və broşuralar hazırlamaq, regional turizm saytları yaratmaq lazımdır;

– bölgələrdə turizm infrastrukturunun inkişafı. Bunun üçün müxtəlif növ və ulduzlu otellər inşa etmək, iaşə obyektlərinin sayını artırmaq, nəqliyyat əlaqələrini yaxşılaşdırmaq lazımdır;

– əraziləri turizm məkanı kimi yerləşdirmək və bunun üçün bölgələrdə müxtəlif tədbirlər, sərgilər, festivallar, müsabiqələr keçirmək üçün ərazi markalarının yaradılması;

– Kadr məsələlərini həll etmək üçün bölgələrdə qısa və orta müddətli kurslar və təlimlər keçirmək məsləhət görülür. Bu kurslarda yerli kadrların hazırlanması bölgələrin sosial problemlərinin həlli deməkdir;

– regional turizm markalarını qurarkən Anholt modelindən istifadə etmək tövsiyə olunur;

–Turizm məhsullarının rəqabət qabiliyyətini artırmaq üçün turizm müəssisələri müştəriləri üçün bütün turizm seqmentlərinin ehtiyaclarını ödəməyə yönəldilmiş müxtəlif səyahət paketləri hazırlamalıdırlar;

Ədəbiyyat

1. İmanov T.İ., Quliyev E.N. "Marketinqin əsasları". Bakı, "Təhsil", 2003, 264 s
2. Məmmədov A.T., "Marketinq". Dərslik, Bakı, 2014, 667 s
3. Əhmədov M.M. "Xidmət sahələrinin marketinqi". Dərs vəsaiti. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2015, 372 s
4. Əlirzayev Ə.Q. "Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı, İqtisad Universiteti, 2011, 494 s
5. Kotler F., Bowen, J., Makenz, J. "Marketinq. Qonaqpərvərlik və turizm": universitetlər üçün bir dərslik / trans. ingilis dilindən; UNITY, 1998 .- 787 s.
6. Bogaldin-Malykh "Turizm və sosial-mədəni xidmətlər sahəsində marketinq və menecment: turizm, otel-restoran və əyləncə kompleksləri": dərslik. müavinət. - Voronej: NPO "MODEK" nəşriyyatı, 2004. - 560 s.

TURİZMİN İNKİŞAFINDA MARKETİNQİN ROLU VƏ YERİ

Bəhruz İsgəndərov
Azerbaycan Turizm və Menecment Universiteti
magistrant
E-mail: b.isgandarov@atmu.edu.az

Summary: *This article discusses the basic basics and peculiarities of marketing strategies in the field of tourism. The author analyzed the relevance of the study, which consists in a study of the methodology of tourism marketing during the development of the tourism services market, the peculiarities of which at the moment are dynamic changes in tourism supply and demand. The tourism industry in many leading countries of the world is becoming the leader in the degree of multiplier influence on the economy of the country. The development of tourism in the world increases competitiveness. A tourism product is formed by many businesses that have their own goals and goals to promote their product while using different marketing strategies. Based on research in the tourism industry, priority features of marketing strategies application in this sphere are summarized.*

Key words: *tourism, marketing, tourism product, marketing strategies.*

Marketinq məhsul və xidmətləri istehsalçıdan istehlakçıya tanıtdırma fəaliyyətidir. Malların və xidmətlərin istehsalçıdan istehlakçıya və ya istifadəçiyə yönəldilməsi prosesi kimi marketinqin bir çox tərifi var. Marketinq satış və reklamdan daha geniş bir anlayışdır. Satış və reklam fəaliyyəti marketinqin yalnız bir tərəfidir. Marketinq, məhsul istehsalından tutmuş, bazarda satışa və satışdan sonrakı xidmətlərə qədər bütün mərhələlərdən keçən, hədəflənmiş, strateji və idarə olunan bir fəaliyyətdir. Marketinq məhsul və xidmətləri istehsalçıdan istehlakçıya köçürmənin tam bir prosesidir. Hər hansı bir təşkilatda marketinq, müəyyən bir qrup insanların ehtiyaclarını ödəmək üçün qoyulmuş məqsədə uyğun mal və xidmətlərin istehsalı və satışı ilə əlaqədar qərarların planlaşdırılmasında, həyata keçirilməsində və ona nəzarət olunmasında əsas idarəedici fəaliyyətdir. Marketinq sosial həyatın standartıdır. Öz mənfəətini qazanmaq üçün marketinq, qeyri-kommersiya təhsil müəssisələri, kurortlar və ya turist mal və xidmətləri istehsalçılarında, bütün təşkilatların fəaliyyətində mühüm rol oynayır. Marketinqin mahiyyəti doğru zamanda və lazımi yerdə lazımi məhsulu və ya xidməti lazımi qiymətlə təmin etməkdir.

Marketinq fəaliyyətlərinə bazarın təhlili, məhsulun planlaşdırılması və inkişafı, qiymət, məhsulun paylanması metodları, satışın təşviqi və mal və xidmətlərin təşviqi daxildir. Marketinq fəaliyyətinə ehtiyac aşağıdakılarla müəyyən edilir:

– təşkilatlar arasında sərbəst rəqabətin yaranması;
– alıcıların müxtəlif istehsalçılardan oxşar mal və xidmətlər seçim etmək imkan;
– digər mövcud mal və xidmətlər barədə istehlakçıların məlumatlı olması;
– təşkilatın məqsədlərinin ölçülə bilən, qiymətləndirilə bilən olması.

Marketinq fəaliyyəti aşağıdakılara yönəldilmişdir:

1) Potensial alıcı qruplarının sonradan müəyyənləşdirilməsi ilə marketinq təhlili və planlaşdırılması;
2) malların istehsalı və ya bu hədəf qruplar üçün müvafiq xidmətlərin göstərilməsi;
3) bazarda ən əlverişli mövqe əldə etmək üçün təşkilatın məlumatlandırılması;
4) əvvəlcədən təyin edilmiş məqsədlərə uyğun iş aparmaq üçün nəzarət metodlarının müəyyənləşdirilməsi.

Beləliklə, marketinq şirkətin strateji fəlsəfəsidir ki, hansı mal və xidmətlər hansı qrup istehlakçı üçün istehsal olunmalıdır. Marketinq məqsədləri müəyyənləşdirir və nailiyyətlərini qiymətləndirir, bununla da müəssisənin fəaliyyətini əlaqələndirir. Marketinq, səmərəli fəaliyyətini təmin etmək üçün məqsədlər qoymaq və nəzarət etməklə təşkilat daxilində nizam-intizamı təmin edir. Marketinq menecmentinin ən vacib vəzifəsi müəssisənin bir və ya bir neçə hədəf bazarında tələbin səviyyəsinə, vaxtına və xarakterinə təsir göstərməkdir. Ən effektiv tələb idarəetməsi, təşkilatın isthelakçıya texnologiyalardan və marketinq vasitələrindən sistemli istifadəsinə diqqət etməsini tələb edir.

Turizmdə marketinq, turizm mal və xidmətlərinin planlaşdırılması və inkişafı, malların və xidmətlərin təşviqi, onlara tələb və qiymətlərin stimullaşdırılması fəaliyyətidir. Bu fəaliyyət, hədəf turistlər qrupunun ehtiyaclarını

ən səmərəli şəkildə qarşılamaqla qazancları artırmaq üçün istehsalçıdan istehlakçıya mal və ya xidmət təqdimatına kömək edir. Turizmdə marketinqin spesifik xüsusiyyəti turizm məhsulunun xüsusiyyətləri (digər istehlak mal və xidmətləri ilə müqayisədə), habelə turist mal və xidmətlərinin istehlakçıları və istehsalçılarının xüsusiyyətləri ilə müəyyən edilir.

Turist məhsulu, səyahət zamanı yaranan turist ehtiyaclarını ödəmək üçün zəruri olan maddi (fiziki mallar) və qeyri-maddi (xidmətlər şəklində) istehlak dəyərlərinin məcmusudur. Turizm məhsulu üç hissədən ibarətdir: tur (müəyyən bir marşrut boyunca turist səfəri); turist və ekskursiya xidmətləri (yerləşmə, yemək, nəqliyyat, ekskursiya proqramları və səyahət məqsədi ilə əlaqəli digər xidmətlər) və mallar - istehlak malları.

Səyahət xidmətləri 7 fərqli xüsusiyyətə malikdir:

1. Anbarda saxlaya bilməmək. Hazırda oteldə və ya təyyarədəki mövcud boş yerlər üçün tələb olmadıqda, gələcəkdə satış məqsədi ilə saxlanıla bilməz. Buna görə menecerlər bu qısa müddətli dövrdə bu xidmət növlərinə tələbi stimullaşdırmaq üçün səy göstərməlidirlər.
2. Qeyri-maddi xidmətlər. Turizm məhsulunu qiymətləndirmək üçün ölçülmüş miqdar yoxdur: məhsul almaq və istehlak etməzdən əvvəl onun keyfiyyəti haqqında təsəvvür etmək mümkün deyildir. Bu baxımdan şirkətin bazardakı imici və mallarının (xidmətlərinin) nüfuzu alış-veriş zamanı istehlakçılar üçün xüsusi əhəmiyyət kəsb edir.
3. Mövsümi dəyişkənliklər. Mövsümdənkənar dövrdə tələbi stimullaşdırmaq üçün əlavə tədbirlər görmək lazımdır: aşağı qiymətlər, müxtəlif turizm növləri və s.
4. Əhəmiyyətli əlaqələrin qurulması (düşərgə yeri, hava limanı).
